# NUR TƏFSİRİ

**DÖRDÜNCÜ CİLD**

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحیم


نام کتاب:..................................................تفسیر نور (جلد-4)
مولف:.............................................................محسن قرائتی
مترجم:................................................................حاج آرزو
ناشر:...........................................................................فائز.
تاریخ چاپ:...............................................................1385
نوبت چاپ:...............................................................اول
تیراژ:..........................................................................2000

**Kitabın adı:.....................................Nur təfsiri (dördüncü cild)**
**Müəllif:................................................................Möhsün Qəraəti**
**Tərcümə edən:....................................................................H. Arzu**
**Nəşr edən:..........................................................................................Faiz**
**Çap tarixi:........................................................................................2006**
**Çap növbəsi:..........................................................................Birinci**
**Tiraj:..................................................................................................2000**

Əziz və diqqətli oxucu! Qur`an təfsiri tərcüməsinin nə dərəcədə əhəmiyyətli və incə iş olduğunu anlasaq da, nöqsanlardan qaça bilmədik. “Həyy” və “qəyyum” kimi yüzlərcə mirvari tə`birini bəsit şəkildə tərcümə etmək zorunda qaldıq. Gələcəkdə bu ilahi işdə yardımçı olacağınızı düşünürük. Bizə ünvanlayacağınız qeydlər növbəti nəşrlərdə nəzərə alınacaq.

*Dua istəyi ilə tərcüməçi.*

**RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ**
**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *Ön söz*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## *Həmkarlar*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## *İmtiyazlar*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmili üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

Möhsün Qəraəti

## *Ayətullah hacı Seyyid Mehdi Ruhanidən bir neçə xoş söz*

Rəhman və Rəhim Allahın adı ilə

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda “Biz Quranı öyüd üçün asan etdik” buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: “Onlara xatırladılanların bir hissəsini unutdular...”[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: “Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər.”[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir “bəyani” bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini şəxsi, çox vaxt isə yanlış əqidəsinin sübutu üçün əsas gətirir.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;

[1] “Maidə” 13.

[2] “Sad” 29.

5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında “Səqəleyn”dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Uyğun təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Uyğun şərhlərdə müəllifin “BİLDİRİŞLƏR” adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) “Səhifeye-səccadiyyə” kitabında Quranın xətm duasında buyurur: “Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil.”

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

09 Rəbius-sani, 1414
Mehdi Hüseyni Ruhani

## *Müəllifdən*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə "Nur təfsirini" diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və "Təfsiri-rahnüma", "Nüxbətut-təfsir" kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

Möhsün Qəraəti

# “ƏRAF” SURƏSİ

## (7-ci surə, 206 ayə)

### Səkkiz, doqquzuncu cüzlər

***“ƏRAF” SURƏSİNİN SİMASI***

206 ayəsi olan bu surə Məkkə surələrindəndir. Surədə Əraf səhabələri və Əraf əhvalatı (ayə 46-48) haqqında danışıldığından, o, “Əraf” adlandırılmışdır.

Bu surə müqəttəə hərfləri ilə başlayan üçüncü surədir. “Əraf”, Quranın ilk səcdəli surəsidir. Surənin son ayəsində müstəhəb səcdə vardır.

Quranın 114 surəsindən 86-sı Məkkədə nazil olmuşdur. Bu surələrdə, adətən, əqidə əsaslarından, şirklə mübarizədən, insanın məqamına diqqət və bu kimi başqa məsələlərdən danışılır.

Hazırkı surədə yuxarıda sadalanan mövzulardan əlavə, Adəmin İblislə əhvalatı, Həzrət Nuh, Hud, Saleh, Lut, Şüeyb, Musanın əhvalatı, İslam peyğəmbərinin dəvət üsulu, qiyamətdə baş verənlər, insanın tövbə və islahı, ərş, mizan, «zərr» aləmi mövzuları, Allahın insanla peymanı, Quranın bəyanı və əzəməti, Əraf və Əraf əshabı mövzuları bəyan olunmuşdur.

**بسم الله الرحمن الرحيم**

*(AYƏ: 1)*

﴿ المص ﴾

**“Əlif, lam, mim, sad” (müqəttəə-rəmzli hərflər)**

*(AYƏ: 2)*

﴿ كِتَابٌ أُنزِلَ إِلَيْكَ فَلاَ يَكُن فِي صَدْرِكَ حَرَجٌ مِّنْهُ لِتُنذِرَ بِهِ وَذِكْرَى لِلْمُؤْمِنِينَ ﴾

**“(Bu) bir kitabdır ki, sənə nazil olmuşdur. Ona görə sinəndə (qəlbində) bir sıxıntı (şəkk-şübhə) olmasın. (Nazil olmuşdur ki,) Onun vasitəsi ilə qorxudasan və möminlər üçün xəbərdarlıq və öyüd olsun.”**

***NÖQTƏLƏR***

◘Müqəttəə hərfləri ilə başlamış 29 surədən bəzilərində “əlif, lam, mim”, bəzilərində “sad” hərfləri öndə gəlir. Bu surənin “əlif, lam, mim, sad”-la başlaması bütün o biri surələrdə olanların bu surədə də mövcudluğuna işarə ola bilər.[1]

***BİLDİRİŞLƏR***

1. Quran yetərincə böyük kitabdır (“kitab” sözü “nəkərə”– qeyri-müəyyən formada işlədilmişdir).

2. Quran və onu məfhumlarına diqqət sinənin (köksün, qəlbin) genişlənməsi səbəbidir.

3. Köksün genişlənməsi risalət və təbliğ şərtidir.

4. Kafirlərin inadkarlığına görə nigaran olma. Sənin vəzifən məcbur etmək yox, qorxutmaqdır. Quran nazil olduqdan sonra İslam peyğəmbəri narahat olurdu ki, xalq onu qəbul etməyib, Qurana qarşı çıxa. Allah-təala bu ayə ilə Peyğəmbərə (s) təsəlli verir.

5. Peyğəmbərlərin xəbərdarlıqları hamıya aid olsa da, yalnız möminlər bundan faydalanır və nəticə çıxarırdılar.

*(AYƏ: 3)*

﴿ اتَّبِعُواْ مَا أُنزِلَ إِلَيْكُم مِّن رَّبِّكُمْ وَلاَ تَتَّبِعُواْ مِن دُونِهِ أَوْلِيَاء قَلِيلاً مَّا تَذَكَّرُونَ ﴾

**“Yalnız Rəbbimiz tərəfindən sizə nazil olana tabe olun və Ondan qeyri qəyyum–övliyaların ardınca getməyin. Nə az öyüd götürürsünüz!”**

***NÖQTƏLƏR***

◘Ötən ayə Peyğəmbərin (s) qorxutma və xatırlatma istiqamətində vəzifələrini bəyan etdi. Bu ayədə isə itaət və bəndəlik sahəsində ümmətin vəzifələri açıqlanır. Əvvəlki ayədə Peyğəmbərdən geniş köks (qəlb)

---

[1] “Təfsire-Əl-mizan”.

istənilirdisə, bu ayədə ümmətdən itaət tələb olunur. Ötən ayədə “sənə nazil olub”, hazırkı ayədə “sizə nazil olub” deyilir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Nə vaxt fitnələr sizi zülmət gecə parçaları tək bürüsə, Qurana sarılın. Quranı imam (rəhbər) seçən behiştə, ona arxa çevirən cəhənnəmə yönələr.”[1] Həzrət Əli (ə) buyurmuşdur: “Qurana tabeçilikdə böyük qurtuluş, ona arxa çevrilməsində aşkar xəta və azğınlıq var.”[2]

### *BİLDİRİŞLƏR*

1. İlahi ayələrə tabeçilik bəşəriyyətin inkişaf və tərbiyə səbəbidir.
2. Göstərişlərin, xatırlatmaların nazil olması ilahi rübubiyyət və tərbiyə şərtidir.
3. İnsan vəhyə tabeçilik nəticəsində Allahın, vəhyə arxa çevirmək nəticəsində başqalarının hakimiyyəti, vilayəti altına düşür.
4. Başqalarına itaət və ardıcıllıq əslində onların vilayətini, hakimiyyətini qəbul etməkdir.
5. Bir Allahın vilayətini qəbul etməyən insan neçə-neçə başqa “vəliyy”, hakimi razı salmalıdır.
6. İnsan az öyüd-nəsihət qəbul edir.

### *(AYƏ: 4)*

﴿ وَكَم مِّن قَرْيَةٍ أَهْلَكْنَاهَا فَجَاءهَا بَأْسُنَا بَيَاتًا أَوْ هُمْ قَآئِلُونَ ﴾

**“Nə çox əhlini (fəsad və küfrlərinə) xatir məhv etdiyimiz abadlıqlar! Qəhr-qəzəbimiz gecə, ya gündüz ikən, istirahətə məşğul olduqları vaxt onların sorağına gəldi.”**

### *(AYƏ: 5)*

﴿ فَمَا كَانَ دَعْوَاهُمْ إِذْ جَاءهُمْ بَأْسُنَا إِلاَّ أَن قَالُواْ إِنَّا كُنَّا ظَالِمِينَ ﴾

**“Qəhr-qəzəbimiz onların sorağına gələn vaxt danışıb etiraz etmədilər, yalnız “biz, şübhəsiz, sitəmkarlardan idik” dedilər.”**

### *NÖQTƏLƏR*

◘“Qəryə” bu ayədə “kənd yox, xalqın cəm olduğu mərkəz mənasında işlədilmişdir. Bu mərkəz həm şəhər, həm də kənd ola bilər.

◘“Bəyat” dedikdə “gecə”, “qailun” dedikdə günorta yuxusu və ya istirahəti nəzərdə tutulur. Həmin kökdən olan “اقاله” «iqalə» satılmış malın geri alınması mənasını daşıyır. Çünki həmin vaxt alıcı müamilənin yaratdığı narahatlıqdan qurtulur.

◘Bütün sitəmkarlar Allahın qəhr-qəzəbi ilə üzləşdikdə öz səhvlərini etiraf edirlər. Amma bu etirafların heç bir faydası olmur. Digər bir ayədə

---

[1] “Təfsire-isna-əşəri”.
[2] “Təfsire-Nurus-səqəleyn”.

oxuyuruq: “Əzabımızı gördükdə dedilər: “Yeganə Allaha iman gətirdik...” Amma əzab məqamında iman gətirməyin onlar üçün bir faydası olmadı.”[1]

## *BİLDİRİŞLƏR*

1. Allahın qəhr-qəzəbinə gəlib, məhv olan məntəqələr çoxdur.
2. Başqalarının acı təcrübələrindən ibrət götürək.
3. Quran xalqın məhvi əvəzində məntəqələrin məhvini bəyan etməklə göndərilən əzabın böyüklüyünü nəzərə çatdırır.
4. İlahi cəzalar təkcə axirətə aid deyil. Həmin əzabın nümunələrini dünyada da görə bilərik.
5. Allahdan qeyrisini övliya, rəhbər seçən kəs ilahi qəhr-qəzəb intizarında olsun.
6. Ümmətlərin itaətsizlik və başqalarına tabeçilik səbəbindən məhvi ilahi sünnə və qanunlardandır.
7. Allahın iradəsi hər şeyi viran qoya bilər.
8. İlahi qəhr-qəzəb bəzən qəfil olur və insanın çıxış yolu tapmaq üçün macalı qalmır.
9. İstirahət zamanı nazil olan əzab qəfil və acı olur.
10. Rifah, asayiş zamanı sinəsinə döyüb şüar verən çox olur, təhlükə yarananda isə kimsənin danışmağa sözü olmur.
11. Hadisələr və təhlükələr insanın qürurunu sındırır, qəflət pərdələri kənara çəkilir, vicdanlar oyanır.
12. Əgər bu gün könüllü olaraq haqqa əyilməsəniz, bir gün buna məcbur olacaqsınız.
13. Allahdan qeyrilərinə üz tutmaq və peyğəmbərlərə itaətsizlik göstərmək (ötən iki ayədə bəyan olundu) zülmdür.

### *(AYƏ: 6)*

﴿ فَلَنَسْأَلَنَّ الَّذِينَ أُرْسِلَ إِلَيْهِمْ وَلَنَسْأَلَنَّ الْمُرْسَلِينَ ﴾

**“Beləliklə, Biz həqiqətən, onlara tərəf peyğəmbərlər göndərdiyimiz xalqdan sorğu-sual edəcəyik və həqiqətən və həqiqətən peyğəmbərlərdən də soruşacağıq.”**

### *(AYƏ: 7)*

﴿ فَلَنَقُصَّنَّ عَلَيْهِم بِعِلْمٍ وَمَا كُنَّا غَائِبِينَ ﴾

**“Şəksiz, (bütün etdiklərini) onlara elm ilə təkrarlayacağıq. Biz (xalqdan) qeybdə və xəbərsiz deyildik.”**

[1] “Muminun”, 84, 85.

## *NÖQTƏLƏR*

◘Ötən ayədə dünyəvi cəza bəyan olundu. Hazırkı ayədə isə qiyamət sorğusunun labüdlüyü təkid olunmaqla, Axirət hesabından danışılır. Qeyd olunur ki, sorğu-sual təkcə xalqa yox, peyğəmbərlərə də aiddir.[1]

◘***Sual :*** Qiyamətdə nə barədə soruşular?

***Cavab:*** Mühüm suallara nəzər salaq:

a) Nemətlər haqqında[2]–Çoxsaylı rəvayətlərdə rəhbərlik və vilayət ayədə soruşulan nemət nümunələrindən sayılmışdır.[3]

b) Quran və Əhli-beyt (ə) haqqında – Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Xalqdan soruşular ki, mənim Quran və Əhli-beytimlə (ə) necə rəftar etdiniz?”[4]

v) Rəftar haqqında. [5]

q) Bədən üzvlərindən sorğu.[6]

d) Peyğəmbərlərin qəbul və rədd edilməsi haqqında[7] – Digər bir ayədə də din rəhbərlərindən xalqın onlarla rəftarı haqqında soruşulduğu bildirilir.[8]

e) Ömür və gəncliyin necə ötüşməsi haqqında.

ə) Gəlirlər, qazanclar haqqında–Rəvayətdə oxuyuruq: “Qiyamət günü insandan dörd şey haqqında xüsusi soruşular: ömür və gəncliyin necə keçməsi barədə, var-dövlətin necə qazanılıb, hansı yolda xərclənməsi barədə...”[9]

***Sual:*** Bu ayələrdə bəyan olunur ki, insanlar birbəbir sorğuya çəkiləsidir. Amma bəzi ayələrdə, o cümlədən, “Ər-rəhman” surəsinin 39-cu ayəsində bildirilir ki, həmin gün heç bir insan və cindən günahları barədə soruşulmaz. Burada ziddiyyət yoxdurmu?

***Cavab:*** Qiyamətin dayanacaqları çoxdur. Hər dayanacağın xüsusi səhnəsi var. Bir dayanacaqda dodaqlar möhürlənər və kimsə danışa bilməz. Başqa bir dayanacaqda möhürlər qoparılar və hamı nalə çəkib peşmançılığını bildirər, yardım diləyər. Demək, bir dayanacaqda sükut hakimdir, o biri dayanacaqda hamı sorğuya çəkilir.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Siz hamınız əliniz altında olanlar üçün məsuliyyət daşıyırsınız: imam xalq üçün, ər arvad üçün, arvad ər evində rəftar üçün, qul öz ağasının var-dövləti üçün.” O cümlədən, buyurur: “Allah məndən soruşar ki, risalətimi yerinə yetirdin, yoxsa yox?[10]

---

[1] Bax: “Maidə”, 109.
[2] Bax: “Təkasur”, 8.
[3] “Vəsail”, c. 24, s. 299.
[4] “Təfsire-Fürqan”.
[5] Bax: “Hicr”, 92, 93.
[6] Bax: “Isra”, 36.
[7] Bax: “Ənam” 130.
[8] Bax: “Maidə”, 109.
[9] “Kafi”, c. 2, s.135; “Bihar”, c. 7, s. 259.
[10] “Təfsire-Dürrül-Mənsur”.

## *BİLDİRİŞLƏR*

1. Qiyamət günü həm rəhbərlər, həm də ümmətlər (cin və ins) sorğuya çəkilər. Həm yaxşılar, həm də pislər, həm alimlər, həm də onların ardıcılları hesab verər.

2. Qiyamət sorğusu bir növ şahidlik tələbi, etiraf məqamı və məzəmmətdir. Bəzən də bu sorğu təşəkkür xarakterli olur. Əslində, Allahdan gizli bir şey yoxdur ki, onu sual-cavab vasitəsi ilə aydınlaşdırsın.

3. Allahın elmi dəqiqdir. («Nəkərə»–qeyri-müəyyənlik əzəmət və diqqəti önə çəkir)

4. Allahın elmi Onun hüzuru və nəzarəti ilə müşayiət olunur. Arada heç bir vasitə yoxdur.

## *(AYƏ: 8)*

﴿ وَالْوَزْنُ يَوْمَئِذٍ الْحَقُّ فَمَن ثَقُلَتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ ﴾

**“O gün (qiyamət günü) ölçü haqdır. Hər kəsin əməli, işləri ağır gəlsə, onlar həmin nicat tapmışlardır.”**

## *NÖQTƏLƏR*

◘“Mizan” ölçü vasitəsidir. Hər şeyin xüsusi ölçü vasitəsi var. Məsələn, vertikal düzlük şaqul, istilik termometr, meyvə tərəzi, parça metrə ilə ölçülür. Adi insanların ölçü vasitəsi isə kamil insanlardır.

◘Qiyamət gününün mizanı həqiqətdir. Həmin gün hakimiyyət haqqa məxsusdur.[1] Əməllərin ölçü mizanı da yalnız həqiqətdir.

◘İmam Sadiq (ə) “Qiyamət günü ədalət tərəzisi qurarıq”[2] ayəsi haqqında buyurmuşdur: “Mizan (tərəzi) peyğəmbərlər və onların vəsiləridir.”[3] Həzrət Əlinin (ə) ziyarətnaməsində oxuyuruq: “Onlar başqalarının əməl meyarıdır.”

◘Həzrət Əli (ə) buyurmuşdur: “Yaxşı əməllər tərəzini ağırlaşdırır, günahlar onu yüngülləşdirir.”[4]

## *BİLDİRİŞLƏR*

1. Qiyamət təşkilatı hesab və qanuna əsaslanır. Hesablamalar, mühakimələr, hökmlər, mükafat və cəzalar yalnız həqiqət əsasında gerçəkləşir.

2. Allah insanların haqqa çatması, layiq və düzgün əqidə və əmələ yetişməsi istəyindədir.

3. Hər bir insan üçün bir neçə ölçü və hesab meyarı müəyyənləşər.

4. Əməl olmayan yerdə səadət və mükafat istəyi əbəsdir.

---

[1] Bax: “Kəhf”, 44; “Nəbə”, 39.

[2] “Ənbiya”, 47.

[3] “Təfsire-Əl-mizan”.

[4] “Bihar”, c. 90, s. 141.

*(AYƏ: 9)*

﴿ وَمَنْ خَفَّتْ مَوَازِينُهُ فَأُوْلَئِكَ الَّذِينَ خَسِرُواْ أَنفُسَهُم بِمَا كَانُواْ بِآيَاتِنَا يِظْلِمُونَ ﴾

**"Hər kəsin ölçülmüş əməlləri yüngül gəlsə, onlar özünə ziyan vurmuş kəslərdir. Çünki (öz inkarları ilə) Bizim ayələrimizə sitəm edirdilər."**

***NÖQTƏLƏR***

◘Ayədəki "xəsarət" sözü sərmayənin əldən çıxmasını, "zərər" sözü isə qazancın əldən verilməsini bildirir.

***BİLDİRİŞLƏR***

1. Bir insan üçün bir neçə ölçü vasitəsi var.
2. Qiyamət günü saleh əməlin azlığı "xəsarət"dirsə, onun heç olmamasının aqibəti aydındır.
3. Dünya qazancı iman, zərəri küfr olan bazar kimidir. Bəli, peyğəmbərin dəvətini və aşkar dəlilləri görməməzliyə vurmaq əslində insan fitrətinin məhvi, onun özünə zülmdür.
4. İlahi ayələrə etinasızlıq və onların inkarı haqqa zülmdür. Bəli, hər kəs və hər şeyin hüququnu pozmaq zülmdür və zülmün nəticəsi zərər və fənadır.

*(AYƏ: 10)*

﴿ وَلَقَدْ مَكَّنَّاكُمْ فِي الأَرْضِ وَجَعَلْنَا لَكُمْ فِيهَا مَعَايِشَ قَلِيلاً مَّا تَشْكُرُونَ ﴾

**"Gerçəkdən, sizə yer üzündə məkan verdik və orada sizin üçün (növbənöv) yaşayış vasitələri qərarlaşdırdıq. (Amma siz) az şükür edirsiniz."**

***BİLDİRİŞLƏR***

1. İlahi nemətləri xatırlamaq və onlara diqqət Allaha mərifət, məhəbbət və təslimçiliyin çiçəklənmə zəminəsidir.
2. Yer üzündəki imkanlardan bəhrələnmək bir qrupun yox, hamının haqqıdır.
3. Yer üzü, onun şəraiti (onun dövr etməsi, hərarəti, işığı, suyu, bitki örtüyü, gübrə alıb min bir nemət verməsi) elədir ki, insan bu vasitələrlə öz ehtiyaclarını təmin edə bilər.
4. Təbiətə hakim qanunlar elə bir vəziyyətdədir ki, insan ona təsir göstərə bilər. Əgər Allah təbiəti insan üçün ram etməsəydi, insan onu cilovlayıb istifadə edə bilməzdi.
5. Yer üzü insanın ixtiyarına verilib ki, insan öz ehtiyaclarını təmin etsin, ən əsası kamala çatsın.

Sədi deyir:

*Yağış, külək, günəş işdədir ki, sən*
*Qazanasan, amma (düşüncəsiz) gövşəməyəsən.*

6. Nemətlər insanı azdırmamalı, şükrə vadar etməlidir.
7. İnsan naşükürdür. Quran insanların əksərinin naşükürlüyünü, qəflətini, imansızlığını təkrar-təkrar xatırladır.

***(AYƏ: 11)***

﴿ وَلَقَدْ خَلَقْنَاكُمْ ثُمَّ صَوَّرْنَاكُمْ ثُمَّ قُلْنَا لِلْمَلآئِكَةِ اسْجُدُواْ لآدَمَ فَسَجَدُواْ إِلاَّ إِبْلِيسَ لَمْ يَكُن مِّنَ السَّاجِدِينَ ﴾

**"Həqiqətən Biz sizi yaratdıq. Sonra sizin çöhrənizin nəqşinə məşğul olduq. Mələklərə dedik: "Adəmə səcdə qılın." Hamı səcdə etdi. Yalnız səcdə edənlərdən olmayan İblisdən savay!"**

***NÖQTƏLƏR***

◘Ötən ayədə insanın yer üzündəki maddi qüdrət və hakimiyyətindən danışıldı. Bu ayədə isə bütün mələklərin səcdə qıldığı insanın mənəvi məqamından söz açılır.

◘Bütün mələklər Allahın əmrinə təslim olub Adəmə səcdə etdiyi halda, insanın Allaha səcdə etməməsi təəssüf doğurur.

*Hamı səndən ötrü səcdə qılırkən,*
*İnsafdırmı boyun qaçırasan sən?!*

◘Bu ayədən iki dəfə bütün insanlara müraciət olunur. Amma həzrət Adəmə səcdənin zikr olunmasının səbəbi bütün insanlarda mələklərin səcdəgahı olma istedadına bir işarədir.

Bu ayədə 14-cü ayəyədək həzrət Adəmin əhvalatı nəql olunur.

◘Bir yəhudi kişi Həzrət Əlidən (ə) soruşdu: "Allah mələklərə Adəmə səcdə əmrini buyurdu. İslam peyğəmbərinə də bu sayaq ehtiram göstərilibmi?" Həzrət buyurdu: "Allah-təala İslam peyğəmbərinə bundan da üstün fəzilət vermişdir. Allah Öz misilsiz əzəmətinə baxmayaraq, mələklərlə birlikdə Özü də Məhəmmədə (s) salavat göndərir və möminlərin peyğəmbərə göndərdiyi salavatı Özünə ibadət sayır."[1]

***BİLDİRİŞLƏR***

1. İnsanın yaranışı bir neçə mərhələdə gerçəkləşmişdir.
2. Səcdə bütün insanlara yox, Adəmə aid idi.
3. İnsanda elə bir məqama çatmaq istedadı və ləyaqəti var ki, mələklərin səcdəgahı olsun.
4. Allah əmri əsasında Allahdan qeyrisinə səcdə etmək şirk deyil.
5. İblis mələklərlə bir cərgədə idi. Mələklərə müraciət ona da aid idi.
6. İblis səhvən yox, bilərəkdən Adəmə səcdə qılmadı.

[1] "Ehticace-Təbərsi", c. 1, s. 204.

*(AYƏ: 12)*

﴿ قَالَ مَا مَنَعَكَ أَلاَّ تَسْجُدَ إِذْ أَمَرْتُكَ قَالَ أَنَاْ خَيْرٌ مِّنْهُ خَلَقْتَنِي مِن نَّارٍ وَخَلَقْتَهُ مِن طِينٍ ﴾

**"(Allah İblisə) buyurdu: "Mən sənə əmr etdiyim halda səni səcdə qılmaqdan nə çəkindirdi?" (Şeytan) dedi: "Mən ondan üstünəm. Məni oddan, onu gildən yaratmısan."**

### *NÖQTƏLƏR*

◘Mələklərin Adəmə səcdə etməsinin dəlili onun cins və fiziki baxımdan üstünlüyü yox, zati ləyaqəti və Allah əmri olmuşdur.

◘Şeytan öz itaətsizliyinə don geyindirib, yersiz müqayisə apararaq belə iddia etdi: "Mən Adəmdən üstünəm. Çünki mən oddanam, o isə torpaqdan." Əslində şeytan öz yanlış iddiası ilə, Allaha itaət və Onun hüzurunda insanın xüsusi məqamına diqqət əvəzinə ilahi əmrdən boyun qaçırdı.[1] Necə ki, bizlərdən də bir çoxumuz dini göstərişlərin fəlsəfəsinə varmadan ağlımızca dəlillər axtarır və bir dəlil tapmadıqda uyğun göstərişləri qəbul etmirik, onlara etinasız yanaşırıq. Bəzən də oxşar mövzuları müqayisə edərək onlara münasibətdə vahid hökm çıxarırıq.

Hər hansı hökmün sübuta yetirilməsində müqayisə, qiyas yolunu seçmək caiz deyil. İmam Sadiq (ə) Əbu-Hənifənin qiyaslarını daim ciddi tənqid etmişdi.[2]

### *BİLDİRİŞLƏR*

1. Hökm çıxarmazdan qabaq mühakimə və sorğu zəruridir.
2. İtaətsizlik və gün bünövrəsini şeytan qoymuşdur. Çünki ilk itaətsizlik ondan baş vermişdir.
3. Araşdırmadan cəzalandırmaq düzgün deyil.
4. Şeytan Adəmə yox, Allaha qarşı çıxdı. [3]
5. Şeytan da insan kimi vəzifəli və ixtiyarlıdır.
6. Allah üçün meyar yaş, millət yox, əmrə itaətdir.
7. Mühakimə zamanı günahkarlara söz demək imkanı verin.
8. İnsanın mənəvi məqamını nəzərə almayıb, yalnız onun maddi cəhətlərinə istinad etmək materialistlik, şeytansifətlikdir.
9. Özünü üstün saymaq xasiyyəti insanı Allaha itaətsizliyə vadar edə bilər.
10. Allahın xaliqliyini qəbul etmək bəs etmir, itaət və təslimçilik də lazımdır. Şeytan da Allahın xaliqliyini qəbul etmişdi. Amma bu Xaliqə itaət etmədi.

---

[1] Bax: "Bəqərə", 30; "Hicr", 29.
[2] "Təfsire-nümunə".
[3] Bax: "Kəhf", 50.

11. İrqçilik, millətçilik şeytan dəyərlərindəndir.

12. Şeytan Allahın aşkar əmri qarşısında öz rəyini əsas götürdü və hərəkət etdi.

13. Şeytan elmi əsası olmayan qiyas (müqayisə yolu ilə nəticə çıxarmaq) metodundan istifadə etdi. O öz işində zənn-gümana qapıldı.

*(AYƏ: 13)*

﴿ قَالَ فَاهْبِطْ مِنْهَا فَمَا يَكُونُ لَكَ أَن تَتَكَبَّرَ فِيهَا فَاخْرُجْ إِنَّكَ مِنَ الصَّاغِرِينَ ﴾

**"(Allah şeytana) buyurdu: "Oradan aşağı en. O yerdə təkəbbür göstərmək sənin işin deyil. Xaric ol. Şübhəsiz, sən xar olanlardansan."**

***NÖQTƏLƏR***

◘Həzrət Əli (ə) buyurmuşdur: "İblisin aqibətindən ibrət götürün. O, dünya və ya axirətə aidliyi məlum olmayan altı min illik ibadətinə baxmayaraq, bir anlıq təkəbbür səbəbindən süqut etdi."[1]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Qiyamətdə təkəbbürlülər ən zəlil surətdə məhşur olar, məhşər əhlinin ayaqları altda tapdanarlar.[2] Digər bir rəvayətdə Həzrət buyurur: "Təvazö və sadəlik göstərəni Allah yuxarı qaldırar. (Əksinə) təkəbbür göstərib boyun əyməyənlər alçaldılar."[3] Başqa bir rəvayətdə deyilir: "Küfrün üç kökü var: Hərislik, həsəd və təkəbbür."[4]

***BİLDİRİŞLƏR***

1.Təkəbbür təkcə adi insanlar üçün yox, hətta ali məqama malik olan, mələklərlə yoldaşlıq edən, uzun bir zaman ibadətə məşğul olanlar üçün də təhlükəlidir.

2. Şeytanın nə Allahı tanıması, nə uzun-uzadı ibadətlərə məşğul olması səmərəli oldu. Yeganə qurtuluş yolu Allaha təslimçilikdir.

3. Təkəbbür əməllərin puça çıxması səbəbidir.

4. Bəzən bir anlıq təkəbbür daimi süquta səbəb olur.

5. Təkəbbür və özünü üstün bilməyin nəticəsi alçaqlıq və zəlillikdir. "Mən üstünəm" şüarının cavabı "xaric ol, həqiqətən, sən xar olanlardansan" buyruğudur.

*(AYƏ: 14)*

﴿ قَالَ فَأَنظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ ﴾

**"(İblis tövbə edib, üzr diləmək əvəzinə) dedi: «Xalqı ayağa qaldıracağın (qiyamət) gününədək mənə möhlət ver.»"**

---

[1] "Nəhcül-bəlağə", x. 192.
[2] "Təfsire-Məraği".
[3] "Məhəccətul-bəyza", c. 6, s. 215.
[4] "Kafi", c. 2, "küfr" babı.

*(AYƏ: 15)*

﴿ قَالَ إِنَّكَ مِنَ المُنظَرِينَ ﴾

**"(Allah) buyurdu: "Həqiqətən, sən möhlət alanlardansan."**

***NÖQTƏLƏR***

◘İblisin istəyi qiyamət gününədək möhlət almaq idi. Bu ayədə İblisə nə vaxtadək möhlət verilməsi açıqlanmır. Amma "Hicr" surəsinin 38-ci, "Sad" surəsinin 80 və 81-ci ayələrində İblisə qiyamət gününədək yox, hansısa uzun bir müddətə qədər möhlət verildiyi bildirilir. Bəziləri bildirirlər ki, şeytan Allah məsləhət bilənədək sağdır.[1] Feyz Kaşani deyir: "İblis ilk sur üfürülənədək, ya da Həzrət Məhdinin (ə) qiyamınadək sağdır. Həmin vaxtdan sonra ölüm onun da sorağına gələr."[2]

◘***Sual***: Nə üçün Allah İblisə möhlət verdi?

***Cavab***: Allahın günahkarlara möhlət verməsi ilahi sünnə, qanunlardandır və insanın imtahanı üçündür. Xeyir və şər üçün vasitələr müəyyənləşməli olmasından əlavə, insan azad şəkildə yol seçir. İblis insanda yalnız vəsvəsələr edir və onun insanı günaha məcbur etmək qüdrəti yoxdur.[3]

***Cəza gününədək istədi möhlət,***
***Kaş tövbə qılmağa tapaydı cürət.***

***BİLDİRİŞLƏR***

1. İblis duasının qəbul olacağından ümidini üzməmişdi.
2. Şeytan da bilir ki, Allahın iradəsindən asılıdır və Onun əlindədir.
3. Hər uzun ömür dəyərli olmur, şeytanın da ömrü uzun idi.
4. İblis həm Xaliqi tanıyır, həm məadı qəbul edirdi. Bununla belə, Allahın əmrinə itaət etmədi.
5. Bəzən kafirlərin də istəyi qəbul olur.

*(AYƏ: 16)*

﴿ قَالَ فَبِمَا أَغْوَيْتَنِي لأَقْعُدَنَّ لَهُمْ صِرَاطَكَ الْمُسْتَقِيمَ ﴾

**"(Şeytan) dedi: "Məni azdırdığına görə mən də (onları aldatmaq üçün) Sənin doğru yolun üstə (pusquda) oturacağam."**

*(AYƏ: 17)*

﴿ ثُمَّ لآتِيَنَّهُم مِّن بَيْنِ أَيْدِيهِمْ وَمِنْ خَلْفِهِمْ وَعَنْ أَيْمَانِهِمْ وَعَن شَمَآئِلِهِمْ وَلاَ تَجِدُ أَكْثَرَهُمْ شَاكِرِينَ ﴾

[1] "Təfsire-Əyyaşi".
[2] "Təfsire-Safi".
[3] Bax: "Ibrahim", 22.

**"Sonra qarşıdan və arxadan, sağdan və soldan onların üstünə cumaram. Onların çoxunu şükür edən görməyəcəksən."**

## *NÖQTƏLƏR*

◘Hədisdə oxuyuruq: "Şeytan dörd bir yandan insanın yolu üstə pusquda dayanacağını, onu azdıracağını bildirib and içdikdən sonra mələklər nigarançılıqla dedilər: "Pərvərdigara! Bu insan necə qurtulacaq? "Allah-təala buyurdu: "Yuxarıdan və aşağıdan onun üçün iki yol açıqdır. Əgər o, dua üçün əlini göyə qaldırsa və ya üzünü torpağa qoysa, yetmiş illik günahlarını bağışlayaram."[1]

◘Həzrət Adəm şeytanın insan üzərində hakimliyindən xəbər tutub üzünü Allah dərgahına çevirərək nalə çəkdi. Xitab gəldi: "Narahat olma, çünki Mən günahı bir, savabı on qat hesab edərəm. Tövbə yolu da daim açıqdır."[2]

◘İmam Baqir (ə) buyurmuşdur: "İblisin insana öndən yaxınlaşması bu mənadadır ki, axirəti onun gözündə əhəmiyyətsiz göstərsin. İblis arxadan yaxınlaşdıqda insana dünyapərəstliyi, xəsisliyi, övlada ifrat bağlılığı təlqin edir. Sağdan yaxınlaşdıqda şübhələr yaratmaqla dini təhlükəyə salır, soldan yaxınlaşdıqda insandakı ləzzət, şəhvət, günah hislərini gücləndirməyə çalışır."[3]

◘Şeytan bacarsa, insanın imanına mane olur. Əgər bacarmasa, nifaq və tərəddüd yolunu açır. Bu işdə də müvəffəq olmadıqda şəkk-şübhə yaratmaqla insanı günaha sövq edir, onu iman və ibadətdən ləzzət almağa qoymur, xeyir işləri ona ağır, xoşagəlməz göstərir.

◘Çoxsaylı rəvayətlərdə "siratəl-müstəqim", yəni doğru yol Əhli-beyt (ə) və Əlinin (ə) vilayəti kimi təbir olunmuşdur.[4]

## *BİLDİRİŞLƏR*

1. Öz itaətsizliyini və günahını Allahın qəzavü-qədəri kimi göstərmək şeytani işdir.
2. İblis tövbə etmək yox, intiqam almaq üçün möhlət istədi.
3. İblis Allaha təşəkkür əvəzinə ədəbsizlik göstərdi.
4. Şeytan insanı təsir altına tez düşən və yolunu tez azan mövcud kimi tanıyır.
5. Şeytan insanın onunla düşmənçiliyə and içmiş rəqibidir. [5]
6. İnsan fitri olaraq haqq və doğru yol yolçusudur.
7. İblis də etiraf edir ki, doğru yol Allahın yoludur.
8. Şeytanın vəsvəsə edib azdırma üsulları çoxsaylı və müxtəlifdir.

---

[1] "Təfsire-Kəbire-Fəxr Razi".
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Təfsire-Kənzud-Dəqaiq".
[4] "Təfsire-Fürqan".
[5] Bax: "Sad", 82.

9. Şeytan həm doğru yolu, həm vəsvəsə yolunu, həm şükür edənlərin və naşükürlərin yolunu tanıyır.

10. Şeytanın məqsədi və arzusu insanın naşükürlüyüdür. Bu səbəbdən də şeytana ardıcıllıq Allaha naşükürlükdür. Şükür edən insan doğru yolu tutur.

***(AYƏ: 18)***

﴿ قَالَ اخْرُجْ مِنْهَا مَذْؤُومًا مَّدْحُورًا لَّمَن تَبِعَكَ مِنْهُمْ لأَمْلأَنَّ جَهَنَّمَ مِنكُمْ أَجْمَعِينَ ﴾

**"(Allah) buyurdu: "Bu yerdən zillət və xarlıqla xaric ol! And içirəm ki, onlardan hansı biri sənin ardınca getsə, şübhəsiz, cəhənnəmi sizlərlə dolduracağam."**

## *NÖQTƏLƏR*

◘Bir an təkəbbür və özünü üstün tutmağın aqibəti faciədir! Bir bu qədər təhqir və süqut təkəbbürlünün nəsibi olur. O, üzr istəmək əvəzinə bəşəriyyəti azdırmaq qərarına gəldi.

◘"Məzum" ciddi eyb mənasını bildirir. "Mədhur" zəlilliklə qovulmaq mənasındadır.

◘Əbu-Hənifə daşıdığı üç əqidəni təlqin edirdi: birincisi, bəndələrin bütün əməlləri Allahın felidir və onlar hər hansı işi görməyə məcburdurlar; ikincisi, Allah gözlə görünə bilər, üçüncüsü, şeytan oddan yarandığı üçün onu odla yandırmaq mümkünsüzdür.

İmam Sadiqin (ə) şagirdi olmuş Bəhlul Əbu-Hənifənin əqidələrini məhkum edərək yerdən bir torpaq parçası götürüb onun başına vurdu. Əbu-Hənifə xəlifənin yanına gedib Bəhluldan şikayət etdi. Bəhlul sorğuya çəkilərkən dedi: "Bu şəxsin əqidəsinə görə, bu işi Allah görmüşdür və mənim təqsirim yoxdur. İkincisi, o yalan deyir ki, başı ağrıyır. Çünki ağrı olsaydı, onun göstərərdi. Üçüncüsü, Əbu-Hənifənin fikrincə, od oda, torpaq torpağa təsir etmir. (Əgər o torpaqdan yaranıbsa, mənim vurduğum torpaq ona təsir etməz."[1]

## *BİLDİRİŞLƏR*

1. İblis doğru yol üstə pusqu qurub daim vəsvəsə etsə də, günahkar özü şeytanın ardınca gedib cəhənnəmə düşür.

2. Yolunu azanlar o qədər çoxdur ki, cəhənnəm dolar. Sağlam və pak olanlar, şükür edənlər isə azdır. 10-cu ayədə bu məsələ açıqlandı.

3. Şeytanın ardınca getmək insanı cəhənnəmdə onunla yoldaş edir.

---

[1] "Təfsire-isna əşəri".

## *(AYƏ: 19)*

﴿ وَيَا آدَمُ اسْكُنْ أَنتَ وَزَوْجُكَ الْجَنَّةَ فَكُلاَ مِنْ حَيْثُ شِئْتُمَا وَلاَ تَقْرَبَا هَـٰذِهِ الشَّجَرَةَ فَتَكُونَا مِنَ الظَّالِمِينَ ﴾

**"Ey Adəm! Sən və zövcən o (behişt sayaq) bağda sakin olun və harada istəsəniz yeyin. (Amma) bu ağaca yaxınlaşmayın ki, sitəmkarlardan olarsınız."**

### *NÖQTƏLƏR*

◘Bu ayənin oxşarı "Bəqərə" surəsinin 35-ci ayəsində bəyan olunmuşdur.

◘İmam Riza (ə) qadağan olunmuş ağacın (buğda, üzüm və ya bir başqa şey olması) haqqında buyurmuşdur: "Behişt ağacları növbənöv meyvələr yetirdiyindən, bütün deyilənlər ona şamil edilə bilər."[1]

◘Allah istəyirdi ki, insan yer üzündə onun xəlifəsi olaraq yaşasın.[2] İnsanın bu ləyaqətini başqalarına bildirmək üçün Allah ona həqiqətləri öyrətdi. Sonra ona səcdə edilməsi əmri verdi. İnsan behiştdə yerləşdirildi. Daha sonra ona ilk vəzifə buyurulur. Həmin andan etibarən öhdəçilik, məsuliyyət, ixtiyar məsələləri ortaya çıxır. Bundan sonra vəzifənin yerinə yetirilməməsi səbəbindən yerə eniş, təkamül üçün səy göstərmək mövzuları bəyan olunur. Bütün bu mərhələlər ilahi elm əsasında gerçəkləşir. Həzrət Əli (ə) bu mərhələləri və insanın yer üzündə tövbəsini bəyan etdikdən sonra buyurur: "Allahın elmi onun haqqında gerçəkləşdi."[3]

◘Adəmin sakin olduğu "cənnət", behişt haqqında müxtəlif nəzərlər var. Bəziləri bu behiştin vəd olunmuş gerçək behişt olduğunu bildirir. Onların fikrincə, bu behiştdə əbədilik əməl vasitəsi ilə oraya daxil olanlara aiddir. Başqa hallarda behiştdə sakinlik müvəqqəti olur. Necə ki, İslam peyğəmbəri (s) merac gecəsi behiştə daxil oldu və sonra qayıtdı. İmam Sadiq (ə) isə belə buyurur: "Adəmin olduğu behişt dünya bağlarından biri idi."[4] Çünki vəd olunan behiştdə əmr, qadağa və vəzifə yoxdur.

### *BİLDİRİŞLƏR*

1. Əvvəlcə doğru yolu göstərin, sonra qadağanı bəyan edin.
2. Allahın qadağa qoyduğu məntəqələrə və harama yaxınlaşmaq günahla nəticələnir.
3. Düzgün yol olan yerdə qadağan olunmuş yolla getmək zülmdür.

---

[1] "Uyunul-Əxbar", c. 1, s. 306.
[2] Bax: "Bəqərə", 30.
[3] "Nəhcül-bəlağə", x. 91.
[4] "Təfsire-isna əşəri".

### *(AYƏ: 20)*

﴿فَوَسْوَسَ لَهُمَا الشَّيْطَانُ لِيُبْدِيَ لَهُمَا مَا وُورِيَ عَنْهُمَا مِن سَوْءَاتِهِمَا وَقَالَ مَا نَهَاكُمَا رَبُّكُمَا عَنْ هَذِهِ الشَّجَرَةِ إِلاَّ أَن تَكُونَا مَلَكَيْنِ أَوْ تَكُونَا مِنَ الْخَالِدِينَ﴾

**“Şeytan onlara (Adəm və onun zövcəsinə) vəsvəsə etdi ki, onlara gizli qalmış ayıblarını aşkar etsin. O dedi: “Allahınız bu ağacı sizə yalnız ona görə qadağan edib ki, iki mələk və ya əbədiyyət tapanlardan olmayasınız.”**

### *NÖQTƏLƏR*

◘Şeytan Adəm və Həvvaya vəsvəsə edirdi ki, bu ağacdan yesələr mələk olacaqlar, ya da əbədiyyət tapacaqlar. Guya Allah onların bu məqama çatmasını istəmədiyindən, həmin ağacdan yeməyi qadağan etmişdi.

◘Adəmin Allahın əmrini pozub qadağan olunmuş ağaca əl uzatmasının səbəbi ayədə açıqlanmışdır. Bildirilir ki, bu yerdə qadağa uyğun işin haramlığını yox, bəyənilməmiş olmasını göstərir. Necə ki, bir həkim xəstəyə hansısa qidadan istifadə etməməyi məsləhət görür. Əgər xəstə həmin qidadan istifadə etsə, zərər onun özünə olur.

◘***Sual:*** Məgər mələklər Adəmdən üstün idimi ki, Adəm mələk olmaq üçün şeytanın vəsvəsəsinə uydu?

***Cavab:*** Adəmin mələklərdən üstünlüyü aşkardır. Sadəcə, Adəm mələklərin kamilliyini nəzərə alaraq bu işə meyl göstərdi. Adəm öz üstünlüklərindən savay onların da üstünlüklərinə malik olmaq istəyirdi. Bu istək mələklərin üstünlüyü üçün dəlil deyil.[1]

İmam Sadiqdən (ə) soruşulur ki, mələklər üstündür, yoxsa Adəm övladı?

İmam Sadiq (ə) Həzrət Əlidən (ə) bir rəvayət nəql edərək buyurur: “Allah mələkləri şəhvətsiz ağıllı, heyvanları isə ağılsız şəhvətli yaratdı. İnsana isə həm ağıl, həm də şəhvət verildi. Əgər insandakı ağıl onun şəhvətinə qalib gələrsə, insan mələkdən üstün olar. Əgər onun şəhvəti ağlına qalib gələrsə, heyvandan da alçaq məqama enər.[2]

***Adəmdən törəyən möcüzədir bil***
***Onda mələklik də, heyvanlıq da var.***
***Nə vaxt bir tərəfə göstərərsə meyl,***
***Haqqa ucalmasa, süquta uğrar.***

Bəli, insanlar müxtəlifdir və onların dərəcələri, mərtəbələri var. Mələklər də belədir. Deməк, hər insanı mələkdən üstün saymaq olmaz və ya əksinə.[3]

---

[1] “Təfsire-Minhacus-Sadiqin”.
[2] “Vəsail”, c. 15. s. 209.
[3] “Təfsire-Ətyəbul-bəyan”, c. 1, s. 512.

◘Allah şeytanı mahiyyət etibarı ilə çirkin yaratmamışdı. Şeytan təkamül yolunu gedə biləcək bir mövcud idi. Varlıq yoluna hidayət olunmuş şeytan özü özünü azdırdı, alçaltdı. Əgər onun mahiyyəti çirkin olsaydı, ilk öncə Allaha ibadətə, təsbihə məşğul olmazdı. Axı şeytan uzun illər Allaha ibadət etmişdi. Necə ki, Allah Firon və İbn-Mülcəmi alçaq xislətli yaratmamışdı. Onların da inkişaf istedadı və insani ləyaqətləri vardı. Bunula belə, onlar öz istəkləri ilə azğın yolu tutdular.[1]

◘***Sual:*** Nə üçün Allah şeytanı insana qalib etdi?

***Cavab:*** Şeytanın insanla rabitəsi və onun təsir imkanı insandakı heyvani hisslərin təsirindən heç də güclü deyil. Allah insana heyvani meyllərlə yanaşı düşüncə, vicdan əta etmiş, ən üstün tarazlıq və tənzim vasitələrini onun ixtiyarında qərar vermişdir.

Şeytan insana hakim olmamaqla yanaşı, onun ixtiyarını da əlindən ala bilmir. Necə ki, şeytan özü deyir: "Əslində mənim sizin üzərinizdə heç bir hakimiyyətim yox idi. Mən sizi yalnız dəvət etdim, siz də tabe oldunuz. İndi isə məni yox, özünüzü qınayın."[2]

Şeytanın işi insandakı heyvani hissləri gücləndirməkdir. O, bir insana təsir göstərmək qərarına gəldikdə, onun daxili qüvvələrindən birini öz vəsvəsələri ilə gücləndirməyə məcburdur. Həmin vəsvəsələrin qarşısında isə ağıl və vicdan adlı iki qüvvə dayanır. Bu qüvvələr insanı daim yaxşılığa dəvət edir."[3]

### ***BİLDİRİŞLƏR***

1. Şeytan hətta yaxşılardan da əl çəkmir. Amma xalislər üzərində onun heç bir hakimiyyəti yoxdur.[4]

2. Bir sözlə, şeytanın işi məcbur etmək yox, vəsvəsə etmək, şübhə yaratmaqdır. O yalnız azğınlıq yolunu göstərməklə məşğuldur.

3. Günah və xilafa yol verməyin nəticəsi rüsvayçılıqdır.

4. Rüsvayçılıq hicabın götürülməsi, çılpaqlıq şeytanın hədəflərindəndir.

5. Şeytan insanı arzular yolu ilə aldadır. (İnsanın arzusu aram və mələksayaq bir fəzada əbədi yaşamaqdır. Ona görə də şeytan dedi: "Əgər o ağacdan yesəniz, arzularınıza çatıb, əzab-əziyyətdən uzaq daimi bir həyatda yaşayacaqsınız." Şeytan insandakı rifah və əbədiyyətə meyllərdən istifadə edərək onu çaşdırırdı.)

### ***(AYƏ: 21)***

﴿ وَقَاسَمَهُمَا إِنِّي لَكُمَا لَمِنَ النَّاصِحِينَ ﴾

---

[1] Əllamə Cəfəri, "Şərhe-Məsnəvi", c. 5, s. 207.
[2] "Ibrahim", 22.
[3] "Şərhe-Məsnəvi", c. 5, s. 207.
[4] Bax: "Hicr", 40.

**“(Şeytan öz vəsvəsələrinin təsirli olması üçün) onların ikisinə and içdi ki, həqiqətən, mən sizin xeyirxahınızam.”**

### *NÖQTƏLƏR*

◘Həzrət Adəm və onun zövcəsi ilk öncə İblisə etimad göstərmədilər. Şeytan onların etimadını qazanmaq üçün and içdi və təkid göstərdi. İmam Riza (ə) buyurmuşdur: “Həzrət Adəm və Həvva həmin vaxtadək yalandan Allaha and içilməsini eşitməmişdilər. Ona görə də İblisə etimad göstərib həmin ağacdan yedilər. Əlbəttə ki, bu hadisə həzrət Adəmin peyğəmbərliyindən qabaq baş vermişdi. Uyğun qadağa, müqabilində od vəd olunmuş böyük günahla bağlı deyildi.[1] Bəli, ilk yalan andı şeytan içdi.”

◘Quran buyurmuşdur: “Münafiqlər də yalan and əhlidirlər.[2] Tez-tez and içən insan cəmiyyətə rəhbərliyə layiq deyil.[3]

### *BİLDİRİŞLƏR*

1. Yalan and şeytan işidir.
2. Hər anda etibar etmək olmaz.
3. Düşmən bizim etiqad və inamlarımızdan öz xeyrinə istifadə edir.
4. Bəzən düşmən bizə zahiri bir xeyirxahlıqla nüfuz edir, sonra isə zərbə vurur. Yusifin qardaşları da onu aradan götürmək və atalarından ayırmaq üçün özlərini xeyirxah göstərdilər.[4]

### *(AYƏ: 22)*

﴿فَدَلاَّهُمَا بِغُرُورٍ فَلَمَّا ذَاقَا الشَّجَرَةَ بَدَتْ لَهُمَا سَوْءَاتُهُمَا وَطَفِقَا يَخْصِفَانِ عَلَيْهِمَا مِن وَرَقِ الْجَنَّةِ وَنَادَاهُمَا رَبُّهُمَا أَلَمْ أَنْهَكُمَا عَن تِلْكُمَا الشَّجَرَةِ وَأَقُل لَّكُمَا إِنَّ الشَّيْطَآنَ لَكُمَا عَدُوٌّ مُّبِينٌ﴾

**“Şeytan o iki nəfəri yalan və hiylə ilə süquta çəkdi. Elə ki, (qadağan olmuş) ağacdan daddılar, çılpaqlıqlarının pisliyi onlara aşkar oldu. Behişt ağaclarının yarpaqları ilə özlərini bürüdülər. Allah onlara nida etdi: “Sizə o ağacı qadağan etmədimmi, demədimmi ki, şeytan sizin üçün aşkar bir düşməndir?!”**

### *NÖQTƏLƏR*

◘“Dəlla” yaxınlaşdırmaq mənasını bildirir və hədəfə çatmaq üçün kəndirə işarədir. Yəni İblis onları qurur kəndiri ilə yalan quyusuna varid etdi.

◘“Yəxsifan” toplamaq, tikmək, bəndləmək mənalarını bildirir.

---

[1] “Üyunul-əxbar”, c. 1, s. 196.
[2] Bax: “Tövbə”, 56, 62, 74, 107.
[3] Bax: “Qələm”, 10.
[4] “Yusuf”, 11.

◘Allahın xitabı “nida” sözü ilə ifadə olunmuşdur. Nida uzağa xitab üçündür. Yəni Adəm və zövcəsi qadağan olunmuş ağacdan yeməklə Allahdan uzaqlaşdılar.

◘Seyyid Mürtəza, Təbərsi, Əbul-Fütuh Razi kimi təfsirçilər deyirlər: “Həzrət Adəmin behiştdən çıxarılıb yerə göndərilməsi cəza yox, bir məsləhət idi.[1]

### *BİLDİRİŞLƏR*

1. Həm qadın, həm də kişi şeytanın vəsvəsə hədəfindədir.
2. Şeytanın aləti yalan və qürurdur.
3. Şeytanın vəsvəsələrinə meyl zəif və gödək bir ipdən yapışmaq, günah quyusuna yuvarlanmaqdır.
4. Allahın əmr və göstərişlərinə - istər az, istərsə də çox - diqqətsizlik təhlükəlidir. Günaha batmaqda kiçik-böyük məsələsi yoxdur. Ən əsası günaha düşməməkdir. Bəzən kiçik günah da insanın rüsvayçılıq və süqutuna səbəb olur.
5. Çılpaqlıq Allahın cəza növlərindəndir. (Bunu mədəniyyət saymayın.)
6. Bəzən süqut addım-addım baş verir. Əvvəlcə, insan düşüncədə azır, sonra həddi aşaraq qadağan olunmuş şeylərdən yeyir. Beləcə, süqut və çılpaqlıq baş verir.
7. İlahi BİLDİRİŞLƏRə məhəl qoymamaq, qadağan olunmuş qidalardan yemək çılpaqlıq üçün zəmindir.
8. Çılpaqlığın çirkinliyi və örtüyün kəraməti insanın fitrətindədir.
9. Ən sadə bir vasitə ilə örtünmək də dəyərdir.
10. Allahın hökmləri, əmrləri, qadağaları insanın tərbiyəsi üçündür.
11. Həzrət Adəm və Həvva qadağan olunmuş ağacdan yedikdən sonra öz ali məqamlarından uzaqlaşdılar.
12. Allah xəbərdarlıq etməmiş, höccəti tamamlamamış kimsəni cəzalandırmır.
13. Allah yolunda düşmənləri tanımaq zəruridir.
14. Şeytanın ədavəti aşkar olsa da, insan onun təhlükə və düşmənçiliyindən qəflətdə olur.

### *(AYƏ: 23)*

﴿ قَالاَ رَبَّنَا ظَلَمْنَا أَنفُسَنَا وَإِن لَّمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ ﴾

**“(Adəm və Həvva) dedilər: “Pərvərdigara! Biz özümüzə sitəm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, şübhəsiz, ziyankarlardan olacağıq.”**

[1] “Təfsire-isna-əşəri”.

### *NÖQTƏLƏR*

◘Həm şeytan, həm də Adəm itaətsizlik etdi. Amma şeytan öz itaətsizliyi ilə Allahın ədalət və hikmətinə qarşı çıxdı. O öz üstünlüyünü bildirdi və peşman da olmadı. Həzrət Adəm və Həvva isə öz səhvlərini etiraf etdilər və Allahdan bağışlanmaq dilədilər.[1]

### *BİLDİRİŞLƏR*

1. Özümüzə rəva bildiyimiz sitəmlərə görə Allahdan yardım diləməli, səhvlərimizi aradan qaldırmalıyıq.
2. Adəm və Həvva həm qadağanı pozmaqda şərik idilər, həm də səhvlərini aradan qaldırıb üzr istəməkdə.
3. Hər növ xilaf insanın özünə zülmüdür. Çünki Allah göstərişləri ilə müxalifətçilik insanın həqiqi təkamül və səadətinə mane olur.
4. Öncə günahı etiraf etmək dua və tövbə qaydalarındandır.
5. Bəşərin Allahdan ilk istəyi bağışlanma və rəhmət olmuşdur.
6. Günahkar üçün ən mühüm məsələ İlahi bağışlanmadır. Qalan bütün istəklər sonrakı işdir.
7. Allahın diqqəti, lütfü və mehribançılığı əbədi ziyankarlığın qarşısını alır.

### *(AYƏ: 24)*

﴿ قَالَ اهْبِطُواْ بَعْضُكُمْ لِبَعْضٍ عَدُوٌّ وَلَكُمْ فِي الأَرْضِ مُسْتَقَرٌّ وَمَتَاعٌ إِلَى حِينٍ ﴾

**“(Allah) buyurdu: “Aşağı enin, sizin bəziniz digərinizin düşmənidir. Müəyyən müddətədək sizin üçün yer üzündə sığınacaq və bəhrələnmə vasitəsi olacaq.”**

### *(AYƏ: 25)*

﴿ قَالَ فِيهَا تَحْيَوْنَ وَفِيهَا تَمُوتُونَ وَمِنْهَا تُخْرَجُونَ ﴾

**“(O) buyurdu: “Bu yerdə yaşayar, onda ölər və ondan qiyamət sorğusu üçün çıxarılarsınız.”**

### *NÖQTƏLƏR*

◘Allah-təala “aşağı enin” əmri ilə ya Adəm, Həvva və İblisə, ya da Adəm, Həvva və onların nəslinə müraciət edir. Ayrıca şəkildə İblisə də xitab olunmuşdur.[2] Adəm və Həvvaya da ayrıca xitab olunan ayə var.[3] Əgər onların enəcəyi yer eyni olsa, “aşağı enin” əmri hər birinə aid ola bilər.

◘“İhbitu” dedikdə yerə enmək əmr olunmuşdur. Çünki əmrin davamında yer üzündən danışılır.

---

[1] “Təfsire-nümunə”.
[2] “Əraf”, 13.
[3] Bax: “Taha”, 123.

◘Allah-təala Adəm və Həvvanın tövbəsini qəbul etsə də,[1] günahın təsiri yerində qalır. Məsləhətli bir işi tərk etməklə Adəm və Həvvanın itaətsizlik göstərməsi onların behiştdən xaric olması və yerə enməsi ilə nəticələnmişdi.

### *BİLDİRİŞLƏR*

1. Xilaf və günah işin təbii təsirindən, nəticəsindən qaçmaq olmaz.
2. Bəzən valideynin günahı onun nəslinin taleyinə təsir göstərir.
3. Adəm və Həvvanın olduğu behişt yer üzündən üstün və yuxarıda qərarlaşmış bir yer idi.
4. Dünya əziyyət, zəhmət və təzad yeridir. İnsanlar mənafelər və arzuları yolunda mübarizə edirlər.
5. Dünyəvi həyat və ondan bəhrələnmə əbədi deyil.
6. İnsan ölümdən sonra növbəti dəfə diriləcək. (Həzrət Adəm narahat idi ki, bir daha behiştə dönməyəcək və əbədi həyata çatmayacaq. Allah-təala buyurdu: "Dünya həyatından sonra əbədi behiştə çata bilər.")
7. Dünya həyatının müddəti və sonu bəşərə məlum deyil.

### *(AYƏ: 26)*

﴾ يَا بَنِي آدَمَ قَدْ أَنزَلْنَا عَلَيْكُمْ لِبَاسًا يُوَارِي سَوْءَاتِكُمْ وَرِيشًا وَلِبَاسُ التَّقْوَى ذَلِكَ خَيْرٌ ذَلِكَ مِنْ آيَاتِ اللّهِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ ﴿

**"Ey Adəm övladları! Həqiqətən, sizə libas göndərdik ki, həm (çılpaqlıq) çirkinliyinizi örtsün, həm də bəzək olsun. (Amma) təqva libası (şəksiz) daha üstündür. O, Allahın nişanələrindəndir. Bəlkə onlar öyüd götürələr."**

### *NÖQTƏLƏR*

◘Həzrət Adəmin əhvalatı nəql olunduqdan sonra Allah-təala bu surədə dörd dəfə Adəm və bəşər nəslinə müraciət edir, (ayə 26, 27, 31, 35). Allah-təala bu ayələrdə əmr edir ki, təqva libası hifz olunsun. Şeytanın yalanlarına aldanılmasın, yeməkdə, içməkdə, bəzəkdə israf edilməsin və peyğəmbərlərin dəvəti qəbul olunsun.

◘"Riş" sözü quşların lələyinə işarədir. Lələk quş üçün həm geyimdir, həm də gözəllik vasitəsi. Libas da insan üçün eynən o cürdür. O, insanı örtməklə yanaşı, həm də bəzəyir.

◘Bütün nemətlər Allahın əlindədir və ilahi qeyb xəzinəsindən aşıb-daşır. Allah-təala buyurur: "Nə varsa, xəzinəsi bizim yanımızdadır. Məlum həddən artıq nazil etmirik."[2] Başqa ayələrdə də bu məsələyə toxunulur.[3] Libasın Allah tərəfindən göndərilməsi dedikdə, onun yaradılması və insanın ixtiyarına verilməsi nəzərdə tutulur.

---

[1] Bax: "Bəqərə", 37.
[2] "Hicr", 21.
[3] Bax: "Hədid", 25; "Zumər", 6.

◘“Təqva libası” dedikdə təqva, təvazö, paklıq nəzərdə tutulur. Bu söz həm də itaət, iffət, həya, saleh əməl kimi təbir olunmuşdur.[1]

### *BİLDİRİŞLƏR*

1. İlahi nemətlərə diqqət ilahi eşq və qəflətdən uzaqlıq səbəbidir.
2. Libas bədəni ilahi həddə örtdüyü halda nemətdir.
3. Libasın hazırlanmasında təbii amillərdən əlavə insanlar iştirak etsə də, bütün bunlar Allahın əlindədir.
4. Örtük və örtmək Allahın işidir. Çılpaqlıq və soyundurmaq isə şeytanın işi!
5. Libas ilahi nemətdir. Çılpaqlıq isə yalnız günahların cəzası!
6. Gözəl libaslarla örtünmək Allahın istəyincədir. İsrafa yol vermədən libaslarla bəzənməyin eybi yoxdur.
7. Mənəviyyatın kənarında maddiyyat, təqvanın kənarında bəzək olmalıdır. Libas israf, təkəbbür, fəsad, özününümayiş, modabazlıq, şəhvət vasitəsi ola bilsə də, müsbət yanaşmada o zəruridir.
8. Maddi libas insanın eyiblərini örtdüyü tək, təqva da eyblər üçün örtük səbəbidir. Təqva libası insanı həm günahlardan qoruyur, həm də ona mənəvi gözəllik verir.
9. Torpaqdan pambıq cücərir, heyvan otla qidalandıqdan sonra yun əldə olunur. İpəkqurdunun ağzının suyundan ipək istehsal edilir. Bütün bunlar ilahi ayələrdir və insanlar üçün dəlil ola bilər.

### *(AYƏ: 27)*

﴿يَا بَنِي آدَمَ لاَ يَفْتِنَنَّكُمُ الشَّيْطَانُ كَمَا أَخْرَجَ أَبَوَيْكُم مِّنَ الْجَنَّةِ يَنزِعُ عَنْهُمَا لِبَاسَهُمَا لِيُرِيَهُمَا سَوْءَاتِهِمَا إِنَّهُ يَرَاكُمْ هُوَ وَقَبِيلُهُ مِنْ حَيْثُ لاَ تَرَوْنَهُمْ إِنَّا جَعَلْنَا الشَّيَاطِينَ أَوْلِيَاء لِلَّذِينَ لاَ يُؤْمِنُونَ﴾

**“Ey Adəm övladları, məbada, şeytan sizi aldada. Necə ki, sizin ata-ananızı behiştdən çıxartdı, ayıb yerlərini göstərmək üçün hər ikisinin əynindəki libası götürdü. Həqiqətən, şeytan və onun dəstəsi sizin onları görmədiyiniz yerdən sizin görürlər. Biz şeytanları iman gətirməyənlərə dost və rəhbər qərar verdik.”**

### *NÖQTƏLƏR*

◘Ötən ayə libası bir nemət kimi qeyd etdi. Bu ayədə xəbərdarlıq olunur ki, ehtiyatlı olun, şeytan bu libas və neməti sizdən almasın.

◘Şeytan iman əhlinə vəsvəsə edib, onları büdrətsə də, onlara tam şəkildə hakim ola bilmir.[2] Çünki mömin insan tövbə və Allaha pənah aparmaqla nicat tapır. Bəli, şeytan yalnız kafirlərə hakim ola bilir.

---

[1] “Təfsire-Minhacus-Sadiqin”.

[2] Bax: “Ibrahim”, 22.

▫Elə düşünməyək ki, biz şeytanı görmədiyimiz kimi, o da bizi görmür. Harada günah üçün şərait varsa, şeytan oradadır və fitnə-fəsada çalışır.

### *BİLDİRİŞLƏR*

1. Başqalarının tarixindən və taleyindən ibrət götürək.

2. Özümüzü sığortalanmış, büdrəmədən uzaq bilməyək. Mələklərin səcdəgahı olan həzrət Adəm şeytanın yalanına aldanaraq öz məqamını itirdi.

3. Çılpaqlıq və hicabın aradan götürülməsi Allaha yaxın məqamdan xaric olma amilidir.

4. Çılpaqlıqla sonuclanan istənilən bir proqram və təbliğat şeytanidir.

5. Şeytanın məqsədi qadın və kişinin bir-biri qarşısında çılpaqlığıdır.

6. Şeytan tək deyil, onun başında dəstəsi var. [1]

7. Şeytanı gözlə görmədiyimiz üçün ondan qəflətdə qalmayaq və həmişə ehtiyatlı olaq. Şeytanın gözə görünməməsi ona aldanış səbəblərindəndir.

8. Çılpaqlıq imansızlıq və şeytanın hakimlik nişanəsidir.

9. İnsan öz əməlləri səbəbindən şeytanın hakimiyyəti altına düşür.

10. Allahın sünnəsi, qanunu budur ki, kafirlərə və günahkarlara şeytan hakim olsun.

11. Allaha iman şeytanın insan üzərindəki vilayət və hakimiyyətinə mane olur.

### *(AYƏ: 28)*

﴿ وَإِذَا فَعَلُواْ فَاحِشَةً قَالُواْ وَجَدْنَا عَلَيْهَا آبَاءنَا وَاللّهُ أَمَرَنَا بِهَا قُلْ إِنَّ اللّهَ لاَ يَأْمُرُ بِالْفَحْشَاء أَتَقُولُونَ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ ﴾

**“Əgər çirkin bir iş görsələr, (ona don geyindirərək) deyərlər ki, «biz öz atalarımızı belə gördük və Allah bizə belə göstəriş vermişdir», de ki, Allah heç vaxt çirkin işləri əmr etməz. Yoxsa, bilmədiyiniz şeyi Allaha aid edirsiniz?”**

### *NÖQTƏLƏR*

▫Təfsirlərdə bildirilir ki, bu ayə cahiliyyət ənənəsi üzrə müşriklərin təvaf halında çılpaqlığına işarədir. Onlar öz babalarına təqlid edərək uyğun rəftara yol verirdilər. Amma iddia edirdilər ki, bu işi Allah göstəriş verib.

▫Bu çirkinliyə yol verənlər öz babalarına təqlid edir və öz şirklərində Allaha əsaslanırdılar.[2] Onlar iddia edirdilər ki, Allahın istəyi ilə müşrik olmuşlar. Güman edirdilər ki, Allah onlara möhlət vermişsə, deməli, bu işdən razıdır.

▫Bu ayədə müşriklərin əvvəlcə öz babalarını, sonra Allah əmrini önə çəkməsi bəyan olunur. Bu onu göstərir ki, müşriklər babalarını Allahdan daha əhəmiyyətli sayırdılar.

---

[1] Bax: “Şurəa”, 95.

[2] Bax: “Ənam” 148; “Nəhl”, 35.

### *BİLDİRİŞLƏR*

1. Günaha don geyindirilməsi günahdan da təhlükəlidir və şeytanın nüfuz nişanəsidir.

2. Ata-babaların çirkin adət-ənənələrini izləmək, dində bidətə yol vermək imansızlıq və şeytanın vilayət nişanəsidir.

3. Bəzi əməllərin fəsadı və çirkinliyi aşkar və fitridir. (“Fahişə” elə bir günaha deyilir ki, o günahın qəbahəti və çirkinliyi aşkarda olsun.)

4. Bəzən bir nəslin çaşqınlığı o biri nəslə keçir. Azğınlar gələcək nəsillərin də günahına şərikdirlər.

5. Ata-babaların yolu heç də həmişə dəyərli olmur. Əsassız olaraq ata-babalara təqlid qadağandır.

6. Allah heç vəchlə çirkin işi əmr etməz.

### *(AYƏ: 29)*

﴿ قُلْ أَمَرَ رَبِّي بِالْقِسْطِ وَأَقِيمُوا وُجُوهَكُمْ عِندَ كُلِّ مَسْجِدٍ وَادْعُوهُ مُخْلِصِينَ لَهُ

الدِّينَ كَمَا بَدَأَكُمْ تَعُودُونَ ﴾

**“De ki, Rəbbim ədaləti fərman vermişdir. Hər bir məsciddə - dininizi Onun üçün xalis etmiş halda - üzünüzü Ona tutun və Onu çağırın. Sizi ilk öncə yaratdığı kimi yenə (Ona doğru) qayıdacaqsınız.”**

### *NÖQTƏLƏR*

◘“Qist” həddi aşmanın antonimidir. Yəni hər bir kəsin haqqını başqasına yox, onun özünə vermək “qist”dir.

◘Bu ayədə müxtəlif məsələlər bəyan olunmuşdur. Ayədə tərbiyə, ədalət, ibadət, cəmiyyət, vəhdət, dua, niyyət, ixlas, həşr və qiyamət mövzularına toxunulur.

◘Mərhum Təbərsi “dininizi Onun üçün xalis edin” cümləsinin namazdan sonra xalisanə dua və naləyə işarə olduğunu bildirir. İmam Sadiq (ə) buyurmuşdur: “Namazdan sonra həzrət Zəhranın (ə) təsbihi min rəkət namazdan üstündür.”[1]

◘Məad cismanidir. Torpaq zərrələri qidalar vasitəsi ilə vücudu formalaşdırdığı kimi, insanın çürümüş sümükləri də bir yerə toplanar. Sizi bir hüceyrə, spermadan yaradan qüdrət, şübhəsiz ki, Qiyamətdə də yenidən dirildə bilər. Rəvayətdə oxuyuruq ki, “sizi ilk öncə yaratdığı kimi qayıdacaqsınız”

---

[1] “Təfsire-isna-əşəri”.

dedikdə, insanın ölən vaxt malik olduğu əqidədə yenidən diriləcəyi nəzərdə tutulur. Deməek, möminlər imanla, kafirlər isə öz küfrləri ilə ayağa qaldırılacaqlar.[1]

◘Hədisdə oxuyuruq: “İnsanlar qiyamət səhnəsinə üryan və ayaqyalın gətirilərlər.[2] Onlar anadan olduqları vəziyyətdə məhşur olarlar.

### *BİLDİRİŞLƏR*

1. İnsana ədalət əmr olunmuşdur. Çirkin əməl ədalət dairəsindən kənardır.
2. Dinə səmimi qəlbdən, xalisanə bağlılıq ədalətin möhkəmlənməsi üçün zəmindir.
3. Azğınlıqdan çəkinmək ibadət mövzusu ilə yanaşı bəyan olunmuşdur. İbadət və namaz ədalətlə müşayiət olunduqda daha dəyərlidir.
4. Düzgün tərbiyə ədalətli quruluşda mümkündür. Ədalət ilahi rübubiyyət şənindəndir.
5. Din insanın ictimai, ibadi və ideoloji yönümlərini tamamlayır.
6. Məscid riya və şirk yeri yox, ixlas mərkəzidir.
7. Xalis niyyət dua şərtlərindən biridir.
8. Məada diqqət və iman ədalət və ixlas hisslərinin güclənmə amilidir.
9. İnsanın ilkin yaranışı məadın mümkünlüyünə dəlildir.

### *(AYƏ: 30)*

﴿ فَرِيقًا هَدَى وَفَرِيقًا حَقَّ عَلَيْهِمُ الضَّلاَلَةُ إِنَّهُمُ اتَّخَذُوا الشَّيَاطِينَ أَوْلِيَاء مِن دُونِ اللّهِ وَيَحْسَبُونَ أَنَّهُم مُّهْتَدُونَ ﴾

“(Allah bir dəstəni hidayət etdi. (Amma) digər bir dəstə azğınlığa layiqdir. Çünki onlar Allahın yerinə şeytanı özlərinə rəhbər seçdilər və elə güman edirlər ki, hidayət olunmuşlardırlar.”

### *BİLDİRİŞLƏR*

1. Hidayət Allahın işidir. Azğınlıq isə öz yanlış seçimimizin nəticəsidir.
2. Nə qədər ki, Allahla əlaqəmizi kəsməmişik, şeytanın bütün vəsvəsələri Allahın zikri və tövbə ilə aradan qaldırıla bilər.[3] Allahla əlaqəni kəsmək isə şeytanın toruna düşməklə, onun hakimiyyətinə itaətlə nəticələnir. Belə bir azğınlıq aradan qaldırılası deyil.
3. İnsan azaddır və o həm ilahi vilayəti, həm də şeytanın hakimiyyətini seçə bilər.
4. Azğınların baxışı həqiqətə yox, onların xəyallarına əsaslanır.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Təfsire-Fürqan”.
[3] Bax: “Əraf”, 201.

5. Düşüncə çaşqınlığı ("cəhle-mürəkkəb"), yəni azğının özünü haqq yolda bilməsi ən pis azğınlıqlardandır. [1]

*(AYƏ: 31)*

﴿ يَا بَنِي آدَمَ خُذُواْ زِينَتَكُمْ عِندَ كُلِّ مَسْجِدٍ وكُلُواْ وَاشْرَبُواْ وَلاَ تُسْرِفُواْ إِنَّهُ لاَ يُحِبُّ الْمُسْرِفِينَ ﴾

**"Ey Adəm övladları! Hər bir məsciddə (namaz zamanı) öz zinətlərinizi özünüzlə götürün. Yeyin, için, amma israf etməyin. Həqiqətən, Allah israfçıları sevmir."**

***NÖQTƏLƏR***

◘Belə bir nəticəyə gəlmək olar ki, Qurandakı "Ey Adəm övladları" xitabı ilə bəyan olunan əmrlər bütün insanlara, bütün dinlərə aiddir.

◘Quran var-dövlət və övladı zinət adlandırmışdır.[2] Ayədə məqsəd bu ola bilər ki, iqtisadi çətinliyi olanlara yardım göstərmək və gələcək nəslin tərbiyə problemlərini həll etmək üçün məscidə gedərkən özümüzlə bir qədər pul və övladımızı götürməliyik.

◘Cəmiyyət namazında ədalətli imam, namazda zahiri bəzək, ətir vurmaq, gözəl libas geymək, rüku və səcdələrdə təkbir üçün əlləri qaldırmaq, bayram və cümə namazlarında iştirak etmək zinət nümunələrindən sayılmışdır.[3]

◘İmam Həsən Müctəba (ə) namaz zamanı və məsciddə olarkən ən yaxşı libasını geyərdi. Həzrət buyurur: "Allah gözəldir və gözəlliyi sevir. Mən gözəl libası Allahım üçün geyinirəm." Sonra o, hazırkı ayəni tilavət etmişdir.[4]

◘Allah gözəlliyi sevməsəydi, uyğun əmri verməzdi. İslam fitri ayindir və insan fitrət üzündən gözəllikdən, zinətdən ləzzət alır.

◘Məscidə bəzənib getmək Allah bəndələrinə və ibadətə ehtiramdır. Bu iş həm də başqalarını ibadətə həvəsləndirir.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Var-dövlət insanın əlində Allahın əmanətidir. Onda israfa yol verilməməlidir.[5]

◘Zinət və təamdan istifadə fitri və təbii bir iş olsa da, ehtiyaclıların və məhrumların olduğu xüsusi şəraitdə onların dərdinə şərik olmaq lazımdır. Tarixə nəzər saldıqda görürük ki, rifahlı bir dövrdə yaşayan İmam Sadiqin (ə) libası yoxsulluq dövründə yaşamış Həzrət Əlinin (ə) libasından fərqlənir. Demək, ictimai şərait, xalqın vəziyyəti libasda özünü göstərir.[6]

---

[1] Bax: "Kəhf", 103, 104.
[2] Bax: "Kəhf", 46.
[3] "Təfsire-Nurus-səqəleyn"; "Təfsire-Minhacus-Sadiqin"; "Təfsire-isna-əşəri".
[4] "Təfsire-Məcməül-bəyan".
[5] "Təfsire-Safi".
[6] "Təfsire-isna-əşəri".

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bir gününün ruzisi olduğu halda qane olmayıb xalqdan nəsə istəyən kəs israfçılardandır.”[1]

◘Yeməkdə israf və qarınqulu,luq cisim və ruhla bağlı bir çox xəstəliklərin səbəbidir. Çox yemək qəlbi daşlaşdırır və insanı ibadətin ləzzətini dadmaqdan məhrum edir. Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Mədə bütün xəstəliklərin mərkəzidir.” Məsihi bir həkim, haqqında danışdığımız ayəni və hədisi eşitdikdə dedi: “Bütün tibb elmi bu ayədə və sizin peyğəmbərin buyruğunda ifadə olunmuşdur.”[2]

İmam Sadiq (ə) buyurmuşdur: “Var-dövlətin əldən çıxmasının və bədənə zərər yetişməsinin səbəbi israfdır.[3] Digər bir rəvayətdə oxuyuruq: “Allah yolunda çox xərclənsə, bu, israf deyil. Günah yolunda xərclənən isə, az da olsa, israfdır.”[4]

### *BİLDİRİŞLƏR*

1. Müsəlmanların sığınacaq mərkəzi olan məscid gözəl, təmiz və cazibəli olmalıdır.
2. Ən gözəl libas ən gözəl məkan üçündür.
3. İslam namazda həm batinə, həm də zahirə diqqət yetirir. Bəli, İslamda zahir və batin, dünya və axirət bir-birindən ayrı deyil.[5]
4. Fərdi namazda da dəyərli olan zinətin cəmiyyət və məsciddə xüsusi bir dəyəri var.
5. Əvvəl namaz, sonra yemək! Əvvəlcə ruha, sonra cismə diqqət!
6. Allah həddi gözləyəni sevir. Zinət və qidadan istifadə zamanı israfa yol verilməməlidir.

### *(AYƏ: 32)*

﴿قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللّهِ الَّتِيَ أَخْرَجَ لِعِبَادِهِ وَالْطَّيِّبَاتِ مِنَ الرِّزْقِ قُلْ هِي لِلَّذِينَ آمَنُواْ فِي الْحَيَاةِ الدُّنْيَا خَالِصَةً يَوْمَ الْقِيَامَةِ كَذَلِكَ نُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ﴾

**“De ki, Allahın Öz bəndələri üçün yaratdığı zinətləri və pak, xoşagələn ruziləri kim özünə haram etmişdir? De ki, bu (nemətlər) dünya həyatında möminlər üçündür. Qiyamətdə isə (bu nemətlər) xüsusidir (möminlərə məxsusdur). Biz Öz ayələrimizi bilən qövm üçün bu sayaq müfəssəl bəyan edirik.”**

### *NÖQTƏLƏR*

◘Bu ayədə zinət insan üçün halal sayılmışdır. Quran ulduzlarla bəzənmiş səmanı da tamaşaçılar üçün ilahi nemət sayır.[1] Amma zinətə vurğunluq insanı

---

[1] “Təfsire-Fürqan”.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Kafi”, c. 2, s. 499.
[4] “Təfsire-Minhacus-Sadiqin.”
[5] Bax: “Muminun”, 2.

həlak etməməlidir. İnsan zinətə meylinə nəzarət etməlidir. Quran qadınlara haram edir ki, zinətlərini naməhrəmlərə göstərsinlər.[2]

◘Osman ibn Məzun həzrət Peyğəmbərin xidmətinə gələrək ailəsindən kənarlaşıb tənhalığa çəkilmək qərarını bildirdi. Həzrət ciddi şəkildə bu işi qadağan edib buyurdu: "Şəhvətini cilovlamaq üçün oruc tut, rahiblik əvəzinə məscidə get və namazın intizarında otur. Biyabanda avara gəzmək əvəzinə döyüş cəbhəsinə, həcc və ümrəyə qatıl. Zövcəndən və ətridən istifadə et, öz malından məhrumlara ver, haramlardan uzaqlaş. Mənim yolum budur. Hər kəs bu yoldan çıxsa və tövbə etməsə, mələklər Kövsər hovuzuna daxil olmağı ona qadağan edəcək."[3]

◘Asim ibn Ziyad da öz yaşayış üsulunu dəyişmək, halal ləzzətlərdən uzaqlaşmaq qərarına gəldi. Həzrət Əli (ə) bu şəxsi məhkum etdi. Asim Həzrət Əlidən (ə) soruşdu: "Bəs nə üçün özün bu qədər sadə yaşayırsan? İmam (ə) buyurdu: "Mən cəmiyyətin rəhbəriyəm və Allah rəhbərlərə vacib edib ki, öz həyat səviyyələrini cəmiyyətin ən zəif fərdlərinin həyat səviyyəsində saxlasınlar və başqalarının qəminə şərik olsunlar.[4]

◘Həzrət Əli (ə) İbn-Abbası nümayəndə seçib, yolunu azmış xarici məzhəblərin yanına göndərərkən ona göstəriş verdi ki, ən yaxşı libaslarını geysin, ətirlənsin və yaxşı bir ata süvar olsun.[5]

◘Bəziləri bu ayəni belə təfsir etmişlər ki, dünya bəzəyi və qidalarda bir növ acılıq qatqısı varsa, axirət zinəti və qidalarında heç bir ağrı-acı yoxdur.

## *BİLDİRİŞLƏR*

1. Peyğəmbər (s) bidətlərlə mübarizəyə məsuldur.
2. İslam yersiz zahidlik, riyazət (nəfsi sıxıntıya salmaq) və rahibliklə müxalifdir.
3. Zinətlərdən və pak şeylərdən istifadə edərkən onların haramlığına dəlil yoxdursa, hər birini halal saymalıyıq.
4. Zinətlərdən münasib şəkildə istifadə etmək və xalqı buna həvəsləndirmək yaxşı işdir. Çünki zinət Allah tərəfindən bəyənilmişdir.
5. Allaha yaxınlaşmaq üçün halal və pak nemətləri tərk etmək yox, onlardan öz həddində istifadə etmək lazımdır.
6. İslam fitrətə uyğundur və orta həddi gözləyən ayindir. İslam insanların təbii ehtiyaclarına müsbət cavab verir. Din faydalı şeyləri halal, zərərli şeyləri haram sayır.
7. İnsanların qida kimi zinətə də ehtiyacları var. (Zinət qidalarla yanaşı qeyd olunur.)

---

[1] Bax: "Hicr", 16.
[2] Bax: "Nur", 31.
[3] "Təfsire-Kəbire-Fəxr Razi".
[4] "Kafi", c. 1, s. 410.
[5] "Təfsire-Minhacus-Sadiqin."

8. Nemətləri yaratmaqda əsas məqsəd onlardan möminlərin istifadə etməsidir. Halbuki kafirlər də bu nemətlərdən faydalanır. Başqa bir ayədə isə belə buyurulur: “Bütün yer üzündə olanları zinət qərar verdik ki, kimin daha yaxşı əməl etdiyini üzə çıxarmaq üçün onları sınayaq.”[1]

9. Dünya nemətlərindən bəhrələnməkdə möminlər və kafirlər eynidir. Qiyamətdə isə nemətlərdən istifadə ixtiyarı yalnız möminlərə məxsusdur.

10. Allahın yanında elm və alimin xüsusi məqamı var.

### *(AYƏ: 33)*

﴿قُلْ إِنَّمَا حَرَّمَ رَبِّيَ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَالإِثْمَ وَالْبَغْيَ بِغَيْرِ الْحَقِّ وَأَن تُشْرِكُواْ بِاللّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا وَأَن تَقُولُواْ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ﴾

**“(Ey peyğəmbər) de ki, həqiqətən, Rəbbim - istər aşkar, istər gizli - çirkin işləri, günahı, sitəmi, haqsız boyun qaçırmağı, haqlı olmasına heç bir dəlil nazil olmamış bir şeyi Allaha şərik qərar verməyi, bilmədiyiniz şeyi Allaha aid etməyi haram buyurmuşdur.”**

### *NÖQTƏLƏR*

◘“Fəvahiş” çirkinliyi hamıya məlum olan zina kimi günaha deyilir. Cahiliyyət dövründə bu sayaq əməllərə gizlin şəkildə əməl etmək rəva sayılırdı. Ayədə həmin əməllərin haramlığı təkidlə bəyan olunur.

◘İnsanın süqutu ilə nəticələnən günah “ism”, «اثم» başqalarının haqqına təcavüz isə “bəğy” adlanır. Ayədə etiqada və dilə aid olan günah növlərinə işarə olunur.

◘Zalım rəhbərlərin hakimiyyətini qəbul etmək rəvayətlərdə batini günah kimi yad edilir.[2]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Elm və agahlıq olmadan hökm verən kəs göy və yer mələklərinin lənətinə gələr.”[3]

◘Zurarə İmam Sadiqdən (ə) soruşdu: “Allahın Öz bəndələrindən tələbi nədir?” Həzrət buyurdu: “Yalnız bildiklərini desinlər, bilmədikdə sükut edib dayansınlar.”[4]

---

[1] “Kəhf”, 7.

[2] “Təfsire-Nurus-səqəleyn”.

[3] “Təfsire-nümunə”.

[4] “Təfsire-Fürqan”.

### *BİLDİRİŞLƏR*

1. İlahi qadağalar insanın tərbiyəsi, inkişafı üçündür.

2. Halallar çox, haramlar azdır. Allahın haram buyurduğu şeylər ayə və rəvayətlərdə bəyan olunmuşdur.

3. Xalq anlamasa da, günahın zata və əqlə aid çirkinliyi var.

4. Müşriklər öz etiqadlarının sübutu üçün heç bir dəlilə malik deyildirlər.

5. Təbliğ və pis işlərin qadağasında əvvəlcə halal yollar bəyan olunur, sonra haram işlərə qadağa qoyulur. (Əvvəlki ayədə halallar, bu ayədə haramlar bəyan olundu.)

6. Möhkəm dəlillər insanın əqlinə və ruhuna təlqin olunmuş ilahi lütf növüdür.

7. Allaha istinad edərkən elm və dəlilə əsaslanmaq lazımdır. Bəli, bütün iddialar, xüsusi ilə varlıqla bağlı olduqda, dəlil və məntiqə əsaslanmalıdır.

### *(AYƏ: 34)*

﴿ وَلِكُلِّ أُمَّةٍ أَجَلٌ فَإِذَا جَاء أَجَلُهُمْ لاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ ﴾

**“Hər bir ümmət üçün əcəl və son var. Onların əcəli çatdıqda onu nə bir an təxirə sala bilər, nə də qabağa qaça bilərlər.”**

### *NÖQTƏLƏR*

◘Bu Quran ayəsinə əsasən təkcə fərdlərin yox, dövlətlərin, millətlərin, ümmətlərin, mədəniyyətlərin də sonu və əcəli var.

***Sinənin üstünə çökdüsə əcəl,***
***Artıq bir nəfəsə verilməz macal.***

### *BİLDİRİŞLƏR*

1. Dünya və onda olanlara qürrələnməyək, haramlardan çəkinək.

2. Varlıq aləmində Allahın dəqiq nizamından və hesabından kənarda heç bir təsadüf yoxdur. Ümmətlərə də qanunlar hakimdir.

3. İxtiyarımızdakı fürsət və imkanlar bir vaxt əldən çıxasıdır. Fürsət varkən imkan daxilində onlardan düzgün istifadə edək.

4. Zalımlar Allahın möhlətini ilahi lütf nişanəsi saymasınlar. Çünki onlar üçün də dayanacaq var.[1]

5. Allah yolunun mücahidləri zalımların hakimiyyətinə görə öz ümidlərini itirməsinlər. Onlar çalışmalı və bilməlidirlər ki, zalım hakimlər də bir gün gedəsidirlər.

6. Ardıcıl şəkildə qruplar qüdrətə çatır, sınanır və məhv olub gedir.

---

[1] Bax: “Kəhf”, 59.

*(AYƏ: 35)*

﴿ يَا بَنِي آدَمَ إِمَّا يَأْتِيَنَّكُمْ رُسُلٌ مِّنكُمْ يَقُصُّونَ عَلَيْكُمْ آيَاتِي فَمَنِ اتَّقَى وَأَصْلَحَ فَلاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ ﴾

**“Ey Adəm övladları! Nə vaxt ayələrimi sizə oxumaq üçün özünüzdən olan peyğəmbərlər gəlsə (onlara itaət edin). Təqva və məsləhət yolunu tutanlar üçün heç bir qorxu yoxdur və onlar qəmlənməzlər.”**

*(AYƏ: 36)*

﴿ وَالَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَاسْتَكْبَرُواْ عَنْهَا أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ ﴾

**“Ayələrimizi təkzib edən və təkəbbürlə ondan boyun qaçıran kəslər atəşə həmdəmdirlər və həmişə onda qalacaqlar.”**

### *NÖQTƏLƏR*

◘“Xəvf” dedikdə gələcək işlərə münasibətdəki qorxu nəzərdə tutulur. “Hüzn” isə keçmiş və əldən çıxanlarla bağlı qəmdir. Hüznün antonimi şadlıqdır.[1]

### *BİLDİRİŞLƏR*

1. İlahi vəhyin bəyanı üçün peyğəmbərlərin göndərilməsi ilahi sünnə, qanunlardandır.
2. Vəhyi gətirənin xalqla eyni növdən olması sözün nüfuz və təsir yollarındandır.
3. İnsan azaddır, ixtiyar sahibidir. Onun taleyi öz əməllərindən asılıdır.
4. Müttəqi (təqvalı) dedikdə guşənişin yox, islah və müsbət fəaliyyətlərlə məşğul olan kəs nəzərdə tutulur.
5. İnsan başqalarının islahına cəhd göstərməmişdən qabaq təqva əldə etməli, özünü tərbiyələndirməlidir. İslah edən kəs təqvalı olmalıdır.
6. Peyğəmbərin mömin və həqiqi peyğəmbər ardıcılı o kəsdir ki, təqva və islah əhli olsun.
7. Həqiqi aramlıq təqva və islah sayəsində mümkündür.

[1] “Ət-təhqiq fi kəlimatil-Quran”.

8. Haqqın təkzibi, təkəbbür və peyğəmbərlərə itaətsizliyin nəticəsi əbədi cəhənnəm əzabıdır.

*(AYƏ: 37)*

﴿فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللّهِ كَذِبًا أَوْ كَذَّبَ بِآيَاتِهِ أُوْلَئِكَ يَنَالُهُمْ نَصِيبُهُم مِّنَ الْكِتَابِ حَتَّى إِذَا جَاءتْهُمْ رُسُلُنَا يَتَوَفَّوْنَهُمْ قَالُواْ أَيْنَ مَا كُنتُمْ تَدْعُونَ مِن دُونِ اللّهِ قَالُواْ ضَلُّواْ عَنَّا وَشَهِدُواْ عَلَى أَنفُسِهِمْ أَنَّهُمْ كَانُواْ كَافِرِينَ﴾

**"Allaha iftira qoşan, Onun ayələrini təkzib edən kəsdən də sitəmkarı kimdir?! Bizim elçilərimiz onların canlarını almaq üçün soraqlarına gələnədək onlar kitabdan (kitabda yazılan qədər dünyadan) bəhrələrini alacaqlar. (Elçilərimiz onlara) deyər: "Allahın yerinə çağırdıqlarınız haradadır?" Onlar deyərlər: "Hamısı gözümüzdən itib yox oldu." Onlar öz əleyhlərinə şəhadət verərlər ki, kafirlərdən olmuşlar."**

### *NÖQTƏLƏR*

◘Allaha qarşı iftira dedikdə, adətən, Allaha şirk nəzərdə tutulur.[1] Əlbəttə ki, heç bir dəlil olmadan bir şeyi halal və ya haram bilmək bidət və Allaha iftiradır. Peyğəmbərlərin təkzib olunması da Allaha münasibətdə yalanın bir növüdür.

◘Quranda 150 dəfəyədək bəziləri xalqın ən zalımı kimi tanıtdırılır. Söhbət həm özünə, həm də cəmiyyətə zülm edənlərdən gedir. Bütün bunların kökü şirk, küfr və inaddır.[2]

◘Ayədəki "nəsibuhum minəl-kitab" dedikdə "Lövhe-Məhfuz"da qeydə alınmış ruzi, həyat və ölüm, dünya səadəti və bədbəxtlik, axirətdə əməllərin cəzası nəzərdə tutulur.[3]

### *BİLDİRİŞLƏR*

1.Təkzib, Allaha qarşı iftira və bidətçilik ən böyük sitəmlərdəndir.

2. Dünyada hər bir insanın qeydə alınmış qisməti, bəhrəsi var.

3. Mələklərə ruhları çıxarmaq əmr olunmuşdur.

4. İnsanın mahiyyəti ruhdan ibarətdir.

5. İnsan ölümü gördükdə qəflət yuxusundan oyanır və ruhu çıxaran mələklərlə ünsiyyətdə olur. Amma bütün bunların nə faydası?!

6. İnsanın sorğuya çəkilməsinin ilk mərhələsi ölüm anından başlayır.

7. Qiyamətin ilkin suallarından biri məbud haqqındadır.

8. Allahdan qeyri nə varsa bir ilğımdır. Müşriklər ölüm anında bütün məbudlarının puçluğunu etiraf edərlər.

9. Qiyamətdə ilkin qazi insanın vicdanıdır.

---

[1] "Təfsire-Əl-mizan".

[2] "Təfsire-nümunə", c. 5, s. 184.

[3] "Təfsire-isna-əşəri".

*(AYƏ: 38)*

﴿قَالَ ادْخُلُواْ فِي أُمَمٍ قَدْ خَلَتْ مِن قَبْلِكُم مِّن الْجِنِّ وَالإِنسِ فِي النَّارِ كُلَّمَا دَخَلَتْ أُمَّةٌ لَّعَنَتْ أُخْتَهَا حَتَّى إِذَا ادَّارَكُواْ فِيهَا جَمِيعًا قَالَتْ أُخْرَاهُمْ لأُولاَهُمْ رَبَّنَا هَؤُلاء أَضَلُّونَا فَآتِهِمْ عَذَابًا ضِعْفًا مِّنَ النَّارِ قَالَ لِكُلٍّ ضِعْفٌ وَلَكِن لاَّ تَعْلَمُونَ﴾

**"Onlar ölüm məqamı küfrlərini etiraf etdikdən sonra (Allah) buyurar: Siz də sizdən əvvəlki cin və ins dəstələri arasında cəhənnəmə daxil olun. (Cəhənnəmə) daxil olan hər bir dəstə onu çəkən dəstəyə lənət oxuyar. Nəhayət, hamı birlikdə cəhənnəmdə toplanar. Həmin vaxt sonuncu dəstə əvvəlki dəstə haqqında deyər: «Pərvərdigara! Bizi azdıran onlar idi. Cəhənnəm odundan onlara ikiqat əzab ver.» (Allah) buyurar: «Hər biriniz üçün (əzab) ikiqatdır, amma bilmirsiniz.»"**

## *NÖQTƏLƏR*

◘Qiyamətin təsirli səhnələrindən biri də cəhənnəm əhlinin bir-biri ilə söhbətidir. Cəhənnəm əhlinin onların bədbəxtliyinə düçar olmuş başçılarla söhbəti xüsusi təsirə malikdir. Orada təqvasız dostlar bir-birləri ilə düşmən olar.[1] Bəzən cəhənnəm əhli onların azğınlıqlarına səbəb olanları görüb ayaqlamaq istər.[2] Bəzən onlar zalım başçılara itaətlərini öz süqutlarının amili sayarlar.[3] Əslində isə insan ixtiyar sahibidir və seçim azadlığına malikdir. O öz azğınlığını başqalarının boynuna atmaqla canını qurtara bilməz.

◘İmam Sadiq (ə) buyurmuşdur: «Azdıran rəhbərlər dedikdə, günahkar və zalım rəhbərlər nəzərdə tutulur.»[4]

◘Qiyamətdə zalım rəhbərlər və onların ardıcılları ikiqat cəzalandırılar. Azğınlar öz rəhbərləri üçün ikiqat cəza istədikdə, onlara bildirilər ki, onlar özləri də ikiqat cəzalandırılacaq. Rəhbərlərin ikiqat cəzalandırılmasının səbəbi onların həm özlərini, həm də başqalarını azdırmasıdır. Ardıcılların ikiqat cəzalandırılmasının səbəbi isə həm onların azğınlıqları, həm də öz himayələri ilə zalım rəhbərlərə rövnəq verməleridir.

## *BİLDİRİŞLƏR*

1. Beşihtdə kin-küdurət və düşmənçilik yoxdur. Başdan-başa sülh və səfa hökm sürür. Cəhənnəmdə isə onun əhli bir-birini lənətləyir. [5]

2. Cin tayfasının da insan nəsli kimi vəzifələri var. Hər iki tayfadan olan günahkarların aqibəti oxşardır və onlar eyni bir cəhənnəmdə əzab çəkəsidirlər.

---

[1] Bax: "Zuxruf", 67.
[2] Bax: "Fussilət", 29.
[3] Bax: "Əhzab", 67.
[4] "Təfsire-Nurus-səqəleyn".
[5] Bax: "Ənkəbut", 25.

3. Kafirlər cəhənnəmə bir dəfəyə daxil olmur. Cəhənnəmə girişdə tərtib və növbə var.

4. Qeyri-ilahi hakimiyyətlər, məhəbbətlər və himayələr qiyamətdə kin-küdurətə, nifrətə və düşmənçiliyə dönər.

5. Qiyamətdə hamı günahını bir başqasının ayağına yazmaq və ya günahına şərik tapmaq istəyər.

6. Bəzən insan düçar olduğu cəzalardan qəflətdə qalır.

*(AYƏ: 39)*

﴿ وَقَالَتْ أُولاَهُمْ لأُخْرَاهُمْ فَمَا كَانَ لَكُمْ عَلَيْنَا مِن فَضْلٍ فَذُوقُواْ الْعَذَابَ بِمَا كُنتُمْ تَكْسِبُونَ ﴾

**"(Əzabda) öndə gedən dəstə ardınca gələnlərə deyər: "Sizin bizdən heç bir üstünlüyünüz yoxdur, qazandıqlarınıza görə əzabı dadın."**

*(AYƏ: 40)*

﴿إِنَّ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَاسْتَكْبَرُواْ عَنْهَا لاَ تُفَتَّحُ لَهُمْ أَبْوَابُ السَّمَاء وَلاَ يَدْخُلُونَ الْجَنَّةَ حَتَّى يَلِجَ الْجَمَلُ فِي سَمِّ الْخِيَاطِ وَكَذَلِكَ نَجْزِي الْمُجْرِمِينَ﴾

**"Həqiqətən, ayələrimizi yalan sayıb təkəbbürlə ondan üz döndərənlər üçün səma (rəhmət) qapıları açılmaz, behiştə daxil olmazlar. Yalnız dəvə iynənin gözündən keçsə (bu iş mümkün olar). Günahkarları bu sayaq cəzalandırarıq."**

*NÖQTƏLƏR*

◘İmam Sadiq (ə) buyurmuşdur: "Möminlərin əməlləri və ruhları səmaya doğru aparılar və səma qapıları onların üzünə açılar. Kafirlərin əməlləri və ruhlarını isə səmaya doğru qaldırarkən qəfildən bir nida gələr: "Onu cəhənnəmə doğru endirin."[1]

◘"Cəməl" ya dəvədir, ya da gəmini sahilə bərkidən qalın kəndir mənasını bildirir. Amma ayədə kafirlərin behiştə daxil olmasının mümkünsüzlüyü bəyan olunduğundan, dəvə və dəvənin iynənin gözündən keçməsi mənası daha münasib görünür. "Təfsire-nümunə"də oxuyuruq: "Cəməl" sözü daha çox dəvə mənasında işlədilmişdir. Rəvayətlərə əsasən bu məna daha çox uyğun gəlir."

Luqa incilində deyilir: "Dəvənin iynə gözündən keçməsi sərmayədarların, dövlətlilərin uca fələklərə qalxmasından daha asandır.[2]

◘40-cı ayənin zahirindən belə görünür ki, behişt səmalardadır və oraya daxil olmaq üçün səma qapılarından keçmək lazımdır.[3]

---

[1] "Təfsire-Məcməül-bəyan".

[2] "Luqa incili", b. 18, ayə 24.

[3] "Təfsire-Əl-mizan"; "Təfsire-kəbir".

◘Həzrət Əli (ə) buyurmuşdur: “Səma qapıları beş halda açıqdır: Mücahidlər döyüşəndə, yağış yağanda, Quran tilavət ediləndə, fəcr (sübh) vaxtı, azan nidası gələndə.”[1]

◘Üzünə səma qapıları açıq olan təqvalı möminlərin əksinə olaraq, bu qapılar təkzibçi kafirlərin üzünə bağlıdır.

***BİLDİRİŞLƏR***

1. Qiyamətdə azğın rəhbərlər öz ardıcıllarını düçar olduqları əzaba şərik bilərlər.
2. Şirk ardıcılları əzabdan qurtulmaq üçün başçılarına nisbətdə heç bir üstünlüyə malik deyildirlər.
3. Hətta cəhənnəm əhli də inanır ki, insanın taleyi onun əməllərindən asılıdır.
4. İlahi rəhmətin nazil olmasında və ya kəsilməsində insanın əməl və rəftarı təsirlidir.
5. İlahi ayələrin təkzibi və dini maarifin qəbul olunmaması bütün rəhmət və behiştə giriş qapılarının bağlanması səbəbidir.
6. Qiyamətdə günahkarları Öz rəhmətindən məhrum etmək Allahın sünnəsidir.

*(AYƏ: 41)*

﴿ لَهُم مِّن جَهَنَّمَ مِهَادٌ وَمِن فَوْقِهِمْ غَوَاشٍ وَكَذَٰلِكَ نَجْزِي الظَّالِمِينَ ﴾

**“Günahkarlar üçün cəhənnəmdə yataqlar, başlarının üstündə (oddan) örtüklər var. Sitəmkarları bu sayaq cəzalandırarıq.”**

***NÖQTƏLƏR***

◘“Mihad” yataq mənasını bildirir. Cəhənnəm əhli üçün yataq hazırlanması ifadəsində istehza var. Yəni onların son mənzili cəhənnəmdir.[2] “Ğəvaş” örtük, xeymə mənasını bildirir.

◘Allah inadkar və dönük dəstəni 37-ci ayədə “kafir”, 40-cı ayədə “günahkar”, hazırkı ayədə “zalım” kimi yad edir. Doğrudan da, ilahi ayələri təkzib edənlər bütün bu ləqəblərə layiqdirlər.[3]

Həzrət Peyğəmbər (s) bu ayəni tilavət etdikdən sonra buyurdu: “Cəhənnəmin yuxarıdan və aşağıdan təbəqələri var. Məlum deyil ki, yuxarıda, yoxsa aşağıda təbəqə daha çoxdur. Kafirlər təbəqələr arasında yerləşər və daim sıxıntıda olarlar.” Həzrət (s) buyurur: “Kafirlərin qəbirdə döşənəcəyi cəhənnəm odudur.”[4]

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-fi Zilalil-Quran”.
[3] Bax: “Bəqərə”, 254.
[4] “Təfsire-nümunə”.

### *BİLDİRİŞLƏR*

1.Cəhənnəm kafirlərin vücudunu bütün tərəflərdən əhatə edər. [1]

*(AYƏ: 42)*

﴿وَالَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ لاَ نُكَلِّفُ نَفْسًا إِلاَّ وُسْعَهَا أُوْلَئِكَ أَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“İman gətirib, layiqli işlər görənlər (əməlləri qəbul olunanlardır, çünki) kimsəni gücündən artıq vəzifələn-dirmirik. Onlar behiştlə həmdəmdir və orada əbədidirlər.”**

### *BİLDİRİŞLƏR*

1. Əbədi behişt imanla saleh əməlin birliyinin mükafatıdır.
2. Bütün layiqli işlər bəyənilsə də, hər kəs gücü qədərincə məsuldur.
3. İslamda gücdən artıq vəzifə yoxdur. [2]

*(AYƏ: 43)*

﴿وَنَزَعْنَا مَا فِي صُدُورِهِم مِّنْ غِلٍّ تَجْرِي مِن تَحْتِهِمُ الأَنْهَارُ وَقَالُواْ الْحَمْدُ لِلّهِ الَّذِي هَدَانَا لِهَذَا وَمَا كُنَّا لِنَهْتَدِيَ لَوْلا أَنْ هَدَانَا اللّهُ لَقَدْ جَاءتْ رُسُلُ رَبِّنَا بِالْحَقِّ وَنُودُواْ أَن تِلْكُمُ الْجَنَّةُ أُورِثْتُمُوهَا بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Onların sinələrindəki hər növ kin-küdurəti silib atdıq (ki, səfa və səmimiyyət içində keçinsinlər). Altlarından çaylar axır və deyirlər: “Bizi buna hidayət etdiyi üçün Allaha şükür olsun. Əgər Allah bizi hidayət etməsəydi, (özbaşına) hidayət olmazdıq. Şəksiz, Rəbbimizin elçiləri bizim sorağımıza düzlüklə gəldilər.” Onlara (hidayət əldə edənlərə) xitab olunar: “Bu, öz əməllərinizə görə varisi olduğunuz həmin behiştdir.”**

### *NÖQTƏLƏR*

◘“Ğill” dedikdə məxfi surətdə olan nüfuz nəzərdə tutulur. Gizli şəkildə insanın ruhuna nüfuz edən kin və həsəd də elə bu səbəbdən “ğill” adlandırılmışdır.

◘Ötən ayələrdə oxuduq ki, cəhənnəm əhli bir-birini lənətləyir. Burada isə belə buyurulur: “Behişt əhli arasında bir-birlərinə qarşı heç bir kin yoxdur. Onların arasında sülh, səfa və məhəbbət hökm sürür.” Behiştdə dərəcələr fərqli olsa da, kimsə kimsəyə həsəd aparmır, kin saxlamır.

---

[1] Bax: “Ənkəbut”, 54; “Zumər”, 16; “Ənkəbut”, 55.

[2] Bax: “Həcc”, 77; “Bəqərə”, 185.

◘Behişt arxları su ilə doludur. Ona görə də Allah suyun yox, çayların, arxların cərəyanından danışır. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Behişt arxları behişt əhlinin məskənləri altından axır."[1]

◘Hədislərə əsasən behişt və cəhənnəmdə hər bir mömin və kafirin yeri var. Amma mömin kafirin behiştdəki, kafir isə möminlərin cəhənnəmdəki yerini irs alır.[2]

Bu hədisdən aydın olur ki, xoşbəxtlik və bədbəxtlik qapıları hamının üzünə açıqdır. Kimsə öncədən behişt və ya cəhənnəm üçün yaradılmamışdır. İnsanın aqibətini təyin edən onun seçimi və əməlidir.[3]

◘Həzrət Peyğəmbər (s) Qədire-Xumda xalqa buyurdu: "Ey Xalq! Əliyə «Əmirəlmöminin» ünvanı ilə salam verin..."[4]

◘İmam Hadi (ə) buyurmuşdur: "Qiyamət günü Həzrət Peyğəmbər (s), Həzrət Əli (ə) və bütün imamlar xalqın qarşısında olar. Bu vaxt şiələr deyərlər: "Bizi bu yola hidayət etmiş Allaha şükür olsun."[5]

## *BİLDİRİŞLƏR*

1. Kinin aradan qaldırılması və səmimiyyət yaradılması asanlıqla, zəhmətsiz başa gəlmir. ("Nəzə" zəhmət çəkməklə çıxarmaq, təmizləmək mənasını bildirir.)
2. Kin-küdurət olmayan bir həyat behişt həyatıdır.
3. Behiştdə batin və zahirin səfası bir yerə cəm olar.
4. Behişt əhli Allahın zikri və Ona sitayişə məşğuldur.
5. Behişt əhli Allahın lütfünə görə şükür edir və hidayət olduğu üçün qürrələnmir.
6. Behişt əhli öz əməl və rəftarına güvənmir.
7. Yalnız əql, elm və səylə hidayətə çatmaq olmur. Bu işdə ilahi diqqət və yardıma da ehtiyac var.
8. Peyğəmbərlər hidayət vasitəsidirlər və bu hidayət haqqa əsaslanır. Onların özləri, sözləri, əməlləri, üsulları, vədləri bütünlüklə haqdır.
9. Behişt ümid və arzuya yox, əmələ verilir. Həzrət Əli (ə) buyurmuşdur: "Axirəti əməl etmədən arzulayanlardan olma.[6]

### *(AYƏ: 44)*

﴿وَنَادَى أَصْحَابُ الْجَنَّةِ أَصْحَابَ النَّارِ أَن قَدْ وَجَدْنَا مَا وَعَدَنَا رَبُّنَا حَقًّا فَهَلْ
وَجَدتُّم مَّا وَعَدَ رَبُّكُمْ حَقًّا قَالُواْ نَعَمْ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَن لَّعْنَةُ اللّهِ عَلَى الظَّالِمِينَ﴾

---

[1] "Bihar", c. 8, s. 160.
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Təfsire-nümunə".
[4] "Təfsire-Nurus-səqəleyn".
[5] "Təfsire-isna-əşəri"; "Kafi", c. 1, s. 418.
[6] "Nəhcül-bəlağə", h. 135.

**“Behişt əhli cəhənnəm əhlini səsləyər ki, biz öz Rəbbimizin verdiyi vədi haqq gördük (və ona çatdıq). Sizdəmi Rəbbinizin vədini haqq gördünüz? Onlar deyərlər ki, “bəli.” Aralarında bir nida qalxar ki, Allahın lənəti olsun sitəmkarlara!”**

***NÖQTƏLƏR***

◘Qiyamətdə müəzzinin (azançının) kim olacağı barədə müxtəlif fikirlər var. Kimi Allahın, kimi İsrafilin, kimi Cəbrailin, kimi cəhənnəm və behişt məmurlarının nida çəkəcəyini bildirir. Amma şiə və bəzi sünni hədislərinə əsasən qiyamətdə müəzzin Həzrət Əli (ə) olacaqdır. Dünyada müşriklərə arxa çevirməyi əmr edən “bəraət” surəsini Məkkədə oxuyan da, axirətdə müşriklərə Allahın lənətini bəyan edən də odur.[1] Behişt əhlinə də Həzrət Əli (ə) salam verəcək.[2]

◘Həzrət Peyğəmbər (s) Bədr savaşından sonra qətlə yetirilmiş müşriklərə üz tutaraq hazırkı ayəni oxudu. Səhabələr soruşdular: “Cansız cəsədlərlə necə danışırsınız?” Həzrət buyurdu: “And olsun Allaha, onlar mənim sözümü sizdən daha yaxşı eşitdilər.” Həzrət Əli (ə) xarici məzhəblərin öldürülənlərinə də uyğun ayə ilə xitab edir.[3]

***BİLDİRİŞLƏR***

1. Qiyamətdə behişt əhli ilə cəhənnəm əhli bir-birləri ilə danışarlar. Behişt və cəhənnəm elə bir şəkildədir ki, behişt əhli behiştdə qərarlaşandan sonra cəhənnəm əhlindən xəbər tuta bilir.
2. Qiyamətdə möminlər və kafirlər onlara verilən ilahi vədin gerçəkliyinə şahid olurlar.
3. Allah cəhənnəm əhlini daha çox sıxıntıya salmaq üçün cəhənnəm əhlindən behişt əhli vasitəsi ilə etiraf alır.
4. Qiyamət mühakiməsi sitəmkarlara ölüm şüarı ilə başa çatır.

***(AYƏ: 45)***

﴿ الَّذِينَ يَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَيَبْغُونَهَا عِوَجًا وَهُم بِالآخِرَةِ كَافِرُونَ ﴾

**“(Sitəmkarlar) o kəslərdir ki, (xalqı) Allahın yolundan çəkindirirlər, (şübhəli təlqinlərlə) bu yolu əyri göstərmək istəyirlər və onlar axirəti inkar edənlərdirlər.”**

***NÖQTƏLƏR***

Allahın yolu tövhid, təslimçilik, iman, hicrət və cihad yoludur. Sitəmkarlar şəkk-şübhə, vəsvəsə, təbliğ, bidət, xurafat, haqq rəhbərlərə müxaliflik, ümüdsizlik yaratmaq vasitəsi ilə Allahın yolunu bağlamaq və ya onu təhrif etmək istəyirlər.

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-isna-əşəri”.
[3] “Təfsire-isna-əşəri”.

## *BİLDİRİŞLƏR*

1. Allah yoluna istənilən cür maneçilik və onda çaşqınlıq yaratmaq zülmdür. İdeoloji zülm ən böyük zülmdür.

2. Düşmən bacarsa, aşkar vuruşar və haqq yolu birdəfəlik bağlayar. Onlar növbənöv planlar çəkməklə haqq yolu döndərməyə, azğınlıq yaratmağa səy göstərirlər.

3. Sitəmkarlar, haqq yolda maneçilik törədənlər, dini təhrif edənlər və qiyaməti yalan sayanlar hamılıqla cəhənnəm əhlidirlər. (Hazırkı və əvvəlki ayəyə əsasən.)

## *(AYƏ: 46)*

﴾ وَبَيْنَهُمَا حِجَابٌ وَعَلَى الأَعْرَافِ رِجَالٌ يَعْرِفُونَ كُلاًّ بِسِيمَاهُمْ وَنَادَوْاْ أَصْحَابَ الْجَنَّةِ أَن سَلاَمٌ عَلَيْكُمْ لَمْ يَدْخُلُوهَا وَهُمْ يَطْمَعُونَ ﴿

**“İkisi (behişt əhli və cəhənnəm əhli) arasında bir hicab var. Ərafda (cəhənnəmlə behişt arasındakı yüksəklikdə, Allahın övliyalarından) kişilər var ki, hamını (behişt və cəhənnəm əhlini) simalarından tanıyarlar. Hələ ki, behiştə daxil olmamış, amma buna ümidvar olan behişt əhlinə nida edərlər ki, salam olsun sizə.”**

## *NÖQTƏLƏR*

◘Ayədə “hicab” sözünü “Hədid” surəsinin 13-cü ayəsi aydınlaşdıra bilər. Həmin ayəyə əsasən, bu hicab behişt və cəhənnəm əhli arasında qərar tutmuş, bayır tərəfi əzab, iç tərəfi rəhmət olan divardır.[1]

◘“Ürf” sözünün cəm forması olan “Əraf” sözü uca məkan mənasını bildirir. Surə elə bu səbəbdən də “Əraf” adlandırılmışdır. Quranda yalnız bu yerdə Əraf və onun əhli haqqında danışılmışdır. Əraf əhli haqqında rəvayət və təfsirlərdə müxtəlif rəylər mövcuddur. Bəziləri Əraf əhlinin ilahi övliyalar olduğunu bildirirlər. Bu övliyalar behiştlə cəhənnəm arasındakı yüksəklikdə qərar tapmışlar. Onlar insanları simalarından tanıyırlar. Behişt əhlinə salam verib təbrik edir, cəhənnəm əhlinin aqibətindən nigaran olurlar. Bəzilərinin fikrincə, Əraf əhli həm günahı, həm də ibadəti olan, Allahın lütfünü gözləyən zəif fərdlərdir. (“Tövbə” surəsinin 106-cı ayəsinə əsasən.) Belə də demək olar ki, Əraf əhli dedikdə mərkəzdə ilahi övliyalar, haşiyədə isə zəif fərdlər nəzərdə tutulur. Salehlər behiştə, günahkarlar cəhənnəmə gedirsə, orta halda olan fərdlər Ərafda dayanıb əmr gözləyirlər. Amma Ərafda olan övliyalar həmin şəxslərə yardım göstərirlər. Əksər təfsirçilərin nəzərlərindən və rəvayətlərdə uyğun baxış təsdiqlənmişdir.

◘Rəvayətdə oxuyuruq ki, Əraf əhli əməl naməsində nöqsan olan şəhidlərdir.[2] Bəzi rəvayətlərdə isə Ərafda olanların yaxşılıq və pisliklərinin

---

[1] “Təfsire-Əl-mizan”.

[2] “Təfsire-Dürrül-Mənsur”.

bərabər olduğu bildirilir. Allah onları ya günahlarına xatir cəhənnəmə, ya da rəhməti əsasında behiştə apara bilər.[1]

### *BİLDİRİŞLƏR*

1. Dünyadakı rəftarlar və xasiyyətlər qiyamətdə insanların simasından görünür.

Əlbəttə ki, insanlar dünyada da özü simalarından tanına bilər. Çünki Allah-təala münafiqlərin bu sayaq tanınması haqqında Peyğəmbərə (s) xəbər verir.[2]

2. Behiştə daxil olmaq və behişt əhli olmaq üçün Allahın lütf və diqqətinə ehtiyac var.

*(AYƏ: 47)*

﴿ وَإِذَا صُرِفَتْ أَبْصَارُهُمْ تِلْقَاء أَصْحَابِ النَّارِ قَالُواْ رَبَّنَا لاَ تَجْعَلْنَا مَعَ الْقَوْمِ الظَّالِمِينَ ﴾

**“Əgər onların (hələ behiştə daxil olmamış Əraf əhlinin) gözləri bilmədən cəhənnəm əhlinə yönəlsə deyərlər: “Pərvərdigara! Bizi zalımlarla yoldaş etmə.”**

### *NÖQTƏLƏR*

◘Əraf əhli behişt əhlinə baxıb onları tanıyar və salam verər. Amma onlar cəhənnəm əhlinə baxmazlar, gözləri onlara sataşar.

◘Əraf əhli öz dualarında oddan yox, zalımlarla yoldaşlıqdan həzər qılırlar. Belə görünür ki, zalımlarla yoldaşlıq cəhənnəm odundan da pisdir.[3]

*(AYƏ: 48)*

﴿ وَنَادَى أَصْحَابُ الأَعْرَافِ رِجَالاً يَعْرِفُونَهُمْ بِسِيمَاهُمْ قَالُواْ مَا أَغْنَى عَنكُمْ جَمْعُكُمْ وَمَا كُنتُمْ تَسْتَكْبِرُونَ ﴾

**“Əraf səhabələri simalarından tanıdıqları kişiləri (cəhənnəm əhlini) çağırıb deyərlər: “Cəmiyyətinizin, topladıqlarınızın, daim təkəbbür göstərdiyiniz şeylərin halınıza faydası yoxdur.”**

---

[1] “Təfsire-Nurus-səqələyn”; “Kafi”, c. 2, s. 381.

[2] Bax: “Muhəmməd”, 30.

[3] “Təfsire-Ruhul-Məani”.

***NÖQTƏLƏR***

◘Salman Farsi deyir: "On dəfədən çox Həzrət Peyğəmbərdən (s) eşitmişəm ki, buyurdu: "Ya Əli! Sən və səndən sonrakı imamlar behiştlə cəhənnəm arasındakı əraf səhabələrisiniz. Sizi tanıyanlar behiştə daxil olar, sizin vilayət və hakimiyyətinizi inkar edənlər isə cəhənnəmə düşər."[1]

***BİLDİRİŞLƏR***

1. Cəhənnəm əhli qiyamətdə ilahi əzabdan əlavə insanların məzəmmətinə hədəf olur.
2. Var-dövlət, güc, dostlar və tərəfdarlar insanı ilahi əzabdan qurtara bilməz. Bu həqiqəti qiyamətdə insan özü də etiraf edir.[2]

***(AYƏ: 49)***

﴿ أَهَـؤُلاء الَّذِينَ أَقْسَمْتُمْ لاَ يَنَالُهُمُ اللّهُ بِرَحْمَةٍ ادْخُلُواْ الْجَنَّةَ لاَ خَوْفٌ عَلَيْكُمْ وَلاَ أَنتُمْ تَحْزَنُونَ ﴾

**"(Azğın təkəbbürlülərə xitab olunar ki,) bunlar (behişt əhli) and içərək ilahi rəhmətə çatmayacağını bildirdiyiniz kəslərmidir? (İndi baxın ki, onlara deyilər): Heç bir qorxu görmədən və qəmlənmədən behiştə daxil olun."**

***NÖQTƏLƏR***

◘Dünyada məğrur kafirlər möminləri təhqir edir və deyirlər ki, siz ilahi rəhmətə nail olmayacaqsınız. Onlar xəbərsizdirlər ki, möminlər öz iman və saleh əməllərinə xatir ilahi rəhmətə çatacaq və Allahın onlara xitabına müvəffəq olacaqlar.

◘İlahi rəhmətə çatmaq üçün var-dövlət və məqam yox, iman və saleh əməl zəruridir. Bundan əlavə, ilahi rəhmət azğın təkəbbürlülərin əlində deyil ki, onu öz istədikləri kimi bölsünlər.[3]

***BİLDİRİŞLƏR***

1. Möminlərin dünyadakı fəqirlik və adsızlığı onların qiyamətdə məhrumluğunun nişanəsi deyil.
2. İlahi rəhmətə kimin nail olacağı və kimin nail olmayacağı barədə tələsik mühakimə yürütməyək.
3. Behiştdə qəm-qüssəyə yer yoxdur.

---

[1] "Təfsire-isna-əşəri".
[2] Bax: "Haqqə", 28.
[3] Bax: "Zuxruf", 32.

*(AYƏ: 50)*

﴿ وَنَادَى أَصْحَابُ النَّارِ أَصْحَابَ الْجَنَّةِ أَنْ أَفِيضُواْ عَلَيْنَا مِنَ الْمَاء أَوْ مِمَّا رَزَقَكُمُ
اللّهُ قَالُواْ إِنَّ اللّهَ حَرَّمَهُمَا عَلَى الْكَافِرِينَ ﴾

**“Cəhənnəm əhli behişt əhlini səsləyib deyər: “Su və ya Allahın sizə ruzi etdiyi şeydən bir az bizə verin!” (Behişt əhli) deyər: “Allah bu suyu və nemətləri kafirlərə haram etmişdir.”**

***NÖQTƏLƏR***

◘Qiyamətin adlarından biri “Yəvmud-tənaddır”.[1] Yəni nidaların ucaldığı, fəryad səslərinin ətrafı bürüdüyü bir gündə behişt əhli və cəhənnəm əhli bir-birlərini səsləyər.

***BİLDİRİŞLƏR***

1. Behişt əhli ilə cəhənnəm əhli bir-birləri ilə ünsiyyətdədirlər və bir-birlərinin səsini eşidirlər.
2. Cəhənnəm əhlinin ilk istəyi sudur.
3. Dünyada axirət üçün azuqə hazırlamayanlar qiyamətdə dörd bir yana əl açarlar.
4. Günahkarların qiyamətdəki ah-naləsi faydasızdır.
5. Axirət nemətləri möminlərə məxsusdur.
6. Allah və behişt əhli paxıl deyildirlər. Amma dünyada fəqir möminlərə əziyyət verən kafirlərin cəzası qiyamətdə nemətlərdən məhrumluqdur.

*(AYƏ: 51)*

﴿ الَّذِينَ اتَّخَذُواْ دِينَهُمْ لَهْوًا وَلَعِبًا وَغَرَّتْهُمُ الْحَيَاةُ الدُّنْيَا فَالْيَوْمَ نَنسَاهُمْ كَمَا نَسُواْ
لِقَاء يَوْمِهِمْ هَذَا وَمَا كَانُواْ بِآيَاتِنَا يَجْحَدُونَ ﴾

**“Dünyada öz dinlərini oyun-oyuncaq bilən, dünya həyatının məğrur etdiyi kəslər bu günlə görüşü yaddan çıxarıb ayələrimizi təkzib etdikləri kimi, Biz də bu gün onları yaddan çıxararıq.”**

***NÖQTƏLƏR***

◘“Ləhv” insanın mühüm işlərdən qəflətdə qalmasıdır. “Ləib” isə insanın məqsədlərinin xəyali və qeyri-gerçək olmasıdır.[2]

◘İmam Riza (ə) buyurmuşdur: “Nənsahum” “onları tərk edərik” deməkdir. Bu insanlar qiyamət və ona hazırlıq barədə düşünmədiklərindən qiyamət günü özbaşına buraxılar, bir növ yaddan çıxarılarlar.[3]

---

[1] Bax: “Ğafir”, 32.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Təfsire-Nurus-səqələyn”.

### *BİLDİRİŞLƏR*

1. Dinin məsxərəyə qoyulması, dünya ilə qürrələnmək, axirətin unudulması və ilahi ayələrin inkarı kafirlərin nişanələrindəndir.

2. Kafirlər dinin ciddi hökmlərini oyun-oyuncaq sayır, lakin oyun-oyuncaq olan dünyaya isə ciddi yanaşırlar.

3. Dinin təhqiri axirət zilləti ilə nəticələnir. Dini oyuncaq sayanlar qiyamətdə dörd bir tərəfə əl açarlar.

4. Dünya həyatı aldadıcıdır.

5. Dünyaya aldanış dini oyuncaq sayma zəminəsidir.

6. İlahi cəzalar əməllərimizə münasibdir.

7. İlahi ayələrin ardıcıl şəkildə inkarı insanı behişt və onun nemətlərindən məhrum qoyur.

8. Dünyada Allahı yaddan çıxarmaq qiyamətdə insanın yaddan çıxarılması ilə nəticələnir. Başqa bir ayədə Allahın yada salınması insanın yada salınması üçün səbəb sayılır.[1]

9. Ardıcıl inkar və tövbədən uzaqlıq insanın bədbəxtlik nişanəsidir.

### *(AYƏ: 52)*

﴿ وَلَقَدْ جِئْنَاهُم بِكِتَابٍ فَصَّلْنَاهُ عَلَى عِلْمٍ هُدًى وَرَحْمَةً لِّقَوْمٍ يُؤْمِنُونَ ﴾

**“Halbuki, əslində Biz onlar üçün bir kitab gətirdik ki, iman əhlinə hidayət və rəhmət olsun deyə, onu elm əsasında müfəssəl etdik (hissə-hissə, tədriclə göndərdik).”**

### *NÖQTƏLƏR*

◘Həzrət Əli (ə) buyurmuşdur: “Allah heç kimi bir şeylə (ondan daha əzəmətlisi ilə) Quran kimi moizə etməmişdir. Çünki Quran Allahın möhkəm və etibarlı tutacağı, qəlblərin baharı, elm çeşməsidir. İnsanın qəlbi üçün Quran kimi başqa bir cila yoxdur. Məxsusən elə bir mühitdə ki, onu yadda saxlayanlar artıq dünyadan getmiş, unudanlar isə qalmışlar.”[2]

### *BİLDİRİŞLƏR*

1. Allah Kitab (Quran) vasitəsi ilə höccəti tamamlayır, insanı dünya ilə qürrələnib axirəti yaddan çıxarmaqdan, ilahi ayələrin inkarından xilas edir.

***Haqqı göstərirkən yüzlərlə çıraq,***
***Azan kəsi boşla, görsün nədir dağ.***

2. Hidayət və rəhmət kitabı nazil etmək Allahın işidir. O bu kitabı hissə-hissə, tədricən göndərir.

3. Allahın vəhyi ilahi elm əsasında insanların və aləmin ehtiyaclarına cavab verir.

4. İlahi kitab və elm çox əzəmətlidir.

---

[1] Bax: “Bəqərə”, 152.

[2] “Nəhcül-bəlağə”, x. 176.

5. Quranla hidayət Allahın möminlərə olan ən böyük rəhmət və lütflərindəndir.

6. Quran inadkar və bəhanəcil insanları yox, inam əhlini hidayət edir.

*(AYƏ: 53)*

﴿هَلْ يَنظُرُونَ إِلاَّ تَأْوِيلَهُ يَوْمَ يَأْتِي تَأْوِيلُهُ يَقُولُ الَّذِينَ نَسُوهُ مِن قَبْلُ قَدْ جَاءتْ رُسُلُ رَبِّنَا بِالْحَقِّ فَهَل لَّنَا مِن شُفَعَاء فَيَشْفَعُواْ لَنَا أَوْ نُرَدُّ فَنَعْمَلَ غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ قَدْ خَسِرُواْ أَنفُسَهُمْ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ﴾

**“(Kafirlərin) Kitabın gerçəkləşməsindən savay bir intizarlarımı var? Kitabın (hökmlərinin) gerçəkləşəcəyi gün çatdıqda, bu günü əvvəlcədən unudanlar deyəcəklər: «Həqiqətən, Rəbbimizin elçiləri bizim üçün haqqı gətirmişdilər (amma biz qəbul etmədik). Bizə şəfaət verəsi şəfaətçilər varmı? Yoxsa, dünyaya qaytarılacağıqmı ki, görmədiyimiz işləri görək?» (Bu intizarlar faydasızdır.) Şəksiz, onlar sərmayələrini əldən vermiş və yalan olaraq düzəltdiklərini əldən çıxarmışlar.”**

### *NÖQTƏLƏR*

◘Ayədəki “təvil” sözü əvvəlki cümlələri nəzərə aldıqda, ilahi vədlərin və hədələrin gerçəkləşməsi mənasını bildirir.

◘Hazırkı surənin 43-cü ayəsində behişt əhlinin dediklərini bu ayədə cəhənnəm əhli deyir.

◘Əvvəlki ayə kitab endirilməsinə aid olduğundan bəzi təfsirçilər deyirlər: “Nəsuh” dedikdə səmavi Kitabın yaddan çıxarılması nəzərdə tutulur.

### *BİLDİRİŞLƏR*

1. Quranda Allah inkarçıları məzəmmət edərək buyurur ki, Onun hədələri gerçəkləşməyincə inkarçılar iman gətirməyəcəklər.

2. Qiyamətdəki nalələr, etiraflar və arzular səmərəsizdir. Ona görə də Quranın xəbərdarlıqlarına qarşı elə bu dünyada ikən ciddi yanaşmalıyıq.

3. Quran və qiyaməti yaddan çıxarmaq böyük zərərdir.

4. Qiyamət agahlıq və oyanış günüdür.

5. Peyğəmbərlərin risaləti insanların tərbiyəsi üçündür və Allahın rübubiyyət şənindəndir.

6. Kafirlər din və axirət məsələsinə ciddi yanaşmırlar. Qiyamət günü öz səhvlərini anladıqda geriyə qayıtmaq istəyərlər. Amma bu arzu əbəsdir. Başqa bir ayədə buyurulur: “Onlar qayıtsaydılar da, həmin işləri davam etdirərdilər.”[1]

7. Şəfaət hamı üçün deyildir.

8. Qiyamətdə zalımların, bütlərin, sərvətin və gücün heç bir rolu olmur.

---

[1] “Ənam” 28.

*(AYƏ: 54)*

﴿إِنَّ رَبَّكُمُ اللّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ
يُغْشِي اللَّيْلَ النَّهَارَ يَطْلُبُهُ حَثِيثًا وَالشَّمْسَ وَالْقَمَرَ وَالنُّجُومَ مُسَخَّرَاتٍ بِأَمْرِهِ أَلاَ لَهُ الْخَلْقُ
وَالأَمْرُ تَبَارَكَ اللّهُ رَبُّ الْعَالَمِينَ﴾

**“Həqiqətən, sizin Rəbbiniz göyləri və yeri altı gündə yaradan, ərşə hakim olan Allahdır. O, gündüzü sürətlə onu izləyən gecə vasitəsi ilə örtər. (O) əmrinə təslim olan günəşi, ayı və ulduzları (yaratdı). Agah olun ki, yaranış və tədbir yalnız Onundur. Aləmlərin Rəbbi olan Allah bərəkət sahibidir.”**

***NÖQTƏLƏR***

◘Ötən ayədə Allahdan savay hər şeyin və hər kəsin məhv olacağından danışıldı. Hazırkı ayədə həqiqi məbud tanıtdırılır.

◘“Yəvm” sözü “nəhar” sözündən fərqlidir. “Nəhar” gecənin müqabilində gündüz mənasını bildirirsə, “yəvm” sözü bəzən gündüz, bəzən sutka, bəzən isə dövran mənasını bildirir. Bu ayədə ruzigar, dövran mənası nəzərdə tutulmuşdur.

◘“Bərəkət” sözündən olan “təbarək” sözü “davam, qalarlılıq” mənasını daşıyır. Dəvənin sinəsinə “bərək” deyilir. Dəvənin sinəsini yerə qoyması qərarlaşmaq, qalmaq nişanəsidir. Beləcə, hər bir davamlı sifət və uzunömürlü mövcud “bərəkət” adlandırılmışdır. Uzun müddət suyun qaldığı yerə “birkə” deyilir.

◘Quranın bu və başqa ayələrindəki nişanələrə əsasən “xəlq” dedikdə ilkin yaranış, “əmr” dedikdə varlıq aləminə hakim olan qanunların tənzimlənməsi nəzərdə tutulmuşdur.[1]

◘“İstəva ələl-ərş” təbiri varlıq aləmi üzərindəki qüdrət, hakimiyyət, tədbir, hidayət və kamil idarəçiliyə işarədir. Başqa dillərdə də “taxta çıxmaq” və ya “taxtdan düşmək” təbirləri hakimiyyətə çatmaq və ya hakimiyyəti itirmək mənalarını bildirir. Bəlkə də “ərş” dedikdə, qeyri-maddi, “kürsiyy” dedikdə isə maddi aləm nəzərdə tutulmuşdur. Bu təbirlər “ayətəl-kursi”də də işlədilmişdir.[2]

◘Allah günəşi, ayı, ulduzları insanların hidayəti və istifadəsi üçün qərar verdiyi kimi, risalət, imamət və Əhli-beyti (ə) də bəşəriyyətin faydalanması üçün müəyyən etmişdir.[3]

◘Allah bütün varlıq aləmini bir anda yarada bilsə də, Onun sünnəsi və qanunu işlərin tədricən həyata keçməsidir. Ona görə də yaranış prosesi altı mərhələdə gerçəkləşmişdir. Bəli, əsassız tələskənlik şeytani işdir və şeytan

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-nümunə”.
[3] “Təfsire-Fürqan”.

üçün nüfuz yoludur. Həzrət Əli (ə) buyurmuşdur: “Əgər Allah istəsəydi, göyü və yeri bir göz qırpımından da az müddətdə yaradardı. Amma tərtib və tədricliyi Öz əminliyi üçün misal, xalqı üçün höccət qərar verdi.”[1] Mövləvi deyir:

*Tələskənlik şeytan işidir, inan,*
*Rəhmanın işisə səbir və davam.*
*Aramlıqla gəldi aləm ərsəyə,*
*Altı gün bəs etdi həm yer, həm göyə.*
*Yoxsa qadir idi bir "ol" deyibən*
*Yüz yeri, yüz göyü yarada birdən.*
*Bir Adəmi asta-asta, durmadan,*
*Qırx yaşadək insan etdi o Sultan.*
*Bu aramlıq sənə öyrədir nələr,*
*Səbir etsən, açılar bağlı ilmələr.*

### *BİLDİRİŞLƏR*

1. Varlıq aləmini yaradan onu idarə etməyə layiqdir.
2. Ərş Allahın müdiriyyət və qərarlaşdırma mərkəzidir.
3. Gecə və gündüzün daim bir-birini təqib etməsi yalnız yerin kürə halında olub hərəkət etməsi sayəsində mümkündür.
4. Varlıq aləminin həm nizamı var, həm də o, Allahın iradəsinə təslimdir.
5. Həm yaranış, həm də yaranmışların idarəsi Allahın əlindədir.
6. Bütün bərəkətlər Allahdan qaynaqlanır.
7. Bərəkətlər Allahın rübubiyyətindən nazil olur.
8. Bütün varlıq aləmi təkamüldə və Allahın tərbiyəsi altındadır.

### *(AYƏ: 55)*

﴿ ادْعُواْ رَبَّكُمْ تَضَرُّعًا وَخُفْيَةً إِنَّهُ لاَ يُحِبُّ الْمُعْتَدِينَ ﴾

**“Rəbbinizi yalvarışla və gizlində çağırın. Şübhəsiz, o, təcavüzkarları sevmir.”**

### *NÖQTƏLƏR*

◘Həzrət Peyğəmbər (s) bəzi səhabələrin fəryadla dua etdiyini gördü. Həzrət buyurdu: “Aram dua edin.”[2] Həzrət Zəkəriyya da Allahı xəlvətdə və ixlasla çağırardı.[3] Astadan çağırış ədəb nişanəsidir. Necə ki, Allah möminlərə

---

[1] “Təfsire-isna-əşəri”.
[2] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-fəxr Razi”.
[3] Bax: “Məryəm”, 3.

buyurur: “Peyğəmbərin səsindən uca səslə onunla danışmayın.”[1] Uca səs ibadət və duada riya və özününümayiş üçün zəmin ola bilər.

◘Duada ah-nalə, yalvarış insanın öz ehtiyaclarından, çatışmazlıqlarından xəbərdarlığının nişanəsidir. Yalvarış qürur və özünə sevginin aradan qalxması amilidir. Çünki özünü güclü və varlı bilən kəs kimsənin qarşısında ah-nalə çəkib, yalvarmır.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Duada «təzərrö» əlləri səmaya doğru qaldırıb dua etməkdir.”[2] Həzrət Peyğəmbər (s) də belə dua edərdi. Salman Farsi nəql edir ki, Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Allah dua üçün ona qalxmış əli boş qaytarmağa həya edir.”[3]

### *BİLDİRİŞLƏR*

1. Allahşünaslıqdan sonra allahpərəstlik lazımdır. Əvvəlki ayədə allahşünaslıqdan danışılırdısa, bu ayədə allahpərəstlik açıqlanır.
2. “Rəbb” kəlməsi ilə çağıraraq, yalvarıb gizli şəkildə dua etmək daha yaxşıdır. Gizli dua riyadan uzaq, ixlasa daha yaxındır.
3. Dua xalis və ah-naləli olduqda daha təsirli olur.
4. Bütün vücudumuzla, kamil təvazö ilə Allahı çağıraq və dilimiz bütün vücudumuzun nümayəndəsi olsun.
5. Boyun qaçıranlar və təcavüzkarlar ilahi lütf və məhəbbətdən məhrum qalarlar.
6. Dua etməmək, ah-naləsiz və riyalı dua azğınlıq və təcavüz nümunələrindəndir.

### *(AYƏ: 56)*

﴿ وَلاَ تُفْسِدُواْ فِي الأَرْضِ بَعْدَ إِصْلاَحِهَا وَادْعُوهُ خَوْفًا وَطَمَعًا إِنَّ رَحْمَتَ اللّهِ قَرِيبٌ مِّنَ الْمُحْسِنِينَ ﴾

**“Yer üzündə islahdan sonra orada fəsada əl atmayın. Allahı qorxu və ümidlə çağırın. Şübhəsiz, Allahın rəhməti yaxşı əməl sahiblərinə yaxındır.”**

### *NÖQTƏLƏR*

◘Ötən ayə insanın Allahla rabitəsini, bu ayə insanın xalqla rabitəsini bəyan etdi.

◘İmam Baqir (ə) buyurmuşdur: “Allah peyğəmbər və Quran vasitəsi ilə yer üzünü islah etdi... İslahdan sonra fəsad törətməyin.[4] Bəli, hər bir peyğəmbərin gəlişi böyük bir ictimai islahatla nəticələnir və onların göstərişlərinə itaətsizlik cəmiyyətdə fəsad amilidir.

---

[1] “Hucurat”, 2.
[2] “Kafi”, c. 2, s. 481.
[3] “Təfsire-Qurtubi”.
[4] “Kafi”, c. 8, s. 58.

◘Hazırkı və ötən ayədəki ilk "çağırın" göstərişi arasında "yer üzündə fəsad törətməyin", cümləsi gəlmişdi. Belə bir ardıcıllıqdan məlum olur ki, dillə dua ictimai islaha təlaşla müşayiət olunmalıdır. Dildə dua edib, əməldə fəsada varmaq yanlışlıqdır.

◘Hazırkı və əvvəlki ayələr dua, onun qaydaları və qəbul şəraiti barədə məlumat verdi. Bu şərtləri nəzərdən keçirək: duada "təzərrö", ah-nalə; duada məxfilik və riyadan uzaqlıq; duada həddi aşmamaq; duada ümid və qorxu; duada fəsaddan uzaqlıq; dua ilə yanaşı xeyir iş.

◘Həkim Loğman öz övladına buyurmuşdur: "Övladım! Əgər mömінin qəlbini yarsalar, onda iki nur tapılar: biri Allah qorxusu nuru, digəri Allaha ümid nuru. Bu nurlar bir-birləri ilə eynidir."[1]

### *BİLDİRİŞLƏR*

1. İslah olmuş cəmiyyət üçün də təhlükə var.
2. İslah edən inqilabçılar dua və münacatdan ehtiyacsız deyillər.
3. Yer üzündəki abadlıqları korlamayın.
4. İnsan qorxu və ümid arasında olmalıdır. Bu tarazlıq halını Allah "ehsan" adlandırmışdır.
5. Xeyir əməl sahiblərinin yolu və üsulu fəsaddan uzaqdır.
6. Ehsan ilahi rəhmətdən faydalanmaq üçün zəmindir. Ehsan olmayan yerdə rəhmət intizarı əbəsdir. Bəli, dua xeyir əməllə müşayiət edildikdə qəbul olur.
7. Haqqa doğru ehtiyac əlini açmaq və fəsaddan uzaqlıq ehsandır.

### *(AYƏ: 57)*

﴿وَهُوَ الَّذِي يُرْسِلُ الرِّيَاحَ بُشْرًا بَيْنَ يَدَيْ رَحْمَتِهِ حَتَّى إِذَا أَقَلَّتْ سَحَابًا ثِقَالاً سُقْنَاهُ لِبَلَدٍ مَّيِّتٍ فَأَنزَلْنَا بِهِ الْمَاء فَأَخْرَجْنَا بِهِ مِن كُلِّ الثَّمَرَاتِ كَذَلِكَ نُخْرِجُ الْموْتَى لَعَلَّكُمْ تَذَكَّرُونَ﴾

**"Küləkləri (yağış) rəhmətindən öncə müjdə olaraq göndərən Odur. (Külək) ağır buludları asanlıqla aparır, (onu) ölü torpaqlara doğru axıdırıq. Bu vasitə ilə su nazil etdik və onun vasitəsi ilə hər növ meyvə cücərtdik və səmərəyə çatdırdıq. Ölüləri də bu sayaq (torpaqdan) çıxaracağıq. Bəlkə siz (torpağın ölümdən sonrakı həyatını görüb) anlayasınız."**

### *NÖQTƏLƏR*

◘Əvvəlki ayələrdə allahşünaslıq və allahpərəstlik mövzuları açıqlanılırdısa, bu ayədə məaddan danışılır, həm yaranış, həm məad üçün dəlillər gətirilir.

[1] "Təfsire-isna-əşəri".

◘“Əqəllət” sözü “asanlıqla aparmaq” mənasını bildirir. Bu söz ağır buludları asanlıqla qovan küləklərin gücünə işarədir.

### *BİLDİRİŞLƏR*

1.Təbiət qanunları bütün əsrarəngizliyi və nəzmi ilə Allahın istəyinə tabedir. Bu qanunlar insanı varlığın qaynağından qafil etməməlidir. (Elmi formullar və təbiət qanunlarına qərq olmayın. Buludların hərəkəti, yağışın yağması, otların cücərməsi Allahın tədbiri ilə baş tutur.)

2. Məadı inkar edənlərin heç bir dəlili yoxdur. Onlar sadəcə bu işi mümkünsüz sayırlar. Hansı ki, məadın təbiət aləmində yetərli nümunələri var. Torpaqdakı elementlərdən növbənöv meyvələrin, bitkilərin təşkil olması qiyamət günü ölülərin yenidən bərpasına oxşardır. Əslində təbiətdəki bu nümunələr məadı inkar edənlərə cavab üçün kifayətdir.

3. Ölüm fəna yox, hal dəyişməsidir. Torpağın ölümü necədirsə, insanın da ölümü elədir. Torpaq ölüb yenidən dirildiyi kimi, insan da ölüb yenidən dirilir.

### *(AYƏ: 58)*

﴿ وَالْبَلَدُ الطَّيِّبُ يَخْرُجُ نَبَاتُهُ بِإِذْنِ رَبِّهِ وَالَّذِي خَبُثَ لاَ يَخْرُجُ إِلاَّ نَكِدًا كَذَلِكَ نُصَرِّفُ الآيَاتِ لِقَوْمٍ يَشْكُرُونَ ﴾

**“Pak torpağın otu Allahın izni ilə cücərir. Amma xəbis (şoranlıq) torpaq yalnız az və faydasız məhsul verir. Biz öz ayələrimizi şükür edən qövm üçün bu sayaq çeşidli bəyan edirik.”**

### *NÖQTƏLƏR*

◘“Nəkidən” sözü heç bir faydası olmayan şeyə işarədir. Ayədə bu söz az və faydasız ota münasibətdə işlədilmişdir.

*Şoranlıq torpaqda nə əksən hədər,*
*Ona düşən toxum çürüyüb gedər.*

◘Əgər bu ayəni geniş şəkildə nəzərdən keçirsək, ayədəki pak torpaq ifadəsinin pak ailəyə işarə olması qənaətinə gələrik.

*Paklıqdır gövhərin feyzinə səbəb,*
*Çirkabdakı daşdan yaranmaz sədəf.*

◘Quran ayələri rəhmət yağışı kimidir. Bu ayələr hazırlıqlı insanlara oxunduqda onların mərifətini, eşqini, imanını və səyini artırır. Hal əhli olmayanlar isə Quran ayələrini dinlədikcə daha da inadkar və bəhanəçi olurlar.[1]

*Yağış bərəkətdir, amma ki, yenə*
*Bağda gül cücərdir, şoranda heç nə.*

---

[1] Bax: “Isra”, 82.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Mənim xalqa elm və hidayətlə gəlişim bərəkətli yağışın yağması kimidir. Bəzi torpaqlar onu içir, bəziləri yox. Bəziləri mənim göstərişlərimi qəbul edib alim və fəqih olur. Bəziləri başını qaldırmadan hidayəti qəbul etmir.”[1] Demək, pak qəlb münbit, xəbis qəlb şoranlıq torpaq kimidir.

### *BİLDİRİŞLƏR*

1. İnsanın xoşbəxtliyi üçün rəhmətin nazil olması təklikdə bəs etmir. Rəhmətin nazil olduğu məhəllin də istedad və tutumu şərtdir.

2. Təbiət nizamı öz xüsusi qanunları üzərində möhkəm qərarlaşsa da, bütün hadisələr Allahın nəzəri altında, Onun iradə və istəyi ilə baş tutur.”

3. Əsas məsələ paklıqdır. Qeyri-paklıq məhrumluq səbəbidir.

4. Bir dəfə və eyni şəkildə təbliğ səmərəsiz olur. Qarşı tərəf təkrar-təkrar və fərqli şəkillərdə dəvət olunmalıdır.

5. Quran hamı üçün hidayət mənbəyi olsa da, yalnız şükür edənlər ondan bəhrələnir.

### *(AYƏ: 59)*

﴿ لَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَقَالَ يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ عَظِيمٍ ﴾

**“Həqiqətən, Nuhu qövmünə doğru göndərdik. O, xalqa dedi: “Ey mənim qövmüm! Allaha pərəstiş edin, Ondan savay sizin üçün məbud yoxdur. Şəksiz, mən sizin üçün böyük günün əzabından qorxuram.”**

### *(AYƏ: 60)*

﴿ قَالَ الْمَلأُ مِن قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي ضَلاَلٍ مُّبِينٍ ﴾

**“Onun qövmünün başçıları dedilər: “Həqiqətən, biz səni aşkar bir azğınlıqda görürük.”**

### *NÖQTƏLƏR*

◘58-ci ayədə işlədilmiş “xəbis yer” ifadəsinin nümunəsi Nuhun qövmü idi. Həzrət Nuhun fəryadı heç bir yerə çatmırdı. Həzrət Nuhun əhvalatı “Nuh”, “Saffat”, “İsra”, “Əhzab”, “Yunis”, “Möminun”, “Qəmər” surələrində nəql olunmuşdur.

◘Həm “Xovf”, həm də “cubn” sözləri qorxu mənasındadır. Amma birinci söz müsbət, ikinci söz mənfi yönümlü qorxudur. “Cubn” insanın özünü aciz bilməsindən, “covf” isə insanın agahlığından qaynaqlanır.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Həzrət Nuh Allah-təala tərəfindən ümumi risalətlə göndərilmiş ilk ülul-əzm peyğəmbərdir.[2] Həzrət

---

[1] “Təfsire-Minhacus-Sadiqin.”

[2] “Təfsire-Dürrül-Mənsur”.

Nuh ümumbəşəri bir dəvətlə gəlmişdi. Çünki onun qövmü həmin vaxt yer üzünün yeganə sakini idi. Həzrət Nuh öz nifrinini bütün yer üzünün kafirlərinə ünvanladı.[1] Beləcə, bütün yer üzündəkilər qərq oldular.

◘Həzrət Nuh öz xalqını 950 il tövhidə dəvət etdi.[2] Onlar isə nəinki iman gətirmədilər, hətta həzrət Nuhdan uzaqlaşdılar.[3] Haqqın dəvətinə boyun əyməyən qövm ilahi peyğəmbərə əzab-əziyyət verirdi. Həzrət Nuhu o qədər vurdular ki, huşunu itirib yerə yıxıldı. Huşu başına gəldikdə dedi: “Pərvərdigara! Qövmümü hidayət et, onlar bilmirlər.”

### *BİLDİRİŞLƏR*

1. Nuhun risaləti ümumbəşəri olsa da, o əvvəlcə öz qövmündən başladı.
2. Tövhid və allahpərəstliyə dəvət bütün peyğəmbərlərin və ilahi dinlərin sərlövhəsi və müştərək xüsusiyyəti olmuşdur.
3. Tövhidin dəlili Allahın birliyi və şəriksizliyidir.
4. Allahşünaslıq və Allaha iman tarix boyu olmuşdur. (Həzrət İbrahim, Musa və İsadan öncə gəlmiş Nuh xalqa dedi: “Allaha ibadət edin.” Bu, xalqın Allahla tanışlığını göstərir.)
5. Peyğəmbərlər bəşəriyyətin həqiqi xeyirxahlarıdır.
6. Peyğəmbərlərə qarşı daim var-dövləti, zər-zibası xalqın gözünü tutmuş varlılar çıxmışdır.
7. İman gətirməməkdən də pisi peyğəmbərləri azğın saymaqdır. Bəli, fitrət dəyişdikdə həqiqi rəftar azğın sayılır. Bu gün də özünü ziyalı sayan bir qrup peyğəmbər ardıcıllarını mürtəce və sadəlövh sayır.
8. Tövhid nizamı qurmaq və şirk quruluşunu aradan götürmək istəyənlər hər növ böhtan və təhqirə hazır olmalıdırlar.
9. Müxaliflər böhtan atmaqda sərt və ciddidirlər.

***(AYƏ: 61)***

﴿ قَالَ يَا قَوْمِ لَيْسَ بِي ضَلاَلَةٌ وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ ﴾

**“(Nuh) dedi: “Ey mənim qövmüm! Məndə heç bir azğınlıq yoxdur. Əksinə, mən aləmlərin Rəbbi tərəfindən göndərilmişəm.”**

***(AYƏ: 62)***

﴿ أُبَلِّغُكُمْ رِسَالاَتِ رَبِّي وَأَنصَحُ لَكُمْ وَأَعْلَمُ مِنَ اللّهِ مَا لاَ تَعْلَمُونَ ﴾

**“Rəbbimin buyruqlarını sizə çatdırıram, sizin xeyirxahınızam və bilmədiklərinizi Allahdan (öyrənib) bilirəm.”**

---

[1] Bax: “Nuh”, 26.
[2] Bax: “Ənkəbut”, 14.
[3] Bax: “Nuh”, 6.

### *NÖQTƏLƏR*

◘"Nusuh" sözü xalislik, qatqısızlıq mənasını bildirir. Səmimi qəlbdən, xeyirxahlıqla deyilən söz "nusuh" adlandırılmışdır. Xalis bala da "nasihul-əsəl" deyilir.

### *BİLDİRİŞLƏR*

1.Cahillərin təhqirləri qarşısında səbirli olaq. İlk ülul-əzm peyğəmbər (Nuh) ona ünvanlanan ittihamlara qarşı ən yumşaq tərzdə cavab verdi.

2. Peyğəmbərlərin risaləti yaranmışların tərbiyəsi üçündür və Allahın rübubiyyət şənindəndir.

3. Hər şeyin müəyyən bir Rəbbi olduğunu iddia edən əqidənin ziddinə olaraq Quran buyurur: "Bütün varlığın yalnız bir Rəbbi var.

4. İlahi peyğəmbərlər məsumdurlar.

5. Tərbiyəçi və təbliğatçı həm xeyirxah, həm də yetərincə bilikli olmalıdır.

6. Peyğəmbərlərin canıyananlığı özlərinin yox, xalqın xeyrinədir.

7. Peyğəmbərlər Allahı bütün elm və biliklərinin, agahlıqlarının mənbəyi sayırlar.

8. Allahın Öz peyğəmbərlərinə verdiyi bilik bəşəriyyət üçün əlçatmazdır.

### *(AYƏ: 63)*

﴿ أَوَعَجِبْتُمْ أَن جَاءَكُمْ ذِكْرٌ مِّن رَّبِّكُمْ عَلَى رَجُلٍ مِّنكُمْ لِيُنذِرَكُمْ وَلِتَتَّقُواْ وَلَعَلَّكُمْ تُرْحَمُونَ ﴾

**"Təqva yolunu tutub Allahın mərhəmətinə çatasınız deyə, aranızdakı bir kişiyə Rəbbiniz tərəfindən xatırlatma səbəbi olan şeyin gəlməsinə təəccüblü etdiniz?"**

### *BİLDİRİŞLƏR*

1. Bəzən insanların öz aralarından bir nəfərin haqqı deməsi, həmin haqqın qəbul olunmasına maneçilik törədir. Nuhun qövmü dedi: «Nə üçün o, peyğəmbər olsun? Nə üçün ona vəhy gəlsin, bizə yox? Axı o da bizim kimidir və bizimlə heç bir fərqi yoxdur?»

2. Vəhyin məqsədi bəşəriyyətin tərbiyəsidir.

3. İlahi maarifi daim xatırlamaq lazımdır.

4. Peyğəmbərlər xalq arasından çıxmışdılar və onların arasında idilər.

5. Peyğəmbərliyin fəlsəfə və mərhələlərini bu planda bəyan etmək olar: Xəbərdarlıq və diqqət; paklıq və təqvanın təmini; ilahi lütf və rəhmətin əldə olunması.

6. Təqva ilahi rəhmətin nazil olması üçün zəmindir.

*(AYƏ: 64)*

﴿ فَكَذَّبُوهُ فَأَنجَيْنَاهُ وَالَّذِينَ مَعَهُ فِي الْفُلْكِ وَأَغْرَقْنَا الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا إِنَّهُمْ كَانُواْ قَوْماً عَمِينَ ﴾

**"Nəhayət, onu (Nuhu) təkzib etdilər. Ona və onunla gəmidə olanlara nicat verdik. Ayələrimizi təkzib edənləri qərq etdik. Çünki onlar qəlbi kor olan bir qövm idilər."**

***NÖQTƏLƏR***

◘Bəsirət gözü işdən düşmüş adama "əmin" ("عمين") deyilir. Həm zahiri, həm də batini gözü kor olan insan isə "əma" adlandırılmışdır.[1]

◘Nə üçün Allah-təala aralarında günahsız uşaqlar olan Nuh qövmünü qərq etdi? İmam Riza (ə) bu sualı belə cavablandırmışdır: "Onların arasında uşaq yox idi. Çünki bu qövm 40 il idi ki, sonsuzluğa düçar olmuşdu. Günahsızlar da günahkarların işinə razı olduqlarından bəlaya düçar oldular. Çünki başqalarının işi ilə razılıq həmin işə şəriklikdir.[2]

***BİLDİRİŞLƏR***

1. İman qurtuluş, təkzib isə bədbəxtlik zəminəsidir.

2. Hadisələr, təbii amillər və tarixi olaylar Allahın əlindədir. Bütün bu işlər xalqın düşüncə, əməl və əxlaqı əsasında baş verir.

3. Peyğəmbərlərin təkzib edilməsinin əsas amili qəlbin korluğudur. İman, peyğəmbərlərə tabeçilik isə bəsirət nişanəsidir.

*(AYƏ: 65)*

﴿ وَإِلَى عَادٍ أَخَاهُمْ هُوداً قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ أَفَلاَ تَتَّقُونَ ﴾

**"Ad qövmünə qardaşları Hudu göndərdik. O dedi: "Ey mənim qövmüm! Allaha pərəstiş edin, sizin Ondan başqa məbudunuz yoxdur. Təqva yolunu seçmirsinizmi?"**

***NÖQTƏLƏR***

◘Bu surədə işarə olunmuş Hud və Ad qövmünün əhvalatı ətraflı şəkildə "Şuəra" və "Hud" surələrində bəyan olunmuşdur.

◘Ad qövmü Yəməndə və Ərəbistanın cənubundakı Əhqaf məntəqəsində yaşayırdı. Onlar fiziki güc, maddi imkan baxımından qüdrətli idilər. Bu qövm maldarlıq və əkinçiliklə məşğul olurdu. Amma onların günahları bütpərəstlik və əxlaqi fəsadlar idi. Hud onların öz arasından seçilmiş peyğəmbər idi. O, həzrət Nuh kimi öz qövmünü tövhidə dəvət edirdi.

---

[1] "Təfsire-Əl-mizan"; "Təfsire-nümunə".

[2] "Təfsire-isna-əşəri".

### *BİLDİRİŞLƏR*

1. Peyğəmbərlərin proqramlarının sərlövhəsi tövhidə dəvət və şirkdən çəkindirməkdir.

2. Bəşəriyyətin ən canıyanan və ictimai rəhbərləri peyğəmbərlər olmuşdur. Bəli, tərbiyəçi və təbliğatçı xalqa münasibətdə qardaş kimi olmalı, onları sevməlidir.

3. Bir Allaha iman agahlıq, itaət, təqva və inadkarlıqdan çəkinmə amili olmalıdır.

### *(AYƏ: 66)*

﴿ قَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِ إِنَّا لَنَرَاكَ فِي سَفَاهَةٍ وَإِنَّا لَنَظُنُّكَ مِنَ الْكَاذِبِينَ ﴾

**“(Hudun dəvətinə cavab olaraq) Qövmün kafir başçıları dedilər: “Həqiqətən, biz səni düşüncəsizlik içində görürük və qəti olaraq səni yalançılardan sayırıq.”**

### *(AYƏ: 67)*

﴿ قَالَ يَا قَوْمِ لَيْسَ بِي سَفَاهَةٌ وَلَكِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ ﴾

**“(Hud onların inadkarlığına cavab olaraq) buyurdu: “Ey mənim qövmüm!Məndə heç bir səfehlik və yüngül ağıl yoxdur. Mən aləmlərin Rəbbi tərəfindən göndərilmişəm.”**

### *NÖQTƏLƏR*

◘Hud müxaliflərinin inadkarlığı Nuh qövmünün inadkarlığından çox idi. Həzrət Nuhun müxalifləri onu azğın adlandırırdısa, Hudun müxalifləri onu axmaq və yalançı sayırdılar.

### *BİLDİRİŞLƏR*

1. Peyğəmbərlər çox çətin və iti təbliğatlarla, müxalifətlərlə, böhtanlarla üzbəüz idilər. Xalqı doğru yola dəvət edərkən ən çirkin sözləri eşitməyə dözməliyik.

2. Peyğəmbərlərin səbri o qədər böyük idi ki, bir bunca təhqirlərdən sonra da mehribancasına “ey mənim qövmüm” deyə müraciət edirdilər.

3. Böhtanlara cavab verək, amma böhtanı başqalarına tərəf ötürmək haqqımız yoxdur.

4. Peyğəmbərlər zərrəcə olsun, düşüncəsiz işə yol verməmişlər. (Ərəb qrammatikasına əsasən, qeyri-müəyyənlik inkar forması ilə yanaşı gəlmişsə, bu, ümumi inkardır. Yəni peyğəmbərlər heç vaxt düşüncəsiz iş görməmişlər.)

5. Məqsədinə inanan, ilahi yardımdan faydalanan insan öz müxalifləri ilə üzləşərkən aram rəftar edir.

6. Tərbiyəçi və təbliğatçı əsas vəzifəsini unutmamalıdır.

7. Peyğəmbərlər vasitəsi ilə bəşəriyyət üçün gətirilmiş ilahi göstərişlər onların tərbiyəsi üçündür və rübubiyyət şənindəndir.

*(AYƏ: 68)*

﴿ أُبَلِّغُكُمْ رِسَالاتِ رَبِّي وَأَنَاْ لَكُمْ نَاصِحٌ أَمِينٌ ﴾

**"Mən Rəbbimin göstərişlərini sizə çatdırıram və sizin etibarlı xeyirxahınızam."**

***BİLDİRİŞLƏR***

1. Peyğəmbərlərin buyruqları və göstərişləri ilahi mənbədən qaynaqlanır və onlar özlərindən bir kəlmə də demirlər.

2. Peyğəmbərlər Allahın xüsusi tərbiyəsini görmüşlər və onların göstərişləri bəşəriyyətin inkişaf və tərbiyəsi üçündür. Onlar təbliğ yolunda var gücləri ilə çalışmış və heç bir məsələdə üzdən keçməmişlər. Onlar Allahdan savay kimsədən qorxub çəkinməmişlər.[1]

3. Canıyananlıq və əmanətdarlıq tərbiyə və təbliğin iki əsas şərtidir. Bəli, canıyananlıq əmanətdarlıqla müşayiət olunmadıqda təhlükəlidir. Çünki insan birinə ürək yandırıb başqalarının haqqını nəzərdən qaçıra bilər və ya hansısa qanunu tapdalayar.

4. Zəruri olduqda insan öz müsbət xüsusiyyətlərini dilə gətirə bilər. Bir şərtlə ki, deyilənlər başqalarının tərbiyəsi üçün faydalı olsun.[2]

*(AYƏ: 69)*

﴿أَوَعَجِبْتُمْ أَن جَاءكُمْ ذِكْرٌ مِّن رَّبِّكُمْ عَلَى رَجُلٍ مِّنكُمْ لِيُنذِرَكُمْ وَاذكُرُواْ إِذْ جَعَلَكُمْ خُلَفَاء مِن بَعْدِ قَوْمِ نُوحٍ وَزَادَكُمْ فِي الْخَلْقِ بَسْطَةً فَاذْكُرُواْ آلاء اللّهِ لَعَلَّكُمْ تُفْلِحُونَ﴾

**"Yoxsa sizi qorxutmaq üçün Rəbbiniz tərəfindən xəbərdarlıq olan, öz aranızdan bir kişinin gəlməsinə təəccüblü etdiniz? Xatırlayın o zamanı ki, Allah sizi Nuh qövmündən sonra onlara canişin qərar verdi, yaranışda qüvvənizi artırdı. Belə isə, Allahın nemətlərini xatırlayın. Bəlkə nicat tapasınız."**

***NÖQTƏLƏR***

◘Ad qövmü fiziki baxımdan o qədər güclü idi ki, başqalarına meydan oxuyurdu. Onlar deyirdilər: "Bizdən də güclüsü kimdir?"[3] Quran buyurur: "Onlar yetərincə güclü idilər. Həlak olduqdan sonra xurma ağacının budaqları tək yerə sərilmişdilər.[4]

◘"Ala" «آلاء» kəlməsi daha əhatəli neməti bildirir. Bütün zahiri və batini nemətlər "ala" adlandırılmışdır. Bu nemət həm maddi, həm də mənəvi ola

---

[1] Bax: "Əhzab", 39.

[2] "Təfsire-Nurus-səqəleyn".

[3] "Fussilət", 15.

[4] "Haqqə", 7.

bilər. “Ər-rəhman” surəsində bu söz tez-tez işlədilmişdir. Bu söz hətta ilahi ədalət zərurətlərindən olan cəhənnəmə də şamil edilir.[1] İmam Sadiq (ə) “fəzkuru ala əllahi” təbiri haqqında buyurmuşdur: “Ala əllahi” Allahın Öz bəndələrinə ən böyük nemətidir və bu nemət biz Əhli-beytin (ə) vilayətidir.[2]

### *BİLDİRİŞLƏR*

1. Peyğəmbər göstərişləri Allahın göstərişləri və bəşər fitrətinin xatırladılmasıdır. Bu göstərişlər insanların tərbiyəsi və inkişafı üçün zəmindir və ilahi rübubiyyət şənindəndir.

2. Peyğəmbərlər xalq arasından çıxmışlar və xalq arasındadırlar.

3.Tarixi və ictimai hadisələr Allahın iradə və istəyindən asılıdır, Onun qanunlarına əsaslanır.

4. Fiziki qüvvələr ilahi nemətlərdəndir və düzgün yolda sərf edilməlidir.

5. İlahi nemətlərin zikri qurtuluş rəmzidir. Çünki nemətlərin zikri insanda ilahi eşq doğurur. Məhəbbətin ardınca itaət, itaətin ardınca qurtuluş gəlir.

### *(AYƏ: 70)*

﴿ قَالُواْ أَجِئْتَنَا لِنَعْبُدَ اللّهَ وَحْدَهُ وَنَذَرَ مَا كَانَ يَعْبُدُ آبَاؤُنَا فَأْتِنَا بِمَا تَعِدُنَا إِن كُنتَ مِنَ الصَّادِقِينَ ﴾

**“(Ad qövmü həzrət Huda) dedi: “Bizə doğru gəlmisən ki, tək olan Allahamı pərəstiş edək və atalarımızın pərəstiş etdiklərini boşlayaq? Əgər doğru danışanlardansansa, bizə verdiyin vədi göstər.”**

### *BİLDİRİŞLƏR*

1. Məntiq yerinə təəssüb məhkum olunur. Cahilin cahilə təqlidi, qohumluq bağlılığına görə itaət rədd olunmuşdur.

2. Babaların adət-ənənəsini qorumaq heç də həmişə dəyərli olmur.

3. Yersiz təəssüb və təqlid həqiqəti tanımağa mane olur və insanı inadkarlığa sövq edir.

4. Bəzən adət-ənənə fitrətə qalib gəlir. Necə ki, babaların bütpərəstliyi gənc nəslin haqpərəstlik fitrətinə qalibdir.

5. Peyğəmbərlər xurafat və azğınlıqla rəftarda ənənələri sındırmışlar.

### *(AYƏ: 71)*

﴿قَالَ قَدْ وَقَعَ عَلَيْكُم مِّن رَّبِّكُمْ رِجْسٌ وَغَضَبٌ أَتُجَادِلُونَنِي فِي أَسْمَاء سَمَّيْتُمُوهَا أَنتُمْ وَآبَآؤُكُم مَّا نَزَّلَ اللّهُ بِهَا مِن سُلْطَانٍ فَانتَظِرُواْ إِنِّي مَعَكُم مِّنَ الْمُنتَظِرِينَ﴾

**“(Həzrət Hud Ad qövmünün inadkarlığını görüb) Dedi: “Rəbbiniz tərəfindən olan qəzəb və cəza sizin üçün qətiləşdi. Yoxsa özünüzün və**

[1] “Əl-təhqiq fi kəlimatil-Quran.”
[2] “Təfsire isna-əşəri”.

**babalarınızın qoyduğu adlar barədə mənimlə höcətləşirsiniz? Allah sizin məbudların haqq olması barədə dəlil nazil etməmişdir. (Allahın qəhrini) gözləyin, mən də sizinlə birgə gözləyənlərdənəm.”**

*NÖQTƏLƏR*

◘Bu ayə təsdiq edir ki, hər bir ilahi mənsəb, ləqəb, ünvan, xüsusi ilə də vilayət (hakimiyyət) Allahdan qeyrisinə aid edilsə yalan və böhtandır. Məsələn, “Əmirəlmöminin” ləqəbi yalnız Həzrət Əlinin (ə) şənindədir. Nəql olunur ki, İmam Sadiqə (ə) “Əmirəlmöminin” deyə xitab edildikdə həzrət bunu qadağan edib buyurdu: «Əlidən (ə) savay özünü bu adla tanıtdıran hər kəsin yeri cəhənnəmdir.»[1]

***BİLDİRİŞLƏR***

1. İnadkarlıq və haqla düşmənçiliyin nəticəsi ilahi cəza və bədbəxtlikdir. (Qeyd edək ki, inadkarlığın özü də mənəvi çirkinliyin bir növüdür.)

2. İnsan zatən müvəhhiddir və tövhid sorağındadır. Təəssüf ki, bəzən ona təəssüb hakim olur.

3. İlahi cəzalar insanın tərbiyəsi üçündür və Allahın rübubiyyət şənindəndir.

4. Daşa, ağaca tanrı deməklə onlar tanrı olmur. Pafoslu, eləcə də dəyərsiz adlar bizim də əsrin bəlalarındandır.

5. Müşriklərin məbudları həqiqət və şəriliyi olmayan quru adlardır. Allah heç vaxt boş adları təsdiqləmir.

6. Əqidə dəlillə əsaslandırılmalıdır. Bütpərəstlərdən də dəlil istəyək. (Onlar deyirlər ki, biz bütləri Allaha yaxınlıq üçün vasitə seçmişik. Ondan soruşaq ki, bütlərin vasitə seçilməsinə Allah razıdırmı?)

7. Dəlil insanın qəlb və düşüncəsini qane edən ilahi feyz növüdür.

8. Peyğəmbərlər öz hədəflərinin haqq olmasına, qələbələrinə və müxaliflərinin süqutuna əmin idilər.

*(AYƏ: 72)*

﴿ فَأَنجَيْنَاهُ وَالَّذِينَ مَعَهُ بِرَحْمَةٍ مِّنَّا وَقَطَعْنَا دَابِرَ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَمَا كَانُواْ مُؤْمِنِينَ ﴾

**“Hud və onun yoldaşlarına Öz rəhmətimizlə nicat verdik. Ayələrimizi yalan sayan və mömin olmayan kəsləri kökündən qopardıq.”**

*NÖQTƏLƏR*

◘“Dabir” “son” mənasını bildirir. “Qəte-dabir” dedikdə, qarşı tərəfi son nəfərədək məhv etmək nəzərdə tutulur.

---

[1] “Təfsire isna-əşəri”.

◘Ad qövmünə göndərilmiş fəlakət üzücü, məhvedici, səs-küylü, soyuq tufan idi. Allah bu tufanı yeddi gecə, səkkiz gün ardıcıl davam etdirdi. Tufan onları elə bir kökə saldı ki, hamısı xurma budaqları tək yerə sərilib qaldılar.[1]

***BİLDİRİŞLƏR***

1. Yalnız peyğəmbərlər və onların ardıcılları xüsusi ilahi rəhmətə nail olurlar.
2. Tarixdən ibrət götürək.
3. Xalqın iman gətirəcəyinə heç bir ümid qalmadıqda onların məhvi köklü bir məsələ olur.

*(AYƏ: 73)*

﴿وَإِلَى ثَمُودَ أَخَاهُمْ صَالِحًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ قَدْ جَاءتْكُم بَيِّنَةٌ مِّن رَّبِّكُمْ هَـذِهِ نَاقَةُ اللّهِ لَكُمْ آيَةً فَذَرُوهَا تَأْكُلْ فِي أَرْضِ اللّهِ وَلاَ تَمَسُّوهَا بِسُوَءٍ فَيَأْخُذَكُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Səmud qövmünə doğru qardaşları Salehi (göndərdik). O dedi: “Ey mənim qövmüm! (Yalnız) Allaha pərəstiş edin, sizin üçün Ondan savay məbud yoxdur. Həqiqətən, sizin üçün Rəbbiniz tərəfindən aşkar bir möcüzə və dəlil gəlmişdir. Bu dişi dəvə Allah tərəfindən sizin üçün bir dəlildir. Buraxın, Allahın yeri üzərində otlasın. Ona heç bir zərər vurmayın, yoxsa dərdli əzaba düçar olarsınız.”**

***NÖQTƏLƏR***

◘Quranda yeddi dəfə dəvə, iyirmi altı dəfə Səmud qövmünün adı çəkilir. Səmud qövmünün macərası “Şuəra”, “Qəmər”, “Şəms”, “Hud” surələrində bəyan olunmuşdur.

◘Möcüzə insanların qeyri-adi işlərindən xeyli fərqlənir. Məsələn, möcüzədə məşqə ehtiyac yoxdursa, qeyri-adi işlərin görülməsində təhsilə, təcrübəyə böyük ehtiyac var. Möcüzə pak insanlara aiddirsə, qeyri-adi işlər hər adamdan görünə bilər. Möcüzənin məqsədi xalqı doğru yola gətirməkdir. Qeyri-adi işlərin məqsədi isə özünü göstərmək, var-dövlət toplamaq, məqam qazanmaq ola bilər. Bundan əlavə, peyğəmbərlər öz möcüzələri ilə müxaliflərə acizliklərini etiraf etdirmişlər. Qeyri-adi işlərin nümayişində isə belə bir məqsəd yoxdur.

◘Hədisdə oxuyuruq: “Səmud qövmü qırmızı rəngli, uzun yunlu, hamilə və çox böyük dəvə tələb etmişdi.[2] Əlbəttə ki, xalqın peyğəmbərdən istəyi həmin dövrün ictimai fikri, iqtisadi şəraiti ilə bağlı ola bilər. Əgər bu gün peyğəmbər zühur etsəydi, bəlkə də bəziləri ondan dağın köksündən təyyarə çıxarmasını istəyərdilər.

---

[1] Bax: “Haqqə”, 7.
[2] “Təfsire-Nurus-səqəleyn”.

Qeyd etməliyik ki, tələb olunan dəvənin xüsusi imtiyazları vardı. Bu dəvə başqa bir dəvə ilə cütləşmədən hamilə olmuşdu və dağın köksündən çıxmışdı. Sonra doğmuş və bir gün içində şəhərin olan-qalan suyunu içmişdi. Amma dəvə içdiyi suyun əvəzində süd vermişdi. Bu ilahi bir möcüzə idi və onun mislini göstərmək mümkünsüz idi. Dəvə möcüzəsi dəlil olaraq gəlmişdi və ona sui-qəsd ilahi əzabla nəticələnəsi idi.[1]

### *BİLDİRİŞLƏR*

1. Həzrət Salehin risaləti yalnız Səmud qövmünə aid idi.
2. Peyğəmbərlər xalqla qardaş kimidirlər.
3. Təbliğ və tərbiyədə mərhəmət hisslərindən istifadə edək.
4. Allaha iman tarix boyu olmuşdur. Allaha ibadət xalqın iman və mərifət nişanəsidir.
5. Peyğəmbərlərin dəvət mehvəri tək Allaha pərəstişdir.
6. Əmələ istiqamət verən əqidə və təfəkkürdür.
7. Bütün ilahi peyğəmbərlərin məqsədi eyni olmuşdur. Bütün peyğəmbərlər "Allaha ibadət edin" göstərişini vermişlər.
8. Peyğəmbərlər tərəfindən dəlil və möcüzə gətirilməsi xalqın tərbiyəsi üçündür və Allahın rübubiyyət şənindəndir. Əlbəttə ki, bəzən möcüzə xalqın istəyi ilə baş vermişdir. "Şəqqul-qəmər" və Salehin dəvə əhvalatını misal göstərmək olar.
9. Allahın lütf və diqqət mərkəzində olan hər bir şey müqəddəslik tapır.
10. Müqəddəsliklərə hörmətsizliyin və onları məhv etməyin cəzası ilahi əzabdır.

### *(AYƏ: 74)*

﴿وَاذْكُرُواْ إِذْ جَعَلَكُمْ خُلَفَاء مِن بَعْدِ عَادٍ وَبَوَّأَكُمْ فِي الأَرْضِ تَتَّخِذُونَ مِن سُهُولِهَا قُصُورًا وَتَنْحِتُونَ الْجِبَالَ بُيُوتًا فَاذْكُرُواْ آلاء اللّهِ وَلاَ تَعْثَوْا فِي الأَرْضِ مُفْسِدِينَ﴾

**"Yada salın o zamanı ki, Allah sizi Ad qövmündən sonra canişin etdi və yer üzündə sizə sığınacaq verdi ki, yer üzünün hamar hissələrində qəsrlər uzada ev tikmək üçün dağları yona bilsinlər. Belə isə, Allahın lütf və nemətlərini yada salın, yer üzündə fəsad törətməyin."**

### *NÖQTƏLƏR*

◘"Əsv" orta həddən çıxmaq, "la təsəv" "la tufsidu" mənalarını bildirir. "Mufsidin" sözü həm təkid, həm də fəsadın adətə çevrilməməsi ilə bağlı xəbərdarlıq nişanəsi ola bilər. "Fil-ərz" dedikdə Hicazla Şam arasındakı ərazi nəzərdə tutulur.

[1] "Təfsire-Minhacus-Sadiqin."

◘Səmud qövmü düzən və dağlıqdan ibarət olan iki məntəqədə məskunlaşmışdı. Onlar var-dövlət və mədəniyyət sahibi idilər, tikinti işindən xəbərdar olub gözəl qəsrlər ucaldırdılar.

***BİLDİRİŞLƏR***

1.Tarixi və ictimai olaylar ilahi qanun və sünnələr əsasında baş verir.

2. Bütün yaşayış imkanlarımız Allahdandır.

3. Keçmişdəkilərin tarixindən ibrət götürək.

4. İnsan bütün təbii vasitələrdən bəhrələnə bilər.

5. Məskən Allahın xüsusi nemətlərindəndir.

6. Rifah, məskən və tikinti Allah zikri ilə müşayiət olunmadıqda fəsad zəminəsi olur.

7. Əgər ixtiyarımızdakı nemətləri Allahın əmanəti saysaq və özümüzü təhlükədə görsək, başqalarına təcavüzdən çəkinərik.

8. Qəsr sakinləri və var-dövlətli insanların Allah zikrinə daha çox ehtiyacları var. Bu zikr onları fəsaddan çəkindirə bilər.

***(AYƏ: 75)***

﴿قَالَ الْمَلأُ الَّذِينَ اسْتَكْبَرُواْ مِن قَوْمِهِ لِلَّذِينَ اسْتُضْعِفُواْ لِمَنْ آمَنَ مِنْهُمْ أَتَعْلَمُونَ أَنَّ صَالِحًا مُّرْسَلٌ مِّن رَّبِّهِ قَالُواْ إِنَّا بِمَا أُرْسِلَ بِهِ مُؤْمِنُونَ﴾

**"Saleh qövmünün təkəbbürlü başçıları iman gətirmiş müstəzəflərə (zəif şəxslərə) dedilər: "Bilirsinizmi ki, Saleh Rəbbiniz tərəfindən göndərilmişdir? (Möminlər onların şübhə doğuran sözlərinin cavabında) Dedilər: "Biz ona göndərilənə iman gətirmişik."**

***(AYƏ: 76)***

﴿ قَالَ الَّذِينَ اسْتَكْبَرُواْ إِنَّا بِالَّذِيَ آمَنتُمْ بِهِ كَافِرُونَ ﴾

**"Təkəbbür göstərən kəslər dedilər: "Həqiqətən, biz sizin iman gətirdiyinizi inkar edirik."**

***BİLDİRİŞLƏR***

1. Adətən, nüfuz sahibi olan varlılar peyğəmbər yoluna müxalif olurlar. Onlar möminlər arasında şübhə yaradırlar.

2. Nə fəqirlik, nə də varlılıq dəyər deyil. Dəyər agahlıq, elm, iman, təqva, cihad və hicrət vasitəsi ilə Allah yolunu seçməkdir. (Ötən ayədə qəsrlərin ucaldılması ilahi nemətlərdən sayıldı. Amma şərt qoyuldu ki, bu iş fəsadla nəticələnməməlidir. Burada da bütün möminlər yox, müstəzəf möminlər haqqında xoş sözlər deyilmişdir.)

3. Peyğəmbərlərin əksər ardıcılları müztəzəflər (zəif və yoxsul təbəqə) arasından çıxmışdır.

4. Müstəzəfləri peyğəmbərlərə inanmağa vadar edən təkcə onların fəqirliyi olmamışdır. Çünki müstəzəflər, fəqirlər arasında da peyğəmbərə iman gətirməyənlər var.

5. Şəkk-şübhə yaradılması imana qarşı atılan addımlardandır.

6. Düşmənin əsas yol və hədəflərindən biri ilahi rəhmətin zəif göstərilməsidir.

7. Mühit və cəmiyyət fərdə təsir göstərsə də, onu məcbur edə bilməz. (Mustəzəflər təkəbbürlü azğınlar qarşısında möhkəm dayanaraq dedilər: «Salehə iman gətirmişik).»

8. Müxaliflərin şübhəli müraciətlərinə qəti cavab verilməlidir.

9. Peyğəmbərin bütün göstərişlərinə iman gətirmək lazımdır.

10. Təkəbbürlü azğınlar küfr və inadkarlıq göstərməkdən əlavə, müstəzəflərin imanına qarşı da çıxırlar.

***(AYƏ: 77)***

﴿ فَعَقَرُواْ النَّاقَةَ وَعَتَوْاْ عَنْ أَمْرِ رَبِّهِمْ وَقَالُواْ يَا صَالِحُ ائْتِنَا بِمَا تَعِدُنَا إِن كُنتَ مِنَ الْمُرْسَلِينَ ﴾

**«Beləcə, (təkəbbürlü azğınlar) dəvəni kəsib Rəblərinin göstərişindən boyun qaçırdılar və dedilər: "Ey Saleh, əgər səni Allah göndərmişsə, vəd etdiyin əzabı bizim üçün gətir."»**

***NÖQTƏLƏR***

"Əqr" "kəsmək" mənasını bildirir. At və dəvənin ayağının arxa hissəsində onun hərəkətini təmin edən damar var. Bu damar kəsildikdə heyvan yerə yıxılır və yol gedə bilmir. Ayədə bu sayaq kəsim nəzərdə tutulmuşdur.

"Qəmər" surəsində uyğun söz ("əqərə") tək halda işlədilmişdir. Bu, Salehin dəvəsini qətlə yetirənin bir nəfər olduğunu göstərir. Bu surədə isə (həm də "Şəms", "Şuəra", "Hud" surələrində) eyni söz cəm formada işlədilmişdir. Qeyd olunmuş surələrdə uyğun cinayət bütün qövmə aid edilir. Bunun səbəbi onların dəvənin kəsilməsinə etiraz etməməsi, razılıq verməsidir. Həzrət Əli (ə) buyurmuşdur: "Xalqın taleyi onların razılıq və düşmənçiliyindən asılıdır. Salehin dəvəsini bir şəxs kəsdiyi halda, bütün qövm ittiham olunur. Onlar bu işlə razılaşdıqlarından həmin günaha şərik oldular və hamısı əzab gördü."[1]

***BİLDİRİŞLƏR***

1. Küfr təcavüz zəminəsidir.

2. Günah qarşısında sükut və razılaşma həmin günahda iştirak sayılır.

---

[1] "Nəhcül-bəlağə", x. 201.

3. Göstərişdən çıxmaq və itaətsizlik dəvəni öldürməkdən də pisdir.

4. İlahi göstərişlər Allahın rübubiyyətindən qaynaqlanır.

5.Təkəbbür cəsarət və ədəbsizlik doğurur.

*(AYƏ: 78)*

﴿ فَأَخَذَتْهُمُ الرَّجْفَةُ فَأَصْبَحُواْ فِي دَارِهِمْ جَاثِمِينَ ﴾

**«Qəfildən şiddətli zəlzələ onları yaxaladı. Evlərində üzü üstə yıxılmış halda gecəni sübh etdilər (həlak oldular).»**

*NÖQTƏLƏR*

◘Bu ayə Səmud qövmünün zəlzələ vasitəsi ilə məhv olduğunu bəyan edir. Amma “Fussilət” surəsinin 14-cü, “Zariyat” surəsinin 44-cü ayəsində həmin qövmün şimşək vasitəsi ilə məhv edildiyi bildirilmişdir. Ehtimal olunur ki, hər iki hadisə eyni zamanda baş vermişdir. Bəlkə də zəlzələ kimi təbir olunmuş titrəyiş sözü zəlzələyə yox, insanların qorxudan keçirdiyi titrəyişə işarədir.

◘“Cəsəm” sözündən olan “casim” sözü «dizi üstə oturmaq» və ya «sinəsi üstə yıxılmaq» mənasını bildirir. Gecə istirahət etdikləri vaxt əzab onları yaxaladı, oyandılar. Amma qaçmaq üçün fürsət tapmayıb həmin vəziyyətdə həlak oldular.[1]

***BİLDİRİŞLƏR***

1. Allahın qəhr-qəzəbi qəfildən gəlir, diqqətli olaq.

2. Çox olsun ki, zəlzələlər və təbii fəlakətlər Allahın əzabıdır.

3. Peyğəmbərlərin vədi həyata keçəsidir. Onların xəbərdarlıqlarına ciddi yanaşaq. Ötən ayələrdə belə bir xəbərdarlıq vardı: “Bu titrəyiş həmin ilahi vəd və əzabın gerçəkləşməsidir.

*(AYƏ: 79)*

﴿ فَتَوَلَّى عَنْهُمْ وَقَالَ يَا قَوْمِ لَقَدْ أَبْلَغْتُكُمْ رِسَالَةَ رَبِّي وَنَصَحْتُ لَكُمْ وَلَكِن لاَّ تُحِبُّونَ النَّاصِحِينَ ﴾

**“Belə ki, (Saleh) onlardan üz döndərdi və dedi: “Ey mənim qövmüm! Həqiqətən, Rəbbimin buyruğunu sizə çatdırdım, sizə xeyirxahlıq etdim. Amma siz can yandıranları və xeyirxahları sevmirsiniz.”**

*NÖQTƏLƏR*

◘Ehtimal var ki, həzrət Saleh bu sözləri əzab nazil olmamış, höccəti tamamlamaq üçün demişdir. Amma bu müraciət qövm həlak olduqdan sonra da edilə bilər. Necə ki, həzrət Peyğəmbər (s) Bədr quyusunun kənarında

---

[1] “Təfsire-nümunə”.

ölülərlə danışmışdı. Ondan soruşmuşdular: “Məgər onlar eşidirlər?” Həzrət buyurmuşdu: “Bəli, siz onlardan yaxşı eşitmirsiniz.”[1]

### *BİLDİRİŞLƏR*

1. Təlim-tərbiyə və təbliğatda qəzəb və əlaqənin kəsilməsi də lazım olur.
2. İlahi əzab lazımı xəbərdarlıqlar və höccət tamamlandıqdan sonra baş verir.
3. Peyğəmbərlərin proqramları quru və ruhsuz qərarlar, idari göstərişlər kimi deyil, dəvət və əmrlərin canıyananlıqla, xeyirxahlıqla çatdırılmasından ibarətdir.
4. Nəsihət edənləri sevməliyik ki, cəmiyyətə ürək yandıranlara laqeydlik və etinasızlıq nəticəsində ilahi əzaba şərait yaratmayaq.
5. Sevmək və hörmət etmək ardıcıl olmağın açarıdır.

(ayə: 80)

﴿ وَلُوطًا إِذْ قَالَ لِقَوْمِهِ أَتَأْتُونَ الْفَاحِشَةَ مَا سَبَقَكُم بِهَا مِنْ أَحَدٍ مِّن الْعَالَمِينَ ﴾

**“(Yada sal) Lutun öz qövmünə belə dediyi vaxtı: “Siz elə bir çirkin iş görürsünüz ki, dünyadakıların heç biri sizdən qabaq bu işi görməyib.”**

### *(AYƏ: 81)*

﴿ إِنَّكُمْ لَتَأْتُونَ الرِّجَالَ شَهْوَةً مِّن دُونِ النِّسَاء بَلْ أَنتُمْ قَوْمٌ مُّسْرِفُونَ ﴾

**“Həqiqətən, siz şəhvət üçün qadın əvəzinə kişiləri soraqlayırsınız. Siz israfçı qövmsünüz.”**

### *NÖQTƏLƏR*

◘Həzrət Lut həzrət İbrahimin qohumu və İbrahimə iman gətirib onunla hicrət etmiş yeganə şəxs idi.[2] Həzrət İbrahim Lutu günahın baş aldığı bir məntəqəyə göndərdi. Beləcə, həzrət Lutun işinin mühüm hissəsi cəmiyyətin əsas probleminə çevrilmiş cinsi pozğunluqla mübarizə aparmaq oldu.

◘Həzrət Lutun qövmü öz qonaqları ilə livat (kişinin kişi ilə cinsi əlaqəsi) edirdi. Xalq onlara qonaq getməkdən qorxurdu. Quranın buyurduğu kimi, həzrət Lut bu qövmə öz qızları ilə evlənməyi təklif etdi. Amma onlar bunu qəbul etmədilər.

◘Qanuni evlənmədə olan xüsusiyyətlər livat və zinada yoxdur. Bu xüsusiyyətlərə nəzər salaq: Məhəbbət, rəhmət və ünsiyyət; ailə təşkili; övlad və nəslin davamı; fitrət və insaniyyətə birgə çağırış.

---

[1] “Bihar”, c. 6, s. 207, 254.
[2] “Ənkəbut”, 26.

◘Təəssüf ki, bu gün qərb dünyası livat (homoseksualizm) kimi çirkin bir əmələ rəsmi icazə vermiş, bu yolun yolçularını öz himayəsinə almışdır. (Hətta Avropa şurası kimi tanınmış bir təşkilat homoseksualistləri qanunla himayə etməyən dövlətləri öz sıralarına qəbul etmir–tərc.)

◘Lut qövmü livatdan əlavə qumar, hərbə-zorba, təhqir, çılpaqlıq və digər çirkin işlərlə xalqı sıxıntıya salırdı.[1]

◘İmam Sadiq (ə) livatın haram olmasının fəlsəfəsi haqqında buyurmuşdur: "Livat qadınla kişi arasındakı ailə bağlılığını zəiflədir, nəsil artımının qarşısını alır, təbii cinsi münasibətləri aradan qaldırır. Livatın bir çox fəsadları vardır."[2]

◘İslamda həmcinsbazlıq və livatın cəzası edamdır.

◘İslam peyğəmbəri buyurmuşdur: "Özlərini qadına oxşadıb, kişilərin ixtiyarına verən kişilərə Allahın lənəti olsun."[3]

İmam Sadiq (ə) buyurmuşdur: "Həmcinsbazlıq zamanı Allahın ərşi lərzəyə gələr və bu işi görən kəs qiyamətdə çirkin sifətdə məhşur olar. O, Allahın qəzəbinə gələr və yeri cəhənnəm olar."[4]

### *BİLDİRİŞLƏR*

1. Həmcinsbazlıq və livat kəbirə günahlardandır və olduqca çirkin işdir.

2. Əgər bütpərəstlər babalarının bütpərəst olduğunu bəhanə gətirirdilərsə, livat edənlərin belə bir bəhanələri yox idi. Onlar bu cinayət və günahı özləri ortaya çıxarmışdılar.

3. Çirkin işə həyat verənlərin günahı daha böyükdür və onların cəzası daha ağırdır.

4. Təbii, fitri yolu boşlayan kəs israfçıdır. Şəhvəti qeyri-təbii yolla söndürmək israfdır.

5. Livat cəmiyyətdə qadın hüquqlarına təcavüzdür.

### *(AYƏ: 82)*

﴿وَمَا كَانَ جَوَابَ قَوْمِهِ إِلاَّ أَن قَالُواْ أَخْرِجُوهُم مِّن قَرْيَتِكُمْ إِنَّهُمْ أُنَاسٌ يَتَطَهَّرُونَ﴾

**"Onların Luta cavabı yalnız bu oldu: "Onları öz şəhərinizdən çıxarın, çünki onlar paklıq axtaran insanlardır."**

### *NÖQTƏLƏR*

◘Bəzi peyğəmbərlərə münasibətdə "əxahum" təbiri işlədilsə də, Lut barədə belə bir təbirlə rastlaşmırıq. Bəlkə də Lut həmin məntəqədən

---

[1] "Səfinətül-bihar".
[2] "Vəsail", c. 14, s. 252.
[3] "Təfsire-nümunə"; "Vəsail", c. 14, s. 255.
[4] "Təfsire-nümunə"; "Vəsail", c. 14, s. 249.

olmadığından ona belə müraciət olunmamışdır. Kafirlər xalqa müraciət edərkən "öz şəhərinizdən" təbirini işlətmişlər. Ola bilsin ki, bunun səbəbi Lutun həmin məntəqədən olmaması, mühacirliyidir. Başqa bir səbəb Lutun yerli ayinləri qəbul etməməsi də ola bilər.

### *BİLDİRİŞLƏR*

1. İtaətsizlik və günahdan da çirkin iş ilahi insanlarla məntiqsiz rəftardır.

2. Nəhy əz münkər (pis işi qadağan) edən şəxs sürgün və hər növ çətinliyə hazır olmalıdır.

3. Günahkarlar pak insanların ictimai hüquqlarını tanımırlar.

4. Cəmiyyətdə fəsad artdıqda pak insanlar xanənişin edilir. Belə bir cəmiyyətdə pisliyə qarşı çıxmaq və pak olmaq günah sayılır.

5. Lut qövmü günaha adət etmiş olsa da, həzrət Lut və onun yaxınlarını pak sayırdı.

6. Pak olmaqdan da üstün pak qalmaq və müxaliflərin nüfuz ümidini qırmaqdır.

### *(AYƏ: 83)*

﴾ فَأَنجَيْنَاهُ وَأَهْلَهُ إِلاَّ امْرَأَتَهُ كَانَتْ مِنَ الْغَابِرِينَ ﴿

**"Biz (əzabdan) kənarda qalmış Lut və onun ailəsinə - arvadı istisna olmaqla - nicat verdik."**

### *NÖQTƏLƏR*

◘"Ğabir" dedikdə yoldaşları getmiş, özü yerində qalmış kəs nəzərdə tutulur. Beləcə, Lut və onun yaxınları şəhərdən çıxdılar və əzab üçün zəmin yarandı.

◘Həm yaxın qohumlar, həm də həqiqi ardıcıllar "əhl" adlandırılmışdır. Amma "Zariyat" surəsinin 36-cı ayəsinə əsasən, həzrət Luta yaxın qohumlarından savay kimsə iman gətirmədi.

### *BİLDİRİŞLƏR*

1. İnsan azaddır və öz yolunu özü seçir. Vəhy evində yaşayan peyğəmbər arvadı küfr edə bildiyi kimi, küfr evində də Fironun arvadı kimi tövhid yolunu tapanlar var. Belə bir nəticə çıxarmaq olar ki, insanın düşüncə və əqidəsi yalnız iqtisadi parametrlərlə təyin olunmur.

2. İslamda, insanın qurtuluş amili onun ailə ənənələri yox, əqidə məktəbinə bağlılığıdır. Demək, hər kəsin taleyi onun əməlindən asılıdır.

3. İlahi rəhbərlərlə onların ardıcıllarının hesabı ayrıdır.

4. İslamda qadın da kişi kimi müstəqil bir mövcuddur. Digər bir tərəfdən, bir şəxsin müqəddəsliyi onun ətrafındakıların günahkarlığına pərdə ola bilməz.

*(AYƏ: 84)*

﴿ وَأَمْطَرْنَا عَلَيْهِم مَّطَرًا فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُجْرِمِينَ ﴾

**“Biz onların üzərinə (daşdan) yağış yağdırdıq. Bax gör, günahkarların aqibəti necə oldu?”**

***NÖQTƏLƏR***

◘Lut qövmünün məhvi səmadan yağan daşlarla gerçəkləşdi.[1]

***BİLDİRİŞLƏR***

1.Fitrətin yolunu dəyişmək nemətləri dəyişməklə nəticələnir. Yağış yerinə göydən daş yağır. “Kumeyl” duasında oxuyuruq: “Allahım, nemətləri dəyişən günahlarımı bağışla.”

2. İlahi qəzəb təkcə axirətə yox, həm də dünyaya aiddir.

3.Tarixdən və başqalarının aqibətindən ibrət götürək.

4. İlahi qəhr-qəzəb təkcə bir qrup günahkara aid deyil. Bütün günahkarlar bu dəyişməz qanunun intizarında olmalıdırlar.

*(AYƏ: 85)*

﴿وَإِلَى مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ قَدْ جَاءتْكُم
بَيِّنَةٌ مِّن رَّبِّكُمْ فَأَوْفُواْ الْكَيْلَ وَالْمِيزَانَ وَلاَ تَبْخَسُواْ النَّاسَ أَشْيَاءهُمْ وَلاَ تُفْسِدُواْ فِي الأَرْضِ
بَعْدَ إِصْلاَحِهَا ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ﴾

**“Mədyənə doğru qardaşları Şüeybi (göndərdik). O dedi: “Ey mənim qövmüm! Yalnız Allaha pərəstiş edin, Ondan savay məbudunuz yoxdur. Həqiqətən, Rəbbiniz tərəfindən sizin üçün aşkar dəlil gəlmişdir. (Alış-verişdə) ölçünü, çəkini tam əda edin. Xalqın malını əskiltməyin. Yer üzündə islahdan sonra fəsad törətməyin. Əgər mömin olsanız, bu (öyüdlər) sizin üçün daha üstündür.”**

***NÖQTƏLƏR***

◘Hazırkı əhvalat uyğun surədəki beşinci əhvalatdır. Şüeybin əhvalatı bir çox surələrdə, o cümlədən “Hud”, “Şuəra” surələrində bəyan olunmuşdur.

◘Mədyən Şam şəhərlərindən idi. Bu şəhər hazırda İordaniya yaxınlığında yerləşir. Səfalı bir yerdə yaşayan bu qövm bütlərə ibadət edir, alış-verişdə ölçünü pozurdular. Həzrət Şüeyb məbus olub onları haqqa dəvət etsə də, onlar öz inadkarlıq və itaətsizlikləri səbəbindən həlak oldular. Sonra o həzrət Əykə əhlinə məbus oldu. Amma onlar da ilahi göstərişləri qəbul etmədilər. Nəhayətdə bu qövm də məhv oldu.[2]

---

[1] Bax: “Hud”, 82, 83.

[2] Bax: “Şuəra”, 176, 189.

Mədyən və Əykə şəhərlərinin eyni bir şəhər olduğunu da ehtimal edənlər var. Çünki «Əykə» dedikdə, səfalı, bağlı-bağatlı yer nəzərdə tutulur. Şüeybin şəhərinin iki adla adlandırılması mümkündür.

◘İmansız insan daim çaşqınlıq içindədir. Amma bu çaşqınlıq özünü hər dövr bir formada büruzə verir. Məsələn, həzrət Lutun dövründə livat və cinsi pozğunluqlar, həzrət Şüeybin dövründə isə əskik satmaq rəvac tapmışdı.

### *BİLDİRİŞLƏR*

1. Həzrət Şüeyb xalqla qardaşcasına, mehriban rəftar edirdi. Ola bilsin ki, həzrət Şüeybin Mədyən əhli ilə qohumluğu da vardı.

2. Təbliğ və tərbiyə mərhəmət və məhəbbətlə müşayiət olunmalıdır.

3. Tövhid və tək Allaha pərəstiş peyğəmbərlərin dəvətinin mehvəridir.

4. Peyğəmbərlərin möcüzə və dəlilləri xalqın inkişaf və tərbiyəsi üçündür, eləcə də, Allahın rübubiyyətinə bağlıdır.

5. Şirk və əqidə çaşqınlığından sonra, həzrət Şüeyb dövrünün problemi iqtisadi azğınlıqlar idi.

6. Əskik satmaq, müamilədə saxtakarlığa yol vermək, xalqın malını az dəyərləndirmək, iqtisadi böhran yaratmaq haramdır və fəsad nümunələrindəndir.

7. Peyğəmbərlər cəmiyyətin iqtisadi durumuna da nəzarət etmək istəmişlər. Din və onun proqramları dünya həyatından təcrid olmamışdır.

8. (İş vaxtı) az işləmək də, əskik satmaq kimidir.

9. Kamil iman və sağlam iqtisadiyyat dünya və axirət xoşbəxtliyinin təminatçısıdır.

10. Peyğəmbərlərin göstərişləri başdan-başa xeyirdir. İnsanın xoşbəxtliyini təmin edən amil bu göstərişlərdir.

11. İman düzgün alış-verişin, ictimai ədalətin zəmanətçisidir.

### *(AYƏ: 86)*

﴿وَلاَ تَقْعُدُواْ بِكُلِّ صِرَاطٍ تُوعِدُونَ وَتَصُدُّونَ عَن سَبِيلِ اللّهِ مَنْ آمَنَ بِهِ وَتَبْغُونَهَا عِوَجًا وَاذْكُرُواْ إِذْ كُنتُمْ قَلِيلاً فَكَثَّرَكُمْ وَانظُرُواْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ﴾

**“Möminləri hədələmək və (onları) əyri göstərdiyiniz Allah yolundan çəkindirmək üçün hər yol üstə oturmayın. Yada salın o zamanı ki, az olduğunuz halda Allah sizi çoxaltdı. Baxın görün fəsad əhlinin aqibəti necə oldu!”**

### *NÖQTƏLƏR*

◘“Yol üstə oturmaq” dedikdə fitnə-fəsad yaratmaq üçün yol kənarında dayanmaq nəzərdə tutula bilər. Çünki şeytan insanları azdırmaq üçün haqq

yolda pusqu quracağına and içmişdir. Əlbəttə ki, oturmaq dedikdə adi oturmaq nəzərdə tutulmur.[1]

### *BİLDİRİŞLƏR*

1. Haqqın düşmənləri Allah yolunda maneçilik yaratmaq üçün hər yerdə pusqu qurur, bütün üsullardan istifadə edirlər.
2. Xalqı qorxutmaq və onları əzab-əziyyətə salmaq qadağandır.
3. Möminləri dindən uzaqlaşdıra bilməyən düşmənlər dinin simasını dəyişməyə, onu pis göstərməyə çalışırlar.
4. Bəzən cəmiyyətin çoxluğu dəyər sayıla bilər.
5. Xalqın tərbiyə və hidayət amillərindən biri nemətlərə diqqət və keçmişdəkilərin başına gələnləri xatırlamaqdır.
6. Tarixi öyrənmək və ibrət götürmək ilahi tapşırıqdır.
7. Xalqın həyatını öyrənərkən onların ötəri həyatına yox, aqibətlərinə nəzər salın.
8. Allah və Allah yolunda maneə yaratmaq fəsadın bir növüdür.

### *(AYƏ: 87)*

﴿ وَإِن كَانَ طَآئِفَةٌ مِّنكُمْ آمَنُواْ بِالَّذِي أُرْسِلْتُ بِهِ وَطَآئِفَةٌ لَّمْ يْؤْمِنُواْ فَاصْبِرُواْ حَتَّى
يَحْكُمَ اللّهُ بَيْنَنَا وَهُوَ خَيْرُ الْحَاكِمِينَ ﴾

**“Əgər sizlərdən bir dəstə mənim göndərilməyimə səbəb olan şeyə iman gətirib, digər bir dəstə iman gətirməmişsə, səbir edin ki, Allah aramızda hakimlik etsin. O ən üstün hakimdir.”**

### *NÖQTƏLƏR*

◘Həzrət Şüeybin müxalifləri cəsarətlə deyirdilər: “Bəs Allahın qəhr-qəzəbi harada qaldı?” Möminlər və həzrət Şüeybin tərəfdarları da ilahi yardımların intizarında idilər. Bu ayə hər iki dəstəyə cavab verməklə kafirləri məğrurluqdan, möminləri məyusluqdan çəkindirməyə çağırdı.

### *BİLDİRİŞLƏR*

1. Peyğəmbərin vəzifəsi din və ilahi göstərişlərin təbliğidir. Xalq da bu göstərişlərin qəbul və ya rədd edilməsində ixtiyar sahibidir.
2. Peyğəmbər məktəbində peyğəmbərlərin məqsəd və yoluna iman zəruridir.
3. Haqq və batil tərəfdarlarının tarixini, onların işinin sonunu diqqətlə mütaliə etmək lazımdır.
4. Xalqın bir dəstənin küfrə meyl etməsi bizi sarsıtmasın. Allah hakimdir!
5. Allahın ən üstün hakim olduğunu bilən kəs səbir edir, cəza və mükafat üçün tələsmir. Çünki başqalarının hökmü onu qorxutmur.

[1] Bax: “Əraf”, 16.

# DOQQUZUNCU CÜZ

***(AYƏ: 88)***

﴿ قَالَ الْمَلأُ الَّذِينَ اسْتَكْبَرُواْ مِن قَوْمِهِ لَنُخْرِجَنَّكَ يَا شُعَيْبُ وَالَّذِينَ آمَنُواْ مَعَكَ مِن
قَرْيَتِنَا أَوْ لَتَعُودُنَّ فِي مِلَّتِنَا قَالَ أَوَلَوْ كُنَّا كَارِهِينَ ﴾

**“Şüeyb qövmünün təkəbbürlü başçıları dedilər: “Ey Şüeyb, əgər ayinlərimizə dönməsəniz, səni və səninlə iman gətirənləri şəhərimizdən çıxaracağıq.” (Şüeyb) dedi: “Rəğbətsiz də olsaq belə?”**

***NÖQTƏLƏR***

◘Bütün peyğəmbərlər hansısa şəkildə hərbə-zorbaya məruz qalmış, sürgünlə hədələnmişlər. Quranda oxuyuruq ki, kafirlər öz peyğəmbərlərinə münasibətdə bu sayaq hədələrə yol vermişdilər.[1]

◘Heç bir peyğəmbər risalətdən öncə müşrik və bütpərəst olmamışdır. Bununla belə, onlar müşriklərlə aram rəftar etmişlər. Risalətə çatdıqdan sonra isə daha böyük əzmlə xalqın hidayətinə çalışmış və müşriklərlə mübarizə aparmışlar. “Bizim ayinlərə dönməniz” təbiri peyğəmbərlərə yox, onların ardıcıllarına ünvanlanmışdır.[2]

***BİLDİRİŞLƏR***

1. Təkəbbürlü başçılar peyğəmbərlərin düşməni olmuşlar.
2. Dəlil və məntiq peyğəmbərlərin üsuludur.[3] Kafirlərin üsulu isə hədələmə və hərbə-zorbadır.
3. Təbliğatçılar müxaliflərin hədələrindən qorxmamalıdırlar. Çünki bu yolun yolçuları daim qətl və sürgünlə hədələnmişlər.
4. Əqidəni zorla qəbul etdirmək kafirlərin işidir. Dini məcburi qəbul etdirməyin faydası yoxdur.
5. Kafirlərin cəhaləti ilə ədəb və hikmət əsasında rəftar etmək lazımdır.

---

[1] “Ibrahim”, 13.
[2] “Təfsire-nümunə”.
[3] Bax: “Əraf”, 85.

### *(AYƏ: 89)*

﴿قَدِ افْتَرَيْنَا عَلَى اللّهِ كَذِبًا إِنْ عُدْنَا فِي مِلَّتِكُم بَعْدَ إِذْ نَجَّانَا اللّهُ مِنْهَا وَمَا يَكُونُ لَنَا أَن نَّعُودَ فِيهَا إِلاَّ أَن يَشَاء اللّهُ رَبُّنَا وَسِعَ رَبُّنَا كُلَّ شَيْءٍ عِلْمًا عَلَى اللّهِ تَوَكَّلْنَا رَبَّنَا افْتَحْ بَيْنَنَا وَبَيْنَ قَوْمِنَا بِالْحَقِّ وَأَنتَ خَيْرُ الْفَاتِحِينَ﴾

**“(Şüeyb müxaliflərə dedi) Əgər Allah bizə sizin ayinlərinizdən nicat verdikdən sonra yenidən ona qayıtsaq, şübhəsiz, Allaha iftira etmiş olarıq. Bizə yaraşmaz ki, sizin ayinlərə qayıdaq. Yalnız Rəbbimiz olan Allah istəsə! (Allah isə heç vaxt belə istəməz.) Bizim Rəbbimizin elmi hər şeyi əhatə edir. Biz Allaha təvəkkül etmişik. Pərvərdigara! Bizimlə qövmümüz arasında haqq əsasında mühakimə et və bizə bir yol aç. Sən hakimlərin və yol açanların ən üstünüsən.”**

### *NÖQTƏLƏR*

◘Ayədə “millət” sözü din, ayin mənasını bildirir. Başqa ayələrdə də bu sözün həmin mənada işlənməsi ilə rastlaşırıq.[1]

◘Nəzərdə tutulan halda “fəth” sözü çıxış yolu tapılması üçün mühakimə mənasında işlədilmişdir. Yəni son sözü Allah deyir, bununla da çıxılmaz vəziyyət aradan qalxır, yol açılır.

◘Şüeybin ətrafındakılar dini həvəs əsasında yox, dəlil əsasında qəbul etdiklərindən onu tərk edəsi deyildilər. Bu iş yalnız Allahın əmri ilə baş verə bilərdi, Allah isə belə bir göstəriş verməzdi. İnsan, adətən, peşman olduğu üçün verdiyi göstərişi dəyişir. Allah isə heç vaxt peşman olmur.

### *BİLDİRİŞLƏR*

1. Haqq məqsəd və əqidələrdən üz çevirmək, Allah üçün şərik qərar vermək Allaha qarşı iftira və əhdə xəyanətin bir növüdür.
2. Şirk əsarət, tək Allaha pərəstiş isə qurtuluşdur.
3. Mömin heç vaxt haqqı qurban vermir, saziş əhli isə əqidəsində möhkəm olmur. (Həm geri çəkilmək, həm də irtica qadağandır. Səhlənkarlıq bütün hallarda nöqsandır.)
4. Hidayət və zəlalət Allahın istək dairəsindədir.
5. Bütün hallarda Allaha təslim olub, onun əmrinə itaət etmək lazımdır.
6. Allaha təslimçilik və ilahi rübubiyyətin qəbul dəlili Onun sonsuz elmidir.
7. Bizim Allaha təvəkkül etməyimizin dəlili Allahın Öz elmi ilə hər şeyi mütləq əhatə etməsidir.
8. İmanda möhkəm dayanmaq üçün Allahdan yardım diləyib, ona təvəkkül edək.

---

[1] Bax: “Həcc”, 78.

9. Düşmənlərin hay-küylü təklifləri qarşısında, Allaha təvəkküllə möhkəm dayanmalıyıq.

10. Mühakimənin Allahın ixtiyarında qoyulması təvəkkül və təslimçilik nümunəsidir.

11. Duada ilahi adlarla istək arasındakı tənasübü nəzərə almaq lazımdır. Qələbəyə ehtiyac olan vaxt Allahı "Xəyrul-Fatihin" adı ilə çağıraq.

12. Hərtərəfli elm və agahlıq düzgün mühakimə şərtidir. Hakimlik hər şeyi bilən kəsin haqqıdır.

13. Hakimlik Allahın rübubiyyət şənindəndir.

14. Peyğəmbərlərin məqsədi öz sözlərini yox, haqq sözü təsbit edib taxta oturtmaqdır.

***(AYƏ: 90)***

﴾ وَقَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قَوْمِهِ لَئِنِ اتَّبَعْتُمْ شُعَيْباً إِنَّكُمْ إِذاً لَّخَاسِرُونَ ﴿

**"Şüeybin qövmündən olan kafirlər dedilər: Əgər ona itaət etsəniz, hökmən ziyankar olacaqsınız."**

***(AYƏ: 91)***

﴾ فَأَخَذَتْهُمُ الرَّجْفَةُ فَأَصْبَحُواْ فِي دَارِهِمْ جَاثِمِينَ ﴿

**"Belə ki, şiddətli bir zəlzələ onları bürüdü, evlərində dizi üstə düşmüş (ölmüş) halda gecəni sübh etdilər."**

***NÖQTƏLƏR***

◘Bu ayədə "Rəcfə" (zəlzələ), "Hud" surəsinin 94-cü ayəsində "səyhə" (səs), "Şuəra" surəsinin 189-cu ayəsində «əzabu yəvmiz-zullə» (zülmət gününün əzabı) təbirlərinin işlədilməsindən belə bir nəticə çıxarmaq olar ki, nəzərdə tutulmuş zəlzələ səs və qara buludlarla müşayiət olunmuşdur.[1] "Rəcfə" dedikdə, qorxudan bədəndə yaranmış iztirab və titrəyiş də nəzərdə tutula bilər.

◘78-ci ayədə deyildiyi kimi, üzü üstə yerə yıxılmış və ya dizi üstə çökmüş, qalxmağa gücü olmayan kəsə "casim" deyilir.

***BİLDİRİŞLƏR***

1. Əyan-əşrəf təbəqəsi, adətən, peyğəmbərlərə müxalif olmuşdur.

2. Xalqın peyğəmbərdən uzaqlaşdırılması istiqamətində kafirlərin gördüyü işlərdən biri maddi və iqtisadi hədələrdir. Bəli, kafirlərin nəzərincə, əskik satmamaq ciddi bir zərərdir.

3. İlahi əzablar, adətən, gecə nazil olur.[2] Gecədə ilahi bir əsrarəngizlik var. İlahi lütflər və vəhy də gecələr nazil olmuşdur.

---

[1] "Təfsire-nümunə".

[2] "Təfsire-əl-mizan".

### *(AYƏ: 92)*

﴿ الَّذِينَ كَذَّبُواْ شُعَيْبًا كَأَن لَّمْ يَغْنَوْاْ فِيهَا الَّذِينَ كَذَّبُواْ شُعَيْبًا كَانُواْ هُمُ الْخَاسِرِينَ ﴾

**“Şüeybi təkzib edənlər (aradan elə götürüldülər ki,) sanki həmin evlərdə sakin olmamışdılar. Şüeybi təkzib edənlər ziyankarlar idilər.”**

### *NÖQTƏLƏR*

◘“Ğəniyy” kökündən olan “yəğnəv” sözü bir məkanda qalmaq mənasını bildirir. Bu söz “ehtiyacsız” mənasını da verdiyindən belə anlaşılır ki, hazır mənzili olan kəs ehtiyacsızdır.

◘Böyük zərər o müşriklərə aiddir ki, bir Allaha iman əvəzinə şirk yolunu, məsum rəhbər əvəzinə başqalarını seçmişlər. Ona görə də belələrinin yeri əmin-amanlıq yox, xarabalıqdır, onlar behişt əvəzinə cəhənnəmə gedər, Allahın razılığı əvəzinə Onun qəzəbinə düçar olarlar.

### *BİLDİRİŞLƏR*

1. Kafirlərin pis aqibətinə diqqət ibrətamiz bir dərsdir.
2. Batil əhlinin hiylələri su üstə çəkilmiş şəkil kimidir. Kafirlər Şüeybi qovmaq fikrində olsalar da, özləri evlərindəcə həlak oldular.
3. İlahi qəhr-qəzəb gələn yerdə həqiqi ziyankarlar tanınır. (Ötən ayədə kafirlər həzrət Şüeybə tərəfdarlığı ziyan bilirdilərsə, bu ayədə Allah onların özünü ziyankar sayır.)

### *(AYƏ: 93)*

﴿ فَتَوَلَّى عَنْهُمْ وَقَالَ يَا قَوْمِ لَقَدْ أَبْلَغْتُكُمْ رِسَالاَتِ رَبِّي وَنَصَحْتُ لَكُمْ فَكَيْفَ آسَى عَلَى قَوْمٍ كَافِرِينَ ﴾

**«Şüeyb onlardan üz döndərdi və dedi: Ey mənim qövmüm! Rəbbimin buyruqlarını sizə çatdırdım, sizə xeyirxahlıq etdim. Axı kafir qövm üçün necə təəssüf edim?»**

### *BİLDİRİŞLƏR*

1. İlahi qəhr-qəzəb höccət (dəlillər) tamamlandıqdan sonra nazil olur.
2. Xalqa moizə və diqqətin həddi var. Bəzən onlardan da üz döndərmək lazım gəlir.
3. Təbliğ mehribanlıq, canıyananlıqla müşayiət olunmalıdır.
4. Nəsihət və xeyirxahlıqda şəxsi mənafe güdməyək.
5. Vəzifəmizə əməl etmişiksə, nəticəyə görə nigaran olmayaq.
6. Yersiz təəssüf və mərhəmət qadağandır. (Quranda İslam peyğəmbərinə də qəm yeməmək tövsiyə olunur).[1]

---

[1] Bax: “Hicr”, 88; “Nəhl”, 127; “Nəml”, 70.

7. Küfr ruhiyyəsi, inadkarlıq hakim olan yerdə peyğəmbərlərin də moizəsi təsir etmir.

*(AYƏ: 94)*

﴿ وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّبِيٍّ إِلاَّ أَخَذْنَا أَهْلَهَا بِالْبَأْسَاء وَالضَّرَّاء لَعَلَّهُمْ يَضَّرَّعُونَ ﴾

**“Bir yerin əhlini çətinlik və bəlaya salmamış oraya peyğəmbər göndərmədik. Bəlkə yalvarıb, yaxaralar.”**

***NÖQTƏLƏR***

◘Xəstəlik və ölüm kimi fiziki hadisələr və zərbələr “bəsa”, iqtisadi zərbələr və ziyanlar isə “zərra” adlanır.

***BİLDİRİŞLƏR***

1. Həyat çətinlikləri bütün qövmlər üçün nəzərdə tutulmuş ilahi sünnədir.

2. Həyat çətinlikləri qəfləti aradan qaldırır, diqqəti Allahla yönəldir və təkamülə səbəb olur.

3. Çətinlikləri heç də həmişə ilahi qəhr-qəzəb saymaq olmaz. Bəzən Allahın lütfü bəla şəklində cilvələnir. Dəmir kürəyə atıldıqda yumşalır, ona forma vermək mümkün olur. Hadisə və çətinliklər də insanı yumşaldıb tövbə halına gətirir.

*(AYƏ: 95)*

﴿ ثُمَّ بَدَّلْنَا مَكَانَ السَّيِّئَةِ الْحَسَنَةَ حَتَّى عَفَواْ وَّقَالُواْ قَدْ مَسَّ آبَاءنَا الضَّرَّاء وَالسَّرَّاء فَأَخَذْنَاهُم بَغْتَةً وَهُمْ لاَ يَشْعُرُونَ ﴾

**“Sonra çətinliyin yerinə xoşluq qərar verdik. Beləcə, onlar artıb toplum oldular və dedilər: «Çətinlik və firavanlıq atalarımızın da qarşısına çıxmışdı. (Yəni, acı hadisə qəzəb, şirin hadisə isə lütf nişanəsi deyil.)» Onları qəfildən dərk etmədikləri halda (qəzəbimizlə) yaxaladıq.”**

***NÖQTƏLƏR***

◘“Əfəv” var-dövlət və övladın çoxluğu, bəzən də tərk etmək, uzaqlaşmaq mənalarını bildirir. Allah bu qövmə lütfünü nə qədər artırsa da, onlar düşünüb ibrət götürmədilər. “Ənam” surəsinin 44-cü ayəsi də bu ayənin oxşarıdır: “Bizim xəbərdarlıqlarımızı unutduqlarından nemət qapılarını onların üzünə açdıq, kam aldıqdan sonra qəfildən onları qəzəbə düçar etdik.” Bu hal xəstənin sağalacağından ümidini üzmüş həkimin “ona istədiyini verin” sözlərini xatırladır.

◘Ayənin digər bir mənası da ola bilər: Bəla ötdükdən sonra növbəti nəsil dedi: “Acı hadisələr atalarımıza aid idi, biz isə amandayıq.” Halbuki beləəri

həyat çətinliklərinin ilahi sünnə olduğunu anlamır və öz qəflətləri ilə ilahi qəhr-qəzəbə zəmin yaradırdılar.

### *BİLDİRİŞLƏR*

1. Bəzən rifah, rahatlıq yanlış düşüncələrə, tüğyana səbəb olur.

2. Rifah və xoş gün lütf nişanəsi olmaya da bilər. Bəzən bu hal ilahi qəhr-qəzəbə səbəb olur.

3. İlahi sınaqdan çıxmayanların çoxu məhrumlar yox, rifah içində yaşayanlardır.

4. İlahi qəhr-qəzəb qəfildən, öncə xəbərdarlıq etmədən gəlir.

5. Acı və şirin hadisələrdən ibrət götürməmək şüursuzluq nişanəsidir.

6. Dünyaya məşğul olub Allahı yaddan çıxarmaq insanı qəfil əzaba düçar edir.

### *(AYƏ: 96)*

﴿ وَلَوْ أَنَّ أَهْلَ الْقُرَى آمَنُواْ وَاتَّقَواْ لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِّنَ السَّمَاءِ وَالأَرْضِ وَلَـكِن كَذَّبُواْ فَأَخَذْنَاهُم بِمَا كَانُواْ يَكْسِبُونَ ﴾

**“Əgər şəhər və vilayətlərin əhli iman gətirib təqva yolunu seçsəydi, şübhəsiz, göyün və yerin bərəkət qapılarını onların üzünə açardıq. Amma onlar (ayələrimizi) təkzib etdilər. Biz də onları əməllərinə görə (əzabımızla) yaxaladıq.”**

### *NÖQTƏLƏR*

◘“Bərəkət” sözünün cəm forması olan “bərəkat” sözü sabit və davamlı bəxşiş mənasını bildirir. “Bərəkət” sözündə çoxluq, xeyir, artım mənaları var. Bu söz həm maddi, həm də mənəvi şeylərə aiddir. Ömür, var-dövlət, elm, kitab və bu kimi başqa şeylər bərəkət sayıla bilər.

◘**Sual:** Əgər iman və təqva bərəkətin nazil olma səbəbidirsə, nə üçün müsəlman ölkələri kafir ölkələrdən iqtisadi baxımdan geridə qalmışdır?

**Cavab:** Əvvəla, həmin ölkələr elm və texnika baxımından tərəqqi etmişlər. Həmin ölkələrdə mənəvi və psixoloji baxımdan aramlıqdan soraq yoxdur. Bu baxımdan onlar da çətinlik içindədirlər. İkincisi, əksər müsəlman ölkələrinin yalnız adı İslam ölkəsidir. Həmin ölkələrin çoxunda İslam qanunları hakim deyildir. Bundan əlavə, maddi rifah ilahi qəhr-qəzəb növü də ola bilər. Quranda buyurulur: “Allahın xəbərdarlığını unutduqlarından onların üzünə bütün qapıları açdıq ki, məst olsunlar.”[1]

◘Quranda iki dəstəyə münasibətdə iki açılış haqqında danışılır: Salehlər üçün bərəkətli rifah; kafirlər üçün bərəkətsiz rifah. Çünki nemətlər davamsız və məstedici də ola bilər. Allah kafirlərə belə bir rifahı vermişdir ki, günah yüklərini ağırlaşdıralar. Ona görə də nemətə çatan kimi sevinmək olmaz.

[1] “Ənam” 44.

Nemət yalnız möminlər üçün bərəkətdir. Həmin nemətlər digərləri üçün davamsızdır və ilahi qəhr-qəzəb vasitəsidir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bəzən bir bəndə Allahdan nə isə diləyir. Allah onun duasını qəbul edir və bu diləyin həyata keçməsi üçün vaxt təyin olunur. Amma az sonra bəndə günaha yol verdiyindən həmin istək qəbul olunmur.”[1]

◘Bu ayənin bariz nümunəsi həzrət Mehdinin (ə) zühur dövranıdır. Rəvayətlərə əsasən, həmin dövrdə göydən və yerdən bərəkət nazil olasıdır.[2]

## *BİLDİRİŞLƏR*

1.Cəmiyyətin iman gətirib təqva yolunu seçməsi yetərincə çətin işdir.

2. Allahın ictimai lütf və bərəkətlərini əldə etmək üçün fərdi iman və təqva bəs etmir. Cəmiyyətin əksəriyyəti imanlı və təqvalı olduqda ictimai bərəkətlər nazil olur.[3]

3. İman təklikdə kifayət deyil, təqva da lazımdır.

4. Cəmiyyətin mədəniyyət və mənəviyyatına qoyulan sərmayənin iqtisadi nəticələri də var.

5. İlahi vədlərə ciddi yanaşaq. İman və təqva olan yerdə bərəkətin də nazil olması labüddür.

6. Çətinlik zamanı qapını açmaq və ya bağlamaq Allahın ixtiyarındadır. Amma bütün çətinliklər öz əməllərimizin nəticəsidir.

7. Səmavi dinlər bəşəriyyətin iqtisadi dirçəlişinə də diqqətlə yanaşır.

8. İnsan fitrətən bərəkət sorağındadır. Peyğəmbərlər insanların həmin istəyindən ilahi məqsədlər yolunda istifadə etmişlər.

9. Bəşəriyyətin əldə etdiyi bərəkətlər ilahi bərəkətlərin cüzi bir hissəsidir.

10. Yer və göy  bərəkət qaynağıdır.

11. Bərəkətin çatmasında göyün rolu yerin rolundan öndə gəlir.

12. İman və təqva bərəkətin nazil olma səbəbidirsə də, nazil olan hər nemət və rifahı iman və təqva nəticəsi saymaq olmaz.

13. Məhrumiyyət və problemlərimizin səbəbi öz əməllərimizdir.

14. İnadkarlıq və davamlı günah ilahi qəhr və əzab səbəbidir.

## *(AYƏ: 97)*

﴿ أَفَأَمِنَ أَهْلُ الْقُرَى أَن يَأْتِيَهُمْ بَأْسُنَا بَيَاتاً وَهُمْ نَآئِمُونَ ﴾

**“Məmləkətlərin əhli əmindirlərmi ki, axşamlar yatdıqları vaxt qəhr və əzabımız onlara çatmayacaq?”**

---

[1] “Təfsire isna-əşəri”.

[2] “Təfsire-Nurus-səqəleyn”.

[3] “Təfsire-Furqan”.

*(AYƏ: 98)*

﴿ أَوَ أَمِنَ أَهْلُ الْقُرَى أَن يَأْتِيَهُمْ بَأْسُنَا ضُحًى وَهُمْ يَلْعَبُونَ ﴾

**"Yoxsa, məmləkətlərin əhli əmindirlər ki, gündüz başlarını əyləncəyə qatdıqları vaxt qəhr və əzabımız onlara yetişməyəcək?"**

*(AYƏ: 99)*

﴿ أَفَأَمِنُواْ مَكْرَ اللّهِ فَلاَ يَأْمَنُ مَكْرَ اللّهِ إِلاَّ الْقَوْمُ الْخَاسِرُونَ ﴾

**"Yoxsa, Allahın məkrindən (onlara qarşı qurğusundan) amanda qaldılar? Halbuki ziyankar qövmdən savay kimsə özünü Allahın məkrindən amanda bilmir."**

## *NÖQTƏLƏR*

◘"Məkr" sözü dilimizdə hiylə mənasını bildirsə də, ərəb lüğətində bu söz tədbir, məqsəddən yayındırmaq üçün çarə axtarmaq mənalarına malikdir. Məkr həm haqq, həm də batil ola bilər. "Allahın məkri" dedikdə Onun kafirlərə qarşı planı nəzərdə tutulur.

◘Hətta peyğəmbər və məsum imamlar da özünü Allahın tədbirindən amanda bilməmişlər. Onlar daim öz əməllərinə nəzarət etmiş, büdrəməyə yol verməmək üçün çalışmışlar.[1]

Rəvayətçi nəql edir ki, bir gün namazda İmam Sadiqə (ə) iqtida edərkən həzrət buyurdu: "Pərvərdigara, bizi Öz məkrindən (azğınlara qarşı qurğundan) qəflətdə saxlama."[2]

Həzrət Əli (ə) buyurmuşdur: "Hətta bu ümmətin yaxşıları üçün də ilahi cəzadan arxayınlıq yoxdur...[3] «Özünü ilahi məkrdən amanda bilməmək» dedikdə vəzifələrə diqqət və məsuliyyətsizlikdən qorxu nəzərdə tutulur.

## *BİLDİRİŞLƏR*

1. Məsuliyyət hiss etmək üçün təhlükə ehtimalı kafidir.

2. Aram vəziyyət bizi arxayınlaşdırmasın, heç vaxt özümüzü amanda bilməyək. Bəli, əzab təkcə keçmiş qövmlərə aid deyil. İlahi qanun bütün dövrlərdə və bütün qövmlərə hakimdir.

3. Allah istəsə Öz qəhrini elə bir vaxt nazil edər ki, heç bir çarə tapılmaz, bir gündə hər şey məhv olar.

4. İnsanın bilik və bacarığı ilahi əzabı onun yadından çıxarmamalıdır.

5. Diqqətli olmaq və qəfləti aradan qaldırmaq üçün təhlükə ehtimalı təsirli amildir.

6. Qəflət yuxusu və yersiz əyləncələr ilahi qəhr üçün zəmindir.

7. İman və təqvasız həyat oyuncaqdan başqa bir şey deyil.

---

[1] Bax: "Ənam" 15.
[2] "Təfsire-nümunə".
[3] "Nəhcül-bəlağə", h. 377.

8. Heç vaxt özümüzü ilahi qəhr-qəzəbdən amanda bilməyək. Bəli, bizdən istənilən, ümid və qorxu ilə müşayiət olunan həyatdır.

9. İlahi məkr və qəhr haqqında düşünməyənlər ziyankardırlar.

***(AYƏ: 100)***

﴿ أَوَلَمْ يَهْدِ لِلَّذِينَ يَرِثُونَ الأَرْضَ مِن بَعْدِ أَهْلِهَا أَن لَّوْ نَشَاء أَصَبْنَاهُم بِذُنُوبِهِمْ
وَنَطْبَعُ عَلَى قُلُوبِهِمْ فَهُمْ لاَ يَسْمَعُونَ ﴾

**“(Keçmişdəkilərin başına gələnlər) sonrakı varislər üçün bu həqiqəti işıqlandırmadımı ki, əgər istəsək, onları da günahlarına görə həlak edərik, (haqqı) eşitməmələri üçün qəlblərinə möhür vurarıq?!”**

***NÖQTƏLƏR***

◘İmam Sadiq (ə) buyurmuşdur: “Möminin qəlbi ağ səhifə kimidir. Hər dəfə günah baş verəndə bu səhifədə qara bir nöqtə görünür. Həmin şəxs tövbə etsə, ləkə pak olur. İnsan günahını davam etdirdikdə isə həmin nöqtə o qədər böyüyür ki, bütün qəlbi bürüyür, insanın xeyirə yetişməsinə mane olur, səadətə çatmaq üçün bir yol qalmır.[1] Beləcə, günah və çirkin iş həmin insanlarda xasiyyətə çevrilir.”[2]

◘İnsan bəzən günah işi o qədər təkrarlayır ki, bu günah onun ruhunda və qəlbində iz qoyur, xasiyyət şəklinə düşür. Belə bir insan doğru yola dəvəti qəbul edə bilmir. Bu təsiri Allah müəyyənləşdirmiş olsa da, insan həmin mərhələyə öz istəyi ilə çatır.[3]

***BİLDİRİŞLƏR***

1. Qafil insanlar tənbeh və məzəmmətə ehtiyaclıdırlar. Hakimiyyətə çatan qrup özündən əvvəlki hakimiyyətin acı-şirin təcrübələrindən istifadə etməlidir.

2. İlahi cəzaları doğuran amil insanların öz günahıdır. Günah qəlbin möhürlənməsinin, düzgün qavrayışdan və ilahi yardımdan məhrumluğun müqəddiməsidir.

3. Dini həqiqətlərin dərk olunmaması ilahi cəzalardandır.

4. Tarixə hakim olan qanunlar sabitdir. Bu səbəbdən də keçmişdəkilərin tarixi gələcəkdəkilər üçün ibrət ola bilər.

***(AYƏ: 101)***

﴿تِلْكَ الْقُرَى نَقُصُّ عَلَيْكَ مِنْ أَنبَآئِهَا وَلَقَدْ جَاءتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ فَمَا كَانُواْ
لِيُؤْمِنُواْ بِمَا كَذَّبُواْ مِن قَبْلُ كَذَلِكَ يَطْبَعُ اللّهُ عَلَى قُلُوبِ الْكَافِرِينَ﴾

---

[1] Bax: “Mutəffifin”, 14
[2] “Təfsire-isna-əşəri”.
[3] “Təfsire-nümunə”.

**"Xəbərlərindən bir qismini sənə çatdırdığımız həmin məmləkətlərdir. Həqiqətən, peyğəmbərlər onların sorağına aşkar möcüzə və dəlillərlə gəldi. Amma onlar əvvəllər təkzib etdiklərinə iman gətirmək fikrində deyildilər. Allah kafirlərin qəlbini bu sayaq möhürləyir."**

### *NÖQTƏLƏR*

◘"Qura" dedikdə həzrət Saleh, Şüeyb, Lut və Hudun peyğəmbər kimi göndərildiyi məntəqələr nəzərdə tutulur.

### *BİLDİRİŞLƏR*

1.Tarixin ibrətamiz hissələri nəql olunmalıdır.

2. Bütün peyğəmbərlərin möcüzəsi olmuşdur. Xalqın hidayəti üçün bütün aşkar dəlillər bəyan olunmuşdur.

3. Xalqın inkarı təbliğçini məyus etməməlidir. Çünki tarix boyu belə olmuşdur.

4. Təəssüb, inadkarlıq imansızlıq və küfrün köküdür.

5. Peyğəmbərlərin dəvət və möcüzəsini qəbul etməmək qəlbin korluğu və möhürlənməsi nişanəsidir.

6. Xalqın küfr və inadkarlığı Allah tərəfindən qəlblərin möhürlənməsi səbəbidir.

### *(AYƏ: 102)*

﴿ وَمَا وَجَدْنَا لأَكْثَرِهِم مِّنْ عَهْدٍ وَإِن وَجَدْنَا أَكْثَرَهُمْ لَفَاسِقِينَ ﴾

**"Onların çoxunda əhdə vəfa görmədik. Həqiqətən, onların əksəriyyətini günahkar və itaətsiz gördük."**

### *NÖQTƏLƏR*

◘"Əhd" dedikdə ya fitrətin əhdi[1], ya peyğəmbərlərin dəvəti, ya da bəzilərinin peyğəmbərlə bağladığı xüsusi əhd nəzərdə tutulur. Məsələn, bəziləri əhd edirdilər ki, peyğəmbər onların istədiyi möcüzəni göstərsə və ya hansısa bir çətinliyi aradan qaldırsa, iman gətirərlər. Həzrət Musaya dedilər: "Əgər bizim bədbəxtliyimizi aradan qaldırsan, sənə iman gətirib Bəni-İsraili səninlə göndərərik."[2] Amma bu insanlar çətinlikləri aradan qalxan kimi öz əhdlərini pozdular.

◘Allah fitrət və peyğəmbərlər yolu ilə həqiqəti insanlara açıqladı. Onlar təslim olmalı ikən fitrətlərinin və peyğəmbərlərinin çağırışını yaddan çıxarıb, günaha uğradılar.

◘İmam Kazim (ə) buyurmuşdur: "Bir işə əminlik yarandıqda şəkk-şübhəyə yer qalmır." Sonra imam hazırkı ayəni tilavət etdi.[3] Hədisdə elə bir nöqtə nəzərdə tutula bilər ki, bir şəxs dəlillər vasitəsi ilə haqqı tanıdıqdan

---

[1] Bax: "Yasin", 60.

[2] "Əraf", 134, 135.

[3] "Kafi", c. 2, s. 399.

sonra nəfs istəkləri səbəbindən şübhəyə düşsə, əhdini pozmuşdur və hazırkı ayənin ünvanlarındandır.

◘Allah Qurani-kərimdə vəfalı insanlar haqqında xoş sözlər buyurmuş, əhdini pozanları isə məzəmmət etmişdir. Vəfalı insanlar "möminlər", "təqvalılar", "ulul-əlbab", "əbrar" kimi adlarla xatırlanmışlar.[1] Əhdini pozanlar isə "günahkarlar", "kafirlər", "müşriklər", "ziyankarlar", "şərrud-dəvab", "qəlbi daşlar" kimi təbirlərlə yada salınırlar.[2] Quran belələri ilə savaşı zəruri sayır.[3]

### *BİLDİRİŞLƏR*

1. Keçmiş qövmlərin həlak olmasının səbəbi onların əhdi pozması və itaətsizliyi idi.
2. Mühakimə yürüdərkən insaflı olmaq lazımdır.
3. Ötən qövmlərin tarixi peyğəmbərlər və aşkar dəlillərin olmasına baxmayaraq qaranlıqdır. Öz din və imanımızla qürrələnməyək.
4. Əhdi pozmaq azğınlıq nişanəsidir.

### *(AYƏ: 103)*

﴿ ثُمَّ بَعَثْنَا مِن بَعْدِهِم مُّوسَى بِآيَاتِنَا إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ فَظَلَمُواْ بِهَا فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ ﴾

**"Əvvəlki peyğəmbərlərdən sonra Musanı Öz ayə və möcüzələrimizlə Firon və onun başçılarına məbus etdik. Amma onlar ayələrimizə sitəm etdilər. Bax gör həddi aşanların işinin sonu necədir?!"**

### *NÖQTƏLƏR*

◘Bu surə Musanın əhvalatından danışan ilk Məkkə surəsidir. Quranda 136 dəfə həzrət Musanın adı çəkilmişdir. Adı bu qədər zikr olunmuş ikinci şəxs yoxdur. "Əl-mizan" təfsirində bildirildiyinə görə, Quran həzrət Musadan nəql etdiyi qədər başqa peyğəmbərdən möcüzə nəql etməmişdir.

◘Quranda həzrət Musanın əhvalatını beş dövrə bölmək olar: Doğum və uşaqlıq dövrü; Musanın Misirdən Mədyənə qaçması və həzrət Şüeybin yanında qalması; peyğəmbərliyə seçilməsi və Fironla rəftarı; həzrət Musa və onun qövmünün Firon zülmündən xilası və Sina səhrasına qayıdış; həzrət Musanın Bəni-İsrail qövmü ilə rəftarları.

[1] Bax: "Muminun", 1-8; "Ali-Imran", 76; "Rəd", 20; "Insan", 5-7.
[2] Bax: "Əraf",102; "Ənfal",55, 56; "Tövbə",7; "Bəqərə", 28; "Ənfal",56; "Maidə", 13.
[3] Bax: "Tövbə", 13.

***BİLDİRİŞLƏR***

1. Həzrət Musa həzrət Nuh, Hud, Saleh, Lut, Şüeybdən xeyli sonra məbus oldu.

2. Peyğəmbərlərin besət fəlsəfələrindən biri tağutla mübarizədir.

3. Cəmiyyətin islahı üçün əsas fiqurlara üz tutmaq, bir növ "suyu çeşmədən təmizləmək" lazımdır.

4. Peyğəmbər və ilahi ayələrin təkzibi zülm nümunələrindəndir.

5. Tarixi təhlil edib ondan ibrət götürək.

6. Əsas məsələ ötəri görüntülər yox, işin aqibətidir.

7. İman cəmiyyəti islah edir, küfr isə onu azğınlaşdırır.

8. Tağut, zalım hakimlər dini bir kənara qoyub cəmiyyətə hakim olduqda özlərini qorumaq və gücləndirmək üçün istənilən bir fəsada əl atırlar.

***(AYƏ: 104)***

﴿ وَقَالَ مُوسَى يَا فِرْعَوْنُ إِنِّي رَسُولٌ مِّن رَّبِّ الْعَالَمِينَ ﴾

**"Musa dedi: "Ey Firon! Şübhəsiz, mən aləmlərin Rəbbi tərəfindən göndərilmişəm."**

***BİLDİRİŞLƏR***

1. Musa Fironla müəyyən söhbətlərdən sonra öz risalətini elan etdi.

2. Peyğəmbərlər öz çağırışlarını qorxub çəkinmədən zalım hakimlərə bəyan etmişlər.

3. Təşkilalı quruluşa malik cəmiyyətin islahı üçün əvvəlcə rəhbərlərə üz tutmaq lazımdır.

4. Peyğəmbərlərin haqqa dəvətdən başqa iddiaları yox idi.

5. Peyğəmbərlərin risaləti dünyaya münasibətdə ilahi tədbirlərlə bağlıdır.

6. Firon özünü xalqa məbud sayırdı.[1] Ona görə də həzrət Musa qəti şəkildə özünü aləmlərin Rəbbinin elçisi kimi təqdim edir və Firona anlatmaq istəyirdi ki, sən də aləmlərin Rəbbinin hakimiyyəti altındasan.

***(AYƏ: 105)***

﴿ حَقِيقٌ عَلَى أَن لاَّ أَقُولَ عَلَى اللّهِ إِلاَّ الْحَقَّ قَدْ جِئْتُكُم بِبَيِّنَةٍ مِّن رَّبِّكُمْ فَأَرْسِلْ مَعِيَ بَنِي إِسْرَائِيلَ ﴾

**"Allah haqqında yalnız haqq söz deməyimə yer var. Həqiqətən, mən Rəbbim tərəfindən sizin üçün aşkar dəlil gətirmişəm. Belə isə Bəni-İsraili mənimlə birlikdə göndər."**

***BİLDİRİŞLƏR***

1. Peyğəmbərlər yalnız haqqı deyirlər. Onlar risaləti çatdırmaqda məsumdurlar.

---

[1] Bax: "Naziat", 24.

2. Peyğəmbərlərin möcüzəsi olmalıdır. Onlar öz risalətlərində məcburiyyətə yol vermirlər.

3. Varlıq aləminin bir Rəbbi var və məbudluq iddiası yersizdir.

4. Xalq zalım hakimlərin boyunduruğundan çıxmayınca, onlar üçün təkamül və tərbiyə proqramı hazırlamaq mümkünsüzdür.

5. Bəni-İsrailin azad edilməsi həzrət Musanın risalətinə aid ilahi göstəriş idi. Bu işi Musanın şəxsi qərarı kimi qəbul etmək olmaz.

6. İnsanların azadlığı peyğəmbərlərin ilkin hədəflərindəndir. Hakimiyyəti Allah tərəfindən təsdiqlənməmiş istənilən bir kəs xalqı qul edəsidir.

***(AYƏ: 106)***

﴿ قَالَ إِن كُنتَ جِئْتَ بِآيَةٍ فَأْتِ بِهَا إِن كُنتَ مِنَ الصَّادِقِينَ ﴾

**“(Firon) dedi: Əgər doğru danışanlardansansa və möcüzə gətirmisənsə, onu ortaya çıxar.”**

***(AYƏ: 107)***

﴿ فَأَلْقَى عَصَاهُ فَإِذَا هِيَ ثُعْبَانٌ مُّبِينٌ ﴾

**“(Musa) öz əsasını atdı, (əsa) qəfildən əjdaha şəklində göründü.”**

### *NÖQTƏLƏR*

Həzrət Musanın əsasından digər möcüzələr də göründü. Əsa əjdaha olduqdan sonra sehrbazların düzəltdiyi şeylərin hamısını uddu,[1] dənizin suyuna toxunub onu yardı[2], daşa dəydikdə ondan bulaq çıxdı.[3]

Əsa həzrət Musanın yanında ilan tək qıvrıldıqda Musa qaçdı.[4] O, xalqın hüzurunda ilan tək hərəkət edirdi.[5] Fironun hüzurunda isə bir əjdahaya dönmüşdü. Beləcə, təbliğ və tərbiyədə qarşı tərəfi nəzərə alaraq onu qane edəsi üsulla hərəkət etmək lazımdır.

İmam Riza (ə) buyurmuşdur: “Həzrət Musanın dövründə sehr-cadu geniş yayılmışdı. Musa sehrbazların bacarmadığı bir möcüzə göstərməklə onların sehrini batil etdi və höccəti tamamladı.[6]

Əsa atılan kimi əjdahaya döndü.

### *BİLDİRİŞLƏR*

1. Möcüzə peyğəmbərliyin doğruluq dəlilidir. Firon özünü hamıdan üstün sayırdı və zahirən haqlı danışmaqla batil məqsədini həyata keçirmək istəyirdi.

---

[1] Bax: “Şuəra”, 45.
[2] Bax: “Şuəra”, 63.
[3] “Bəqərə”, 60.
[4] Bax: “Nəml”, 10.
[5] Bax: “Taha”, 20.
[6] “Üyune Əxbarir-Riza”, c. 2, s. 80.

2. Möcüzə hamıya aydın olmalı, kimsədə şəkk-şübhəyə yer qalmamalıdır.

*(AYƏ: 108)*

﴿ وَنَزَعَ يَدَهُ فَإِذَا هِيَ بَيْضَاء لِلنَّاظِرِينَ ﴾

**"(Musa) öz əlini (qoynundan) çıxardı. Qəfildən o (əl), baxanlara ağ və parlaq göründü."**

*(AYƏ: 109)*

﴿ قَالَ الْمَلأُ مِن قَوْمِ فِرْعَوْنَ إِنَّ هَذَا لَسَاحِرٌ عَلِيمٌ ﴾

**"Firon qövmünün əyan-əşrafı dedi: "Həqiqətən, o (Musa) çox mahir və bilikli sahirdir,(sehrbazdır)."**

***BİLDİRİŞLƏR***

1. Peyğəmbərlər qorxutmaqla yanaşı, müjdə verir, nurani əllə görünürlər. (Təkəbbürlü insanın əvvəlcə təkəbbürünü sındırmaq, sonra nəvaziş göstərmək lazımdır.)

2. Musanın əlinin ağarması onun digər bir möcüzəsi idi və belə bir işin mümkünlüyünü kimsə təsəvvür etmirdi.

3. Zalım hakimlərin cinayətlərində onların ətrafındakıların da payı var.

4. Tamaşaçılar həzrət Musanın əzəmətini etiraf etsələr də, Firon quruluşunu qorumağa çalışırdılar.

5. İnadkar təkəbbürlülər dəlil və məntiqlə rastlaşdıqda məğlubiyyətdən qaçmaq üçün bəhanələr gəzir, inadkarlıq göstərirlər. (Ayədəki "innə", "lam" hərfi və cümlənin ismi cümlə olması təkid göstəricisidir.)

6. Müxaliflər böhtanlarla peyğəmbərləri gözdən salmaq istəyirlər.

*(AYƏ: 110)*

﴿ يُرِيدُ أَن يُخْرِجَكُم مِّنْ أَرْضِكُمْ فَمَاذَا تَأْمُرُونَ ﴾

**"(Onlar dedilər: Musa) sizi öz yurd-yuvanızdan çıxarıb avara qoymaq istəyir. Bununla bağlı göstərişiniz nədir?"**

***NÖQTƏLƏR***

◘Firon tərəfdarları ictimai fikri çaşdırmaq üçün həzrət Musaya böhtan atdılar, etiqadi baxımdan onu sehrbaz adlandırdılar, həm də ictimai-siyasi baxımdan onu fitnəkar kimi tanıtdırdılar.

***BİLDİRİŞLƏR***

1. Müxaliflərin gedişlərindən biri haqq insanları məqampərəstlikdə suçlamaqdır.

2. Bəzən düşmənlər xalqın vətən sevgisi kimi daxili istəklərindən ilahi insanlara qarşı sui-istifadə edirlər.

3 Kafir hamını özü kimi sayır. Firon dünyaya könül verdiyindən elə düşünürdü ki, Musanın da istəyi var-dövlət, onların torpağıdır.

4. Zalım hakimlər müstəqil olsalar da, bəzən siyasi müşkülə düşdükdə öz ətraflarındakılarla məşvərət edirlər.

*(AYƏ: 111)*

﴿ قَالُواْ أَرْجِهْ وَأَخَاهُ وَأَرْسِلْ فِي الْمَدَآئِنِ حَاشِرِينَ ﴾

**“(Firon tərəfdarları) dedilər: Onu və qardaşını (cəzalandırmağı) təxirə sal və (sehrbazları) toplamaq üçün məmurları şəhərlərə göndər.”**

*(AYƏ: 112)*

﴿ يَأْتُوكَ بِكُلِّ سَاحِرٍ عَلِيمٍ ﴾

**“Hər bilikli və iş bacaran sahiri (sehr əhlini) sənin yanına gətirsinlər.”**

***NÖQTƏLƏR***

◘“Rəca” kökündən olan “ərcih” sözü felin əmr forması olub həm həbs etmək, həm də təxirə salmaq mənalarını bildirir. Amma həzrət Musanın dəvətinin əhatəli olmasını və möcüzələrini nəzərə alsaq, onun Firon tərəfindən həbsə alınması münasib görünməz. Ona görə də uyğun sözün təxirə salmaq mənasında işlədildiyini münasib gördük.

◘Sahir sözü bu ayədə tək, “Şüəra” surəsinin 37-ci ayəsində cəm formada işlədilmişdir. Belə anlamaq olar ki, cadugərlər öz işlərində mütəxəssis və bilici olmuşlar.

***BİLDİRİŞLƏR***

1. Fironun zalım hökumətində xalqın işıqlı düşüncəsi və hər bir haqq səs cəzaya məhkum idi.

2. Şəxsiyyəti alçaltmaq onu qətlə yetirməkdən və cəzalandırmaqdan ağırdır. Belə görünür ki, Musanın cəzalandırılmasının təxirə salınması onu cəmiyyət içində rüsvay etmək məqsədi daşıyırdı.

3. Zalım hakimlər haqqın səsini boğmaq üçün bütün dünyadan mütəxəssislər toplayıb yığıncaqlar təşkil edirlər.

4. Kafirlər də bilirlər ki, hər hansı mədəniyyəti aradan götürmək üçün daha güclü bir mədəniyyətlə çıxış etmək lazımdır.

5. Bəzən elm və ixtisas azğın adamların əlinə düşür və haqla mübarizədə istifadə olunur.

*(AYƏ: 113)*

﴿ وَجَاء السَّحَرَةُ فِرْعَوْنَ قَالْواْ إِنَّ لَنَا لأَجْرًا إِن كُنَّا نَحْنُ الْغَالِبِينَ ﴾

**“Sahirlər Fironun yanına gəlib dedilər: “Əgər qalib gəlsək, bizim üçün mükafat varmı?”**

*(AYƏ: 114)*

﴿ قَالَ نَعَمْ وَإَنَّكُمْ لَمِنَ الْمُقَرَّبِينَ ﴾

**"(Firon) dedi: "Bəli! Siz mənə yaxınlardan olacaqsınız."**

***BİLDİRİŞLƏR***

1. Allaha bağlı olmayan kəs hər çağırışa boylanır.

2. Müxtəlif təkidlər və Firondan mükafat vədi istənilməsi onun əhdə etinasızlığını və hərisliyini göstərir.

3. Peyğəmbərlərlə cadugərlər arasındakı mühüm fərqlərdən biri onların işinin səbəb və məqsədindədir. Peyğəmbərlər xalqın tərbiyəsi üçün çalışır və əvəzində muzd istəmirdilər.[1] Sehrbazlar isə yalnız dünya məqamı və var-dövlətdən ötrü çalışırdılar.

4. Zalım hakimlərə üz tutanların məqsədi dünyadır.

5. Zalım hakimlər və sitəmkarlar haqqa müxalif alim və mütəxəssisləri himayə edir və haqqın aradan götürülməsi üçün sərmayə qoyurlar. (Biz necə, batili aradan götürmək üçün din alimlərinə üz tutub onları himayə etmişikmi?)

6. Bəzən zalım hakimlər də çarəsiz qalıb irəli sürülmüş tələblərlə razılaşır, təklifləri qəbul edirlər.

7. Dünyapərəstlər üçün hər hansı məqam və ictimai mövqe dünya malından üstündür.

*(AYƏ: 115)*

﴿ قَالُواْ يَا مُوسَى إِمَّا أَن تُلْقِيَ وَإِمَّا أَن نَّكُونَ نَحْنُ الْمُلْقِينَ ﴾

**"(Cadugərlər) dedilər: "Ey Musa! Sən (sehr vasitəni) əvvəl atırsan, yoxsa biz ataq?"**

*(AYƏ: 116)*

﴿ قَالَ أَلْقُوْاْ فَلَمَّا أَلْقَوْاْ سَحَرُواْ أَعْيُنَ النَّاسِ وَاسْتَرْهَبُوهُمْ وَجَاءوا بِسِحْرٍ عَظِيمٍ ﴾

**"(Musa Allahın yardımına ümid edərək) Dedi: "(Əvvəlcə siz) atın. Elə ki, (cadu vasitələrini) ortaya atdılar, xalqın gözünü ovsunlayıb onlarda qorxu və dəhşət yaratdılar. Onlar böyük bir sehr göstərdilər."**

***BİLDİRİŞLƏR***

1.Cadugərlərin göstərdiyi sehr zahirdə həzrət Musanın möcüzəsinə oxşayırdı və yerə atılmaqla nümayiş etdirilirdi.

2. Tanışlıq yolunda yalnız zahiri hiss üzvlərinə istinad etmək olmaz. Bəzən göz də ovsunlanıb təsir altına salına bilir.

3. Sahirlərin cadusu həqiqət yox, insanların gözündə bir görüntü idi. Bu sehr suyu xatırladan ilğım kimidir. Bəli, peyğəmbərlərin işi xalqın bəsirəti ilə, sehrbazların işi xalqın gözü ilədir.

---

[1] Bax: "Şuəra", 109, 127, 145, 164, 180.

4. Zalım hakimlər və onların batil tərəfdarları daim çalışırlar ki, dəhşət yaratmaqla xalqı qorxutsunlar.

5. Düşmən və onun işini sadə və əhəmiyyətsiz saymayaq.

6. Hər bir haqqı aradan götürmək üçün ona oxşar vasitələrdən istifadə edirlər. Məzhəbə qarşı məzhəb, ruhaniyə qarşı isə ruhaninüma fəaliyyətdədir. Haqqında danışılan məqamda da möcüzəyə qarşı cadu işə salınır.

***(AYƏ: 117)***

﴿ وَأَوْحَيْنَا إِلَى مُوسَى أَنْ أَلْقِ عَصَاكَ فَإِذَا هِيَ تَلْقَفُ مَا يَأْفِكُونَ ﴾

**"Musaya vəhy etdik ki, əsanı at. (Əsa atılan kimi əjdahaya döndü,) qəfildən sahirlərin uydurma cadularını uddu."**

***NÖQTƏLƏR***

◘"Ləqf" sözündən olan "təlqəf" sözü bir şeyi qüdrət və sürətlə almaq mənasını bildirir. Burada isə uyğun söz udmaq mənasında işlədilmişdir. Doğru formasında ortaya çıxan yalan "yəfikun" sözü ilə ifadə olunur.

◘Əgər həzrət Musanın möcüzələri və əsası sahirlərin cadularını puça çıxarırsa, demək, İslam peyğəmbərinin əbədi möcüzəsi olan Quran və onun tilavətindən faydalanmaqla batil qüvvələrin qurğularını aradan götürmək olar.

***BİLDİRİŞLƏR***

1. İlahi peyğəmbərlər böhranlı vəziyyətlərdə qeybdən bilavasitə faydalanırlar. Bəli, Allah Öz xalis bəndələrini beynəlmiləl yığıncaqlarda, düşmənlərin hüzurunda tənha qoymur, Öz qeybi yardımları ilə onları qalib edir.

2. Xalqın gözünü qamaşdıran, onları yerindən oynadan batil işlər ilahi qüdrətlə, peyğəmbərlər vasitəsi ilə puça çıxarılır.

***(AYƏ: 118)***

﴿ فَوَقَعَ الْحَقُّ وَبَطَلَ مَا كَانُواْ يَعْمَلُونَ ﴾

**"Beləcə, haqq aşkar oldu (Musanın peyğəmbərliyi təsdiqləndi). (Sahirlərin) gördüyü işlər batil və hədər oldu."**

***(AYƏ: 119)***

﴿ فَغُلِبُواْ هُنَالِكَ وَانقَلَبُواْ صَاغِرِينَ ﴾

**"Belə ki, (sahirlər və Firon tərəfdarları) həmin yerdəcə məğlub, xar oldular."**

***(AYƏ: 120)***

﴿ وَأُلْقِيَ السَّحَرَةُ سَاجِدِينَ ﴾

**"Cadugərlər səcdəyə düşdülər."**

### *NÖQTƏLƏR*

◘Həzrət Musanın möcüzəsinin qalib gəlməsi ilə Firon hakimiyyətinə ciddi zərbə vuruldu. Ən əsası isə sahirlər hamılıqla Musaya iman gətirdilər və Fironun şəxsiyyəti sarsıldı.

◘118-ci ayədə "etdikləri iş" təbiri ya sahirlərə, ya Firon tərəfdarlarına, ya da hər iki qrupa aiddir. Bu səbəbdən də ayəni üç cür mənalandırmaq olar.

### *BİLDİRİŞLƏR*

1. Haqq qalibdir, batil isə məğlub. Bəşər əli ilə düzəldilmiş batillər haqqın müqabilində davamsızdır.
2. Təbliğ üslubunda haqqın bəyanı və həqiqətin aşkarlanması ilə batili aradan qaldırmaq olar.
3. Haqq tərəfindən olan bir cilvə batilin minlərlə aldadıcı cilvəsini məhv edir. Musanın möcüzəsi ilə mübarizə üçün uzun müddət zəhmət çəkdilər və növbənöv cadulara əl atdılar. Amma bütün bu işlər faydasız oldu.
4. Sahirlər məğlub olduqdan sonra fironçularla birlikdə mübarizə səhnəsini alçalmış vəziyyətdə tərk etdilər.
5. Qələbə iddiasında olanlar[1] tarixin məğlublarına çevrildilər.
6. İlahi möcüzə o qədər əzəmətli idi ki, sahirlər özlərindən xəbərsiz səcdəyə düşdülər.
7. Haqqın tanınması xüzu və təslimçilik üçün zəmindir. Düzgün mərifət, haqla tanışlıq sayəsində insan bir anda əqidəsini dəyişib xoşbəxt ola bilər.
8. Təslimçiliyin ən bariz cilvəsi səcdədir və səcdənin uzun keçmişi vardır.

### *(AYƏ: 121-122)*

﴿ قَالُواْ آمَنَّا بِرِبِّ الْعَالَمِينَ رَبِّ مُوسَى وَهَارُونَ ﴾

**"(Sahirlər) dedilər: "Aləmlərin Rəbbinə iman gətirdik, həmin Musa və Harunun Rəbbinə!"**

### *NÖQTƏLƏR*

◘Həzrət Musanı rüsvay etmək, var-dövlət və məqam qazanmaq üçün səhnəyə çıxan cadugərlər Musanın möcüzəsini görüb iman gətirdilər və öz tövhid, nübuvvət və məad əqidələrini etiraf etdilər. Hazırkı ayələr onların tövhid və nübuvvət etiqadını, 125-ci ayə isə onların məad etiqadını bəyan edir. Əslində Firon cadugərləri bir yerə toplamaqla onların hamılıqla Musaya iman gətirməsinə şərait yaratdı. Bəli, Allah istəsə, pis insan da xeyirə səbəb ola bilər.

◘Sahirlər Musa və Harunun adını yanaşı çəkdilər. Çünki Harun da Musa ilə birlikdə onların hidayətində rol oynayırdı. Əgər təkcə "Musanın Rəbbi" deyilsəydi, fironçular iddia edərdilər ki, bu elə Firondur. Çünki Musa Fironun

---

[1] Bax: "Əraf", 113.

evində boya-başa çatmışdı. Necə ki, Firon Musaya dedi: “Məgər uşaqkən səni biz tərbiyə etmədikmi?”[1] Sahirlərin “Musanın və Harunun Rəbbi” təbiri uyğun iddiaya yer qoymadı.

◘Həzrət Əli (ə) buyurmuşdur: “Ümidsiz olduğun şeyə ümidli olduğun şeydən daha ümidvar ol.” Musa öz ailəsi üçün od gətirməyə getmişdi. Amma risalət məqamı ilə geri qayıtdı. Səba mələkəsi həzrət Süleymanı görməklə şəhərdən xaric oldu, amma geriyə mömin kimi qayıtdı.[2]

### *BİLDİRİŞLƏR*

1. Sahirlər mübarizədən qabaq Musanın dəvətinin məzmunundan xəbərdar idilər. Ona görə də Musanın möcüzəsini gördükdən sonra əvvəlcədən eşitdiklərini təsdiqlədilər.

2. İnsan yolunu dəyişə bilən və azad məxluqdur. O, haqqı eşitdikdən sonra əqidəsini dəyişə bilir.

3. Düşüncə və şirk azğınlığından tövbə etmək imandır.

4. Sahirlər möcüzə və cadunun fərqini başqalarından yaxşı anlayırdılar. Ona görə də daha tez iman gətirdilər.

5. Bəzən xalq haqqı tanımadığı üçün iman gətirmir. Haqq aydın olan kimi müəyyən bir dəstə bu haqqı qəbul edir.

6. Sui-istifadənin qarşısını almaq lazımdır. Fironun “mən həmin aləmlərin Rəbbiyəm” deməməsi üçün sahirlər “Musanın və Harunun Rəbbi” təbirini işlətdilər.

7. Allahın xaliqliyi məsələsində heç bir mübahisə yoxdur. Mübahisələr dünyanın Allah tərəfindən idarə olunması mövzusu ətrafındadır.

### *(AYƏ: 123)*

﴿ قَالَ فِرْعَوْنُ آمَنتُم بِهِ قَبْلَ أَن آذَنَ لَكُمْ إِنَّ هَـذَا لَمَكْرٌ مَّكَرْتُمُوهُ فِي الْمَدِينَةِ لِتُخْرِجُواْ مِنْهَا أَهْلَهَا فَسَوْفَ تَعْلَمُونَ ﴾

**“Firon (sahirlərə) dedi: Mən sizə icazə verməmiş ona imanmı gətirdiniz? Şübhəsiz, bu, əhlini bayıra çıxarmaq üçün şəhər haqqında düşündüyünüz bir hiylədir. Tezliklə anlayacaqsınız! (Biləcəksiniz ki, kiminlə qarşı-qarşıya dayanmısınız və cəzanız nə olacaq.)”**

### *BİLDİRİŞLƏR*

1. Hökumətlərin ideoloji əsarətində azad düşüncə və əqidə seçimi haqqı xalqın əlindən alınır.

2. Zalım hakimlərin gedişlərindən biri haqq yolu tutmuş xalqa böhtan atmaqdır. Onlar öz işçilərinə də etimad göstərmir, bütün mənəvi hərəkətlərə siyasilik damğası vururlar. Necə ki, Firon sahirləri Musanın şagirdi saydı.[3]

---

[1] “Şuəra”, 18.

[2] “Təfsire-isna-əşəri”; “Tuhəful-Uqul”, s. 208.

[3] Bax: “Taha”, 71.

3. Zalım hakimlər xalqın vətən sevgisi və mərhəmət hisslərindən öz məqsədləri üçün sui-istifadə edirlər.

4. Ölüm və işkəncə ilə hədələmək zalım hakimlərin əsarət vasitələrindəndir.

*(AYƏ: 124)*

﴿ لأُقَطِّعَنَّ أَيْدِيَكُمْ وَأَرْجُلَكُم مِّنْ خِلاَفٍ ثُمَّ لأُصَلِّبَنَّكُمْ أَجْمَعِينَ ﴾

**"Şübhəsiz, əl və ayağınızı çarpaz vəziyyətdə (biri sağdan, biri soldan) kəsəcəyəm. Sonra hamınızı dara çəkəcəyəm."**

*(AYƏ: 125)*

﴿ قَالُواْ إِنَّا إِلَى رَبِّنَا مُنقَلِبُونَ ﴾

**"(Sahirlər Fironun cavabında) dedilər: "(İstədiyini et,) həqiqətən, biz öz Rəbbimizə doğru qayıdırıq."**

***NÖQTƏLƏR***

◘"Taha" surəsində də oxşar ayələrlə rastlaşırıq. Əlbəttə, Quranda bu işin həyata keçməsi haqqında məlumat verilmir. Amma rəvayətlərə və tarixi məlumatlara əsasən, Firon Musaya iman gətirənləri tikə-tikə doğrayıb xurma ağacından asdı. Təbəri yazır: "Günün əvvəlindəki kafir cahillər günün axırında saleh şəhidlər oldu."

◘Firon və onun ətrafındakılar öz hazırlıqlarına və səy-küylərinə baxmayaraq nəhayətdə alçaldılar. Sahirlər isə iman gətirdiklərindən təkamül və səadətə çatıb, haqq əqidə yolunda ölümü Firon hakimiyyətindəki həyatdan üstün tutdular.

***BİLDİRİŞLƏR***

1.Tərslik və hədələmə zorlu zalımların gedişlərindədir.

2. Zalım hakimlər düşüncələrin oyanmaması üçün inqilab başçılarını hədələyir, onlara işkəncə verir, qətlə yetirirlər.

3. İmanlı və iradəli insan zalım quruluşlara və fitnəkar mühitlərə tabe olmayıb mübarizə apara bilər.

4. Bəsirətlə, agahlıqla iman gətirən kəs müxtəlif təsirlər səbəbindən hədələrdən qorxub imandan əl çəkməz. Bəli, iman insanı dəyişir, onun tutumunu artırır. Dünən Firondan mükafat gözləyən sahirlər bu gün iman gətirib həmin mükafatları puç sayırlar.

5. Haqq yolda ölüm batil yolda həyatdan üstündür.

6. "Neçə ildir iman gətirmişəm, ibadət edirəm" deyə qürrələnmək olmaz. Bəzən kafir sahir ani bir hadisə ilə imanda hamıdan qabağa keçir.

7. Təbliğ edərkən keçmişdəkilərin böyüklüyünü yada salaq.

8. Təhlükələrlə qarşılaşdıqda məada iman və onun xatırlanması insana güc verir. Necə ki, Firona dedilər: “İstədiyini et, sənin hakimiyyətin yalnız dünyaya aiddir.”[1]

9. Azğın insanların, hətta onların rəhbərlərinin islah olacağından ümidimizi üzməyək. Bu insanlar tövbə edib bir anda dəyişə bilər.

***(AYƏ: 126)***

﴿ وَمَا تَنقِمُ مِنَّا إِلاَّ أَنْ آمَنَّا بِآيَاتِ رَبِّنَا لَمَّا جَاءتْنَا رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَتَوَفَّنَا مُسْلِمِينَ ﴾

**“(Ey Firon,) sən bizdən yalnız ona görə intiqam alırsan ki, Rəbbimizin bizim üçün gəlmiş ayələrinə iman gətirmişik. Pərvərdigara! Bizə səbir və dözüm ver, bizi müsəlman, təslim olmuş halda öldür.”**

***NÖQTƏLƏR***

◘Bu ayədə Fironun möminlərə, həzrət Musanın tərəfdarlarına qarşı hədələrinə cavab verilir. Ötən ayələrdə bu məsələyə işarə olundu. Haqqa üz tutanlara böhtan atılırdı ki, onlar vətəni, xalqın malını qarət etmək istəyirlər. Onlar belə dedilər: “Siz də bilirsiniz ki, bizim günahımız siz deyən şeylər yox, yalnız iman gətirməyimizdir.”

◘İmam Sadiq (ə) buyurmuşdur: “Özünü başqalarından üstün bilən kəs təkəbbür əhlidir.” Həzrətə dedilər: “Bəzən insan günah etmədiyi üçün özünü günahkarlardan üstün sayır.” Həzrət buyurdu: “Ola bilsin ki, həmin adam tövbə qılıb, bağışlanıb, amma sən xəbərsizsən, ona əvvəlki kimi baxırsan. Məgər Musanı məğlub etmək fikri ilə gələn sahirlərin tövbə qılıb hidayət olduğunu eşitməmisənmi?!”[2]

***BİLDİRİŞLƏR***

1. Allaha iman gətirmək və zalım hakimə tabe olmamaq başağrısız əldə olunmur.

2. Dəlillərə əsaslanan, haqqın nişanələrini görməklə əldə olunan iman dəyərlidir.

3. Zalım hakimlər insanlarla yox, tövhid düşüncəsi ilə müxalifdirlər.

4. Aramlıq, müqavimət, xalislik, şücaət, dua və yalvarış həqiqi möminlik nişanələridir.

5. Duada Allahın rübubiyyətinə üz tutmaq lazımdır.

6. Zalım hakimlərin hədələri qarşısında ən üstün hiylə dua, Allaha təvəkkül, imanın hifzi və davamlılığıdır.

7. Hədələr ağırlaşdıqda daha böyük səbir və müqavimət lazım olur. Çətinliyə düşmüş sahirlər Allahdan səbir istədilər.

---

[1] Bax: “Taha”, 72.

[2] “Təfsire-Nurus-səqəleyn”.

8. Xeyir aqibətə çatmaq üçün duaya, yalvarışa və Allahın tofiqinə ehtiyac var.

### *(AYƏ: 127)*

﴿وَقَالَ الْمَلأُ مِن قَوْمِ فِرْعَونَ أَتَذَرُ مُوسَى وَقَوْمَهُ لِيُفْسِدُواْ فِي الأَرْضِ وَيَذَرَكَ وَآلِهَتَكَ قَالَ سَنُقَتِّلُ أَبْنَاءهُمْ وَنَسْتَحْيِي نِسَاءهُمْ وَإِنَّا فَوْقَهُمْ قَاهِرُونَ﴾

**"Firon qövmünün əyanları (ona) dedilər: «Yoxsa Musa və onun qövmünü öz başına buraxırsan ki, yer üzündə fəsad törətsinlər və Musa səninlə Allahlarını boşlasın?!» (Firon) dedi: «Tezliklə oğlanlarını öldürüb, qadınlarını saxlayacağam. Biz onlara tam qalibik.»"**

### *NÖQTƏLƏR*

◘Firon Musaya tam məğlub olduqdan sonra ondan və Bəni-İsraildən əl çəkdi. Həmin arada Musa ardıcıllarının təbliğatı artdı və Firon qövmünün əyanları onun sükutuna görə narahatçılıq keçirib tədbir görməsini istədi.

◘Firon özünü xaliq yox, rəbb sayırdı.[1] O deyirdi: "Sizin üçün özümdən başqa məbud tanımıram."[2] Amma Firon və onun qövmünün məbudları vardı və xaliqin bu məbudlarda zühur etdiyinə inanırdılar.

### *BİLDİRİŞLƏR*

1. Zalım hakimlərin fəsadlarının bir hissəsi onların ətrafındakıların hesabınadır.

2. Zalım hakimlərin batil rejimləri xalqla üzləşdikdə ziddiyyətli qərarlar çıxarır, başlarını itirirlər. Ona görə də Firon bəzən Musanı qətlə yetirmək istəyir[3], bəzən də onu azad buraxırdı. Onun bu hərəkəti ətrafındakıların narazılığı ilə müşayiət olunurdu.

3. Zalım hakimlərə elə gəlirdi ki, peyğəmbərlər cəmiyyətdə islah yox, pozuculuq işi aparırlar.

4. Kişilərin öldürülüb qadınların saxlanılması Firona məxsus siyasətdir. Belə bir siyasətin məqsədi kişilərdə qeyrət hissini öldürmək, qadınları siyasi alətə çevirməkdir. Bugünkü böyük qüdrətlər də eyni siyasəti yürüdürlər.

5. Peyğəmbərlərin müxalifləri gənc qız və oğlanlar üçün xüsusi plan cızırlar.

6. Özünü qorumaq üçün boş-boş şüarlar vermək Firon siyasətidir.

---

[1] Bax: "Naziat", 24.
[2] "Qəsəs", 38.
[3] Bax: "Ğafir", 26.

## *(AYƏ: 128)*

﴿ قَالَ مُوسَى لِقَوْمِهِ اسْتَعِينُوا بِاللّهِ وَاصْبِرُواْ إِنَّ الأَرْضَ لِلّهِ يُورِثُهَا مَن يَشَاء مِنْ عِبَادِهِ وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ ﴾

**“Musa öz qövmünə dedi: “Allahdan yardım diləyin, səbir və müqavimət yolunu seçin. Çünki yer o Allahındır ki, onu istədiyi bəndəsinə irs qoyar. (Xoş) aqibət pəhrizkarlara məxsusdur.”**

### *NÖQTƏLƏR*

◘Bu ayədə iki müjdə ilə müşayiət olan iki göstəriş verilir: yardım diləmək və səbir göstərişi, təqvalılara yer üzündə varislik və xoş aqibət müjdəsi.

◘İmam Baqir (ə) Həzrət Əlinin (ə) belə buyurduğunu nəql edir: “Mən və mənim Əhli-beytim (ə) bu ayənin (nümunələri) ünvanlarıyıq.” İmam Sadiq (ə) bu ayənin təfsirində buyurmuşdur: “Yer Allahındır, yəni Allahın rəsulu və imamlar Allah tərəfindən yer üzünün varisləridir.”[1]

### *BİLDİRİŞLƏR*

1. Rəhbər həssas məqamlarda ümmətə ürək-dirək verir. Həzrət Musa fironçuların məhv olacağı və möminlərin onlara qalib gələcəyi ilə ətrafındakılara müjdə verdi.

2. Allaha yalvarış, təvəkkül, mübarizə və təqva qələbə və hədələrdən qorunma amillərindəndir. (Həm Allahdan yardım alaq, həm də səbir edək.)

3. Zalım hökumətlərin məhvi, səbirli möminlərin canişinliyi Allahın iradəsi ilə gerçəkləşəsidir.

4. Səbir, müqavimət, Allahdan yardım istəyi hakimiyyətə çatma şərtidir.

5. Allahdan yardım istənilməsi və səbir təqva və pəhrizkarlıq göstəricisidir.

6. Təqva əhlinin həm dünya, həm də axirət aqibəti xeyirdir.

7. İşıqlı gələcəyə ümid ilahi dinlərin, o cümlədən, İslamın vədidir.

## *(AYƏ: 129)*

﴿ قَالُواْ أُوذِينَا مِن قَبْلِ أَن تَأْتِينَا وَمِن بَعْدِ مَا جِئْتَنَا قَالَ عَسَى رَبُّكُمْ أَن يُهْلِكَ عَدُوَّكُمْ وَيَسْتَخْلِفَكُمْ فِي الأَرْضِ فَيَنظُرَ كَيْفَ تَعْمَلُونَ ﴾

**“(Musanın qövmü) dedi: “Həm sən gəlməmişdən, həm də sən gələndən sonra əziyyətdə olduq. (Bəs nə etməli?) Musa dedi: “Ümid var**

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

**ki, Rəbbiniz sizin düşməninizi məhv etsin, sizi bu yerdə onlara canişin qərar versin və görsün ki, necə əməl edirsiniz.”**

### *NÖQTƏLƏR*

◘Bəni-İsrail Musanın qiyamından sonra isə bir iş görmək istəyirdilər ki, Misir məmləkəti bütün imkanları ilə onların ixtiyarına keçsin və fironçular məhv olsunlar. Ona görə də iddia edirdilər ki, həzrət Musanın qiyamı onlara xeyir gətirmədi. Amma onlara belə cavab verildi: “Qələbə səbir, səy və təvəkkül kimi şərtlərdən asılıdır. Bu şərtlər ödəndikdə Allahın yardımı nazil olur.

### *BİLDİRİŞLƏR*

1. Rifah və əmin-amanlıq xalqın mövcud hakimiyyətdən ilkin istəyidir.
2. Zəif imanlı xalq bütün hallarda peyğəmbərlərdən rifah istəmiş, rifah təmin olunmadıqda isə peyğəmbərə qarşı çıxmışlar.
3. Bəzən səmavi rəhbərlər tutumsuz və səbirsiz ardıcılların tənqidinə məruz qalmışlar.
4. Xalqın əksəri öz xoşbəxtliyini rahatlıq və asayişdə görür. Onlar rahatlıq və asayişin olmamasını nakamlıq sayırlar. Onlar anlamırlar ki, səmavi dinlər bütün dünya çətinliklərini aradan qaldırmaq yox, həyata düzgün cəhət vermək üçün gəlmişdir.
5. Təbii və ictimai problemləri möcüzə yox, təbii yollar və tədbirlərlə həll etmək lazımdır.
6. Rəhbər tənqidləri dinləməli və ümidverici BİLDİRİŞLƏRlə çıxış etməlidir.
7. Allahın nəzarətinə iman diqqət və pəhrizkarlığın mayasıdır.
8. Xalqa hakimiyyət ləzzət yox, sınaq üçündür.
9. Xalq hakimiyyət qarşısında məsuldur və bununla sınağa çəkilir.

### *(AYƏ: 130)*

﴿ وَلَقَدْ أَخَذْنَا آلَ فِرْعَونَ بِالسِّنِينَ وَنَقْصٍ مِّن الثَّمَرَاتِ لَعَلَّهُمْ يَذَّكَّرُونَ ﴾

**“Həqiqətən, Biz Firon tərəfdarlarını qəhətliyə, quraqlığa və məhsul qıtlığına düçar etdik. Bəlkə yada salalar.”**

### *NÖQTƏLƏR*

◘“Sinin” sözü “il” mənasını bildirir. Bu söz “əxz” sözü ilə yanaşı işləndikdə qəhətlik və quraqlıq mənasında anlaşılır. Ayədəki “nəqsin-minəs-səmərat” təbiri qəhətliyin bariz nümunəsini bəyan etmək məqsədi ilə işlədilə bilər.

◘Bəzən bəlaların və çətinliklərin göndərilməsində məqsəd insanın qəflətdən oyadılması, imtahana çəkilməsi və həlakı üçün zəmin yaradılması ola bilər.[1]

---
[1] Bax: “Bəqərə”, 155.

Əli (ə) buyurmuşdur: “Allah məhsul qıtlığı, bərəkətin götürülməsi, xeyir xəzinələrinin bağlanması ilə günahkarların tənbeh olub ibrət götürməsi və tövbə qılıb günahlardan uzaqlaşması üçün onları sınağa çəkir.”[1]

### *BİLDİRİŞLƏR*

1. Tərbiyə zamanı bəzən çətinlik və sıxıntıdan da istifadə etmək lazım gəlir.
2. Təbii amillər Allahın iradəsinə tabedir.
3. Qəhətlik və quraqlıq ya ilahi cəzadır, ya da qəflətdən oyatmaq üçün xəbərdarlıq. Bəli, varlıq aləmində baş verənlər məqsədlidir.
4. Ən təkəbbürlü insanların ailəsində də hidayət və xoşbəxtlik üçün zəmin var.
5. Bəzən xalqın doğru yola dəvətində heç bir vasitə səmərə vermir. Çünki insan müəyyən bir həqiqəti qəbul edib-etməməkdə azaddır.

### *(AYƏ: 131)*

﴿ فَإِذَا جَاءتْهُمُ الْحَسَنَةُ قَالُواْ لَنَا هَذِهِ وَإِن تُصِبْهُمْ سَيِّئَةٌ يَطَّيَّرُواْ بِمُوسَى وَمَن مَّعَهُ
أَلا إِنَّمَا طَائِرُهُمْ عِندَ اللّهُ وَلَكِنَّ أَكْثَرَهُمْ لاَ يَعْلَمُونَ ﴾

**“Nə vaxt soraqlarına yaxşılıq və xoşluq gəlirdisə, deyirdilər: «Bu (ləyaqətimizə görə) bizim haqqımızdır.» Amma bir çətinlik və pislik gördükdə Musa və onun ardıcıllarından bədgüman olurdular. Bilin ki, onların çətinlikləri Allahdandır (onların pis rəftarlarına görə cəzalandıran Allahdır.) Amma onların əksəri bilmir.”**

### *NÖQTƏLƏR*

◘“Yəttəyyəru” pis fal (əlamət) mənasını bildirir. Ərəblərin əksəri pis əlaməti quşların uçması və ya səsindən bilirdilər. Hər növ bəd fal “təyərə” adlandırılmışdır.[2]

◘Digər Quran ayələrində camaatın peyğəmbərlər, hətta İslam peyğəmbəri ilə bağlı pis fal vurmaları barədə danışılmışdır.[3]

◘Ətrafımızda baş verən hadisələrdə pis falların (əlamətlərin) heç bir təbii və məntiqi təsiri yoxdur. Amma belə bir inancın böyük psixoloji təsiri var. Rəvayətlərdə oxuyuruq: “Pis əlamət (fal) Allaha şirkin bir növüdür. Pis əlamətlə qarşılaşdıqda işinizə davam edin və ona etina etməyin.” İmam Sadiq (ə) buyurmuşdur: “Pis əlamətin (falın) təsiri ona inam qədərindədir. Əgər ona yüngül yanaşsaq, təsiri də yüngül olar, ciddi yanaşsaq, əsəri də ciddi olar, etina etməsək, ümumiyyətlə heç bir əsəri olmaz.[4]

---

[1] “Nəhcül-bəlağə”, x, 143.
[2] “Təfsire-nümunə”.
[3] “Nisa”, 78; “Nəhl”, 47; “Yasin”, 18.
[4] “Təfsire-nümunə”; “Təfsire-Əl-mizan”.

Pis əlamət (fal) inancı tarix boyu bütün millətlər arasında olmuşdur. Belə bir inanc insanda bədbinlik yaradır, onu müvəffəqiyyətdən məhrum edir. Ona görə də bu inanc qadağan olunmuşdur. Amma yaxşı əlamət (fal) müsbət hərəkət üçün stimul olduğundan qadağan edilməmişdir.[1]

### *BİLDİRİŞLƏR*

1. Fironçular yalnız özlərini ləyaqətli sayır, kam almağı özlərinə məxsus haqq bilirdilər.
2. Rifah və ləzzət aparmaq fironçular üçün tanınmış və adi bir iş idi. Döyüşlər və acı hadisələr isə onlara qaranlıq və inanılmaz görünürdü.
3. Əksər fironçular qəhətlik və ilahi xəbərdarlıqlardan oyanmaq əvəzinə yanlış təhlillər aparıb, Musanı ittiham etdilər.
4. Yaxşılıqları özünə, pislikləri peyğəmbərlərə və dinə aid etmək xudbinlik və cəhalət nişanəsidir.
5. Xurafatın və pis əlamətə inancın kökü cəhalətdir.

### *(AYƏ: 132)*

﴿ وَقَالُواْ مَهْمَا تَأْتِنَا بِهِ مِن آيَةٍ لِّتَسْحَرَنَا بِهَا فَمَا نَحْنُ لَكَ بِمُؤْمِنِينَ ﴾

**“(Fironçular Musaya) dedilər: «Bizi cadu etmək üçün hər hansı ayə və möcüzə gətirsən də, sənə iman gətirmərik.»”**

### *NÖQTƏLƏR*

◘“Hər hansı ayə gətirsən” təbirindən aydın olur ki, düşmən Musanın cadu yox, möcüzə gətirdiyini bilirdi. Onlar sırf inadkarlıq və təkəbbür səbəbindən iman gətirmirdilər. Yalnız sahirlər Musanın işinin sehr olmadığını anladıqda haqqı qəbul etdilər. Əlbəttə, fironçuların Musanın işini ayə adlandırmaları istehza və məsxərə səbəbindən də ola bilər.

### *BİLDİRİŞLƏR*

1. Bəzən insan o qədər süqut edir ki, peyğəmbərlərə, ilahi rəhbərlərə qarşı çıxıb aşkar hidayət nişanələrini qaranlıq görür.
2. Peyğəmbərlərin möcüzələrinin sehr adlandırılması ən məhşur böhtanlardan olmuşdur. [2]
3. İnsan əqidə seçimində azaddır. Peyğəmbərlər xalqı iman gətirməyə məcbur etmirdilər. Ona görə də xalqın bir hissəsi ilahi möcüzələr qarşısında inadkarlıq göstərir, iman gətirmirdilər.

### *(AYƏ: 133)*

﴿ فَأَرْسَلْنَا عَلَيْهِمُ الطُّوفَانَ وَالْجَرَادَ وَالْقُمَّلَ وَالضَّفَادِعَ وَالدَّمَ آيَاتٍ مُّفَصَّلاَتٍ
فَاسْتَكْبَرُواْ وَكَانُواْ قَوْمًا مُّجْرِمِينَ ﴾

---
[1] “Təfsire-nümunə”.
[2] Bax: “Zariyat”, 52.

**“Biz onlara tufanı, çəyirtkəni, kiçik heyvanları, qurbağaları, qanı ayrı-ayrı nişanələr şəklində göndərdik. Amma yenə təkəbbür göstərdilər. Onlar günahkar bir qövm idilər.”**

***NÖQTƏLƏR***

◘Ərəblər “tufan” sözünü dağıdıcı sel mənasında işlədirlər. Bəzi dəhşətli hadisələr də tufan adlandırılır. “Qumməl” kiçik heyvanlardır. Birə, qarışqa kimi həşəratlar bu qəbildəndir.[1]

◘Qan (dövranı) Allahın Bəni-İsrail üçün nişanələrindən biri idi. Suların qana dönməsi və ya bütün xalqın burnundan qan gəlməsi ilahi əzab növlərindən idi.

◘Tufan, qan, çəyirtkələrin hücumu Bəni-İsrailə yox, fironçulara aid əzab idi. Bu əzablar haqqında Tövratda da məlumat verilir.[2] Onlara hər dəfə bəla gələndə Musanın ətəyindən yapışıb söz verirdilər ki, bu bəla ötüşsə, iman gətirəcəklər. Həzrət onların istəyi ilə Allahdan diləyirdi ki, bəla aradan götürülsün. Amma bəla ötüşdükdən sonra onlar yenidən küfr və inadkarlıqlarını davam etdirirdilər. Növbəti ayədə də bu məsələyə toxunulmuşdur.

***BİLDİRİŞLƏR***

1. Allahın xəbərdarlıq və dəlillərindən sonra göstərilən inadkarlıq və diqqətsizliyin ardınca, növbə ilahi cəzalara çatır.

2. Yalnız Allah istəyi ilə mərhəmət nazil olur. Su Onun istəyi ilə xeyir vasitəsi olur, Onun istəyi ilə əzaba dönür.

3. Heyvanlar ilahi məmurlardır. Onlara bəzən mərhəmət, bəzən də əzab əmr edilir. Məsələn, bəzən hörümçəyə əmr olunur ki, mağaranın qapısında tor qurmaqla İslam peyğəmbərini hifz etsin. Bəzən isə əbabil quşları, qurbağalar və çəyirtkələr insana əzab gətirir. Bəli, bütün varlıq aləmi Allahın əmrinə tabedir.[3]

4. Əksər bəlalar tərbiyə məqsədi daşıyır. Bəzən cəzadan sonra düşünüb geri dönmək üçün insana möhlət verilir.

5. Günah təkəbbürə, təkəbbür haqqın inkarına səbəb olur.

***(AYƏ: 134)***

﴿ وَلَمَّا وَقَعَ عَلَيْهِمُ الرِّجْزُ قَالُواْ يَا مُوسَى ادْعُ لَنَا رَبَّكَ بِمَا عَهِدَ عِندَكَ لَئِن كَشَفْتَ
عَنَّا الرِّجْزَ لَنُؤْمِنَنَّ لَكَ وَلَنُرْسِلَنَّ مَعَكَ بَنِي إِسْرَآئِيلَ ﴾

**“Onlara bəla və bədbəxtlik gəldikdə (Musanın yanına gəlib) dedilər: “Ey Musa, sənə əhdinə (duanı qəbul edəcəyinə) xatir Rəbbinə bizim üçün**

---

[1] “Mufrədate-Rağib”.

[2] Tövrat, “Sifre-xüruc, b. 20...

[3] Bax: “Fəth”, 4-5.

**dua et. Əgər bu bəlanı üstümüzdən götürsə, hökmən, sənə iman gətirərik və Bəni-İsraili (azad edib) səninlə yola salarıq.”**

*(AYƏ: 135)*

﴿ فَلَمَّا كَشَفْنَا عَنْهُمُ الرِّجْزَ إِلَى أَجَلٍ هُم بَالِغُوهُ إِذَا هُمْ يَنكُثُونَ ﴾

**“(Həzrət Musanın duasına görə,) elə ki, bədbəxtliyi bir müddət onların üzərindən götürdük, yenə öz əhdlərini pozdular.”**

## *NÖQTƏLƏR*

◘“Nəks” dedikdə əslində burulmuş ipi açmaq nəzərdə tutulur. Bu söz əhdi pozmaq mənasında da işlədilir.

◘Bu ayədə də “əcəl” sözü bəlanın aradan qaldırılması üçün Musanın təyin etdiyi müddətə işarə ola bilər. Bununla Musa həmin bəlanın təsadüfi yox, ilahi bir əzab olduğunu anlatmışdır.

◘Məqsəd bu da ola bilər ki, həmin inadkar qövm nəhayətdə ilahi qəhr-qəzəbə düçar olacaqdır. Sadəcə, bu qəti əcəl və dəryada batma hadisəsi çatanadək əzab müvəqqəti olaraq götürülmüşdür.

“Əhd” dedikdə ya Musanın duasının qəbulu, ya da onun nübuvvət məqamı nəzərdə tutula bilər.[1]

## *BİLDİRİŞLƏR*

1. Ehtiyac və çətinlik insanın qürurunu sındırır.

*Ehtiyac birinə üz tutan zaman,*
*Tülküyə oxşadır aslanı inan.*

2. Kafirlər də ilahi övliyaların ətəyindən yapışaraq faydalanırdılar.
3. Fironçular da həzrət Musanın qadir Allahının varlığına inanırdılar.
4. Allahın mərhəmətini qazanmaq və çətinliklərdən çıxmaq üçün dua təsirlidir.
5. Bəşəriyyətin azadlığa çıxarılması peyğəmbərlik missiyalarındandır.
6. İlahi əzab və qəzəbi aradan götürmək yalnız Onun əlindədir.
7. Çarəsizlik zamanı başqalarının vədlərinə arxayın olmayaq.
8. İnsan, adətən, rifah və ehtiyacsızlıq zamanı təcavüzkarlıq göstərir. [2]
9. Varlıq nizamında acı və şirin hadisələr üçün zaman müəyyənləşdirilmişdir.

*(AYƏ: 136)*

﴿ فَانتَقَمْنَا مِنْهُمْ فَأَغْرَقْنَاهُمْ فِي الْيَمِّ بِأَنَّهُمْ كَذَّبُواْ بِآيَاتِنَا وَكَانُواْ عَنْهَا غَافِلِينَ ﴾

**“Nəhayət, onlardan intiqam alıb dənizdə qərq etdik. Çünki ayələrimizi təkzib etdilər və ondan qafil oldular.”**

---

[1] “Təfsire-nümunə”.
[2] Bax: “Ələq”, 6,7.

### *NÖQTƏLƏR*

◘Ayədə “intiqam” dedikdə kin-küdurət yox, cəza nəzərdə tutulur.

◘Qədim Misirdə dəniz və su hövzəsinə “yəmm” deyilirdi. Həzrət Musanın əhvalatı, Firon və fironçuların qərq olması Misirdə baş vermişdir. Quranda həmin qədim termin işlədilmişdir.[1]

***Biri Nili keçdi ildırım kimi,***
***O biri qərq oldu xəbər-ətərsiz.***
***Qoy öz gözləriylə görsün baxanlar:***
***Yerli yerin verdi, yer tapdı yersiz.***

### *BİLDİRİŞLƏR*

1. Allahın intiqam alacağına inam və diqqət Onu xatırlamaq və günahı tərk etmək üçün zəmindir. Allah həm çox mehriban, həm də intiqam alandır.
2. Bizim taleyimiz və qarşımıza çıxacaq bəlalar öz əlimizdədir.
3. İlahi ayələrə biganəliyin cəzası ağırdır.

### *(AYƏ: 137)*

﴿وَأَوْرَثْنَا الْقَوْمَ الَّذِينَ كَانُواْ يُسْتَضْعَفُونَ مَشَارِقَ الأَرْضِ وَمَغَارِبَهَا الَّتِي بَارَكْنَا فِيهَا وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ الْحُسْنَى عَلَى بَنِي إِسْرَآئِيلَ بِمَا صَبَرُواْ وَدَمَّرْنَا مَا كَانَ يَصْنَعُ فِرْعَوْنُ وَقَوْمُهُ وَمَا كَانُواْ يَعْرِشُونَ﴾

**“Məmləkətin (Fələstinin) bərəkətli qərar verdiyimiz şərq və qərb hissələrini daim zəiflədilən bir qövmə miras etdik. Rəbbinin yaxşı vədi səbirlərinə görə Bəni-İsrail haqqında gerçəkləşdi. Firon və onun qövmünün düzəldib ucaltdığını viran qoyduq.”**

### *NÖQTƏLƏR*

◘İnsanın alış-verişsiz, müamiləsiz və işsiz əldə etdiyi mal-mülk “irs” adlandırılmışdır. İrs həm ölülərdən, həm də dirilərdən çata bilər.[2]

◘Həzrət Musa və ardıcıllarının dəryadan ötüb-keçməsi və fironçuların bu dəryada qərq olması Qiyamətdə hamının cəhənnəmdən keçəcəyinə işarədir, yəni, müttəqilər yalnız sonradan nicat tapır.[3]

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-nümunə”.
[3] Bax: “Məryəm”, 71, 72.

◘Fironçuların ixtiyarında olan məmləkət o qədər geniş idi ki, bu məmləkətin fərqli üfüqləri vardı. (Yəni onun müxtəlif nöqtələrində günəş ayrı-ayrı vaxtlarda doğub qürub edirdi. Bu məmləkətin həm də bol maddi və mənəvi nemətləri vardı. Çünki bir çox peyğəmbərlər burada məbus olmuş və bu torpaqlarda dəfn olunmuşdular.

◘Yerin kürə formasında olması elm tərəfindən sübuta yetməmişdən öncə Quran bu barədə məlumat verdi. Müxtəlif üfüqlərin mövcudluğu yerin kürə formasında olmasını və hərəkət etməsini göstərir.

◘Allah bu ayədə İslam peyğəmbərinə qələbə müjdəsi verir. "Sənin Rəbbin" təbirindən anlaşılır ki, müraciət olunan şəxs də Allahın himayəsindədir.

### *BİLDİRİŞLƏR*

1. Allahın müstəzəfləri himayə etməsi təkcə Bəni-İsrailə aid həqiqət deyil. Bu, daimi bir sünnədir.
2. Bəni-İsrail fironçular tərəfindən uzun müddət ərzində zəiflədilmişdi.
3. Peyğəmbərlərin hökuməti müztəzəflər hökumətidir.
4. Səbir və müqavimət qələbə şərtidir. Müztəzəflər və səbirli, müqavimətli millətlər yer üzünün varisləridirlər.
5. Allah öz vədinə dəqiq əməl edir.
6. Fironçuların məhvi və Bəni-İsrailin hakimiyyəti Allahın gözəl buyruqları və vədlərindəndir.
7. İctimai və tarixi dəyişikliklər Allahın əlindədir.
8. Zalım hakimlərin zor nişanələri ilahi cəmiyyətdən təmizlənməlidir.
9. Firon qövmü sənət və tikinti baxımından inkişaf etmişdi. Amma din və imandan uzaq inkişafın axırı yoxdur.

### *(AYƏ: 138)*

﴿وَجَاوَزْنَا بِبَنِي إِسْرَآئِيلَ الْبَحْرَ فَأَتَوْاْ عَلَى قَوْمٍ يَعْكُفُونَ عَلَى أَصْنَامٍ لَّهُمْ قَالُواْ يَا مُوسَى اجْعَل لَّنَا إِلَهًا كَمَا لَهُمْ آلِهَةٌ قَالَ إِنَّكُمْ قَوْمٌ تَجْهَلُونَ﴾

**"Bəni-İsraili dəryadan keçirdik, onlar öz bütlərinə bağlı bir qövmlə rastlaşdılar. (Bu səhnəni görüb) dedilər: Ey Musa! Bizim üçün bunların məbudları kimi məbud düzəlt." Musa dedi: "Doğrudan da siz nadan bir qövmsünüz."**

*(AYƏ: 139)*

﴿ إِنَّ هَٰؤُلَاءِ مُتَبَّرٌ مَّا هُمْ فِيهِ وَبَاطِلٌ مَّا كَانُوا يَعْمَلُونَ ﴾

**"(Musa dedi:) «Həqiqətən, bu qövmün tapındığı şey puç olasıdır. Onların gördüyü işlər batildir.»"**

*(AYƏ: 140)*

﴿ قَالَ أَغَيْرَ اللَّهِ أَبْغِيكُمْ إِلَٰهًا وَهُوَ فَضَّلَكُمْ عَلَى الْعَالَمِينَ ﴾

**"Dedi: «Sizə Allahdan başqa bir məbudmu axtarım? Hansı ki, sizə bu dövrün xalqından üstünlük verən Odur!»"**

***NÖQTƏLƏR***

◘"Təbar" sözündən alınış "mutəbbər" sözü həlak olmaq mənasını bildirir.

◘Ömür boyu sehr-cadu ilə məşğul olanlar bir möcüzə görməklə dərin iman sahibi oldular. Belə ki, bu iman səbəbindən Fironun hədələri onları qorxutmadı. Həzrət Musanın tərəfdarları isə bir bu qədər möcüzədən, Firona qələbədən sonra bütpərəst bir qövmü görüb çaşdı və Musadan büt istədi.

◘Bir gün bir yəhudi müsəlmanlara etiraz olaraq dedi: "Siz peyğəmbərin cənazəsini dəfn etməmiş öz aranızda ixtilafa başladınız!" Həzrət Əli (ə) onun cavabında buyurdu: "Bizim ixtilafımız peyğəmbərin özü və Allah ilə yox, buyruqları ilə bağlı idi. Siz isə dəryanın suyu ayağınızda qurumamış Musadan büt istədiniz."[1]

***BİLDİRİŞLƏR***

1. Haqq və ya batilə pərəstiş tarix boyu mövcud olmuşdur. (Həzrət Musanın dövründə də fərdlər bütə pərəstiş edirdilər.)

2. Mühit insana təsir etsə də, onu məcbur edə bilməz. Nə qədər ki, etiqad və imanımız güclənməyib, pozğun mühit və mədəniyyətlərdən çəkinək. Çünki bəzən (film, fotoşəkil və ya cəmiyyətdən) bir səhnənin müşahidəsi insana elə təsir edir ki, ilahi rəhbərlərin tərbiyə sahəsindəki bütün zəhmətləri puça çıxır.

3. Bəzən insan ən mühüm nemətlərdən qəflətdə qalır, bu nemətlərə münasibətdə naşükürlük göstərir.

4. İnsan yanlış təsəvvürə o qədər vara bilər ki, hətta ilahi rəhbərlərə yersiz istəklərlə müraciət edər.

5. Fərdlər və millətlər üçün daim azmaq qorxusu var.

6. Səthi iman etibarsız və ötəridir.

7. Agah xarici düşmənlərdən də pisi nadan dostlardır.

8. Xalq bəzən lazımsız şeylər də istəyə bilər. Çoxluq və onların istəyi dəyərsiz də ola bilər.

9. Nümunə götürmək və təqlid etmək insanın xasiyyətlərindəndir.

---

[1] "Nəhcül-bəlağə", h. 317.

10. Cəhalət, bütpərəstlik ağıldan uzaq işlərdəndir. “Cəhalət” Quranın bəzi ayələrində “elmin” yox, “əqlin” antonimi kimi gəlmişdir. Yəni ağılsız iş «cəhalət» adlandırılır.

11. Musa kimi böyük peyğəmbərdən büt kimi bir məbud istəyi dərin və köklü cəhalət nişanəsidir.

12. Həm düşüncə, həm də əməllə bağlı azğınlıqlar davamsızdır və məhv olub gedəsidir. Bəli, batilin sonu puçluqdur. Gəlin, onun zahirinə aldanmayaq.

13. İbadət düşüncə və təşəkkürə əsaslanmalıdır. Məbud quraşdırılmalı yox, axtarılıb tapılmalıdır. Allahdan qeyrisinə sitayiş insanın düşüncə və təşəkkür ruhiyyəsi ilə uyğun gəlmir.

***(AYƏ: 141)***

﴿ وَإِذْ أَنجَيْنَاكُم مِّنْ آلِ فِرْعَونَ يَسُومُونَكُمْ سُوَءَ الْعَذَابِ يُقَتِّلُونَ أَبْنَاءكُمْ وَيَسْتَحْيُونَ نِسَاءكُمْ وَفِي ذَلِكُم بَلاء مِّن رَّبِّكُمْ عَظِيمٌ ﴾

**“(Xatırlayın) sizi fironçuların caynağından qurtardığımız zaman sizə ağır işkəncə verirdilər, oğlanlarınızı öldürür, qadınlarınızı (xidmətçilik və qulluq üçün) diri saxlayırdılar. Həmin çətinliklərdə sizin üçün Rəbbiniz tərəfindən böyük bir sınaq vardı.”**

***NÖQTƏLƏR***

◘“Yəsumunəkum” dedikdə bir şeyi izləmək və ya məcbur etmək nəzərdə tutulur.

◘Bəni-İsrailin üstünlük və fəzilətindən danışan ötən ayə bu keyfiyyətin yalnız Allah tərəfindən olduğunu bildirdi. Bu ayədə isə onlara nicat verildiyi bəyan olunur. Birinci ayədə tək, ikinci ayədə cəm tərəfindən danışılır. Bəlkə də bununla Allah tərəfindən nicat verilməsinin xalqın səbir və müqaviməti, eləcə də, həzrət Musanın rəhbərliyi ilə müşayiət olunmasına işarə edilmişdir. Adətən, ilahi lütf vasitələrlə gerçəkləşdikdə cəm formada işarə əvəzliyi işlədilir. Məsələn, yağış haqqında “nazil etdik” təbiri işlədilmişdir.[1] Çünki bu iş dənizin, istiliyin, buludların, küləyin birlikdə iştirakı ilə gerçəkləşir.

***BİLDİRİŞLƏR***

1. Xalqın qurtuluşu Musanın rəhbərliyi yolu ilə həyata keçsə də, əsil nicat verən Allahdır.

2. İlahi nemətlərin xatırlanması möhkəmliyə və şirkdən çəkinməyə səbəb olur.

3. Rəhbərlər ilahi nemətləri daim xatırlamalıdırlar ki, xalq qəflətdə qalmasın.

4. Zalım hakimlər köməkçilər olmadıqda acizdirlər.

---

[1] Bax: “Muminun”, 18.

5. Zalım hakimlər öz hakimiyyətlərini qorumaq üçün günahsız insanları qətlə yetirirlər.

6. Zalım hakimlərin qurğularının hədəfi qadınlar və gənclərdir.

7. Anaların gözü qarşısında övladlarını qətlə yetirib, onların özlərini diri saxlamaq ən pis əzabdır.

8. Bəzən acı hadisələr ilahi sınaq vasitəsi olur.

9. Hadisələr nə qədər böyük olsa da, onları tərbiyə və sınaq vasitəsi kimi qəbul edək.

***(AYƏ: 142)***

﴿وَوَاعَدْنَا مُوسَى ثَلاَثِينَ لَيْلَةً وَأَتْمَمْنَاهَا بِعَشْرٍ فَتَمَّ مِيقَاتُ رَبِّهِ أَرْبَعِينَ لَيْلَةً وَقَالَ مُوسَى لأَخِيهِ هَارُونَ اخْلُفْنِي فِي قَوْمِي وَأَصْلِحْ وَلاَ تَتَّبِعْ سَبِيلَ الْمُفْسِدِينَ﴾

**“Biz Musa ilə (Tur dağında Tövratın nazil olması üçün) otuz gecəlik vədələşdik və onu on gecə ilə (artırmaqla) tamamladıq. Beləcə, onun Rəbbinin vəd müddəti tam qırx gecə oldu. Musa (vəd olunan yerə getməmişdən) qardaşı Haruna dedi: “Ümmətim arasında mənim canişinim ol, (xalqın işlərini) islah et və fəsad əhlinin yoluna tabe olma!”**

***NÖQTƏLƏR***

◘“Bəqərə” surəsinin 51-ci ayəsində Musa ilə qırx gecəlik vəddən danışılır. Burada isə əvvəlcə otuz gecə, sonra ona on gecə artırılması qeyd olunur. İmam Baqirin (ə) bildirdiyinə əsasən, bu işdə məqsəd Bəni-İsrailin imtahana çəkilməsi olmuşdur. Rəvayətdə oxuyuruq: “Bu müddətin 30 gecəsi zil-qədə, on gecəsi zil-hiccə ayında olmuşdur.[1]

Həzrət Musanın Tur dağında 40 gecə-gündüz qaldığı halda bu müddətin 40 gecə kimi zikr olunması Allahla münacatların gecələr baş verməsi ilə əlaqədar ola bilər. Bundan əlavə, həmin dövrdə ay təqvimindən istifadə olunurdu və ay gecələr göründüyündən vaxtı gecələrlə sayırdılar.

◘Proqramın hikmət əsasında dəyişməsi xəstənin xüsusiyyətini nəzərə alaraq həkimin nüsxəni dəyişməsi kimidir və bu dəyişikliyin heç bir eybi yoxdur. Beləcə, otuz gecə on gecə artırılmaqla qırx gecə edilərək dəyişildi.

“Bəda” dedikdə Allahın şərait dəyişməsini nəzərə alaraq proqramı dəyişməsi nəzərdə tutulur. Əlbəttə ki, bu dəyişikliklər Allaha öncədən məlum olur. Necə ki, həkim həmin dərmanları qəbul edən xəstənin iki gün sonrakı halından məlumatlı olur. O bilir ki, xəstəyə iki gündən sonra başqa bir dərman vermək lazım gələcək. Allahın proqramı dəyişməsinin səbəbi onun əvvəlki proqramdan peşman olması və ya hansısa yeni nöqtələrin üzə çıxması deyil. Çünki peşmançılıq və yeni kəşflər cəhalət və məhdud bilikdən qaynaqlanır. Belə bir xüsusiyyət insana aiddir. Allah isə dəyişiklikləri insanın imtahan və tərbiyəsi məqsədi ilə həyata keçirir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

◘40 rəqəminin müxtəlif dinlərdə və rəvayətlərdə xüsusi yeri var və bu rəqəm əsrarəngizliyə malikdir. Ayrı-ayrı məqamlarda 40 rəqəmi ilə bağlı təbirlərlə rastlaşırıq: "Həzrət Nuhun dövründə kafirlərə əzab olaraq 40 gün yağış yağdı"; həzrət Musanın qövmü səhrada 40 il avara qaldı"; həzrət Peyğəmbər (s) Xədicədən 40 gün ayrılıb səmavi qəza nazil olanadək etikaf etdi və beləcə, həzrət Zəhranın (ə) təvəllüdü üçün müqəddimə yarandı"; həzrət Peyğəmbər (s) 40 yaşında məbus oldu"; insanın 40 yaşınadək ruhi və mənəvi kamilliyi üçün zəmin var, 40 yaşdan sonra bu iş çətin olur"; əməldə 40 gün ixlas hikmətin qəlbdən dilə cari olması amilidir"; qurtuluş və müşküllərin həlli üçün bəzi surə və duaları 40 dəfə oxumaq tapşırılmışdır"; "bəzi günahların nəticəsində insanın əməlləri, o cümlədən namazı 40 gün qəbul olunmur"; "ölənin yaxşılığına 40 möminin şəhadət verməsi nəticəsində Allah onu bağışlayır..."[1] ; bəzi kitablar 40 rəqəminin əsrarəngizliyi əsasında "40 hədis" adı altında tərtib olunmuşdur.[2]

◘Necə qəbul etmək olar ki, həzrət Musa xalqdan müvvəqqəti uzaqlaşarkən öz yerinə canişin təyin etsin, amma İslam peyğəmbəri əbədi ayrılıq zamanı öz canişinini müəyyənləşdirməsin?! Bəli, "Mənzələt" hədisində həzrət Peyğəmbər (s) həzrət Əliyə (ə) xitabən buyurur: "Sən mənim üçün Harunun Musa üçün olduğu kimisən."[3] Göründüyü kimi, bu məlumat ən mötəbər sünni mənbələrində də nəql olunmuşdur. Bəs qeyb dövrü necə, imam Mehdinin (ə) qeybi dövründə xalq öz başına qala bilərmi?!

◘Həzrət Musanın qövmü üçün iki sınaq oldu: Musanın vəd olunmuş yerdə on gün artıq qalması və Samirinin buzovu.[4] Həzrət Musa "mən ilahi göstərişləri əldə etmək üçün 30 gecə vəd olunmuş yerə gedirəm" dedikdə xalq onun 30 gün tamam olduqda gəlmədiyini görüb dedi: "Musa vədinə xilaf çıxdı." Bu səbəbdən ondan üz döndərib öz azğın yollarına davam etdilər. Bu qövmə anladılırdı ki, həzrət Musa Tur dağına getsə də, Allah onlarladır və bütlərə üz tutmaq azğınlıqdır.

◘Ayədə "islah" deyərkən fərdi yox, ictimai məsələlərdə islah nəzərdə tutulur.

◘Həzrət Musanın dövründə Musanı nigaran edən fitnəkarlar vardır. O, Haruna belə tapşırdı: "İmkan vermə ki, iş başına gələlər və istər-istəməz onların ardınca gedəsən."

---

[1] "Səfinətül-bihar",c 1, s. 504, 505.

[2] "Təfsire-Fürqan".

[3] "Səhih Buxari", c. 6, s. 3; "Səhih Müslüm", c. 4, s. 187; "Sünənə ibn Macə, c. 1, s. 42; "Müsnəde-Əhməd ibn Hənbəl", c. 1, s. 173, 175, 177, 179, 182.

[4] Bax: "Taha", 85.

## *BİLDİRİŞLƏR*

1. Müqəddiməsiz və özünü saflaşdırmadan peyğəmbərlərə səmavi kitab nazil olmur. İbadət, gecələr arifanə münacatlarla müşayiət olunan ləyaqət zəruridir.

2. Hətta rəhbərlik səviyyəsində məsuliyyət insanın ibadətinə, etikafına, xəlvəti raz-niyazına mane olmamalıdır.

3. İlahi qanunlar elə müqəddəsdir ki, onların qəbulu üçün kamil ruhi hazırlığa ehtiyac var.

4. Allahın peyğəmbərlərlə vəd yeri Tur dağı və Həra kimi ucqar yerlər, Onun bəndələrinə ziyafəti isə dua və münacatdır.

5. Münacat və dua üçün ən münasib fürsət gecədir.

6. Ardıcıl qırx gecə ibadətin xüsusi təsiri vardır.

7. İşlər üçün müddət və zaman müəyyənləşdirilməlidir.

8. Yeni rəhbər qarşısına çıxan eniş-yoxuşlarda keçmiş rəhbərin təcrübəsindən faydalanmalıdır.

9. Cəmiyyət heç vəchlə rəhbərsiz qalmamalıdır.

10. Peyğəmbərlər Allahın izni ilə canişin təyin etmək haqqına malikdirlər.

11. Xalqa imamət və rəhbərlik peyğəmbərin sifarişi əsasında, cəmiyyətin islahı istiqamətində, çaşqınlıqdan uzaq həyata keçməlidir.

12. Eyni bir vaxtda iki rəhbər ola bilməz. Harun da Musa kimi peyğəmbər idi. Amma rəhbərlik Musaya əmr olunmuşdu. (Bəli, imamət və rəhbərlik nübuvvətdən fərqli bir məsələdir. Ona görə də Musa Harunu özü olmadığı vaxt üçün canişin, rəhbər təyin etdi.)

13. Peyğəmbərlər öz ümmətlərinə o qədər canıyanan və məsuliyyətlidirlər ki, hətta bir neçə günlük onlardan uzaqlaşdıqda öz yerlərinə canişin təyin edirlər.

14. Rəhbərin ümumi vəzifəsi ümmətin islahıdır.

15. Xalq fəsada çəkildikdə və ya fəsad istəyinə düşdükdə, rəhbər öz islahçılığından əl çəkməməlidir.

16. Haqqı xatırlatma zəiflik nişanəsi deyil. Harun peyğəmbər və məsum olsa da, həzrət Musa islah və fəsaddan uzaqlıq kimi iki vəzifəni onun nəzərinə çatdırdı.

17. Fitnə-fəsad, fitnəkarlara itaət olan yerdə cəmiyyətin islahı mümkünsüzdür.

18. Cəmiyyətin heç vaxt fəsad əhlinə və onların baxışlarına təslim olmayan islahedici rəhbərə ehtiyacı var.

***(AYƏ: 143)***

﴿وَلَمَّا جَاء مُوسَى لِمِيقَاتِنَا وَكَلَّمَهُ رَبُّهُ قَالَ رَبِّ أَرِنِي أَنظُرْ إِلَيْكَ قَالَ لَن تَرَانِي وَلَكِنِ انظُرْ إِلَى الْجَبَلِ فَإِنِ اسْتَقَرَّ مَكَانَهُ فَسَوْفَ تَرَانِي فَلَمَّا تَجَلَّى رَبُّهُ لِلْجَبَلِ جَعَلَهُ دَكًّا وَخَرَّ موسَى صَعِقًا فَلَمَّا أَفَاقَ قَالَ سُبْحَانَكَ تُبْتُ إِلَيْكَ وَأَنَاْ أَوَّلُ الْمُؤْمِنِينَ﴾

**“Musa Bizimlə vədələşdiyi yerə gəldikdə və Rəbbi onunla danışdıqda dedi: «Pərvərdigara Özünü mənə göstər, Sənə baxım!» (Allah-təala) buyurdu: «Məni heç vaxt görməyəcəksən. Amma bu dağa bax. Əgər o öz yerində dayana bilsə, tezliklə Məni görəcəksən.» Elə ki, Musanın Rəbbi dağa təcəlla etdi (Öz əzəmətindən dağa göstərdi), dağ parçalandı və Musa huşunu itirib yerə yıxıldı. Huşu başına qayıtdıqda dedi: «Sən (gözə görünməkdən) paksan. Mən Sənə tərəf qayıtdım və ilk möminəm.»”**

***NÖQTƏLƏR***

◘Saf torpağa “dəkkə” deyilir. “Cəələhu dəkka”, yəni dağ parçalanıb zərrə-zərrə, torpaqla bir oldu.

◘“Xərrə” düşmək, yıxılmaq, “səiqə” qorxunc səsdən huşu itirmək mənasını bildirir.

◘Dağa nazil olan qüvvə atom enerjisi idi, yoxsa səs dalğaları? Onu deyə bilərik ki, bu ilahi qüvvə dağı parçaladı və Musa bu parçalanmanın səsindən huşunu itirib yerə yıxıldı.[1]

◘Musa Bəni-İsrailin cahilanə istəkləri səbəbindən Allahdan ona görünməsini diləmişdi. Kafirlər qafil idilər ki, Allah heç vaxt gözlə görünməz.[2] Onu yalnız qəlb gözü ilə görüb iman gətirmək olar. İmanla bağlı həqiqətlərin yalnız qəlb gözü ilə görünməsini Həzrət Əli (ə) də təsdiqləyir.[3]

***Əgər qəlb gözünü açsan, görərsən,***
***İnan, görünməyən gerçəkləri sən.***

◘İmam Sadiq (ə) həzrət Musanın “ilkin mömin oldum” sözləri haqqında buyurmuşdur: “Mən Allahın zatının görünməməsinə ilk iman gətirən oldum.”[4]

◘Bir məclisdə xəlifə Məmun imam Rizaya (ə) dedi: «Siz deyirsiniz ki, peyğəmbərlər məsumdurlar. Bəs nə üçün Musa Allahı gözlə görmək istədi? Məgər Musa bilmirdimi ki, Allah gözlə görünmür?» İmam (ə) Məmunun cavabında buyurdu: “Həzrət Musa bilirdi ki, Allah gözə görünmür. Amma o Allahın sözlərini xalqa çatdırdıqda xalq iddia etdi ki, ilahi kəlamları öz qulaqları ilə eşitməsələr, iman gətirməyəcəklər. Bəni-İsraildən yetmiş nəfər

---

[1] “Təfsire-nümunə”.
[2] Bax: “Ənam” 103.
[3] “Təfsire-Safi”.
[4] “Təfsire-isna-əşəri”.

seçildi və Tur dağında vəd yerinə gəldi. Həzrət Musa onların istəyini Allaha çatdırdı. Bu vaxt onlar bütün cəhətlərdən Allahın kəlamını eşitdilər. Amma yenə iman gətirmədilər. Onlar bu dəfə Allahı öz gözləri ilə görmək istəyirdilər. Səmadan bir şimşək endi və onları həlak etdi. Həzrət Musa dedi: "Əgər bu vəziyyətdə qayıtsam, xalq deyəcək ki, sənin iddiaların doğru deyil, xalqı aparıb qətlə yetirdin." Allahın izni ilə hamı yenidən dirildi. Bu dəfə onlar dedilər: "Əgər təkcə özün də Allahı gözünlə görsən, sənə iman gətirərik." Musa dedi: «Allahı yalnız Onun əlamətləri və ayələri ilə dərk etmək olar.» Amma onlar inadkarlıq edirdilər. Xitab gəldi ki, ya Musa, onların soruşduğunu soruş, bundan ötrü sənə cəza yoxdur. Həzrət Musa dedi: "Pərvərdigara, Özünü mənə göstər." Xitab gəldi: "Heç vaxt məni görməyəcəksən." Amma Allah bildirdi ki, dağa baxsınlar. Əgər dağ Onun əzəmət cilvəsinə tab gətirsə, onlar da Allahı görə bilərlər. Allahın işarəsi ilə dağ parçalandı və hamar yerə döndü. Musanın huşu başına qayıtdıqdan sonra dedi: "Pərvərdigara! Xalqın cəhalət və qəflətindən öz mərifətimə qayıtdım. Mən Allahın gözlə görünməməsini etiraf edən ilk kəsəm." İmam Rizanın (ə) bu cavabı xəlifə Məmunu susdurdu.[1]

Əslində Həzrət Musanın Allaha Onu görmək arzusu ilə ağız açıb cavab almasında məqsəd xalqı inandırmaq idi ki, Allah nəinki onlara, hətta Musa üçün də gözəgörünməzdir.

◘İmam Sadiqdən (ə) soruşdular: "Əgər Allah gözlə görünmürsə, nə üçün rəvayətlərdə deyilir ki, «Peyğəmbər (s) Allahı gördü; Qiyamətdə möminlər Allahı görər?» Həzrət həmin şəxsə təbəssümlə cavab verdi: "Yetmiş-səksən il Allahın yeri üzərində yaşayıb, Allahın ruzilərindən istifadə edən şəxsin Onu lazımı şəkildə tanımaması çox pisdir. Peyğəmbər Allahı gözlə görməmişdir. Bu sözü deyən yalançı və kafirdir. Çünki, Peyğəmbər (s) buyurur: "Hər kəs Allahı məxluqların sifəti ilə vəsf etsə, kafirdir." Həzrət Peyğəmbər (s) Əlidən (ə) soruşdu: "Ey peyğəmbər qardaşı! Sən Allahı görmüsənmi?" O həzrət dedi: "Görmədiyim Allaha ibadət etmərəm. Amma sifətdəki yox, qəlbdəki gözlə!"[2] Başqa bir yerdə həzrət (s) buyurur: "Nəyi gördümsə, ondan əvvəl və sonra Allahı gördüm."[3]

Bəli, gözdə Onu görmək gücü yoxdur.[4] Amma qəlb gözü ilə Onu görmək olar. Necə ki, Quran buyurur: "Peyğəmbər meracda ilahi əzəmət nişanələrini gördü."[5] Qeyd edək ki, Tövratda həzrət Musanın Tur dağı ilə bağlı nəql olunan macərası uyğun kitabdakı təhriflərdəndir.[6]

---

[1] "Təfsire-Nurus-səqəleyn"; "Təfsire-Fürqan".
[2] "Təfsire-Fürqan".
[3] "Təfsire-Fürqan".
[4] "Ənam" 103.
[5] "Nəcm", 13, 14.
[6] Tövrat, "Sifre-Xuruc", b. 23, a. 9.

### *BİLDİRİŞLƏR*

1. Allahın Musa ilə danışmaqda məqsədi Musanın təkamül və tərbiyəsi idi.

2. Vəd olunmuş yerə gəlib Allahın buyruqlarını dinləmək Musada Allahla görüş şövqünü oyadırdı.

3. Allah zahiri gözlə görünmür. Bu iş nə dünyada, nə də axirətdə mümkündür.

4. Təbiətdəki mövcudlara Allahın təcəlla etməsi mümkündür.

5. Allahı Onun sifətləri ilə tanımaq, cilvələrinə nəzər salmaq olar. («Təcəlla» sözünün də mahiyyəti aydın deyil. Allahın əsərlərinin, sifətlərinin müşahidəsi daha yetərlidir)

6. Allah gözlə görünmür.

7. Allah cisim deyil və biz Onu bu sifətdən pak bilirik. Gözlə görünmək üçün isə hökmən cisim olmaq lazımdır.

8. Yersiz düşüncə və istək üçün də tövbə edilməlidir. Əgər Allah haqqında yanlış təsəvvürümüz olmuşsa, dərhal tövbə etməli və Onun pak olduğunu dilə gətirməliyik.

9. Həqiqət aşkarlandıqdan sonra onu qəbul və etiraf etmək lazımdır.

10. Peyğəmbərlər əqidə məktəbinin öncülləridir.

### *(AYƏ: 144)*

﴿ قَالَ يَا مُوسَى إِنِّي اصْطَفَيْتُكَ عَلَى النَّاسِ بِرِسَالاَتِي وَبِكَلاَمِي فَخُذْ مَا آتَيْتُكَ وَكُن مِّنَ الشَّاكِرِينَ ﴾

**“(Allah) Buyurdu: «Ey Musa, Mən səni Öz BİLDİRİŞLƏRim və sözlərimlə xalq üçün seçdim. (Lövhələr və Tövratdan) sənə verdiyimi al və şükür edənlərdən ol.»”**

### *NÖQTƏLƏR*

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah-təala Musaya buyurdu: “Bilirsənmi səni nə üçün seçdim? Çünki Mənim dərgahıma olan xüzu və xüşun (mütiliyin) misilsizdir. Namaza dayananda yanaqlarını torpağa qoyursan.”[1] Digər bir hədisdə Allah-təalanın belə buyurduğu nəql olunur: “(Səni ona görə seçdim ki,) çünki Mənə münasibətdə bəndələrimdən özünü ən zəlil bilən sən idin.”[2]

### *BİLDİRİŞLƏR*

1. Həzrət Musa Allahın müxlis (ixlaslı) bəndəsi idi.

2. Nübuvvət və risalət seçkili yox, təyinatlı məqamdır.

---

[1] “Təfsire-Safi”.

[2] “Təfsire-Nurus-səqəleyn”.

3. Xalqın yersiz istəklərinin bəyanı Musanın seçilməsinə və nübuvvətinə mane olmurdu.

4. Vəd yerində 40 gecə ibadət Tövratın qəbulu və onun işə salınması üçün bir müqəddimə oldu.

5. Zalım hakimiyyətin süqutundan və dini hökumətin təşkilindən sonra ilahi qanunlar icra olunmalıdır.

6. Şükür Allahın müstəhəb yox, vacib əmridir və əxlaqi bir tövsiyədir. Deməк, ilahi nemətlərə görə şükür etmək lazımdır.

7. Dini və tərbiyəvi məsuliyyətlər ilahi bir nemətdir və buna görə şükür etmək lazımdır. (Həqiqi şükür təkcə dillə həyata keçmir. Bu işdə ilahi göstərişlərin yerinə yetirilməsi də vacibdir.)

***(AYƏ: 145)***

﴿ وَكَتَبْنَا لَهُ فِي الأَلْوَاحِ مِن كُلِّ شَيْءٍ مَّوْعِظَةً وَتَفْصِيلاً لِّكُلِّ شَيْءٍ فَخُذْهَا بِقُوَّةٍ وَأْمُرْ
قَوْمَكَ يَأْخُذُواْ بِأَحْسَنِهَا سَأُرِيكُمْ دَارَ الْفَاسِقِينَ ﴾

**"Biz lövhələrdə Musa üçün hər şey haqqında öyüd və hər şeyi ətraflı şəkildə yazdıq. (Ey Musa!) Onları möhkəm tut və qövmünə onların ən yaxşısını götürməyi əmr et. Tezliklə həddi aşanların yerini sizə göstərərəm."**

***NÖQTƏLƏR***

◘"Əlvah" dedikdə əvvəlki ayədə haqqında danışılan Tövrat yazılmış daşlar nəzərdə tutulur.

◘Ayədəki "əhsən" sözünün hansı məna daşıması barədə müxtəlif rəylər var. Bu rəylərdən biri də Tövrat göstərişlərinin həmin dövrdə bütün qanunlardan üstün olması fikridir. Amma mütləq surətdə üstün olan yalnız Qurandır.[1]

◘Məqsəd bu ola bilər ki, Tövratdan möhkəm yapışanlar düşmənə qalib gələcək, onların məskənlərinə sahib olacaq.

◘İmam Baqir (ə) buyurmuşdur: "Min kulli şəyin", yəni "hər şeydən" təbiri onu göstərir ki, Allah heç də hər şeyi Musaya açıqlamamışdır.[2] Amma bu da qeyd olunur ki, həmin dövrdə insanların ehtiyac duyduqları şeylərin hamısı müfəssəl şəkildə bəyan olunmuşdur.

◘"Həddi aşanların mənzili" dedikdə ya fironçuların sarayları, ya da Musa qövmü gələnədək Beytül-Müqəddəsdə sakin olanların evləri nəzərdə tutulur. Bu söz Musanın göstərişindən çıxanların Qiyamətdəki yerinə də işarə ola bilər.[3]

---

[1] Bax: "Zumər", 55.

[2] "Təfsire-Nurus-səqəleyn".

[3] "Təfsire-rahnüma".

### *BİLDİRİŞLƏR*

1. Tövrat yazılı şəkildə nazil olmuşdur.

2. Qanun və ümmətə rəhbərliyin işə salınması üçün qüvvə, iradə və ciddiliyə ehtiyac var.

3. Mümkün yollar və proqramlar arasında ən üstününü seçmək və tam ciddiliklə işə başlamaq lazımdır.

4. Səmavi qanunlarla müxalifətçilik azğınlıqdır və belə rəftarın cəzası vardır.

5. Rəhbər əməldə öncül olmalıdır. (Allah əvvəlcə Musaya, sonra xalqa göstəriş verir.)

### *(AYƏ: 146)*

﴿سَأَصْرِفُ عَنْ آيَاتِيَ الَّذِينَ يَتَكَبَّرُونَ فِي الأَرْضِ بِغَيْرِ الْحَقِّ وَإِن يَرَوْاْ كُلَّ آيَةٍ لاَّ يُؤْمِنُواْ بِهَا وَإِن يَرَوْاْ سَبِيلَ الرُّشْدِ لاَ يَتَّخِذُوهُ سَبِيلاً وَإِن يَرَوْاْ سَبِيلَ الْغَيِّ يَتَّخِذُوهُ سَبِيلاً ذَلِكَ بِأَنَّهُمْ كَذَّبُواْ بِآيَاتِنَا وَكَانُواْ عَنْهَا غَافِلِينَ﴾

**“Yer üzündə haqsız təkəbbür göstərənləri tezliklə ayələrimdən (iman gətirməkdən) yayındıraram. (Belə ki, qüdrətimizdən) hər hansı nişanə görsələr, iman gətirməzlər, təkamül yolu gördükdə onu seçməzlər, azğınlıq yolu gördükdə onu özlərinə yol götürərlər. Bunun səbəbi odur ki, onlar ayələrimizi təkzib etdilər, daim ondan qafil qaldılar.”**

### *NÖQTƏLƏR*

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: «Dünya müsəlmanların gözündə cilvələndikdə, onlar İslamın heybətindən uzaqlaşarlar. «Əmr be məruf» və «nəhy əz münkəri» tərk etdikləri vaxt vəhy bərəkətindən məhrum qalarlar.»[1]

### *BİLDİRİŞLƏR*

1. Təkəbbür əhli bilsin ki, onlar hidayət və ilahi ayələrdən məhrumdurlar.

2. Allah səbəbsiz yerə kimsəyə lütfünü əsirgəmir. İlahi lütfdən məhrumluq insanın öz əməllərinin nəticəsidir.

3. İnsandakı təkəbbür onun yanlış təsəvvürlərindən qaynaqlanır.

4. Zəif və möhtac bir varlıq olan insana təkəbbür yaraşmır.

5.Təkəbbür olan yerdə çoxsaylı ayələr də insanı hidayət etmir.

6. İnsan hidayət və azğınlıq yolunu seçməkdə azaddır.

7. İnsandakı qəflət və ilahi ayələrin təkzibi davam etdikdə təkəbbür yaranır və yol seçimində çaşqınlıq qaçılmaz olur.

[1] “Təfsire-Safi”.

*(AYƏ: 147)*

﴿ وَالَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَلِقَاء الآخِرَةِ حَبِطَتْ أَعْمَالُهُمْ هَلْ يُجْزَوْنَ إِلاَّ مَا كَانُواْ يَعْمَلُونَ ﴾

**"Ayələrimizi və qiyamət görüşünü təkzib edən kəslərin əməlləri puçdur. Məgər əməllərinə görə cəzalandırılmayacaqlarmı?"**

*NÖQTƏLƏR*

◘"Həbitət" sözü əməllərin puç olmasını bildirir. «Həbitən-naqə» ifadəsi isə zəhərlənib qarnı şişmiş və partlamış dəvəyə işarədir. İnsanın da bəzi əməlləri onun ömür boyu gördüyü yaxşı işləri zəhər tək havaya sovurub puça çıxarır.[1]

◘Əməllərin puça çıxması ilahi ədalətə zidd deyil. Belə bir nəticə təbii bir sonluq, insanın öz əməllərinin aqibətidir.

***BİLDİRİŞLƏR***

1. Küfr və təkzib keçmiş əməlləri puça çıxaran səbəbdir.
2. Qiyamətin mükafat və cəzaları öz əməllərimizin təcəssümüdür.
3. Günahdan da pisi onun israrıdır.

*(AYƏ: 148)*

﴿ وَاتَّخَذَ قَوْمُ مُوسَى مِن بَعْدِهِ مِنْ حُلِيِّهِمْ عِجْلاً جَسَدًا لَّهُ خُوَارٌ أَلَمْ يَرَوْاْ أَنَّهُ لاَ يُكَلِّمُهُمْ وَلاَ يَهْدِيهِمْ سَبِيلاً اتَّخَذُوهُ وَكَانُواْ ظَالِمِينَ ﴾

**"Musanın qövmü ondan (o, Tur dağına getdikdən) sonra öz bəzək-düzək şeylərindən inək səsi çıxaran bir buzov mücəssəməsi düzəltdi. Məgər görmürdülərmi ki, o (buzov) onlarla danışmır, onları bir yola yönəltmir? Ondan yapışmaqla (pərəstiş etməklə) sitəmkar oldular."**

*NÖQTƏLƏR*

◘Erkək buzov "icl" adlanır. "Huliyy" bəzək-düzək, "xuvar" inəyə məxsus səs mənasını bildirir.

[1] "Təfsire-Fi Zilalil Quran".

◘İmam Baqir (ə) buyurmuşdur: "Həzrət Musa Allaha dedi: "Samiri camaat üçün qızıldan buzov düzəldib. Bəs onun səsi nədir?" Vəhy gəldi ki, bu, xalq üçün sınaq vasitəsidir.[1]

◘Quran Bəni-İsrailin buzovpərəstliyi məsələsinə dörd surədə işarə etmişdir. Buzovpərəstliyin ideoloji və ictimai zəminləri var. Çünki bu insanlar uzun illər boyu Misirdə buzov formalı bütlər görmüşdülər. İkincisi, 138-ci ayədə oxuduğumuz kimi, Nil çayından keçdikdən sonra onlar bütpərəst bir qövmlə rastlaşmışdılar. Bu qövm onların ruhunda dərin iz buraxmışdı. Üçüncüsü, otuz gecənin qırx gecəyədək uzadılması Musanın ölümü haqqında şayiələr yaratmışdı. Müxaliflər bundan istifadə etmiş, xalqı çaşdırmaq üçün bəhanə tapmışdılar. Nəhayət, xalqın cəhaləti və Samirinin hünəri Musanın qövmünü allahpərəstlikdən buzovpərəstliyə yönəldə bilmişdi.[2] Beləcə, Bəni-İsrailin çaşqınlığının bir neçə səbəbi vardı: rəhbərin bir müddət olmaması; xalqın cəhalət və nadanlığı; azğın alimlər və sənətkarların elm və sənətdən sui-istifadə etməsi; bər-bəzəyin gözəlliyi; səs-küylü yalan təbliğat.

◘"Taha" surəsinin 87-ci ayəsində buzovun Samiri tərəfindən düzəldildiyi bildirilir. Maraqlıdır ki, Tövratda bu iş Haruna aid edilmişdir.[3] Musanın qövmü Samirinin işi ilə razı olub ona kömək göstərdiyindən, bu ayədə buzovun düzəldilməsi ilə əlaqədar onların da adları çəkilir.[4]

◘Həzrət Musa xalqın hidayəti və onların Samirinin tələsindən xilası üçün aşkar dəlillərdən istifadə etdi. Məsələn, o, buzovun ilahiliyini inkar etmək üçün onun süniliyini önə çəkib, məkanı, çəkisi, həcmi, forması olan bir varlığın ehtiyaclı olduğunu və xalqı hidayət edə bilməyəcəyini bəyan etdi.[5]

## *BİLDİRİŞLƏR*

1. Bəzi insan həqiqətdən uzaq bir şeyi dəyərli sayır, hətta ona pərəstiş də edir.
2. Buzovpərəstliyə dəvət rəhbərə itaətsizlik və onun olmadığı bir şəraitdə gerçəkləşir. (Həmin vaxt həzrət Musa Tur dağına getmişdi.)
3. Düşmən xalqı azdırmaq üçün onların nəfs istəklərindən, incəsənətdən istifadə edir.
4. Qövmlərin dindən çıxmasının uzun tarixi var.
5. Samirinin buzovu sadəcə olaraq bir heykəl idi.
6. İnsanların azdırılmasında zər-zibanın, səs-küyün mühüm rolu var. Bu səbəbdən də hər səs-küyün və bərbəzəyin ardınca getməyək.
7. İnsanın məbudu onu hidayət edə bilməlidir.

---

[1] "Təfsire-Fürqan"; bax: "Əraf", 155.
[2] "Təfsire-nümunə".
[3] Tövrat, "Sifre xüruc", b. 32.
[4] "Təfsire-nümunə".
[5] "Təfsire-Əl-mizan".

8. Şirk (Allaha şərik qoşmaq) zülmdür. Heç bir dəlilə əsaslanmayıb inadkarlıqla haqqa arxa çevirən və öz əli ilə düzəltdiyinə əsir olan kəs zalımdır.

***(AYƏ: 149)***

﴿ وَلَمَّا سُقِطَ فَي أَيْدِيهِمْ وَرَأَوْاْ أَنَّهُمْ قَدْ ضَلُّواْ قَالُواْ لَئِن لَّمْ يَرْحَمْنَا رَبُّنَا وَيَغْفِرْ لَنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ ﴾

**“Elə ki, (buzovpərəstliyin dəyəri) yanlarındaca süqut etdi və həqiqətən, azdıqlarını gördülər, belə dedilər: «Əlbəttə, əgər Rəbbimiz bizə rəhm etməsə və bizi bağışlamasa, ziyankarlardan olacağıq.»”**

***NÖQTƏLƏR***

◘Peşman olmuş insan, adətən, çənəsini əlləri arasına alır və fikrə gedir. Sanki o öz əllərinə süqut etmişdir. Ayədəki “suqitə fi əydihim” təbiri buzovun onların qarşısında məhv olub getməsinə işarə ola bilər.[1]

***BİLDİRİŞLƏR***

1. Bəzi insanlar əməllərinin nəticəsini görməyincə, öz səhvlərini anlamırlar.

2. Keçmişimiz buzovpərəst olsa da, Allahın mərhəmətindən ümidimizi üzməyək.

3. İlahi rəhmət və bağışlama olmayan yerdə insan ziyandadır.

***(AYƏ: 150)***

﴿وَلَمَّا رَجَعَ مُوسَى إِلَى قَوْمِهِ غَضْبَانَ أَسِفًا قَالَ بِئْسَمَا خَلَفْتُمُونِي مِن بَعْدِي أَعَجِلْتُمْ أَمْرَ رَبِّكُمْ وَأَلْقَى الألْوَاحَ وَأَخَذَ بِرَأْسِ أَخِيهِ يَجُرُّهُ إِلَيْهِ قَالَ ابْنَ أُمَّ إِنَّ الْقَوْمَ اسْتَضْعَفُونِي وَكَادُواْ يَقْتُلُونَنِي فَلاَ تُشْمِتْ بِيَ الأعْدَاء وَلاَ تَجْعَلْنِي مَعَ الْقَوْمِ الظَّالِمِينَ﴾

**“Elə ki, Musa (Tur dağından) qövmünə tərəf qayıtdı (və onların buzova pərəstiş etdiyini gördü), qəzəb və təəssüflə dedi: «Məndən sonra mənim üçün pis canişinlər oldunuz. Yoxsa, Allahın göstərişindən önə keçirsiniz?» Həmin vaxt (lövhələri) Tövratı atdı və (qəzəbindən) qardaşının başından tutub özünə tərəf çəkdi. (Harun) dedi: «Ey anam oğlu, həqiqət budur ki, bu qövm məni zəifliyə düçar etdi və az qaldı ki, öldürə. Mənimlə elə rəftar etmə ki, düşmənlər lağa qoysunlar. Məni sitəmkarlardan bilmə.»”**

***NÖQTƏLƏR***

◘Həzrət Əli (ə) məlum müxalifətlərlə rastlaşdıqdan sonra xalqa üz tutub buyurdu: “Mənim yolum və nümunəm peyğəmbərlərdir... Amma qardaşım

---

[1] Bax: “Taha”, 97.

Harundan onun öz qardaşına dediyi "Məni zəifliyə düçar etdilər" sözlərini öyrəndim. Əgər onun zəifliyə düçar və xar edilməməsini, qətli üçün heç bir tədbir görülməməsini iddia etsəniz, Quranı inkar etmiş olursunuz. Yox, əgər bu həqiqəti qəbul etsəniz, Harun üzürlü olar və onun sükutu zəruri sayılar."[1] Necə ki, İslam Peyğəmbəri (s) Həzrət Əliyə (ə) buyurur: "Sən də (Harun kimi) Qüreyşin düşmənçiliyi qarşısında səbir yolunu seç."[2]

Həzrət peyğəmbər buyurmuşdur: "Həzrət Musa xalqa yetişdikdə öz narahatçılığının son həddini göstərmək üçün Harunla məzəmmətli rəftar etdiyindən Allah-təala Tur dağında Musaya qövmünün buzovpərəstliyini xəbər vermədi."[3] (Bu hissəyə diqqət! Yoxlayın!)

◘İmam Sadiq (ə) buyurmuşdur: "Harun öz qövmündən dözülməz əzab-əziyyətlər görsə də onları tərk etmədi. Əgər Harun öz qövmündən uzaqlaşsaydı, bu qövm hökmən ilahi əzaba düçar olası idi."[4]

## *BİLDİRİŞLƏR*

1. Düşüncə azğınlıqlarına dini qeyrətlə cavab verilməlidir. (Necə ki, İmam Xomeyni (r) azğın Salman Rüşdinin "Şeytani ayələr" fitnəsinə sərt münasibət göstərdi.)

2. Allah övliyalarının hətta qəzəbi də xalqın halına təəssüfdən doğur.

3. Mürtədlik və irtica hər bir inqilabın və islahedici hərəkatın bəlasıdır. (Rəhbər bunu öncədən görməli və qarşısını almalıdır.)

4. Azğın cəmiyyətdə bəzən peyğəmbərlərin də səyi səmərə vermir.

5. İlahi göstərişləri qabaqlamaq və onlardan qabağa keçmək olmaz.

6. Musanın yubanması və Tur dağında təyin olmuş müddətin uzadılması Musanın istəyi yox, tərbiyəvi əhəmiyyəti olan ilahi göstəriş idi.

7. Üsul (əqidə) əsasları üçün təhlükə yarandıqda füru (əməli) işləri saxlamaq lazım gəlir. Musa xalqın müşrik olduğunu gördüyü vaxt ilahi qanunların əks olunduğu Tövrat lövhələrini bir kənara qoydu və daha mühüm məsələ ilə məşğul olmağa başladı.

8. Azğın cəmiyyəti qəflətdən oyatmaq üçün yadda qalan, qeyrətə gətirən hərəkətə ehtiyac var.

9. Kişi uzun saç saxlaya bilər.

10. Vəzifəsinə, mövqeyinə, qohumluğuna xatir kimsənin nöqsanlarına göz yummayaq. Bəzən məsələnin əhəmiyyətini göstərmək, biganələri qəflətdən oyatmaq üçün yaxınlar məzəmmət olunur. Necə ki, Allah xalqla bağlı bir çox xəbərdarlıqları həzrət Peyğəmbərə (s) ünvanlayır.[5] Bəli, bəzən söz müraciət olunan şəxsə yox, başqalarına ünvanlanır.

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-Fürqan".
[3] "Təfsire-Fürqan".
[4] "Təfsire-Nurus-səqəleyn"; "Təfsire-Fürqan"; "Təfsire-isna-əşəri".
[5] Bax: "Zumər", 61.

11. Əsəbiləşmiş insanla mehriban davranmaq lazımdır. Musa və Harun eyni bir ata-anadan olsalar da, Harun Musaya "ey anamın oğlu" deyə müraciət edir.

12. Musanın vasitəsi ilə Fironun əlindən qurtulmuş dünənki müztəzəflər bu gün öz rəhbərlərini çarəsiz vəziyyətdə qoymuşdular.

13. İnsan əxlaqi baxımdan o qədər süqut edə bilər ki, nəfs istəklərinə və buzovpərəstliyə görə öz nemət sahibini qətl ilə hədələyər.

14. Peyğəmbərlərin ədalətsiz səhabələri də olmuş, bəziləri hətta dindən də çıxmışlar. Necə ki, Musanın bəzi tərəfdarları buzovpərəst oldular.

15. Düşmənləri məzəmmət edərkən yol verməməliyik ki, düşmən bundan sui-istifadə etsin.

16. Zülm və azğınlıq qarşısında sükut və biganəlik insanı zalımlarla bir cərgəyə qatır. Harun sükutu zülm sayırdı. Ona görə buyurdu: "Mən susmadım. Onlar məni qətl ilə hədələdilər."

***(AYƏ: 151)***

﴿ قَالَ رَبِّ اغْفِرْ لِي وَلأَخِي وَأَدْخِلْنَا فِي رَحْمَتِكَ وَأَنتَ أَرْحَمُ الرَّاحِمِينَ ﴾

**"(Musanın qəzəbi soyuduqdan sonra) dedi: «Pərvərdigara! Məni və qardaşımı bağışla, bizi Öz rəhmətinə daxil et. Sən mehribanların ən mehribanısan.»"**

***NÖQTƏLƏR***

Musa ya başqalarına dərs vermək, ya da xalq arasında Harunla sərt davrandığı üçün Allahdan bağışlanma diləyir. Əlbəttə, həzrət Musa bağışlanma diləməklə Harunun "ey anamın oğlu" kimi mehriban müraciətinə üstün bir cavab verdi.

***BİLDİRİŞLƏR***

1.Öz qardaşlarımıza və həmkarlarımıza dua edək.

2. Cəmiyyətin azğınlıq tufanında rəhbərlər dua və ilahi lütfə daha çox ehtiyaclıdırlar.

3. Bağışlamaq və mərhəmət ilahi rəhmətə daxil olmaq üçün müqəddimədir.

4. Duada Allahın lütf və sifətlərini yad edək.

***(AYƏ: 152)***

﴿ إِنَّ الَّذِينَ اتَّخَذُواْ الْعِجْلَ سَيَنَالُهُمْ غَضَبٌ مِّن رَّبِّهِمْ وَذِلَّةٌ فِي الْحَياةِ الدُّنْيَا وَكَذَلِكَ نَجْزِي الْمُفْتَرِينَ ﴾

**"Həqiqətən, buzova tapınanlara tezliklə Rəbbləri tərəfindən qəzəb və dünya həyatında xarlıq yetişəcək. Uydurmaçıları bu sayaq cəzalandırırıq."**

### *NÖQTƏLƏR*

◘149-cu ayədən görünür ki, Bəni-İsrail öz əməllərindən peşman oldu. Bu ayə göstərir ki, onların tövbəsi qəbul olmadı. “Bəqərə” surəsinin 54-cü ayəsində bəyan olunur ki, onlar tövbə üçün bir-birlərini öldürməlidirlər. Bəli, haqpərəstlikdən sonra mürtədlik və buzova pərəstişin tövbəsi “əstəğfirullah” demək deyil. Beləlari bir-birlərini edam etməlidirlər ki, bu hərəkət ideologiyaya çevrilmiş şirklə mübarizədə üsul tək qalsın və gələcək nəsillərə ibrət olsun.

◘İmam Baqir (ə) bu ayə ilə bağlı buyurmuşdur: “Hər kəs ilahi dində bidətə (yenilikçiliyə) yol versə, elə bu dünyada zəlil və xar olar.”[1]

### *BİLDİRİŞLƏR*

1. İnsan din seçimində azad buraxılmışdır. Təəssüf ki, bəzən o, bədbəxtliyə aparan yanlışlıqlara üz tutur.
2. Mürtəd – dindən çıxmış insan Allah tərəfindən rədd edilmişdir.
3. Övliyaların qəzəbi Allahın qəzəbidir.
4. İman əvəzinə bər-bəzəkli və səs-küylü bütlərin ardınca gedən insanlar bu dünyadaca xar olacaqdır.
5. İlahi qəzəb təkcə Bəni-İsrailə aid deyildi. İlahi qəzəb bir sünnədir, bütün mürtəd qövmlər bu qəzəbə gəlmiş və gələsidir.

### *(AYƏ: 153)*

﴿ وَالَّذِينَ عَمِلُواْ السَّيِّئَاتِ ثُمَّ تَابُواْ مِن بَعْدِهَا وَآمَنُواْ إِنَّ رَبَّكَ مِن بَعْدِهَا لَغَفُورٌ رَّحِيمٌ ﴾

**“Pis işlərə və günaha yol verib, sonra tövbə etmiş və iman gətirmiş kəslər həmin tövbədən sonra (bağışlanar). Şübhəsiz, sənin Rəbbin bağışlayan və mehribandır.”**

### *NÖQTƏLƏR*

◘İman olmayan yerdə tövbə qəbul olunmursa da, bu ayədə əvvəlcə tövbə, sonra iman məsələsinə toxunulur. Ola bilsin ki, günah insanın imanını puça çıxardığından tövbə vasitəsi ilə yenidən iman gətirmək lazım gəlir.[2]

### *BİLDİRİŞLƏR*

1. Bir müddət sonra gerçəkləşsə də tövbə yolu həmişə açıqdır.
2. Hətta peyğəmbərləri öldürmək məqsədində olmuşuqsa da, Allahın mərhəmətindən ümidimizi üzməyək.
3. Hər bir günahın tövbəsi günahın əksinə hərəkətdir. Buzovpərəstliyin tövbəsi Allaha doğru gerçək qayıdışdır.
4. Tövbəyə dəvət üçün zəmin hazırlanmalıdır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-nümunə”.

5. Allah həqiqi tövbə edənlərə bəxşişdən əlavə Öz mərhəmətini nazil edir. Bəli, ilahi ad və sifətlərin hikmətli cilvələri var.

***(AYƏ: 154)***

﴿ وَلَمَّا سَكَتَ عَن مُّوسَى الْغَضَبُ أَخَذَ الأَلْوَاحَ وَفِي نُسْخَتِهَا هُدًى وَرَحْمَةٌ لِّلَّذِينَ هُمْ لِرَبِّهِمْ يَرْهَبُونَ ﴾

**"Musanın qəzəbi soyuduqdan sonra lövhələri (yerdən) götürdü. Onun yazılarında Rəbbindən qorxanlar üçün hidayət və rəhmət var idi."**

***BİLDİRİŞLƏR***

1. Səmavi qanunlar ilahi rəhmətdir. Hidayətlə müşayiət olunan rəhmət Allahdan qorxan insanlara aiddir.

2. Müttəqilərin hidayət qaynağı təkcə Quran yox, həm də təhrif edilməmiş Tövratdır.

3. Allah qorxusu insanın üzünə rəhmət qapısı açır.

4. Allahdan savay bir kimsənin qarşısında qorxaraq dayanmaq insana yaraşmaz.

***(AYƏ: 155)***

﴿وَاخْتَارَ مُوسَى قَوْمَهُ سَبْعِينَ رَجُلاً لِّمِيقَاتِنَا فَلَمَّا أَخَذَتْهُمُ الرَّجْفَةُ قَالَ رَبِّ لَوْ شِئْتَ أَهْلَكْتَهُم مِّن قَبْلُ وَإِيَّايَ أَتُهْلِكُنَا بِمَا فَعَلَ السُّفَهَاء مِنَّا إِنْ هِيَ إِلاَّ فِتْنَتُكَ تُضِلُّ بِهَا مَن تَشَاء وَتَهْدِي مَن تَشَاء أَنتَ وَلِيُّنَا فَاغْفِرْ لَنَا وَارْحَمْنَا وَأَنتَ خَيْرُ الْغَافِرِينَ﴾

**«Musa Bizimlə görüş yeri üçün öz qövmündən yetmiş kişi seçdi. (Allahı görmək istəyinin ardınca) Zəlzələ onları ağuşuna aldığı vaxt (Musa) dedi: "Pərvərdigara! Əgər istəsəydin, onları və məni bundan (Tura gəlməzdən) qabaq öldürə bilərdin. Bizi düşüncəsizlərimizin işlərinə görə həlakmı edirsən? Bu səhnə Sənin tərəfindən yalnız bir sınaqdır ki, onunla istədiyini azdırır, istədiyini hidayət edirsən. Sən bizim rəhbərimiz və himayəçimizsən. Beləsə, bizi bağışla, bizə rəhm et. Sən bağışlayanların ən üstünüsən."»**

***NÖQTƏLƏR***

◘Musanın bir və ya bir neçə "miqat"ının (görüş, ictima yerinin) olması, miqatda ölüm və fəlakətin Allahla görüş istəyindən və ya xalqın buzovpərəstliyi səbəbindən baş verməsi ayənin dərk olunmasında rol oynamadığından həmin məsələlərə toxunmuruq.

◘Musanın ətrafındakılar bütün bu möcüzələri görsələr də, yenə Allahı görmək və Onun səsini eşitmək istəyirdilər. Hansı ki, Musa ilə miqata gəlmiş yetmiş nəfər yeddi yüz nəfər arasından seçilmişdi. Bu insanlar Tur dağına

gəlib, ilahi qəzəbə düçar oldular. Bilməliyik ki, möcüzə görən insan bəhanə gətirməməli və haqqı qəbul etməlidir.

◘70 rəqəmi də 40 rəqəmi kimi əsrarəngizdir.

◘Əgər Musa kimi bir peyğəmbərin seçdiyi insanlar belə rəftar edirsə, necə qəbul etmək olar ki, adi insanlar imam seçsinlər?! İmam Mehdi (ə) "nə üçün imamı xalq seçə bilməz" sualının cavabında belə buyurdu: «Musanın seçdiyi yetmiş nəfərin layiq olmadığı aşkarlandı. Əgər Musa kimi bir peyğəmbərin seçdiyi insanlar yolunu azırsa, xalqın seçdiyi insanın vəziyyəti necə olacaq?!»[1]

### *BİLDİRİŞLƏR*

1. Mühüm mərkəzlərdə, həssas məsələlərin müzakirəsində iştirak üçün insanlar arasında seçim aparılmalıdır. Belə toplantılara kim gəldi yox, seçilmiş insanlar qatılmalıdır.

2. Ölüm xalq tərəfindən sıxıntıya məruz qalmaqdan daha asandır. (Musanın dilincə, "xalq mənimlə birlikdə Tur dağına gəlməmiş bizim canımızı alaydın ki, "yaxşılarımızı seçib qətlgaha apardın, onları məhv etdin" deyilməyəydi.")

3. Peyğəmbərlər qeyb elmi yox, zahiri məlumatlar əsasında hərəkət edirlər. Bu səbəbdən də bəzən peyğəmbərlərin seçdiyi insanlar ləyaqətsiz çıxır.

4. Bəzən ilahi qəzəb alovu o qədər əhatəli olur ki, həm qurunu, həm də yaşı yandırır. Yaxşılar da pislər qarşısında susub, etiraz etmədikləri üçün cəzalanırlar.)

5. Bəhanəçillik səfehlik nişanəsidir.

6. Bəlalar və çətin hadisələr bəzən ilahi sınaq olur. Bu sınaqlarda insanlar tanınır, zümrələr bir-birindən ayrılır.

7. Duadan öncə Allaha sitayiş dua qaydalarındandır.

8. Ruhun səhifələri günah çirkinliyindən paklanmamış, ilahi rəhməti cəzb etmir.

9. Bağışlama və ilahi əfv hədiyyələrin ən üstünüdür.

### *(AYƏ: 156)*

﴿وَاكْتُبْ لَنَا فِي هَذِهِ الدُّنْيَا حَسَنَةً وَفِي الآخِرَةِ إِنَّا هُدْنَا إِلَيْكَ قَالَ عَذَابِي أُصِيبُ بِهِ مَنْ أَشَاء وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ فَسَأَكْتُبُهَا لِلَّذِينَ يَتَّقُونَ وَيُؤْتُونَ الزَّكَاةَ وَالَّذِينَ هُم بِآيَاتِنَا يُؤْمِنُونَ﴾

**"(Pərvərdigara) biz Sənə doğru üz tutub qayıtmışıq, bizim üçün dünya və axirətdə xeyir yaz." (Allah-təala) buyurdu: "Əzabımı istədiyim kəsə (layiq olsa) çatdıraram. Rəhmətim isə hər şeyi əhatə etmişdir.**

[1] "Təfsire-Nurus-səqəleyn".

**Tezliklə onu (rəhmətimi) təqvalı, zəkat verən və ayələrimizə iman gətirən kəslər üçün yazaram.”**

## *NÖQTƏLƏR*

◘Bu ayə həzrət Musanın əvvəlki istəyinin ardınca ərz etdiyi duanı bəyan edir.

◘“Hudna” təbiri onların Allaha diqqətinə, azğın yoldan, yersiz istəklə Allahın görüşünə gələnlərin yolundan tövbəsinə işarədir.

◘İbn-Abbas nəql edir ki, “Rəhmətim hər şeyi əhatə edir” ayəsi nazil olanda şeytan da bu mərhəmətə tamah saldı və dedi: “Bu mənə də şamil olar.” Allah bu düşüncəni rədd edərək buyurdu: “Rəhmətimi təqvalı kəslər üçün yazaram.” Bəli, Allahın rəhmət süfrəsi genişdir. Amma mömin olmayan kəslər Allahın fəzli, möminlərin və körpələrin bərəkəti sayəsində bu rəhmətdən faydalanar.[1]

◘Rəvayətdə nəql olunur ki, bir şəxs namazda deyirdi: “Pərvərdigara! Öz rəhmətini kimsəyə yox, yalnız mənə və Məhəmmədə (s) şamil et.” Həzrət Peyğəmbər (s) namazdan sonra həmin şəxsi məzəmmət edərək buyurdu: “Allahın sonsuz rəhmətini, Onun qeyri-məhdud əhatəsini məhdudlaşdırdın!”[2]

## *BİLDİRİŞLƏR*

1. Atılan addımların və işlərin ən üstünü onların ən stabilidir.
2. Peyğəmbərlər xalqın dünya və axirət xoşbəxtliyi fikrindədirlər.
3. Duaların ən üstünü onların ən əhatəlisidir.
4. Allaha doğru xalisanə qayıdış ilahi lütfə çatmaq yoludur.
5. İlahi rəhmət qeyri-məhduddur. İlahi rəhmətdən məhrum olmuş kəs özü təqsirkardır. İlahi rəhmət yox, biz özümüz nöqsanlıyıq.
6. Allahın rəhməti əhatəlidir. İlahi əzab isə belə deyildir.
7. Əsas kök, ilahi əzab yox, ilahi rəhmətdir.
8. Peyğəmbərlərin də duası hikmət və ilahi qanun əsasında qəbul olunur.
9. Təqva və vəzifəyə əməl olan yerdə ilahi rəhmət hökmən nazil olasıdır. Günah və azğınlıq olan yerdə isə əzab qaçılmaz deyil. Çünki tövbə yolu ilə bağışlanma imkanı var.
10. İlahi rəhmət sonsuzdur. Onu əldə etmək üçün isə təqva, zəkat ödəmək və iman zəruridir. Belə ki, zəkat verməyən və ya təqvasız insan ilahi rəhmətdən məhrum olur və əzaba doğru hərəkət edir.
11. Yəhudilərin şəriətində də zəkat olmuşdur.
12. İlahi lütflərə çatmaq üçün bəzi ayələrə yox, bütün ayələrə iman vacibdir.

---

[1] “Təfsire-isna-əşəri”.

[2] “Təfsire-Məcməül-bəyan”.

*(AYƏ: 157)*

﴿الَّذِينَ يَتَّبِعُونَ الرَّسُولَ النَّبِيَّ الأُمِّيَّ الَّذِي يَجِدُونَهُ مَكْتُوبًا عِندَهُمْ فِي التَّوْرَاةِ وَالإِنْجِيلِ يَأْمُرُهُم بِالْمَعْرُوفِ وَيَنْهَاهُمْ عَنِ الْمُنكَرِ وَيُحِلُّ لَهُمُ الطَّيِّبَاتِ وَيُحَرِّمُ عَلَيْهِمُ الْخَبَآئِثَ وَيَضَعُ عَنْهُمْ إِصْرَهُمْ وَالأَغْلاَلَ الَّتِي كَانَتْ عَلَيْهِمْ فَالَّذِينَ آمَنُواْ بِهِ وَعَزَّرُوهُ وَنَصَرُوهُ وَاتَّبَعُواْ النُّورَ الَّذِيَ أُنزِلَ مَعَهُ أُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**"(İlahi rəhmət o kəslərə aiddir ki, iman, zəkat və təqvadan əlavə) Tövrat və İncillərində (adı və nişanələri) yazılmış, dərs oxumamış rəsul və peyğəmbərə itaət edərlər. (Elə bir peyğəmbər ki,) onlara yaxşılığı əmr edər, çirkin işlərdən çəkindirər, pak və bəyənilmiş şeyləri onlara halal, çirkinlikləri haram edər, onların üzərindən ağır yükü (çətin vəzifələri), buxovlarını götürər (onları azad edər). Ona iman gətirən, onu əzizləyən, ona yardım göstərən və onunla gəlmiş nura (Qurana) itaət edən kəslər həmin nicat tapmışlardır."**

***NÖQTƏLƏR***

◘"Ummiyy" ana mənasını bildirən "umm" sözündən olub dərs oxumamış kəs mənasını ifadə edir. Bu şəxs anadan yenicə doğulmuş kimidir. Bəzilərinin fikrincə, "ummiyy" əyan-əşraf yox, sadə xalq arasından çıxan şəxsdir. Bəziləri isə bu sözün "ummul-qura" sözündən olduğunu əsas götürərək, "Məkkədən olan" mənasını bildirdiyini qeyd etmişlər.

◘İslam peyğəmbəri dərs oxumamışdı, yəni "ummiyy" idi. Bu məsələyə "Ənkəbut" surəsinin 48-ci ayəsində də toxunulur: "Sən bundan qabaq heç vaxt kitab oxumamısan, öz əlinlə yazmamısan." Əlbəttə ki, həzrət Peyğəmbərin oxuyub-yazmamasına baxmayaraq, bu işləri bacarmışdır.[1]

◘Əslində "isr" sözü saxlamaq, həbs etmək mənalarını bildirir. İnsanı fəaliyyətdən saxlayan istənilən çətin iş "isr" adlandırılmışdır. Həzrət Peyğəmbərin (s) əhd-peymanı və cəzası da "isr" kimi yad edilir. "Əğlal" sözü "ğull" sözündən olub zəncir mənasını bildirir. Batil, xurafat, bütpərəst əqidələr, bidətlər və əl-ayağı bağlayan cəhalət ənənələri "Əğlal" adlandırılmışdır.

◘Hətta təhrif olunmuş saydığımız bugünkü Tövrat və İncillərdə də İslam peyğəmbərinə işarələr mövcuddur. Kitab əhli bu dəlillərə əsaslanaraq son peyğəmbəri qəbul etməlidir. Onlar o həzrəti atanın öz oğlunu tanıdığı kimi tanıyırlar.[2] Əgər həmin kitablarda İslam peyğəmbərinin adı və əlamətləri qeyd olunmasaydı, müxaliflər həmin kitablardan dəlil gətirərdilər. Onlar isə

---

[1] "Təfsire-nümunə".

[2] Tövrat, "Sifre-təkvin", f. 17, a. 18; "Sifre-peydayeş", b. 49, a.10; "Yuhanna incili", b. 14, a. 15; b. 15, a. 26.

dəlillərlə yox, top-tüfənglə, mənfi təbliğata böyük büdcələr ayırmaqla cavab verirlər.

◘Çoxsaylı sünni və şiə hədislərində oxuyuruq ki, həzrət Peyğəmbər (s) buyurmuşdur: "Quranda möminlər və onların gözəl sifətləri haqqında nazil olmuş hər bir ayədə Əli (ə) başda gəlir və onların rəhbəridir."[1]

Həzrət Peyğəmbər (s) öz səhabələrinə buyurmuşdur: "Sizdən sonra peyğəmbəri yalnız kitab və yazı vasitəsi ilə iman gətirən bir qövm gələr." Sonra həzrət uyğun ayəni oxumuşdur.[2]

## *BİLDİRİŞLƏR*

1. Təqva, zəkat, iman nə qədər dəyərli olsa da, peyğəmbərə itaət daha mühümdür.
2. İslam peyğəmbərinin ardıcılları xüsusi ilahi rəhmətdən faydalanmışlar.
3. İslam peyğəmbəri geniş ilahi rəhmət məcrasıdır.
4. İslam peyğəmbərinin həm nübuvvət, həm də risalət məqamı vardı. «Nübuvvət məqamı» dedikdə, vəhy nazil olan məqam, «risalət məqamı» dedikdə isə təbliğ, icra, nəzarət məsuliyyəti olan məqam nəzərdə tutulur.
5. İslam peyğəmbərinin nişan və sifətləri Tövrat və İncildə o qədər dəqiq bəyan olunmuşdu ki, bu iki kitabı oxuyanlar sanki həzrətin özünü görürdülər.
6. Sözün təsiri və haqqın sübutu üçün rəsmi və yazılı sənədlərə ehtiyac var.
7. Əvvəlki peyğəmbərlər İslam peyğəmbərinin gəlişini müjdə vermişlər.
8. «Əmr be məruf» və «nəhy əz münkər» peyğəmbərlərin besət proqramlarında başda dayanır.
9. Məsrəf və qidalanma mövzuları İslamın diqqət mərkəzindədir. (Quran nazil olmamışdan öncə yəhudilər və məsihilər xurafat və yorucu proqramların, eləcə də, halallara qoyulmuş qadağaların sıxıntısı içində idilər. İslamın zühuru ilə bütün bu sıxıntılar aradan qaldırıldı.)
10. Cəmiyyətin islahı üçün öncə halal işlərə şərait yaradılmalı, sonra haramlar, məhdudiyyətlər tətbiq olunmalıdır.
11. Allahın halal və haramlarla bağlı göstərişləri insan fitrətinə əsaslanır. ("Təyyib" insan fitrətinə uyğun şeylərə deyilir.)
12. Yanlış adət-ənənələr bəşər düşüncəsinin buxov zənciridir. Peyğəmbərsiz bəşəriyyət əsarətdədir.
13. Hörmət və ehtiram yardımla müşayiət olunur. ("Əzzəruhu" dedikdə peyğəmbəri öz qılıncı ilə himayə edənlər nəzərdə tutulur.)
14. Peyğəmbərə dildə iman gətirmək bəs etmir, onu himayə etmək də zəruridir.

---

[1] "Təfsire-Fürqan".
[2] "Təfsire-Məcməül-bəyan".

15. Quran qəlb və düşüncəni işıqlandıran bir nurdur və bu nur daim peyğəmbərlə olmuşdur. (Peyğəmbərin nübuvvəti Quranla birlikdə nazil olmuşdur.)

16. İman, peyğəmbərin himayəsi və Qurana itaət qurtuluş amilidir.

***(AYƏ: 158)***

﴿قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللّهِ إِلَيْكُمْ جَمِيعًا الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ لا إِلَهَ إِلاَّ هُوَ يُحْيِي وَيُمِيتُ فَآمِنُواْ بِاللّهِ وَرَسُولِهِ النَّبِيِّ الأُمِّيِّ الَّذِي يُؤْمِنُ بِاللّهِ وَكَلِمَاتِهِ وَاتَّبِعُوهُ لَعَلَّكُمْ تَهْتَدُونَ﴾

**"De ki, ey xalq, həqiqətən, mən Allah tərəfindən sizin hamınıza doğru göndərilmişəm (Onun rəsuluyam). Göylərin və yerin hökuməti Onundur, Ondan savay heç bir məbud yoxdur. Diríldir, öldürür. Allaha, Onun rəsuluna və Onun sözünə iman gətirmiş olan oxumamış peyğəmbərinə iman gətirin. Ona itaət edin. Ola bilsin ki, doğru yolu tapasınız."**

***NÖQTƏLƏR***

◘Bəziləri iddia edirlər ki, İslam Peyğəmbəri (s) öncə yalnız öz məntəqəsini İslama dəvət etmək fikrində idi. Guya həzrət (s) öz məntəqəsində müvəffəq olduqdan sonra bütün dünyanı dəvət etmək fikrinə düşmüşdü. Hansı ki, Quran bir çox ayələrində[1] İslam peyğəmbərinin (s) elə öncədən bütün bəşəriyyətə doğru göndərildiyini bəyan etmişdir.[2] Əlbəttə ki, həzrət Peyğəmbərin (s) ümumbəşəri risaləti mərhələ-mərhələ həyata keçmişdir. O ilk öncə öz ailəsini, qohum-əqrəbasını, daha sonra Məkkə əhlini və nəhayət, bütün bəşəriyyəti tövhid dininə çağırmışdır.

◘İmam Həsən Müctəba (ə) buyurmuşdur: "Bir dəstə yəhudi həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: "Yoxsa güman edirsən ki, sən də Musa kimi peyğəmbərsən?" Həzrət (s) bir qədər sükutdan sonra buyurdu: "Bəli, mənəm peyğəmbərlərin sonuncusu, müttəqilərin rəhbəri, aləmlərin Rəbbinin rəsuluyam." Soruşdular: "Bəs sən kimlərə məbus olmusan? Ərəbə, əcəmə, yoxsa bizə?" Bu vaxt yuxarıdakı ayə nazil oldu.[3] Həzrət özünün bütün dünya əhlinə rəsul göndərildiyini bildirdi.

◘Bu və bundan qabaqkı ayədə "ummiy" sözünün təkrarı bu məsələnin peyğəmbər və Quranın haqq olmasında mühüm dəlil olmasını göstərir.

◘Əvvəlki ayədə bildirildi ki, onlar İslam peyğəmbərinin adını və nişanələrini yaxşı bilirdilər. Bu ayədə isə hamıya, hətta yəhudi və məsihilərə də müraciət olunur.

---

[1] Bax: "Səba", 28; "Ənam" 19; "Furqan", 1.
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-Safi"; "Təfsire-nümunə".

◘Bu ayə öncə diqqəti üç məsələyə yönəldir: Allahın xaliqliyinin sübutu; tövhid və Allahın birliyi; Qiyamət və həşr-nəşr. Ayənin sonunda buyurulur: "Bir halda ki, yaranış və məad Allahın əlindədir, Ona iman gətirin."[1]

## *BİLDİRİŞLƏR*

1. Həzrət Peyğəmbərin (s) risaləti ümumbəşəridir. Ümumbəşəri bir məktəbin ümumbəşəri də rəhbərə ehtiyacı var.
2. Bütün varlıq aləminə hakim olan kəsin həm diriltmək, həm də öldürmək qüdrəti var.
3. Nübuvvət tövhid və məadın şərtidir. Çünki Allah varlıq aləminin malikidir. Həyat və ölüm də Onun əlindədir. Demək, rəhbərlik və hidayət də Onun tərəfindən olmalıdır.
4. Rəhbər öz yoluna tam şəkildə inanmalıdır.
5. Allaha və Onun rəsuluna iman, eləcə də, peyğəmbərə itaət yanaşı olduqda hidayət rəmzi sayılır.
6. Həm Qurana, həm də peyğəmbər sünnəsinə tabeçilik zəruridir. (Əvvəlki ayədə Qurana (nura), bu ayədə isə peyğəmbərə itaətdən danışılır.)
7. Hətta kitab əhli də İslam peyğəmbərinə (s) iman gətirib ona tabe olmalıdır.
8. İnsanı hidayət və kamala çatdıran təqlid və itaət dəyərlidir.

## *(AYƏ: 159)*

﴿ وَمِن قَوْمِ مُوسَى أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ ﴾

**"Musa qövmündən bir dəstəsi xalqa haqqı göstərir və haqq olaraq mühakimə aparırdılar."**

## *NÖQTƏLƏR*

◘Haqqa hidayət təəssübdən uzaqlıq, haqla tanışlıq və haqqa itaət nişanəsidir. Yəhudilərin doğru yolu tapmış bu dəstəni başqa bəhanəçil inadkarlara qatılmamalıdır.

◘Bəlkə də haqqında danışılan dəstə İslam peyğəmbərinin (s) dəvətini qəbul edən yəhudi qövmüdür. Əlbəttə, digər bir yerdə bu xüsusiyyət təkcə yəhudi qövmünə aid edilmir.[2] Çoxsaylı rəvayətlərdə bildirilir ki, bu qrupdan olanlar İslam peyğəmbərinin (s) nübuvvətini qəbul etdilər və onlar həzrət Mehdi (ə) ilə birlikdə zühur edərlər.[3]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Ey xalq! İtaət ediləsi doğru yol mən, məndən sonra Əli (ə) və onun nəslindən olan övladları, xalqı haqqa çağıran və haqla mühakimə aparan imamlardır.[4]

---

[1] "Təfsire-isna-əşəri".
[2] Bax: "Əraf", 181.
[3] "Təfsire-isna-əşəri".
[4] "Təfsire-Nurus-səqəleyn".

Həzrət Əli (ə) buyurmuşdur: “Bəni-İsrail həzrət Musadan sonra 72 firqəyə bölündü. Bu firqələrdən biri istisna olmaqla digərləri oddadır.” Sonra həzrət bu ayəni tilavət etdi.[1]

## *BİLDİRİŞLƏR*

1. Müxaliflərlə rəftarda da insaflı olmaq lazımdır. İnsanların xidmət və kamilliklərini görməməzliyə vurmaq olmaz.

2. Doğru yola çağıranlar özləri etiqadlı və haqqa tabe olmalıdırlar.

## *(AYƏ: 160)*

﴿وَقَطَّعْنَاهُمُ اثْنَتَيْ عَشْرَةَ أَسْبَاطًا أُمَمًا وَأَوْحَيْنَا إِلَى مُوسَى إِذِ اسْتَسْقَاهُ قَوْمُهُ أَنِ
اضْرِب بِّعَصَاكَ الْحَجَرَ فَانبَجَسَتْ مِنْهُ اثْنَتَا عَشْرَةَ عَيْنًا قَدْ عَلِمَ كُلُّ أُنَاسٍ مَّشْرَبَهُمْ وَظَلَّلْنَا
عَلَيْهِمُ الْغَمَامَ وَأَنزَلْنَا عَلَيْهِمُ الْمَنَّ وَالسَّلْوَى كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَمَا ظَلَمُونَا وَلَكِن
كَانُواْ أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Onları (Musa qövmünü) on iki dəstəyə böldük. Hər biri Bəni-İsrail sülaləsindən bir şaxə və ümmətdir. Qövmü Musadan su istədikdə ona vəhy etdik ki, əsasını daşa vursun. Daşdan on iki çeşmə qaynadı. Hər dəstə su içəcəyi yeri yaxşı tanıdı. Buludları onların üzərində (kölgə salmaq üçün ) günlük etdik. Onlara “mənn” və “səlva” (iki növ qida) nazil etdik. (Onlara dedik:) Sizə ruzi etdiyimiz pak şeylərdən yeyin. Onlar (öz naşükürlükləri ilə) Bizə yox, özlərinə zülm etdilər.”**

## *NÖQTƏLƏR*

◘“Sibt” sözünün cəm forması olan “əsbat” sözü bir nəsildən olan övladları, nəvələri, budaqları bildirir. Bəni-İsrail qövmünün hər şaxəsi Yaqub övladlarından birinə aid idi. “İnbicas” sözü qismən və azca qaynamanı bildirir.

“Mənn” dedikdə bal və ya ot şirəsi kimi bir qida, “səlva” dedikdə göyərçinə oxşar əti halal bir quş nəzərdə tutulur.

◘Həm ildəki ayların, həm Bəni-İsraildəki nüfuzlu şəxslərin, həm Musanın möcüzəsi ilə qaynamış bulaqların, həm də məsum imamların sayı on ikidir. Həzrət Peyğəmbər (s) çoxsaylı sünni və şiə mənbələrində nəql olunmuş hədisdə buyurmuşdur: “Məndən sonra xəlifələrimin sayı on ikidir və onların hamısı Qüreyşdəndir”– Əhli-beyt (ə) düşmənləri həzrətin uyğun buyruğunu Bəni-Üməyyə, Bəni-Abbas hakimlərinə tətbiq etməyə çox çalışmışlar, amma bu cəhdlər boşa çıxmışdır.

◘Əsanın daşa vurulması ilə iki möcüzə baş verdi: bol su çıxdı və qəbilələr sayında çeşmələr yarandı. Rəvayətdə oxuyuruq ki, həzrət Musa

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

Peyğəmbər (ə) Əhli-beytinə (ə) təvəssül etməklə (onları vasitə seçməklə) möcüzə göstərdi.[1]

◘Həzrət Şüeyb öz kürəkəni Musa ilə görüşə gəldiyi vaxt xeyli adamın görüş üçün cərgəyə durduğunu gördü. O, Musaya təklif etdi ki, xalqı dəstə-dəstə bölüb, hər dəstəyə məsul təyin etsin. Bu məsullar bəzi çətinlikləri həll etməli və mühüm məsələləri Musanın nəzərinə çatdırmalı idilər.[2]

◘Quranda bəzi mətləblər və hadisələr ayrı-ayrı ayələrdə zahirən təkrarlanmışdır. Tərbiyə məqsədi ilə bəzi məsələlərin təkrar bəyan olunmasının heç eybi yoxdur.

## *BİLDİRİŞLƏR*

1. İşlərin idarə olunmasında təşkilatın, iş bölgüsünün mühüm rolu var.
2. Bəni-İsrailin on iki qrupu eyni bir kökdən idi.
3. Vəhdəti qorumaqla qruplara bölünməyin eybi yoxdur.
4. Tələbdən sonra təklifin böyük əhəmiyyəti var.
5. Vasitə yox, Allahın iradəsi mühümdür. Bəzən Allahın iradəsi ilə ağacdan olan əsa hər yerdə səmərə verir. (Əsa bəzən ilan və əjdahaya dönür, bəzən su çeşmələrinin qaynamasına səbəb olur.)
6. Çətinliklərin həlli üçün peyğəmbərlərə üz tutmağa (təvəssülə) icazə verilir və bu vasitə qəbula yaxındır. Xalq öz iqtisadi ehtiyaclarını peyğəmbərlərə açıqlayır, onları vasitə seçir.
7. Əgər hər bir qrup haraya üz tutmalı olduğunu bilsə, bir çox ictimai problemlər öz həllini tapar.
8. Xalqa agahlıq verək, onlar özləri əməl etsinlər.
9. Allah-təala Bəni-İsrailin həm su, həm də qida ehtiyaclarını təmin etdi.
10. Buludların yaranması və hərəkəti Allahın tədbir və iradəsi ilə mümkün olur.
11. “Mənn” və “səlva” pak (“təyyib”) qidalardandır.
12. Allah-təala xalqa həm ruzi verir, həm də onun pak nemətlərdən faydalanması istəyindədir.
13. Musanın əsa ilə bircə zərbəsi daşdan çeşmə çıxardı. Amma bütün bu möcüzələrə baxmayaraq bəzilərinin qəlbi oyanmadı.
14. İlahi nemətlərə qarşı küfr onlardan məhrumluğa səbəb olur. Nemətə münasibətdə küfrün zərəri naşükürlərə yetişir.
15. Maddi nemətlərdən öz təkamül və mənəviyyatı üçün bəhrələnməyənlər özlərinə zülm etmişlər.

[1] “Təfsire-isna-əşəri”.
[2] “Təfsire-Kaşif”.

### *(AYƏ: 161)*

﴿ وَإِذْ قِيلَ لَهُمُ اسْكُنُواْ هَذِهِ الْقَرْيَةَ وَكُلُواْ مِنْهَا حَيْثُ شِئْتُمْ وَقُولُواْ حِطَّةٌ وَادْخُلُواْ الْبَابَ سُجَّدًا نَّغْفِرْ لَكُمْ خَطِيئَاتِكُمْ سَنَزِيدُ الْمُحْسِنِينَ ﴾

**«(Xatırlayın) o zaman ki, onlara (Bəni-İsrailə) deyildi: "Bu şəhərdə (Beytül-Müqəddəsdə) sakin olun və ondan (onun nemətlərindən) istədiyiniz yerdə, istədiyiniz kimi yeyin. (Öz bəhanəçilliyiniz və Musaya verdiyiniz əziyyətə görə tövbə olaraq) deyin: "Hittə" (Pərvərdigara! Günahlarımızdan keç!) Qapıdan səcdə etmiş halda daxil olun ki, xətalarınızı bağışlayaq. Biz tezliklə yaxşı əməl sahibləri üçün (mükafatı) artırarıq."»**

### *NÖQTƏLƏR*

◘"Hittə" sözü bir şeyin yuxarıdan nazil olmasını bildirir. ("İnhitat" sözü də bu kökdəndir.) Bu söz İlahi rəhmət və bağışlanmanın nazil olması istəyini ifadə edir.

Verilmiş göstəriş o idi ki, Bəni-İsrail müqəddəs torpaqlara daxil olarkən Allahdan bu kəlmə ilə bağışlanma diləsin. Amma onlar bu sözü istehza ilə dəyişib, başqa cür ifadə etdilər.[1]

◘Bu fikirlər "Bəqərə" surəsinin 58, 59-cu ayələrində azca fərqlə bəyan olunmuşdur.

◘Çoxsaylı rəvayətlərdə məsum imamlar (ə) buyurmuşlar: "Sizin "hittə" qapınız bizik." Yəni imamların (ə) hökumət və vilayətini qəbul edib tabe olanlar ilahi lütfə nail olurlar.[2]

◘Təfsirçi alimlərin çoxu "qəryə" ("şəhər, abadlıq") sözünün Beytül-Müqəddəsə işarə olduğunu bildirirlər.

◘Öncə tövsiyə olunmuş qaydalarla şəhərə daxil olmaq, sonra sakin olub oradakı qidalardan istifadə etmək təbii bir yoldur. Bu ayədə isə əvvəlcə məskən və qidadan, sonra tövbə və bağışlanma, şəhərə girişdən danışılır. Görünür ki, məskən və qida ilə təminat əxlaqi göstərişlərin qəbulu üçün zəmindir.

### *BİLDİRİŞLƏR*

1. Bəni-İsrailin öz inadkarlığına və tapşırılmış sözü dəyişdiyinə görə üzr istəməklə Beytül-Müqəddəsə daxil olması əhvalatı ibrətamiz və diqqəti cəlb edən bir əhvalatdır.

2. Yersiz-yurdsuz qalmış avaralar üçün məskən məsələsi ən mühüm məsələdir. (Öncə məskəndən söz açılır.)

3. Beytül-Müqəddəs naz-nemətli bir torpaqdır.

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-Kənzud-dəqaiq".

4. Allah-təala bəşəriyyətin bütün maddi və mənəvi ehtiyaclarını təmin edir. O, göstəriş verir ki, məskən, qida, bağışlanma, lütf kimi nemətlərdən faydalanmaq üçün dua oxunsun, tövbə qılınsın və səcdə edilsin.

5. Allah bir xalis üzrxahlıq və tövbə ilə çoxlu günahları bağışlayır. Necə ki, duada oxuyuruq: "Ey azı qəbul edən və çox günahı bağışlayan Allah!"

6. İlahi lütf və rəhmətə çatmaq üçün həm tövbə və dua, həm də əməl lazımdır.

7. Müqəddəs torpaqlara giriş üçün xüsusi qayda-qanunlar mövcuddur.

8. Xeyir əməl sahibi ilə günahkar arasında fərq qoyulmalıdır. Xatakarlar bağışlandığı yerdə yaxşı əməl sahibləri daha böyük dərəcə və lütfdən faydalanırlar.

9. Müdiriyyət və başqalarının təşviqi gedişində yaxşı əməl sahiblərinə üstünlük verilməlidir.

***(AYƏ: 162)***

﴿ فَبَدَّلَ الَّذِينَ ظَلَمُواْ مِنْهُمْ قَوْلاً غَيْرَ الَّذِي قِيلَ لَهُمْ فَأَرْسَلْنَا عَلَيْهِمْ رِجْزًا مِّنَ السَّمَاء بِمَا كَانُواْ يَظْلِمُونَ ﴾

**"Onların (Bəni-İsrailin) sitəmkarları deyilən sözü başqa sözlə dəyişdilər. Biz də sitəm yolunu seçdikləri üçün onlara səmadan əzab göndərdik."**

***NÖQTƏLƏR***

◘Təhrif və dəyişiklik bəzən "hittə" sözünün "Hintə" sözü ilə dəyişdirilməsi kimi aşkar baş verir. Bəzən isə söz yerində saxlandığı halda, onun məfhumu əvəz olunur. Misal olaraq Bəni-İsrailin şənbə günü balıq tutması əhvalatını göstərmək olar. Növbəti ayədə bu məsələyə toxunulur.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Yəhudilər ən kiçik hiylə və şəri don geyindirmə yolu ilə Allahın haramlarını halal etdilər. Siz isə belə etməyin."[1]

◘Quranda ilahi qanunların üç növ təhrifinə işarə olunmuşdur:

1.Sözlərin dəyişdirilməsi – necə ki, Bəni-İsrail "hittə" (bağışlanma istəyi) sözünü "hintə" (buğda) sözü ilə əvəz etdi.

---

[1] "Təfsire-Fürqan"; "Təfsire-Dürrül-Mənsur".

2. Zamanın dəyişdirilməsi – necə ki, Bəni-İsrail dənizin sahilində hovuzlar tikib, şənbə günü hovuza daxil olan balıqları bazar günü ovlayırdılar. Onlar öz hiylələrindən məmnunluq duyaraq deyirdilər: “Biz şənbə, tətil günü ov etməmişik.”[1]

3. Təqvimdə dəyişiklik – necə ki, cahiliyyət dövründə savaş haram edilmiş dörd ay çatdıqda döyüşü dayandırmaq istəməyənlər ayları təxirə salırdılar. Həmin vaxt ayə nazil oldu.[2]

### *BİLDİRİŞLƏR*

1. İlahi göstərişlərin təhrif edilməsinin və dəyişdirilməsinin cəzası qəhr-qəzəb və cəzadır.

2. İnadkarlıq və istehza əsasında dəyişiklik bağışlanası deyildir.

3. Bütün cəzaları qiyamətə aid etmək olmaz. Bəzən insan dünyada da cəzalandırılır.

4. İnsanın taleyi onun öz əlindədir. Əzab insanın öz sitəmkarlığının nəticəsidir.

### *(AYƏ: 163)*

﴿وَاسْأَلْهُمْ عَنِ الْقَرْيَةِ الَّتِي كَانَتْ حَاضِرَةَ الْبَحْرِ إِذْ يَعْدُونَ فِي السَّبْتِ إِذْ تَأْتِيهِمْ حِيتَانُهُمْ يَوْمَ سَبْتِهِمْ شُرَّعاً وَيَوْمَ لاَ يَسْبِتُونَ لاَ تَأْتِيهِمْ كَذَلِكَ نَبْلُوهُم بِمَا كَانُوا يَفْسُقُونَ﴾

**“(Ey peyğəmbər,) onlardan dərya kənarındakı abadlıq haqqında soruş! O zaman ki, şənbə günü təcavüzə yol verdilər. Tətil günündə balıqlar dərya kənarına - onların yanına gəlir, tətil olmayan gün isə aşkar olmurdular. Biz onları həddi aşdıqları üçün bu sayaq sınağa çəkirdik.”**

### *NÖQTƏLƏR*

◘“Səbt” dedikdə, istirahət və rahatlıq üçün işin dayandırılması, tətil başa düşülür. Beləcə “Yəvmus-səbt” dedikdə, “tətil günü” başa düşülür. Şənbə günü yəhudilər üçün tətil günü təyin olunmuşdu.

◘“Şare” sözünün cəm forması olan “şurra” sahil, su kənarı mənasını bildirir. Balıq ovunun qadağan edildiyi şənbə günü balıqlar suyun dərinliyindən qalxıb sahilə yaxınlaşırdılar. Bəziləri isə bu sözün sudan başını çıxarmış və özünü göstərən balıqlara işarə olduğunu qeyd edirlər.[3]

◘Bəni-İsraildən olan bir qrup (“Əylə” xalqı) dəniz sahilində yaşayırdı. Allahın göstərişi əsasında bu qrupa şənbə günü ov etmək qadağan edilmişdi. Amma onların xoşladığı balıqlar həmin gün daha çox görünür və onlarda həvəs oyadırdı. Bu özü də ilahi bir sınaq idi. Bu qövm Allahın göstərişini hiyləgərliklə pozaraq sahildə hovuzlar düzəltmiş və şənbə günü hovuza daxil olan balıqların geriyə qayıdış yolunu bağlamışdılar. Onlar bazar günü bu

---

[1] “Bəqərə”, 65.

[2] “Tövbə”, 37.

[3] “Təfsire-rahnüma”.

balıqları hovuzlardan rahatca ovlayırdılar. Onlar iddia edirdilər ki, şənbə günü ov etmirlər və Allahın qanununu pozmurlar.

◘Allah-təala balıqları xalqın istifadəsi üçün yaratmış olsa da, imtahan üçün həftədə bir gün ovu qadağan etmişdi. Belə görünür ki, bəzən qadağa sağlamlıq məqsədi daşımaya da bilər. Şənbə günü ovlanan balıqla digər günlərdə ovlanmış balıq arasında bioloji baxımdan elə bir fərq yoxdur.

◘Həzrət Əli (ə) günaha don geyindirilməsi, şəraba şirə, rüşvətə hədiyyə deməklə haramların halal kimi təqdimini, sələmin alış-veriş kimi göstərilməsini məzəmmət edirdi.[1]

◘Bəzən ilahi sınaq insandakı meyllərin tüğyan çağına təsadüf edir. Haqqında danışılan əhvalat balıqların özlərini daha çox göstərdiyi vaxta təsadüf edir. “Maidə” surəsinin 94-cü ayəsində ehram (həcc ziyarəti) halında ov edilməsinə qadağa qoyulur. Ov göz qarşısında olduqda onun ovlanmasının qadağası ilahi bir sınaqdır.

### *BİLDİRİŞLƏR*

1.Əcdadların, ata-babaların qanunları pozması gələcək nəsillər üçün də bir xəcalətdir.

2. Ata-babaların məzəmmət olunan xasiyyətlərinin yada salınması başqalarının ibrət götürməsinə mane olmur.

3. Dəniz sahilində yaşayış və balıq ovu ilə dolanışıq tarix boyu olmuşdur.

4. Günahın həqiqi çöhrəsi şəri don geyindirmək və hiylə ilə dəyişməz. (Növbəti gün ov üçün dəniz sahilində hovuzların düzəldilməsi.)

5. Dənizdəki balıqlar Allahın iradəsi ilə həftənin günlərini və ovçu şəxsləri müəyyənləşdirə bilir.

6. Dünyəvi, maddi görüntülər ilahi sınaqlardan biridir.

### *(AYƏ: 164)*

﴿ وَإِذَ قَالَتْ أُمَّةٌ مِّنْهُمْ لِمَ تَعِظُونَ قَوْمًا اللّهُ مُهْلِكُهُمْ أَوْ مُعَذِّبُهُمْ عَذَابًا شَدِيدًا قَالُواْ مَعْذِرَةً إِلَى رَبِّكُمْ وَلَعَلَّهُمْ يَتَّقُونَ ﴾

**«(Xatırlayın) o zaman ki, onlardan bir qrupu (nəhy əz münkər edən digər bir qrupa) dedi: “Nə üçün siz Allahın həlak etdiyi və ya çətin bir əzabla cəzalandırdığı qövmə moizə edirsiniz?” Dedilər: “Rəblərinin yanında üzrləri olsun deyə. Ola bilsin ki, onlar da təqva yolunu seçələr.”»**

### *NÖQTƏLƏR*

◘Bəni-İsrail üç qrup idi: qanunu pozanlar, öyüd-nəsihət verən canıyananlar, biganələr. Biganələr öyüd-nəsihət verənlərə deyirdilər ki, «özünüzü yormayın, çünki sözləriniz həddi aşanlara təsirsizdir, onlar hər halda

---

[1] “Nəhcül-bəlağə”, x. 156.

cəhənnəm əhlidir.» Nəhy əz münkər edənlər isə belə deyirdilər: "Bizim işimiz səmərəsiz deyil. Ən azı, Allah yanında üzrümüz var. Ola bilər ki, onlar bizim sözlərimiz vasitəsi ilə tutduqları yoldan əl çəkib, təqva yolunu seçsinlər."

◘"Mursəlat" surəsinin 5-6-cı ayələrində Allah-təala başqalarını Allah zikrinə çağıranlara and içir. Haqqa çağırışın məqsədi həm höccətin tamamlanması, həm də xəbərdarlıq ola bilər.

◘"Əmr be məruf və nəhy əz münkər" kitabında bu işin ondan çox faydası sadalanmışdır. Həmin qeydlərə xülasə şəkildə nəzər salaq. (Bu sətirlər Aşura ongünlüyündə, İmam Hüseyn (ə) öz qiyamının səbəbi kimi cəmiyyətin əmr və qadağaya əməl etməməsini göstərdiyi vaxt yazılmışdır.) Bəlkə də bu faydaları nəzərdən keçirən insan uyğun işə biganəlikdən əl çəkə. İndi isə əmr be məruf və nəhy əz münkərin faydalarını sadalayaq:

1. Bəzən yaxşılıq əmri və pisliyə qadağa (əmr be məruf və nəhy əz münkər) bu gün də səmərəsiz olsa, tarixdə başqalarının fitrət və mühakiməsinə təsir edir. Necə ki, İmam Hüseynin (ə) yaxşılıq əmri və pisliyə qadağa yolundakı şəhadəti tarix boyu xalqların vicdanında təsir qoydu.

2. Bəzən əmr və qadağa başqaları üçün fəzanı qoruyur. Məsələn, eşidən olmasa da, azan demək müstəhəbdir. Yol boşdursa da, svetoforun qırmızı işığında dayanmaq lazımdır. Çünki qanunun hifzi, qanuna hörmət zəruridir.

3. Bəzən bizim əmr və qadağamız başqalarını günahdan çəkindirməsə də, onları günah ləzzətindən məhrum edir. Ardıcıl xəbərdarlıqlar günahkarın rahatlığını pozur.

4. Azadlığın qorunması üçün əmr və qadağa zəruridir. Xəbərdarlıq edilməməsi və biganəlik cəmiyyətdə sıxıntı, qorxu və sükut mühiti yaradır.

5. Əmr və qadağa başqaları tərəfindən eşidilməsə də, insanın öz məqamını yüksəldir.[1]

6. Əmr və qadağa ən azı özümüz üçün bir növ Allahla yaxınlıq, şücaətin təlqin və məşqi, eşq və əhdə vəfa cilvəsidir.

7. Bəzən bizim əmr və qadağamız bu gün üçün təsirli olmur. Xilafkar çətinliyə düşdükdə, onun vicdanı oyandıqda anlayır ki, deyilənlər doğru imiş. Demək, bu gün təsir etməyən söz gələcəkdə təsir göstərə bilər.

8. Əmr və qadağa insanın vicdanına aramlıq verir. Başqaları qulaqardına vursalar da, insanın öz vəzifəsinə əməl etməsi onu rahatlaşdırır.

9. Yaxşılıq əmri və pisliyə qadağa peyğəmbər yoludur. Qarşı tərəfin dinləməməsi şərt deyil.[2] Quranda təkrar-təkrar buyurulur ki, insanlar peyğəmbərlərin çağırış və buyruqlarını dinləməmiş, onlara arxa çevirmişlər. Biz də hamıdan xoş münasibət, müsbət cavab gözləməməliyik.

10. Əmr və qadağa günahkar üçün höccətin tamamlanması, xəbərdarlığın başa çatdırılmasıdır. Qiyamətdə kimsə deyə bilməməlidir ki,

---

[1] "Fussilət", 33.

[2] Bax: "Saffat", 13.

xəbərim olmayıb. Əmr və qadağa vəzifəsini yerinə yetirən insan "nə üçün deməmisən" deyə ittiham olunmur.

11. Əmr be məruf – yaxşılıq əmri insanı ilahi qəhr-qəzəbdən amanda saxlayır. (Növbəti ayədə bu məsələyə işarə olunur. Haqqın yaşaması uğrunda peyğəmbərlər əmr be məruf və nəhy əz münkər edərək şəhadətə çatmışlar.[1] Quran ayələrindən belə məlum olur ki, bəzən əmr və qadağa yolunda şəhadət şərbətini də içmək lazım gəlir.

◘Həzrət Əli (ə) nümayəndəsinə yazdığı bir məktubda onu əyan-əşrafların süfrəsində oturduğu üçün məzəmmət edir.[2] Yəni, həzrət (ə) zöhd xislətinə kübarlıq qatılmasın deyə, bir fərdi əqidə məktəbinə qurban verir.

***BİLDİRİŞLƏR***

1. Bir qrup insan nə özü moizə-nəsihət edir, nə də başqalarının moizəsinə dözür.

2. Biganəlik günahına ilahi istək donu geyindirmək olmaz.

3. Biganələr günah əhlini qoyub, əmr və qadağan edənləri qınayırlar.

4. Moizə-nəsihət və tərbiyəvi işləri səmərəsiz sayanlara qarşı müqavimət göstərilməlidir. Çünki xalqı günahdan çəkindirməməyin məsuliyyəti var və hər birimiz səy göstərməliyik.

5. Tələsik mühakimə qadağandır. Hökm etmək olmaz ki, Allah bu qövmü həlak edəcək və ya onlara əzab verəcək. Ola bilsin ki, onlar təqva yolunu seçsinlər.

6. Pisliyə qadağa (nəhy əz münkər) vacibdir. Məqsəd həddi aşanların iman gətirməsi və ya Allah qarşısında üzürlü olmaq ola bilər. (Demək, nəticədən asılı olmayaraq pisliyə qadağa vacibdir. Bizə vəzifələrin icrası əmr olunub və nəticəyə cavabdeh deyilik.)

7. Allah adamları cəmiyyətin islahından ümidlərini üzmür, əmr və qadağadan əl çəkmirlər.

***(AYƏ: 165)***

﴿ فَلَمَّا نَسُواْ مَا ذُكِّرُواْ بِهِ أَنجَيْنَا الَّذِينَ يَنْهَوْنَ عَنِ السُّوءِ وَأَخَذْنَا الَّذِينَ ظَلَمُواْ بِعَذَابٍ بَئِيسٍ بِمَا كَانُواْ يَفْسُقُونَ ﴾

**"Onlara verilmiş öyüdü unutduqlarından (onları) pislikdən çəkindirənlərə nicat verdik. Sitəmkarları daimi itətsizliklərinin cəzası olaraq ağır əzabla yaxaladıq."**

***(AYƏ: 166)***

﴿ فَلَمَّا عَتَوْاْ عَن مَّا نُهُواْ عَنْهُ قُلْنَا لَهُمْ كُونُواْ قِرَدَةً خَاسِئِينَ ﴾

[1] Bax: "Ali-Imran", 112; "Bəqərə", 61" "Ali-Imran", 21.
[2] "Nəhcül-bəlağə", n. 45.

**“Qadağan olunmuş şeydə həddi aşdıqlarından onlara dedik: “Rədd olunmuş meymunlar şəklinə düşün.”**

## *NÖQTƏLƏR*

◘“Bəs” sözündən olan “bəis” sözü şiddətli, “ətəv” sözü üsyan, azğınlıq mənasını bildirir.

◘Rəvayətlərə əsasən, Bəni-İsrailin moizə edənləri sözlərinin xalqa təsir etmədiyini görüb, onlardan uzaqlaşdılar. Həmin gecə Allahın qəhr-qəzəbi nazil oldu və həm günahkarları, həm də sükut edənləri bürüdü.[1] Bu hadisə Allahın yaranış qanunlarının təbii sonluğudur.

◘“Maidə” surəsinin 60-cı ayəsində bir qrupun itaətsizlik səbəbindən donuz və meymun şəklinə düşməsi bəyan olunur. Bu ayədə isə yalnız meymuna çevrilmə qeyd olunmuşdur. İbn Abbas deyir: “Hər iki ayə eyni bir qrup haqqındadır.”

◘Ayədən belə görünür ki, həmin qrup təkcə xislətcə yox, həm də zahirən meymun şəklinə düşmüşdür. Bəli, bir göstərişlə atəşi İbrahim üçün gülüstana çevirən Allah, bir mövcudu başqa birinə, eləcə də, insanı meymuna döndərə bilər. Qeyd etməliyik ki, «nəsx olan», dəyişən varlıqlar doğub-törəmirdilər. Həzrət Peyğəmbərin (s) buyruğuna əsasən, nəsx olan varlıqlar bir neçə gündən sonra ölürdülər.[2]

## *BİLDİRİŞLƏR*

1. Əgər pisliyə qadağa başqalarının hidayətinə səbəb olmursa da, insanın öz qurtuluşu ilə nəticələnir.
2. Unutqanlığın səbəbi diqqətsizlik və etinasızlıqdırsa, onun cəzası var.
3. Moizə-nəsihət qapısını üzünə bağlayan insan ilahi qəhr-qəzəb qapısını açmış olur.
4. Nəhy əz münkər daimi bir vəzifədir.
5. Biganəlik zülmdür. (Əvvəlki ayədə Bəni-İsrail üç qrupa bölündü: təcavüzkarlar, moizə-nəsihət edənlər, biganəliklə susanlar. Bu ayədə susanlar da həlak olmuş zalımlarla bir cərgəyə qatılır. Belə ki, yalnız pisliyə qadağa qoyanlar qurtuluş əldə edir. Deməli, sükut həm zülm, həm də həlakolma zəminəsidir.)
6. Ən böyük və ağır əzablardan biri insanlıq məqamından süqutdur.
7. Təcazüzkar insanlığı itirmə və məsx edilmə ilə cəzalanır. Təkəbbür əhlinin cəzası rədd edilmə və təhqirdir. Bəli, ilahi qanunlar qarşısında boyun əyməyən bir millət meymun tək başqalarını yamsılayır.
8. Allahın hökmünü hiyləgərliklə məsx edən, dəyişənlərin çöhrəsi məsx olur, dinlə aktyorsayaq davrananlar aktyor heyvana (meymuna) çevrilirlər.

---
[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-Məcməül-bəyan”.

***(AYƏ: 167)***

﴿ وَإِذْ تَأَذَّنَ رَبُّكَ لَيَبْعَثَنَّ عَلَيْهِمْ إِلَى يَوْمِ الْقِيَامَةِ مَن يَسُومُهُمْ سُوءَ الْعَذَابِ إِنَّ رَبَّكَ لَسَرِيعُ الْعِقَابِ وَإِنَّهُ لَغَفُورٌ رَّحِيمٌ ﴾

**«(Xatırla,) o zaman ki, Rəbbin elan etdi: “Həqiqətən, qiyamət gününədək onlara (Bəni-İsrailə) elə birisini hakim edəcəyəm ki, daim onlara ağır əzab versin. Həqiqətən, Rəbbin tez cəzalandırar. Şəkk yoxdur ki, O, bağışlayan və mehribandır.”»**

***NÖQTƏLƏR***

◘“Təəzzənə” “and içdi”, “elan etdi” mənalarını bildirir. “Yəsumu” “səvm” sözündən olub, “məcbur etmək” mənasını ifadə edir.

◘Həzrət Əli (ə) öz dövrünün vəfasızlarına müraciətlə buyurmuşdur: “Allah məni sizdən alsın və başqalarını hakim etsin.”[1]

***BİLDİRİŞLƏR***

1. Yəhudilərin cəzalandırılması və onların taleyi diqqəti cəlb edir.
2. İlahi sünnə əsasında azğınlara möhlət verilsə də, möhlət verilməyən hallar da var.
3. Günahkar və azğın insanların Bəni-İsrailə hakim olmasının səbəbi onların öz əməlləri idi. Bu məhkumluq ilahi bir cəza idi.
4. Millətlərin müştərək tarixi var. Bir nəslin günahı növbəti nəsillərdə, tarix boyu, qiyamətədək davam edir.
5. İlahi övliyalara dodaq büzənlər zəlil olur.
6. Zalım yəhudi qövmü həmişə zəlil və xar olacaq.
7. İlahi mərhəmətə ümidlə müşayiət olunan cəza qorxusu tərbiyə və inkişaf kimidir.
8. Tövbə və ilahi mərhəmətə yetişmək yolu hamı üçün açıqdır.

***(AYƏ: 168)***

﴿ وَقَطَّعْنَاهُمْ فِي الأَرْضِ أُمَمًا مِّنْهُمُ الصَّالِحُونَ وَمِنْهُمْ دُونَ ذَلِكَ وَبَلَوْنَاهُمْ بِالْحَسَنَاتِ وَالسَّيِّئَاتِ لَعَلَّهُمْ يَرْجِعُونَ ﴾

**“Biz onları (Bəni-İsraili) yer üzündə pərakəndə ümmətlər və dəstələr etdik. Onların bəzisi saleh, bəzisi qeyri-salehdir. Onları yaxşılıq və pisliklə sınağa çəkdik ki, bəlkə qayıdalar.”**

***NÖQTƏLƏR***

◘Bəni-İsrail bəzən izzət və qüdrətə çatdırılırdı ki, bəlkə şükür edə. Bəzən isə tövbə və yalvarış ruhu oyansın deyə, onlar çətinliyə salınırdı.

---

[1] “Nəhcül-bəlağə”, x. 25, 70.

Əlbəttə ki, bu arada bəziləri saleh olur, İslama iman gətirir, bəziləri isə dünyapərəstlik və inadkarlığını davam etdirirdi.

***BİLDİRİŞLƏR***

1. İnsan öz-özlüyündə yol seçimində azaddır.
2. Bir dəstəni tənqid edərkən onların arasındakı yaxşıların haqqı tapdanmamalıdır.
3. Acı və şirin hadisələr ilahi sınaq vasitəsidir.
4. Təşviq və tənbeh, mehribanlıq və sərtlik hər biri islahedici və tərbiyəedicidir.
5. İnsanlardakı ruhi dəyişiklik, haqqa doğru qayıdış ilahi sınaq hikmətlərindəndir.

***(AYƏ: 169)***

﴿فَخَلَفَ مِن بَعْدِهِمْ خَلْفٌ وَرِثُواْ الْكِتَابَ يَأْخُذُونَ عَرَضَ هَـذَا الأدْنَى وَيَقُولُونَ
سَيُغْفَرُ لَنَا وَإِن يَأْتِهِمْ عَرَضٌ مُّثْلُهُ يَأْخُذُوهُ أَلَمْ يُؤْخَذْ عَلَيْهِم مِّيثَاقُ الْكِتَابِ أَن لاَّ يِقُولُواْ عَلَى
اللّهِ إِلاَّ الْحَقَّ وَدَرَسُواْ مَا فِيهِ وَالدَّارُ الآخِرَةُ خَيْرٌ لِّلَّذِينَ يَتَّقُونَ أَفَلاَ تَعْقِلُونَ﴾

**“Onlardan sonra yerlərinə elə qeyri-saleh övladlar canişin oldu ki, irs olaraq səmavi kitab aldılar (amma onun qədrini bilmədilər). Onlar dünyanın davamsız matahından yapışır, (ilahi qanunları boşlayıb) deyirdilər: “Tezliklə bağışlanacağıq.” Əgər növbəti dəfə həmin maddi mənafe ortaya çıxsaydı, yenə ondan yapışardılar (ilahi qanunlara arxa çevirərdilər). Məgər onlardan səmavi kitablarda əhd alınmamışdımı ki, Allaha haqdan başqa bir şey aid etməsinlər? Həmin kitab və əhdin mətləblərini dəfələrlə oxusalar da, (əməldə dünyapərəst idilər). Bir halda ki, təqva əhli üçün axirət evi daha üstündür. Məgər düşünmürsünüz?”**

***NÖQTƏLƏR***

◘Adətən, qeyri-saleh övladlar “xəlf” adlandırılır. Saleh övladlara isə “xələf” deyilir.[1]

◘“Ərəz” dedikdə istənilən bir sərmayə başa düşülür. Nağd pul isə “ərz” adlandırılmışdır. Zəif, davamsız mövcuda da “ərəz” deyilir. Dünya davamsız olduğundan o da belə adlandırılmışdır. Feyz Kaşani deyir: “Ərəz” dedikdə bu ayədə rüşvət nəzərdə tutulmuşdur.”

◘“Dərs” sözü təkrar mənasını bildirir. Bir mövzunun mütaliəsi və ya müəllimdən öyrənilməsi zamanı mətləblər təkrarlandığından bu proses dərs adlandırılmışdır. Təkrar-təkrar istifadə olunub köhnəlmiş şeylərə isə “mundəris” deyilir.[2]

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-nümunə”.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah-təala tapşırmışdır ki, xalq bilmədiyini danışmasın.” Sonra həzrət həmin bu ayəni tilavət etmişdir.[1]

◘İmam Həsən (ə) buyurmuşdur: “O kəs təəccüb ediləsidir ki, orqanizmini qidalandırmaq barədə düşünür, amma düşüncəsinə qida seçərkən götür-qoy etmir. Beləsi öz qəlbində və əqidəsində nəyə gəldi yer verir.”[2]

### *BİLDİRİŞLƏR*

1. Tarix dünyagir və günahkar yəhudi nəsillərinə şahiddir.
2. Dünyagirlik dinə qarşı bəlalardandır.
3. Yəhudilərin həm əllərində Tövrat vardı, həm də bu kitabdan tam xəbərdar idilər.
4. Səmavi kitabın təlimlərindən xəbərdar insanın dünyagirlik edib haram yeməsi rəva deyil.
5. Rüşvət və haramxorluq başqa dinlərdə də tənqid olunmuşdur.
6. Yəhudilər öz günahlarını etiraf etsələr də, düşünürdülər ki, bağışlanacaqlar.
7. Yəhudilər o qədər eqoist idilər ki, tövbəsiz bağışlanacaqlarını gözləyirdilər. Bəli, bağışlanacağına əmin olan insan məzəmmət edilməlidir.
8. Yersiz ümid də yersiz qorxu kimi dağıdıcıdır. Günahı təkrarlaya-təkrarlaya Allahın mərhəmətinə ümid etmək yersizdir.
9. Yəhudilərin haram yeyənləri öz günahlarında israrlı idilər.
10. Gerçək tövbənin nişanəsi odur ki, növbəti dəfə günaha şərait yarandıqda bu günah təkrarlanmasın.
11. Günaha yol verdiyi halda hökmən bağışlanacağını iddia edən insan olmayan şeyi Allaha aid edir.
12. Səmavi kitablardakı təlimləri bilmək kifayət deyil, əməl də lazımdır.
13. Axirət dünyası əbədi və davamlı nemətlərə malik bir dünyadır.
14. Haramdan uzaqlıq təqva nişanəsidir.
15. Başdan-başa xeyirli axirətdən faydalanmaq təqva, pəhrizkarlıqdan asılıdır.
16. Dünyanın ardınca qaçıb axirəti yaddan çıxaran insan düşüncəsizdir.
17. Təbliğ və tərbiyə üsullarından biri qarşı tərəfin vicdanını oyadan sualdır.

### *(AYƏ: 170)*

﴿ وَالَّذِينَ يُمَسِّكُونَ بِالْكِتَابِ وَأَقَامُواْ الصَّلاَةَ إِنَّا لاَ نُضِيعُ أَجْرَ الْمُصْلِحِينَ ﴾

---

[1] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 1, s. 43.
[2] “Təfsire-Fürqan”; “Bihar”.

**“(Səmavi) kitabdan yapışan, namazı bərpa edən kəslər (bilsinlər ki,) Biz, şübhəsiz, islah edənlərin mükafatını puç etməyəcəyik.”**

## *NÖQTƏLƏR*

◘Rəvayətlərdə nəql olunur ki, bu ayə Əhli-beyt (ə) və onların şiələrinin xüsusiyyətlərini bəyan edir.[1]

◘Quran fəsad əhlinin çoxluğu ilə yanaşı salehlərin azlığını qeyd edir. (Əvvəlki ayə tənqid, bu ayə isə sitayiş edir.)

◘“Əl-kitab” deyərkən ayədə bütün səmavi kitablar nəzərdə tutulur. Ayə təkcə xalis din ardıcılları və kitablara aid deyil. Amma əvvəlki ayələrdən belə görünür ki, bu ayədə Tövrat nəzərdə tutulmuşdur.

◘Bu ayədə səmavi kitaba bağlananlar haqqında xoş sözlər deyilir. Digər bir yerdə isə əlində səmavi kitab olduğu halda ona bağlanmayanlar kitab yüklü ulağa bənzədilir.[2]

◘“Muslih” dedikdə həm özünü, həm də cəmiyyəti islah etmək istəyən insan nəzərdə tutulur.

◘Namaz səmavi kitabdakı dəyərlərdən biri olsa da, xüsusi əhəmiyyət daşıdığından ayrıca zikr olunur. Çünki namaz dinin sütunudur, dinin bərpası ona bağlıdır. Həzrət Peyğəmbər buyurmuşdur: “Namaz dinin sütunudur.”[3] Digər bir yerdə buyurulur: “Hər şeyin bir siması var. Sizin dininizin siması namazdır. Belə ki, dininizin simasını korlamamalısınız.”[4]

## *BİLDİRİŞLƏR*

1. Səmavi kitabı oxumaq, qorumaq, nəşr etmək kifayət deyil. Nicat tapmaq üçün bu kitaba əməl etmək zəruridir. (Necə ki, şəfanı həkimin yazdığı nüsxəyə əməl etməklə tapmaq olar.)
2. Ötən dinlərdə və səmavi kitablarda da namaz göstərişi olmuşdur.
3. Namaz qılmayan və səmavi kitabdan xəbərsiz olan fərdlərin islahçılığı yetərsizdir.
4. Dinin təkcə axirətdə yox, dünya həyatında da islahçı rolu var.
5. Namazın bərpası cəmiyyətin islah vasitəsidir. Namazın bərpası dedikdə, sadəcə namaz qılmaq yox, namazın şərtlərinə həyatın bütün sahələrində kamil diqqət yetirmək nəzərdə tutulur.
6. Həqiqi islahın iki şərti və mehvəri var: ilahi qanunlara tabeçilik və namazın bərpası ilə Allaha möhkəm bağlılıq.

---

[1] “Təfsire-isna-əşəri”.
[2] Bax: “Cümə”, 5.
[3] “Təfsire-isna-əşəri”. “Ət-təhzib”, c. 2, s. 237.
[4] “Təfsire-Fürqan”. “Kafi”, c. 3, s. 270.

### *(AYƏ: 171)*

﴿ وَإِذ نَتَقْنَا الْجَبَلَ فَوْقَهُمْ كَأَنَّهُ ظُلَّةٌ وَظَنُّواْ أَنَّهُ وَاقِعٌ بِهِمْ خُذُواْ مَا آتَيْنَاكُم بِقُوَّةٍ وَاذْكُرُواْ مَا فِيهِ لَعَلَّكُمْ تَتَّقُونَ ﴾

**«(Xatırla,) o zaman ki, dağı yerindən qoparıb, başlarının üzərində (kölgə salan) günlük kimi qərar verdik. Güman etdilər ki, o, başlarına düşəcək. (Bu halda onlara dedik:) Sizə verdiyimizi qüvvətlə, möhkəm tutun və onda olanı yad edin (əməl edin). Bəlkə, təqva əhli olasınız.»**

### *NÖQTƏLƏR*

◘Bu ayə "Bəqərə" surəsinin 63-cü və hazırkı surənin sonuncu ayəsinə oxşardır. Söhbət Bəni-İsrail qövmündən gedir. 103-cü ayədən burayadək ardıcıl şəkildə Bəni-İsraillə bağlı məsələlər bəyan olunmuşdur.

◘"Nətəq" dedikdə qoparmaq, atmaq mənaları anlaşılır. "Zullət" isə bir para bulud, tavan, günlük mənasını bildirir.

◘Tur dağına, Allahla vəd yerinə gedən Musa geri qayıdarkən Bəni-İsrailin hidayəti üçün Tövratı gətirdi. Amma Bəni-İsrail müxalifətçilik göstərdi. Allah Tur dağını qoparıb onların başı üzərində saxladı. Həmin qövm dəhşətə gəlib səcdəyə düşdü. Onlar söz verdilər ki, itaət edəcəklər. Amma çox çəkmədi ki, yenidən dinə arxa çevirdilər.

◘***Sual:*** Məcburi şəkildə əhd almaq və itaət etdirməyin dəyəri varmı?

***Cavab:*** Əvvəla, hər məcburi iş pis sayılmamalıdır. Bəzən narkotik maddələrə aludə olan insan müalicəyə vadar edilir. Belə bir məcburiyyət özü də dəyərdir. Əlbəttə ki, əqidəni insanın qəlbinə yeritmək olmaz. Amma əməldə məcburiyyət mümkündür və belə bir məcburiyyət cəmiyyətin səadətinə xidmət etməlidir. İkincisi, bəzən öncə məcburi şəkildə yerinə yetirilən iş tədricən könüllü şəkil alır.

◘İmam Sadiqdən (ə) soruşdular: "Bu ayədəki "qüvvət" sözü bədən, yoxsa qəlbə aiddir?" İmam buyurdu: «Hər ikisinə».[1]

### *BİLDİRİŞLƏR*

1. Dağın Bəni-İsrailin başı üzərinə qaldırılması, onların hədələnməsi unudulmayası bir hadisədir.
2. Hadisəni bilmək bəs etmir. Onu xatırlamaq lazımdır.
3. Cəmiyyətin ümumi tərbiyəsi və azğınlığın qarşısının alınması üçün bəzən təzyiqdən istifadə olunmalıdır.
4. İlahi hökmlərə ciddi yanaşmaq və əməl etmək lazımdır.
5. Yetərli təqvaya çatmaq üçün dində qətilik və ciddi qərar lazımdır.
6. Səmavi kitabların və dini göstərişlərin məqsədi xalqda Allah qorxusu və təqvanın yaranmasıdır.

---

[1] "Təfsire-Əyyaşi"; "Məhasine-Bərqi", c. 1. s. 261.

7. Qanunların, göstərişlərin və hökmlərin fəlsəfələri və təsirlərinin bəyanı ilə başqalarını diqqət və əmələ təşviq edək.

***(AYƏ: 172)***

﴿وَإِذْ أَخَذَ رَبُّكَ مِن بَنِي آدَمَ مِن ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلَى أَنفُسِهِمْ أَلَسْتَ
بِرَبِّكُمْ قَالُواْ بَلَى شَهِدْنَا أَن تَقُولُواْ يَوْمَ الْقِيَامَةِ إِنَّا كُنَّا عَنْ هَذَا غَافِلِينَ﴾

**«(Xatırla,) o zaman ki, Rəbbin Bəni-Adəmdən onların övlad və nəsillərini yaratdı və onları özünə şahid etdi. (Sonra buyurdu:) "Mən sizin Rəbbiniz deyiləmmi?" Dedilər: "Bəli, biz şahid durduq ki, Sən bizim Rəbbimizsən." (Bu etiraf Adəm nəslindən ona görə alınırdı ki,) Qiyamət "günü biz bundan xəbərsiz idik" deməsinlər.»**

***NÖQTƏLƏR***

◘"Zurriyyət" "zərr" sözündən götürüldükdə, çox kiçik toz dənəciklərini (ya da xırda qarışqaları) bildirir. Burada məqsəd insanın nütfə zərrələri və ya azyaşlı kiçik övladları ola bilər. "Zurriyyət" sözü "zərəv" kökündən götürüldükdə "səpmək", "zərə" sözündən götürüldükdə isə "yaratmaq" mənasını bildirir.[1] Amma adətən, "zürriyyət" dedikdə övladlar nəzərdə tutulur.

◘Ayədə Allahın Bəni-Adəmdən hansı şəkildə əhd aldığı bəyan olunmamışdır. Bu barədə təfsirçilərin müxtəlif rəyləri var. Həmin rəylərdən ən məşhurlarını nəzərdən keçirək:

1. Rəvayətlərə əsasən həzrət Adəmin yaranışından sonra onun dünyanın sonunadək doğulası övladları xırda və pərakəndə zərrələr surətində (qarışqa kimi) ondan ayrıldılar. Onlar Allahın xitabına cavab olaraq ilahi rübubiyyəti etiraf etdilər. Sonra yenidən Adəmə qayıdıb, təbii şəkildə dünyaya gəlməyə başladılar. Həmin aləmə "zərr aləmi", həmin əhdə isə "ələst əhdi" deyilir.[2]

İmam Sadiq (ə) buyurmuşdur: "Adəmin bəzi övladları zərr aləmində qəlbən iman gətirməsələr də, Allahın rübubiyyətini etiraf etdilər."[3] Həzrət Peyğəmbər (s) buyurmuşdur ki, bu etiraf ərəfə gününə təsadüf etmişdir.[4]

---

[1] "Təfsire-nümunə".
[2] "Kafi", c. 2, s. 13.
[3] "Təfsire-Nurus-səqələyn".
[4] "Təfsire-Dürrül-Mənsur".

2. «Zərr aləmi» dedikdə, fitrətə aid əhd nəzərdə tutulur. Adəm övladları atalarından analarının bətninə zərrələr şəklində keçir. Allah tövhid fitrəti və haqpərəstliyi onların xarakterində qoymuşdur. İlahi fitrət bütün yaranmışların batinində əmanətdir. İnsanların fitrət və düşüncəsi Allahın rübubiyyətinə şahid olduğundan, həmin inam bir həqiqət olaraq düşüncələrdə yer almışdır.

İmam Sadiq (ə) fitrətlə bağlı verilmiş suallara "fitrət həmin zərr aləmidir" deyə cavab vermişdir.[1]

Bəzi rəvayətlərə əsasən, fitrət zərr aləminin özü yox, əsəridir. Bu səbəbdən də həmin həqiqəti bir vaxt etiraf edənlər sonralar onu unutmuşlar. Həmin etirafın əsəri isə fitrətin haqqa meylidir. Hər halda bu məsələnin aydınlaşdırılması mütəkəllimlərin, hədis və təfsir alimlərinin öhdəsinədir. Bu mövzuda daha ətraflı məlumat almaq üçün "Pəyame-Quran", "Mənşure-Cavid", "Təfsire-Ətyəbul-bəyan" kitablarına müraciət edin.

### *BİLDİRİŞLƏR*

1. Bütün insanlar həzrət Adəmin övladlarıdır. Onlar Allahın rübubiyyətini etiraf etmişlər.

2. Allah-təala tövhid, təkallahçılıq inancını insanın fitrətində qərarlaşdırmışdır. Hər bir insan hansısa şəkildə Allahın rübubiyyətini dərk edib şəhadət verir.

3. Allah-təala insanı yaratdıqdan sonra ona Öz rübubiyyətini aşkarladı ki, yeri gəldikdə şəhadət versin.

4. Fitrət və allahpərəstlik əhdi höccətin, dəlillərin tamamlanması üçündür.

5. Qiyamət günü Allahdan xəbərsizlik iddiası qəbul olunmayacaq. Bu baxımdan cəhalət Allah yanında üzürlü sayılmayacaq.

***(AYƏ: 173)***

﴿ أَوْ تَقُولُواْ إِنَّمَا أَشْرَكَ آبَاؤُنَا مِن قَبْلُ وَكُنَّا ذُرِّيَّةً مِّن بَعْدِهِمْ أَفَتُهْلِكُنَا بِمَا فَعَلَ الْمُبْطِلُونَ ﴾

**"Ya deməyin ki, atalarımız bizdən öncə müşrik idilər və biz də onlardan sonrakı övladlar idik (onların yolunu davam etdirməyə məcbur olduq), yoxsa bizi batil əhlinin əməllərinə görə cəzalandırır, həlakmı edirsən?"**

***(AYƏ: 174)***

﴿ وَكَذَلِكَ نُفَصِّلُ الآيَاتِ وَلَعَلَّهُمْ يَرْجِعُونَ ﴾

**"Və Biz bu sayaq Öz ayələrimizi aydın bəyan edirik. (Bilələr ki, tövhid nuru öncədən batinlərində olmuşdur.) Ola bilsin ki, onlar (Allaha doğru pak tövhid fitrətinə doğru) qayıdalar."**

[1] "Təfsire-Fürqan"; "Təfsire-Nurus-səqəleyn"; "Pəyame-Quran", c. 3, s. 117.

### *NÖQTƏLƏR*

◘Əgər fitrətlər zərr aləmində Allahın rübubiyyətinə şahid olmasaydılar, insan dünyada rahatlıqla allahpərəst olmazdı, öz babalarının yolunu gedərdi.

### *BİLDİRİŞLƏR*

1. İnsanın vücudundakı allahpərəstlik fitrəti Allah tərəfindəndir və höccətin tamamlanması üçündür. Fitrət çırağının ətrafdakı zülmətləri işıqlandıra bilən gücü var.
2. Cəmiyyət və mühit insanı məcbur etmir.
3. Dinin üsul məsələlərində təqlidə icazə verilmir.
4. Ata-babaların əqidəsi, əməl və şirki övladların əqidə, əməl və şirki üçün zəmin olur.
5. Öz günah və çaşqınlığınızı başqalarının boynuna atmağınız üzr sayılmaz.
6. Ata-babalara şirkə çəkəcək həddə itaət və ehtiram yolverilməzdir.
7. Müşriklər batilə meyillidir.
8. Allah heç vaxt birinin günahına görə digərini cəzalandırmır.
9. İlahi ayələr insanın diqqətini fitrətin əhdinə yönəltmək üçündür.
10. Tövhid davamlı, şirk isə ötəridir. Ona görə də Quran müşriklərin haqqa dönümü istəyindədir.

### *(AYƏ: 175)*

﴿وَاتْلُ عَلَيْهِمْ نَبَأَ الَّذِيَ آتَيْنَاهُ آيَاتِنَا فَانسَلَخَ مِنْهَا فَأَتْبَعَهُ الشَّيْطَانُ فَكَانَ مِنَ الْغَاوِينَ﴾

**“Onlara ayələrimiz verdiyimiz kəsin (Bələm Baura) əhvalatını oxu. O (naşükürlüklə) özünü ayələrdən uzaqlaşdırdı. Şeytan onu öz ardınca çəkdi, axır ki, azğınlardan oldu.”**

### *NÖQTƏLƏR*

◘“İnsilax” dərini soymaq mənasını bildirir. Bir şey bir şeyə yapışdığı vaxt həmin sözdən istifadə olunur. Burada isə həmin sözlə uyğun şəxsin agahlıq və tam biliyinə işarə olunmuşdur.

◘“Fəatbəəhu” cümləsi həmin şəxsin haqq yolda böyük məqama çatdığına işarədir. Belə ki, şeytan ondan ümidini üzübmüş. Amma azğınlıq

nişanələri görünən zaman şeytan ona yaxınlaşdı və nəhayət, azğınlar cərgəsində qərar verdi.[1]

◘Ayədə Bəni-İsrail alimlərindən olan Bələm Bauraya işarə olunmuşdur. Bu şəxs öncə möminlər və ilahiyyatçılar cərgəsində idi. Sonradan şeytanın vəsvəsələri və zalım hakimlərin çağırışları ilə yolunu azdı.

İmam Riza (ə) buyurmuşdur: “Bələm “İsme-əzəmi” (fövqəladə təsirə malik olan ilahi ayələri) bilirdi. Onun duaları qəbul olardı Amma Fironun sarayı onu cəzb etdi. Öncə həzrət Musanın təbliğatçılarından olan Bələm, nəhayətdə Musaya qarşı çıxıb bədbəxt oldu.[2] Bəli, dünyanın zər-zibası və saray mühiti alimlərin süqut amilidir.

Quran bu şəxsin adını çəkmir. Amma onun işləri sadalanır. İmam Baqirin (ə) buyurduğuna görə, ayə bütün azğınlara tətbiq olunsun deyə, Bələmin adı çəkilmir.[3] Belə insanlar bütün dövrlərdə olmuşdur və Bələm bu insanlardan biridir.

◘Bələm Bauranın macərası hazırkı Tövratda da nəql olunmuşdur.[4]

## *BİLDİRİŞLƏR*

1. Rəhbər xalqı qarşıdakı təhlükələrdən xəbərdar etməli, onları məlumatlandırmalıdır.
2. Bəzən zalım hakimlər alimləri də aldadır. Bələm Bauranın taleyi ibrət dərsi olmalıdır. Bu əhvalat olduqca mühüm və faydalıdır.
3. İnsan öz-özlüyündə azaddır və tutduğu yolu dəyişə bilər.
4. İnsan yüksəldikcə qürrələnməməlidir. Çünki hər an süqut ehtimalı var. Əsas məsələ işin sonudur. Yüksəkliyə qalxmış insanın süqutu daha təhlükəlidir.
5. Allahdan uzaqlaşan şəxs şeytana yem olur.
6. Şeytanın işi vəsvəsə etməkdir. O, pusquda dayanıb fürsət gözləyir, kimdə çaşqınlıq görürsə, onun ardınca düşür.
7. Şeytan rəbbani, həqiqi alimlə üz-üzə gəlmir. Nə qədər ki, Bələm ilahi ayələrdən əl çəkməmişdi, şeytan da ondan uzaq idi.
8. Elm öz-özlüyündə nicatverici deyil. Çünki dünyapərəst alim şeytana əsir olur.
9. Pis aqibət barədə düşünüb qorxmaq lazımdır. Nə qədər ki, nemət əzaba dönməyib, qayıdış zəruridir.
10. Allah yolunu boşlamaq ağıl və düşüncədən uzaqdır.
11. İnsanın süqutu bir neçə mərhələdə gerçəkləşir: ilahi ayələrdən uzaqlaşmaq, şeytana tabeçilik, azğınlar zümrəsinə qoşulmaq.

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-Nurus-səqəleyn”; Kənzüd-dəqaiq”.
[3] “Təfsire-Nurus-səqəleyn”.
[4] “Tövrat”, “Sifre-ədad”, b. 22.

### *(AYƏ: 176)*

﴿وَلَوْ شِئْنَا لَرَفَعْنَاهُ بِهَا وَلَكِنَّهُ أَخْلَدَ إِلَى الأَرْضِ وَاتَّبَعَ هَوَاهُ فَمَثَلُهُ كَمَثَلِ الْكَلْبِ إِن
تَحْمِلْ عَلَيْهِ يَلْهَثْ أَوْ تَتْرُكْهُ يَلْهَث ذَّلِكَ مَثَلُ الْقَوْمِ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا فَاقْصُصِ الْقَصَصَ
لَعَلَّهُمْ يَتَفَكَّرُونَ﴾

**“Əgər istəsəydik, onu ayələrimiz vasitəsi ilə ucaldardıq. Amma o, yerə yapışdı və nəfsinə tabe oldu. Onun məsəli itin məsəli kimidir – ona hücum etsən, ağzını açıb hürər, dilini bayıra çıxarar, ondan əl çəksən, yenə belə edər. (Dünyapərəstlərin ağzı həmişə açıqdır.) Bu, ayələrimizi təkzib edən kəslərin məsəlidir. Bu əhvalatı (onlar üçün) danış. Ola bilsin ki, düşünələr.”**

### *NÖQTƏLƏR*

◘Ayədə mənəvi yüksəkliyin əksi kimi “yer” kəlməsi işlədilir. Burada məqsəd alçaq, maddi və dünyəvi məsələlərdir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Elm və məlumatı artdıqca, hidayət və doğru yol axtarışı artmayanı həmin elm Allahdan uzaqlaşdırmış olar.[1]

◘Quran əhvalatları həqiqətlərə əsaslanır və onların nəql olunmasında məqsəd peyğəmbər və iman əhlinin qədəmlərini möhkəmləndirmək, düşmənlərin ümidini üzməkdir. Uyğun əhvalatlar həm də möminlər üçün moizə-nəsihət, düşüncə sahibləri üçün ibrət səbəbidir.[2]

### *BİLDİRİŞLƏR*

1. İlahi ayələrə bağlılıq Allahla yaxınlıq və uca məqamlara çatma səbəbidir.
2. Allahın istək və iradəsi aləmlərə hakim ikən insan azaddır.
3. Allahın istək və iradəsi də bizim əməllərimiz əsasında müəyyənləşir. Bəli, dünyapərəstlik və azğın nəfs istəklərindən çəkinmək ilahi məqama çatmaq üçün şərtdir.
4. Qafil, xəbərsiz xalq dördayaqlılara, dünyapərəst alim isə həris itə oxşadılır.
5. Əməlsiz alim mənfurdur.
6. Dünyaya əsir olan insanın heç vaxt rahatlığı olmur. Həris insan bütün istəklərinə çatsa da, onun tamah dili bayırdadır. Çünki dünyapərəstliyin nəhayəti yoxdur.
7. Dünya və azğın nəfs istəklərinə bağlılıq insanı başqa işlərə münasibətdə biganələşdirir.

---

[1] “Bihar”, c. 2, s. 37.

[2] Bax: “Hud”, 120; “Yusuf”, 111.

8. Din alimləri dünyagir olduqda ilahi ayələrin təkzibi və küfrə meyl təhlükəsi ilə üzləşirlər.

9. Aldanmış alimlərin aqibəti xalq üçün ibrət olmalıdır.

10. Ədəbiyyat, nəsr və nəzm bəşəriyyətin düşüncə tərəqqisinə xidmət etməlidir. Məqsədli hekayələr söyləmək peyğəmbərlərin işlərindəndir. Ədəbiyyatda süstləşdirmək və əyləncə məqsədinə yer yoxdur.

***(AYƏ: 177)***

﴿ سَاء مَثَلاً الْقَوْمُ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا وَأَنفُسَهُمْ كَانُواْ يَظْلِمُونَ ﴾

**“Ayələrimizi təkzib edənlər üçün necə də pis misal var. Onlar yalnız özlərinə sitəm edirdilər.”**

***(AYƏ: 178)***

﴿ مَن يَهْدِ اللّهُ فَهُوَ الْمُهْتَدِي وَمَن يُضْلِلْ فَأُوْلَئِكَ هُمُ الْخَاسِرُونَ ﴾

**“Allah kimi hidayət etsə, yalnız odur hidayət əldə edən və hər kəsi azdırsa, onlar həmin ziyankarlardır.”**

***NÖQTƏLƏR***

◘Ayədə hidayət olunmuşlar haqqında tək, azmışlar haqqında isə cəm formada danışılır. Belə yanaşma hidayət yolunun yalnız bir, azğınlıq yolunun isə çox olması ilə izah edilə bilər.

***Qurdlarla itlərin ayrısa yolu,***
***Aslan cığırının yox başqa qolu.***

◘Hidayət və azğınlıq Allahın əlində olsa da, insan bu iki yoldan birinə məcburən yönəldilmir. Allah əsassız yerə kimsəni nə hidayət edir, nə də azdırır. O, hikmət sahibi və rəhimlidir. İnsan özü şərait yaratmasa, nə ilahi lütfə yetişər, nə də Allahın qəhr-qəzəbinə düçar olar.

***BİLDİRİŞLƏR***

1. Pis aqibət ilahi ayələri təkzib edənlərin intizarındadır.

2. İlahi ayələrin təkzibi Allaha yox, insanın özünə zülmüdür.

3. Hidayət Allahın əlindədir. Onun lütfü olmayan yerdə elmin heç bir faydası yoxdur.

4. Doğru yola yönəldilib hidayət əldə etmiş insanlar bütün zərər-ziyandan uzaqdırlar. Çünki zərər-ziyanların mənbəyi zəlalət, azğınlıqdır.

### *(AYƏ: 179)*

﴿وَلَقَدْ ذَرَأْنَا لِجَهَنَّمَ كَثِيرًا مِّنَ الْجِنِّ وَالإِنسِ لَهُمْ قُلُوبٌ لاَّ يَفْقَهُونَ بِهَا وَلَهُمْ أَعْيُنٌ لاَّ يُبْصِرُونَ بِهَا وَلَهُمْ آذَانٌ لاَّ يَسْمَعُونَ بِهَا أُوْلَئِكَ كَالأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ أُوْلَئِكَ هُمُ الْغَافِلُونَ﴾

**“Həqiqətən, cin və insanların çoxunu cəhənnəm üçün yaratdıq. (Getdikləri yol oraya sonuclanar, çünki) onların dərk etməyən qəlbləri, görməyən gözləri, eşitməyən qulaqları var. Onlar dördayaqlı kimi, bəlkə daha azğındırlar. Onlar həmin qafillərdir.”**

### *NÖQTƏLƏR*

◘“Zərə” “zər” sözündən olub əslində “dağıtmaq”, yaymaq” mənalarını bildirir. Burada isə həmin söz “yaranış”, “izhar” mənalarında işlədilmişdir.

◘***Sual:*** Quran bu ayədə bir çox cin və insanların cəhənnəm üçün yaradıldığını bildirir. Digər bir ayədə onların ibadət üçün xəlq edildiyi bəyan olunur.[1] Bu iki bəyanat arasında ziddiyyət yoxdurmu?

***Cavab:*** Yaranışın əsas məqsədi Alaha pərəstiş və bəndəlikdir. Amma bir çox insanlar üsyan, tüğyan, küfr və inadkarlıqları səbəbindən cəhənnəmə yuvarlanırlar. Onlar sanki cəhənnəm üçün yaradılmışlar. “Li cəhənnəmə” sözünün əvvəlindəki “lam” hərfi məqsəd yox, aqibəti bəyan edir. Məsələn, dülgər ağacı qapı-pəncərə düzəltmək üçün hazırlayır. Əgər bu ağaclar sobaya atılıb yanırsa, əsas məqsəd həyata keçməmiş qalır.

Həzrət Əli (ə) buyurmuşdur: “Allahın elə bir mələyi var ki, hər gün uca səslə deyər: “Doğun ölüm üçün, düzəldin xaraba qalmaq üçün.”[2] Yəni dünyaya gəlişin sonu ölüm, sərvət toplamağın sonu əliboşluq, tikintinin sonu xarabalıqdır.

Bəli, öz insani şəxsiyyətini itirənlər yalnız cəhənnəm əhli ola bilərlər.[3] Cəhənnəm əhli özü də etiraf edir ki, əgər ilahi göstərişləri lazımınca götür-qoy edib düşünsəydilər, cəhənnəmə düşməzdilər.[4]

◘İnsanın da digər canlılar kimi gözü, qulağı və dili var. Amma insan bu nemətlərdən daha üstün şəkildə faydalanmalıdır. Yoxsa heyvan kimi, bəlkə ondan da alçaq olar. İnsan zahiri görüntülərdən əlavə ruhani aləmi də seyr etməli, zahirdəki səs küylərdən əlavə, batini səsləri də dinləməlidir.

***Adəm xislətinə diqqətlə baxsan,***

---

[1] Bax: “Zariyat”, 56.
[2] “Nəhcül-bəlağə”, q. 132.
[3] Bax: “Furqan”, 44.
[4] Bax: “Mulk”, 10.

*Həm mələk görərsən, həm də ki, heyvan.*
*Əqlə doğru getsə mələk olası,*
*Nəfsə doğru qaçsa heyvan qalası.*

◘İmam Sadiqdən (ə) soruşdular: “Nə üçün Allah-təala bütün bəndələrini müti və təkallahçı yaratmadı?” Həzrət buyurdu: “Əgər belə olsaydı, savab və cəzanın mənası qalmazdı. Çünki onlar azadlıqlarını əldən verər, məcbur olardılar. Amma Allah insanı azad yaratdı. Ona ağıl və fitrət verməkdən əlavə, hidayət yolunu peyğəmbərlər və səmavi kitablarla işıqlandırdı. Ona itaət göstərişi verildi və itaətsizlik qadağan olundu ki, mütilər üsyankarlardan seçilsinlər. Allah bütün itaət və üsyan vasitələrini yaratmış olsa da, insanı məcbur etmədi. İnsan məcburiyyətsiz yol seçə bilər.”[1] Bəli, insanın məsuliyyəti qəbul etməsi, onu digər mövcudlardan ayıran yeganə imtiyazdır.

### *BİLDİRİŞLƏR*

1. İnsan və cinlərin bir çoxunun sonu cəhənnəmdir.
2. Cinlərin də insanlar kimi vəzifəsi, azadlığı, mükafat və cəzası var.
3. İnsanlıq ölçüsü dini maarif və vəzifələrin dərk olunmasıdır. Əks-təqdirdə, insan da heyvan kimi olardı.
4. İmkanı olduğu halda ilahi nemətlərdən faydalanmayan insan bu nemətlərdən məhrum heyvandan da alçaqdır.
5. Qafil və bəsirətsiz insanlar (biganəlikdə, qarınquluqda, şəhvətpərəstlikdə, mərifət ləzzətindən məhrumluqda) dördayaqlılar kimidirlər.
6. Qafillər heyvandan da pisdirlər.
7. Bəsirətsiz insanlar məqsəddən, Allahdan, özündən, mövcud imkanlardan, axirətdən, gələcək nəsillərdən, ilahi ayələrdən, Allah qanunlarından, ötən lütflərdən və günahlarından xəbərsizdirlər.
8. İnsanlar ilahi nemətlərdən kamillik yolunda istifadə etmədikləri üçün cəhənnəmə düşürlər. Çünki onlar gözləri, qulaqları və qəlbləri olduğu halda özlərini qafilliyə vurmuşlar.

### *(AYƏ: 180)*

﴿وَلِلَّهِ الأَسْمَاء الْحُسْنَى فَادْعُوهُ بِهَا وَذَرُواْ الَّذِينَ يُلْحِدُونَ فِي أَسْمَآئِهِ سَيُجْزَوْنَ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**“Ən gözəl adlar Allah üçündür. Allahı onlarla (bu adlarla) çağırın. Allahın adları barədə höcətləşənləri (savaşa qalxanları və Allahın adlarını Ondan qeyrilərinə verənləri) boşlayın. Onlar tezliklə etdiklərinin cəzasına çatacaqlar.”**

---

[1] “Təfsire-isna-əşəri”; “Bihar”, c. 3, s. 6.

## *NÖQTƏLƏR*

◘Allahın bütün adları gözəl olsa və Onun kamillikləri saya gəlməsə də, rəvayətlərdə 99 ad qeyd olunmuşdur. Bu adlar mötəbər sünni mənbələri olan "Səhih Müslüm", "Səhih Buxari", "Səhih Termizi"də də qeyd olunmuşdur. Allahı bu adlarla çağıranın duaları qəbul olar.[1] Bu adları sadalayanlar behişt əhlidir. Əlbəttə ki, həmin adların təkcə dildə zikr olunması nəzərdə tutulmur. Dildə sadalamaqla yanaşı onlara diqqət, ilahi sifətlərdən ilham almaq lazımdır. Həmin 99 adı nəzərdən keçirək:

Əllah, İlah, Əl-Vahid, Əl-Əhəd, Əs-Səməd, Əl-Əvvəl, Əl-Axir, Əs-Səmi, Əl-Bəsir, Əl-Qədir, Əl-Qahir, Əl-Əliyy, Əl-Əla, Əl-Baqi, Əl-Barr, Əl-Əkrəm, Əz-Zahir, Əl-Batin, Əl-Həyy, Əl-Həkim, Əl-Əlim, Əl-Həlim, Əl-Xəfif, Əl-Həqq, Əl-Həsib, Əl-Həmid, Əl-Həfiyy, Əl-Rəbb, Ər-Rəhman, Ər-Rəhim, Əz-Zar, Ər-Raziq, Ər-Rəqib, Ər-Rəuf, Ər-Rayib, Əs-Salam, Əl-Mömin, Əl-Muhəymin, Əl-Əziz, Əl-Cəbbar, Əl-Mutəkəbbir, Əs-Səyyid, Əs-Subbuh, Əş-Şəhid, Əs-Sadiq, Əs-Sane, Ət-Tahir, Əl-Əqil, Əl-Əfv, Əl-Ğəfur, Əl-Qəniyy, Əl-Qiyas, Əl-Fatir, Əl-Fərd, Əl-Fəttah, Əl-Faliq, Əl-Qədim, Əl-Məlik, Əl-Quddus, Əl-Qəviyy, Əl-Qərib, Əl-Qəyyum, Əl-Qabiz, Əl-Basit, Qaziyul-Hacət, Əl-Məcid, Əl-Məvla, Əl-Məncan, Əl-Muhit, Əl-Mubin, Əl-Muqit, Əl-Musəvvir, Əl-Kərim, Əl-Kəbir, Əl-Kafi, Kaşifuz-Zərr, Əl-Vətr, Ən-Nur, Əl-Vəhhab, Ən-Nasir, Əl-Vase, Əl-Vədud, Əl-Hadi, Əl-Vəfiyy, Əl-Vəkil, Əl-Varis, Əl-Birr, Əl-Bais, Ət-Təvvab, Əl-Cəlil, Əl-Cəvab, Əl-Xəbir, Əl-Xaliq, Xəyrun-Nasirin, Əd-Dəyyan, Əş-Şəkur, Əl-Əzim, Əl-Lətif, Əş-Şafi.[2]

◘Quranda Allahın 145-ə dək adı zikr olunur. Rəvayətlərdə cəmi 99 adın çəkilməsi bu adlardan bəzilərinin bir-birinə uyğun gəlməsi ilə izah oluna bilər. Rəvayətlərdə qeyd olunmuş, amma Quranda nəzərə çarpmayan bəzi adların müəyyən ayələrdə məzmunu ilə rastlaşa bilərik. Məsələn, "Sadiq" adı Quranda ad kimi qeyd olunmamışdır. Amma müəyyən ayələrə əsasən, Allahı "Sadiq" adlandırmaq olar.[3] Bəzi rəvayətlərdə və dualarda, məsələn, "Coşən-kəbir" duasında Allahın başqa adları da zikr olunur. Bu adlardan bəzilərinin xüsusi təsirləri, bərəkət və imtiyazları vardır. Fəxr Razi deyir: "Allahın bütün adlarından iki nəticə çıxarmaq olar: Onun ehtiyacsızlığı və digərlərinin Ona ehtiyacı.[4]

◘İmam Sadiq (ə) buyurmuşdur: "And olsun Allaha ki, Onun gözəl adları bizik."[5] Yəni Allahın gözəl adları məsum imamlarda əks olunmuşdur. Başqa sözlə, Allahı gerçək tanımaq yolu Əhli-beytdir. Uyğun hədislərdən belə anlaşılır ki, Əhli-beytin (ə) fəzilətlərini inkar edənlərə etina göstərilməsin.

---

[1] "Təfsire-Əl-mizan"; "Təfsire-nümunə".
[2] "Təfsire-Məcməül-bəyan"; "Təfsire-Nurus-səqəleyn"; "Tövhide-Səduq".
[3] Bax: "Nisa", 122.
[4] "Təfsire-Kəbire-Fəxr Razi".
[5] "Təfsire-Nurus-səqəleyn"; "Kafi", c. 1, s. 143.

Digər bir rəvayətdə imam Riza (ə) buyurmuşdur: "Biz Əhli-beyt (ə) Allahın gözəl adlarıyıq. Bizi tanımadan kimsənin əməli qəbul olunmaz."[1]

◘"Əl-əsmaul-husna" təbiri Quranda dörd dəfə təkrarlanmışdır.[2] Gözəl adların üç nümunəsi var: ilahi sifətlər, ilahi adlar və Allahın övliyaları.[3]

◘İmam Riza (ə) buyurmuşdur: "Sizə çətinlik üz verdikdə bizim vasitəmizlə Allahdan kömək istəyin." Sonra həzrət həmin ayəni tilavət etmişdir.[4]

◘Rəvayətlərə əsasən, Allahın gözəl adlarını bilənin duası qəbuldur. Belə bir insan təbiətin işlərinə qatıla bilər. Necə ki, bu adları bilən Bələm Baura belə bir istedada malik idi. (Onun haqqında 175-ci ayədə danışıldı.)

Bəs "İsmi-əzəm" nədir? Bəziləri deyirlər ki, "İsmi-əzəm" bizim üçün gizli qalmış ilahi adlardandır. Bəziləri isə "İsmi-əzəm"i ad və söz yox, kamal və sifət sayırlar. Onların nəzərincə, bu sifəti özündə cilvələndirə bilən şəxsin ruhi qüdrəti elə bir həddə çatır ki, təbiətin işlərinə qatıla bilir. Əlbəttə ki, yalnız dildə bir sözü təkrarlamaqla duaların qəbuluna nail olmaq mümkünsüzdür.[5]

◘İmam Riza (ə) buyurmuşdur: "Allah Özünü vəsf etdiyi adlardan savay adlarla vəsf edilməz. Yəni bir insan Allahı öz istədiyi adla çağıra bilməz. Allahı "iffətli", "şücaətli" deyə çağırmağa icazə verilmir.[6]

◘Ad müəyyənlik göstəricisidir. Allahın zatı müqəddəs olduğu kimi, adları da müqəddəsdir. Deməк, həm Allahın zatını, həm də adlarını pak bilmək lazımdır.[7] Bu səbəbdən də başqalarının adını Allahın adı ilə yanaşı çəkmək olmaz. Məsələn, "Allahın və filankəsin adı ilə" demək düzgün deyil.

◘Şəhid Mütəhhəri deyir: "Allahın adlarının əlamət yönümü yoxdur. Bu adlar Onun müqəddəs zatındakı həqiqətlərdən müəyyən bir həqiqəti göstərir.[8]

◘İmam Sadiq (ə) uyğun ayə ilə bağlı buyurmuşdur: "Başqalarına ilahi adlar qoymayın." Sonra imam mülhidlərə işarə ilə sözünə davam edir: "Onlar ilahi adları münasib olmayan yerlərdə işlədir və bununla da müşrik olurlar. Ona görə də Allah-təala buyurur: "Xalqın əksərinin imanı şirklə qatışıqdır."[9]

### *BİLDİRİŞLƏR*

1."Əllah" adı bütün ilahi adların mehvəridir. (Bu adda Allahın bütün sifətləri cəmlənib.)

---

[1] "Təfsire-isna-əşəri".

[2] Bax: "Isra", 110; "Taha", 8; "Həşr", 24; hazırkı ayə.

[3] "Təfsire-Fürqan".

[4] "Bihar", c. 91, s. 5.

[5] "Təfsire-nümunə".

[6] "Təfsire-Fürqan".

[7] Bax: "Tövbə", 31; "Əla", 1.

[8] "Quranla tanışlıq", s. 14.

[9] Bax: "Yusuf", 106; "Təfsire-Nurus-səqəleyn"; "Tövhide-Səduq", s. 324.

2. Bütün gözəl xislətlər Allah üçündür. Başqaları bu adlara çatmaq üçün onların sorağınca getməlidirlər.

3. Dəvət və dua gözəllik və yaxşılığa yönəlməlidir.

4. Allahın adları Onun nişanələridir. Nişanələrlə Ona çatmaq olar.

5. Allahda bütün kamilliklərin mövcudluğuna və Onun bütün eyiblərdən uzaq olmasına iman insanı dua və sitayişə sövq edir.

6. Allah zikri qəflətin çarəsidir.

7. İslam gözəl ad və adqoymada çaşqınlıqdan uzaqlığa diqqətlidir.

8. Mülhid və azğınlara etiraz edək.

9. Haqqın yolu fitri yoldur. Bu yoldan çıxmaq fitrət yoluna ziddir. (Allahı Ona layiq olmayan adlarla çağırmaq azğınlıq, haqq yoldan uzaqlıqdır. "İlhad" azğınlıq mənasını bildirir.)

10. Həm Allahın adını başqalarına qoymaq, həm də Allahı başqa adla çağırmaq ilhaddır.

***(AYƏ: 181)***

﴿ وَمِمَّنْ خَلَقْنَا أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ ﴾

**"Yaratdıqlarımızdan bir dəstəsi (başqalarını) haqqa çağırır və haqq olaraq hökm edir."**

***NÖQTƏLƏR***

◘Rəvayətlərdə qeyd olunur ki, bu ayədə peyğəmbər Əhli-beyti (ə) və onların şiələri nəzərdə tutulmuşdur.[1] Digər bir rəvayətdə həzrət Peyğəmbər (s) buyurur: "Ayədə mənim ümmətimin elə bir dəstəsi nəzərdə tutulur ki, onların bütün hökmləri, göstərişləri, ətaları və alış-verişləri haqq üzərində bərqərardır."[2]

◘Həzrət Əli (ə) İslam ümmətindən çıxacaq dəstələr haqqında danışarkən buyurmuşdur: "Yalnız qurtuluş əhli olan bir dəstə Əhli-beyt (ə) şiələri olar."[3]

***BİLDİRİŞLƏR***

1. Bütün xalq yox, yalnız xalqın bir dəstəsi özünü hidayət və ədalətin qəbuluna hazırlamışdır.

2. Batil yollara, vasitələrə və ya batilə doğru yönəltmək qadağandır.

3. Hidayət, hökumət və mühakimə haqqa köklənməlidir.

---

[1] "Təfsire-Məcməül-bəyan".

[2] "Təfsire-Fürqan"; "Təfsire-Dürrül-Mənsur".

[3] "Təfsire-nümunə". "Kafi", c. 1, s. 44.

4. Hidayətin qəbulundan əlavə, haqq bir quruluş fikrində olanların daha artıq dəyəri var. Bəli, təkcə mərifət və əməl kafi deyil, haqqın yayılması da mühümdür.

5. Cəmiyyət haqqa çağıran və haqq əsasında mühakimə aparan bir dəstəyə ehtiyaclıdır.

***(AYƏ: 182)***

﴿ وَالَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا سَنَسْتَدْرِجُهُم مِّنْ حَيْثُ لاَ يَعْلَمُونَ ﴾

**"Ayələrimizi təkzib edənləri tədricən bilmədikləri tərəfdən düçar edəcəyik."**

***(AYƏ: 183)***

﴿ وَأُمْلِي لَهُمْ إِنَّ كَيْدِي مَتِينٌ ﴾

**«Onlara möhlət verərəm. Həqiqətən, Mənim tədbirim möhkəmdir. (Kimsədə qaçmaq qüdrəti yoxdur.)»**

***NÖQTƏLƏR***

◘"İstidrac" "dərəcə sözündən olub təkzibçilər və başına buraxılmışların tədricən məhv edilməsindən ibarət olan ilahi sünnəyə işarədir. Bbu sünnə "Qələm" surəsinin 44-cü ayəsində də bəyan olunmuşdur. Həzrət Əli (ə) buyurmuşdur: "Rifah və asayiş içində yaşayanlar "istidrac" (tədrici məhv) təhlükəsi gözləsinlər. Məbada nemətlər onlar üçün yuxu və qəflət vasitəsi olsun."[1] Başqa bir yerdə Həzrət (ə) buyurur: "Bir insan geniş imkanlar içində yaşayıb bunu istidrac cəzası saymasa, təhlükə nişanələrindən qəflətdə qalmışdır."[2] Bəli, Allah möhlət verər, amma boş buraxmaz.

◘Həzrət Əli (ə) buyurmuşdur: "Allah Öz bəndəsi üçün bir xeyir istədiyi zaman həmin bəndə günaha yol verdikdə, ona qulaqburması verir ki, tövbə etsin. Amma bəndə əməlləri sayəsində lütfdən məhrum olsa, günah etdikdə ona verilən nemət artırılar ki, tövbə yadından çıxsın. Belə bir insan günahını davam etdirir və bu özü məhv və tədrici əzab növüdür.[3]

◘"İstidrac" ünvanı ilə ilahi tədbir, möhlət və uzun ömür verilməsi Quran ayələrində dəfələrlə qeyd olunmuşdur. Ayələrdə oxuyuruq: "Kafirlər güman etməsinlər ki, onlara verdiyimiz möhlət xeyirlərinədir. Əksinə, Biz onlara günahlarını artırmaq üçün möhlət veririk."[4] ; "Onları qəflətləri içində boşla."[5]

◘Bəzən ilahi nemətlər, Allahın möhlət verməsi, xalqın sitayişi, qürur və əyləncə, bir növ istidrac vasitəsi olur.[6]

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-nümunə". "Təfsire-Fürqan".
[4] "Ali-Imran", 178.
[5] "Muminun", 54; "Ali-Imran", 196; "Ənam" 44; "Tövbə", 55; "Muminun", 55, 56.
[6] "Təfsire-nümunə".

◘Həzrət Əli (ə) buyurmuşdur: “İstidrac qanunu hər gün zalım hakimlərə itaət edən bəhanəçil təhrifçilərin halına şamil olur.”[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah Öz dostlarını acı hadisələrlə oyadır. Biganələr isə rifah içində öz başlarına buraxılır.[2]

### *BİLDİRİŞLƏR*

1. Aşkar ilahi ayələrin təkzibi tədrici süqut və məxfi şəkildə məhv olmaqla sonuclanır. (Allahın qamçısı səssizdir.)

2. Xalqa möhlət verilməsi ilahi sünnələrdəndir. Möhlət verilir ki, hər kəs seçdiyi yolu başa vursun. Bütün qapılar hamının üzünə açıqdır. İnsanların həm tüğyan etmək, həm də tövbə üçün fürsətləri var.

3. Adətən insan addım-addım, aram-aram süqut edir.

4. İnsanın həyatı Allahın əlindədir. Günahkarın qaçmağa yeri yoxdur.

5. Allah kafirlərə də tövbə və qayıdış fürsəti verir, amma onlar layiq deyildirlər.

6. Nemət ilahi lütf nişanəsi olmaya da bilər. Bəzən Allahın qəfil qəhr-qəzəbi də nemət şəklində ortaya çıxır.

7. Rifah içində yaşayan qafillər Allahın tədbirinə tuş gəlirlər. (Məkr məxfi olduğu kimi, istidrac da məxfi bir əzabdır.)

8. Qürur və qəflət o qədər təhlükəlidir ki, Allah onları üç ardıcıl təbirlə bəyan edir.

9. Allahın tədbir və planı qarşısı alınmazdır.

### *(AYƏ: 184)*

﴿ أَوَلَمْ يَتَفَكَّرُواْ مَا بِصَاحِبِهِم مِّن جِنَّةٍ إِنْ هُوَ إِلاَّ نَذِيرٌ مُّبِينٌ ﴾

**“Onlar düşünmürlərmi ki, yanlarındakının (İslam Peyğəmbərinin (s)) heç bir cünunluğu yoxdur?! O yalnız aşkar xəbərdarlıq edəndir.”**

### *NÖQTƏLƏR*

◘“Cinnə “cünun”, «örtük» mənasını bildirir. Sanki cunun insanın (məcnunun) ağlı pərdələnir.

◘Peyğəmbər (s) Mədinəyə hicrət etməmiş bir gecə Səfa dağında gecə yarıyadək xalqı Allaha tərəf dəvət etdi və onları ilahi əzabla qorxutdu. Müşriklər dedilər: “Bizim yoldaşımız divanə olduğundan belə sözlər danışır.” Yuxarıdakı ayələr nazil oldu. Onlar risalətdən qabaq “Muhəmməde-əmin” adlandırdıqları kəsi cünunluqda ittiham edirdilər.

### *BİLDİRİŞLƏR*

1. Böhtan və kobudluq düşüncə əhlinə aid sifət deyil.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “Təfsire-nümunə”.

2. Peyğəmbər xalqın həmsöhbətidir. Əgər o, divanə idisə, nə üçün bunu əvvəllər görən olmamışdı və ətrafındakılar uzun illər onunla yoldaşlıq etmişdilər?

3. Günahkar cəmiyyətdə haqqı deyənlər “cünun adlandırılırlar.

4. Peyğəmbərlər öz müxalifləri tərəfindən sehr-cadu və cünunluqda ittiham olunmuşlar. [1]

5. Qafil insanların tərbiyəsində bəşarətdən çox, qorxutmaya yer verilməlidir.

6. Qürurlu və yuxulu xalqla aşkar danışmaq lazımdır.

***(AYƏ: 185)***

﴿ أَوَلَمْ يَنظُرُواْ فِي مَلَكُوتِ السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا خَلَقَ اللّهُ مِن شَيْءٍ وَأَنْ عَسَى أَن يَكُونَ قَدِ اقْتَرَبَ أَجَلُهُمْ فَبِأَيِّ حَدِيثٍ بَعْدَهُ يُؤْمِنُونَ ﴾

**“Yoxsa onlar göylərin və yerin mülkünə, Allah tərəfindən bütün yaradılmışlara diqqətlə baxmırlar? (Bilələr ki, bütün mövcudlar məqsədli yaradılıb.) Bəlkə onların (ölüm) vaxtı yaxınlaşmışdır? (Aşkar ayələrdən) sonra hansı sözə iman gətirəcəklər?”**

### *NÖQTƏLƏR*

◘«Mələkut» «Mulk» sözündən olub, hökumət və malikiyyət mənalarını bildirir. Ayədə «mələkut» sözü Allah-təalanın varlıq aləmi üzərindəki mütləq hakimiyyətini bildirir.

### *BİLDİRİŞLƏR*

1. Düşüncə sahiblərinin baxışı dərin, ağıllı, səmərəli və tamdır. (Varlıq aləminin batininə, o aləmlə Yaradan arasındakı əlaqələrə diqqət və bu barədə düşüncə insanın diqqətini Allah-təalaya yönəldir. Tövhid və nübuvvət həqiqətlərini əql və düşüncə ilə anlamaq zəruridir. Bu sahələrdə təqlidə yer yoxdur.)

2. Tövhid nübuvvətin çeşməsi və əsasıdır. Varlıq aləminə diqqət onun təsadüfi olmadığını anladır.

3. Bir çox bədbəxtliklərin səbəbi ölümü yaddan çıxarmaqdır. (Ölüm haqqındakı düşüncələr insandakı inadkarlığı azaldır və xalqı fürsətlərdən istifadəyə, ölüm çatmamış iman gətirməyə çağırır.)

4. Heç bir zərrə boş yerə yaradılmamışdır.

5. Quran və ilahi ayələr yazı və danışıqların ən üstünüdür. Onları qəbul etməmək üçün heç bir üzr yoxdur.

6. Quran və onun maarifinə iman gətirməyən kəs onu doğru yola çağıran heç bir başqa sözə iman gətirməz.

7. Təbiət aləminə diqqət şəriətə imanın səbəblərindəndir.

---

[1] Bax: “Zariyat”, 52.

### *(AYƏ: 186)*

﴿ مَن يُضْلِلِ اللّهُ فَلاَ هَادِيَ لَهُ وَيَذَرُهُمْ فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ ﴾

**“Hər kəsi Allah (günah və əməlinə görə) azdırsa, onu doğru yola gətirə bilən kimsə tapılmaz. (Allah-təala) onları öz azğınlıq və tüğyanlarında boşlayar ki, avara qalsınlar.”**

### *BİLDİRİŞLƏR*

1. Peyğəmbərlərin xəbərdarlıqlarına qulaq asmayanlar və onların buyruqları haqqında düşünməyənlərin cəzası ilahi qəhr-qəzəbə giriftarlıq və özbaşına buraxılmaqdır.

2. İnsanı azdıran da Allahdır. Amma belə bir aqibətə şərait yaradan insanın niyyət və əməlidir. İnsan öz çirkin niyyət və əməli ilə qəlbini korladığından, bu qəlb ilahi hidayəti qəbul etmir. Bu həqiqəti təsdiqləyən başqa ayələr də var.[1]

3. Xalq tüğyan və azğınlığa məcbur edilmir. Azğınlıq insanın öz seçiminin nəticəsidir. (İnsan öncədən pis yaradılmır.)

4. Zalım hakimlər avaradırlar.

5. Allahın hidayəti olmasa, insanın azğınlığı davamlı olar.

### *(AYƏ: 187)*

﴿يَسْأَلُونَكَ عَنِ السَّاعَةِ أَيَّانَ مُرْسَاهَا قُلْ إِنَّمَا عِلْمُهَا عِندَ رَبِّي لاَ يُجَلِّيهَا لِوَقْتِهَا إِلاَّ هُوَ ثَقُلَتْ فِي السَّمَاوَاتِ وَالأَرْضِ لاَ تَأْتِيكُمْ إِلاَّ بَغْتَةً يَسْأَلُونَكَ كَأَنَّكَ حَفِيٌّ عَنْهَا قُلْ إِنَّمَا عِلْمُهَا عِندَ اللّهِ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَعْلَمُونَ﴾

**“Səndən Qiyamətin nə vaxt bərpa olacağı haqqında soruşurlar. De ki, həmin elm yalnız Rəbbimə məxsusdur. Ondan başqa heç kim həmin vaxtı aşkarlaya bilməz. (Qiyamətin yetişməsi) səmalarda və yerdə ağırdır. O yalnız qəfildən qopar. Səndən elə soruşurlar ki, sanki onun vaxtından tam xəbərdardırlar! De ki, bu yalnız Rəbbimə məlumdur, amma xalqın çoxu bilməz.”**

### *NÖQTƏLƏR*

◘Qüreyş kafirləri yəhudi alimlərinin yanına bir dəstə adam göndərib peyğəmbərə ünvanlamaq üçün çətin suallar istədilər. Bu suallardan biri qiyamət hadisəsinin vaxtı ilə bağlı idi.[2]

◘“Əs-saət” dedikdə qiyamətin başlama zamanı, “əl-qiyamət” dedikdə isə hesab-kitab, mükafat və cəza məqamı nəzərdə tutulur.[3] “Mursa” sübut və baş vermə, (“cibalun rasiyat”), möhkəm dağlar, “həfiyy” araşdırma və təhqiq

---

[1] “Bəqərə”, 26; “Mutəffifin”, 14.

[2] “Təfsire-Bürhan”.

[3] “Təfsire-Məraği”.

mənasını ifadə edir. Peyğəmbərin "həfiyy olması" dedikdə onun qiyamət gününün vaxtını Allahdan öyrənməklə araşdırması nəzərdə tutulur. (Əslində belə olmamışdır.)

◘Qiyamətin göylərdə və yerlərdə ağırlığı dedikdə, ola bilsin ki, səma cisimlərinin parçalanması, günəşin sönməsi, yerin alt-üst olması nəzərdə tutulur. "Qiyamətin ağırlığı" dedikdə, həmin gündəki cəzaların ağırlığına da işarə ola bilər. "Kumeyl" duasında oxuyuruq: "Göylərdə və yerdə cəhənnəm əzabına dözmək gücü yoxdur."

◘Həzrət Peyğəmbərdən (s) imam Mehdinin (ə) zühuru və qiyamı haqqında soruşuldu. Həzrət buyurdu: "Onun qiyamı Qiyamətin qopması kimi gözlənilməzdir." Sonra həzrət (s) bu ayəni tilavət etdi. Bu hədis İmam Rizadan (ə) da nəql olunmuşdur.[1]

## *BİLDİRİŞLƏR*

1. Xalq ardıcıl şəkildə peyğəmbərə suallar ünvanlayırdı. Bəzən də Qiyamətin vaxtı haqqında soruşulurdu.

2. Qiyamətin vaxtını Allahdan savay kimsə bilməz. Bəli, bunun gizli saxlanmasında məqsəd insanların daim hazır vəziyyətdə gözləmələridir.

3. Qiyamət öncədən təyin oluna bilməz. O, gözlənilməyən bir vaxtda baş verəcək. ("Bəğtət" sözü o zaman işlədilir ki, insan bir hadisənin baş verəcəyini hətta ehtimal belə etmir.)

4. Qiyamət olduqca ağırdır. Göylərə və yerə ağır gələn hadisənin insana təsirindən danışmağa dəyməz.

5. Bilmədiyimiz şey haqqında soruşulanda "bilmirəm" deməkdən çəkinməyək. Bu ayədə peyğəmbərə iki dəfə göstəriş verilir ki, desin: "Bunu yalnız Allahım bilir." Peyğəmbər digər bir yerdə buyurur: "Özümün və sizin taleyinizi bilmirəm."[2]

6. Qiyamətin xüsusiyyətləri və incəliklərindən xəbərsizliyin nübuvvət və məad əsaslarına zərəri yoxdur. Kimsə öz ölüm vaxtını bilmir. Amma bu o demək deyil ki, ölüm yalandır.

### *(AYƏ: 188)*

﴿قُل لاَّ أَمْلِكُ لِنَفْسِي نَفْعًا وَلاَ ضَرًّا إِلاَّ مَا شَاء اللّهُ وَلَوْ كُنتُ أَعْلَمُ الْغَيْبَ
لاَسْتَكْثَرْتُ مِنَ الْخَيْرِ وَمَا مَسَّنِيَ السُّوءُ إِنْ أَنَاْ إِلاَّ نَذِيرٌ وَبَشِيرٌ لِّقَوْمٍ يُؤْمِنُونَ﴾

**"De ki, Allahın istədiyindən savay heç bir xeyir və ziyana malik deyiləm. (Allahın bildirdiyindən savay, qeyblə bağlı bir şey bilmirəm.) Əgər qeybi bilsəydim, özüm üçün bir çox xeyirlər əldə edərdim və heç vaxt mənə zərər dəyməzdi. Mən iman gətirən qövmə yalnız xəbərdarlıq edən və müjdə verənəm."**

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Əhqaf", 9.

## *NÖQTƏLƏR*

◘Ayə və rəvayətlərdən məlum olur ki, peyğəmbərlər və Allahın övliyaları qeyb elmindən xəbərdar olmuşlar. Amma bəzi ayə və rəvayətlər onların bu elmdən xəbərsiz olduğunu bildirir. Bunu necə izah etmək olar?

a) Qeyb elmindən xəbərsizlik dedikdə, bu elmin öyrənilməsinin insanın ixtiyarında olmaması nəzərdə tutulur. Elə bir bilgi yalnız ilahi iradə, ilham və vəhy yolu ilə əldə oluna bilər. «Filan ölkədə neft yoxdur» dedikdə, yerin üstü yox, altı nəzərdə tutulur. Yəni həmin ölkənin neft quyuları yoxdur.

b) Qeyb elmi iki növdür: peyğəmbərə vəhy olunmuş Quran kimi qeyb elmi[1]; Allaha məxsus qeyb elmi. Allaha məxsus qeyb elmindən kimsə xəbər tuta bilməz. Qiyamətin vaxtı da həmin elmin əhatəsindədir. Deməkk, peyğəmbərlər yalnız Allaha məxsus olan qeyb elmindən xəbərsizdirlər.

v) Peyğəmbərlərə müraciət edənlər də fərqli olmuşlar. Onlardan bəziləri mübaliğə əhli olduğundan peyğəmbərlər və məsum imamlar onlara sadəcə “biz qeybi bilmirik” demişlər. Amma bəzən qarşı tərəfin mərifətini artırmaq üçün onlara qeyb elmindən qismən bəyan olunmuşdur.

d) Qeyb elmindən xəbərsizlik dedikdə, zehni hüzura malik olmamaq nəzərdə tutulur. Amma rəvayətlərdə bildirilir ki, məsum imamların istədikləri vaxt müraciət edə biləcəkləri nur sütunlar olmuşdur. Adi halda insan bilmədiyi bəzi şeyləri qeyd dəftərçəsinə baxmaqla qarşı tərəfə çatdırır.

b) Qeyb elmindən xəbərdarlıq kamal nişanəsi sayılmaya da bilər. Məsələn, Peyğəmbər (s) üçün təhlükə yarandıqda onun yatağında yatarkən Həzrət Əli (ə) öldürülməyəcəyini bilsəydi, bu hərəkət onun üçün kamillik sayılmazdı. Çünki təhlükə olmadığı əvvəlcədən bilindikdə o işə hamı hazır olur.

q) Qeyb elminin verilməsində məqsəd insanların hidayət və tərbiyəsi ola bilər. Xeyir və zərər umacağı olan yerdə Allah-təala qeyb elmini mərhəmət etmir. Məqsəd bəşəriyyətin hidayəti olduqda Allah zəruri bilikləri öz övliyalarına çatdırır. Necə ki, belə bir məlumat əsasında həzrət İsa öz ətrafındakılara buyurdu: “Mən evinizdə azuqə topladığınız şeylərin adını deyə bilərəm.”[2]

◘Bəzi təfsirçilər nəql edirlər ki, Məkkə əhli həzrət Peyğəmbərə (s) dedi: “Əgər Allahla rabitən varsa, nə üçün qarşıdakı bahalaşma və ucuzlaşmadan xəbər tutmursan? Bu yolla mənfəət əldə edər, ziyandan qaça bilərsən.” Bu vaxt yuxarıdakı ayə nazil oldu.[3]

## *BİLDİRİŞLƏR*

1. İmanı daha artıq olan insan Allahın istək və iradəsinə daha çox təslim olur. Belə bir bəndə öz acizliyini daha çox hiss edir.

---

[1] Bax: “Hud”, 49.

[2] Bax: “Ali-Imran”, 49.

[3] “Təfsire-Məcməül-bəyan”, “Təfsire-nümunə”.

2. Bütün mənfəət və zərərləri Allahın istək və iradəsindən asılı bilək.

3. Peyğəmbər (s) qeyb elmini öz-özünə, şəxsi həyatı üçün öyrənməyib. Qeyb elmi ona Allah tərəfindən peyğəmbər olduğu üçün verilib.

4. Qiyamətin bərpa vaxtı qeybi məlumatlardandır.

5. Gələcəkdən xəbərdarlıq rifah və asayiş, gələcəkdən xəbərsizlik isə zərər və çətinlik zəminəsidir.

6. Peyğəmbər də başqaları kimi çətinlik içində yaşamışdır.

7. Peyğəmbər (s) bütün bəşəriyyətə müjdə verir və onları qorxudurdu. Amma yalnız möminlər onun təsiri altında idi.

***(AYƏ: 189)***

﴿هُوَ الَّذِي خَلَقَكُم مِّن نَّفْسٍ وَاحِدَةٍ وَجَعَلَ مِنْهَا زَوْجَهَا لِيَسْكُنَ إِلَيْهَا فَلَمَّا تَغَشَّاهَا حَمَلَتْ حَمْلاً خَفِيفًا فَمَرَّتْ بِهِ فَلَمَّا أَثْقَلَت دَّعَوَا اللّهَ رَبَّهُمَا لَئِنْ آتَيْتَنَا صَالِحاً لَّنَكُونَنَّ مِنَ الشَّاكِرِينَ﴾

**«Sizi bir candan (nəfsdən) yaradan Allah Odur. Zövcəsini özündən (onun növündən) qərar verdi ki, onunla aramlıq tapsın. Elə ki onunla yaxınlıq etdi, yüngül bir yüklə yükləndi. (hamilə oldu). (Bir müddət) onunla dolandı. Qadın ağırlaşdığı vaxt onlar ikisi (ərlə arvad) Allahdan - öz Rəblərindən istədilər: "Əgər bizə ləyaqətli bir övlad versən, hökmən şükür edənlərdən olarıq."»**

***BİLDİRİŞLƏR***

1. Qadın və kişi vücudunun gövhəri eynidir.

2. İzdivac (evlənmə) və həyat yoldaşı insan ruhunun və həyatın aramlıq amilidir. İzdivac psixoloji sarsıntıları aradan qaldırır.

3. Həyatın əsası ixtilaf və parçalanma yox, ünsiyyət və ülfət üzərində qurulub.

4. Cinsi məsələlər haqqında üstüörtülü danışaq.

5. Ərlə arvad xəlvətdə yaxınlıq etməlidir.

6. Bətndəki körpə ananın hazırlığına uyğun olaraq tədricən inkişaf edir.

7. Nə qədər ki, insanın yükü ağırlaşmayıb, o öz məsumiyyətinə diqqətsizdir. Çətinliklər Allaha diqqət, mənəvi halın yaranması, insanın qəlbinin və vicdanının oyanması vasitəsidir. Necə ki, hamilə qadınlar Allahın təqdirindən xəbərsiz olduqlarından daim iztirab keçirir, istənilən moizə-nəsihəti qəbul edirlər.

8. Ata-ana övladın taleyi üçün məsuliyyət hiss edir.

9. İnsanda nəsil və övladın davamına fitri bir meyl var.

10. Övladı özümüzdən və ya başqa bir vasitədən yox, Allahdan bilək.

11. Cinsi yaxınlıq təkcə ləzzət üçün yox, həm də saleh nəslin davamı üçündür.

12. İnsan fitrətən biganəlik və fəsada yox, sülh və islaha meyillidir.

13. Övladın düzgün tərbiyəsi üçün o, dünyaya gəlməmişdən çalışmaq və Allahdan yardım diləmək lazımdır.

***(AYƏ: 190)***

﴿ فَلَمَّا آتَاهُمَا صَالِحاً جَعَلاَ لَهُ شُرَكَاء فِيمَا آتَاهُمَا فَتَعَالَى اللّهُ عَمَّا يُشْرِكُونَ ﴾

**“Elə ki, o iki nəfərə saleh bir övlad verildi, onlar əta olunmuş şeydə Allaha şərik qərar verdilər. Amma Allah Ona şərik qərar veriləndən üstündür.”**

***(AYƏ: 191)***

﴿ أَيُشْرِكُونَ مَا لاَ يَخْلُقُ شَيْئاً وَهُمْ يُخْلَقُونَ ﴾

**“Yoxsa Allaha o şeyləri şərik qərar verirlər ki, bir şey yaratmamış və özləri yaranmışlar?!”**

***BİLDİRİŞLƏR***

1.Övlad həm ataya, həm də anaya aiddir.

2. Allah layiqli və saleh övlad verir. Övladın azğınlığının səbəbkarı biz özümüzük.

3. İnsanlar sıxıntıya düşdükdə əhdə vəfa qılır, rifah halında vəfasızlıq göstərirlər.

4. Övlad ilahi bir hədiyyədir. Ata-ana övladın müsbət cəhətlərini və sağlamlığını müstəqil şəkildə özündən və ya həkimdən bilməməlidir. Bu, şirkin bir növüdür.

5. Məbud üçün ilk şərt yaranış qüdrətidir. Bu günkü elm və mədəniyyət dünyasında da milyonlarla insan bütpərəst qalmaqdadır.

***(AYƏ: 192)***

﴿ وَلاَ يَسْتَطِيعُونَ لَهُمْ نَصْرًا وَلاَ أَنفُسَهُمْ يَنصُرُونَ ﴾

**“(Bu məbudların) onlara yardım gücü yoxdur. Onlar hətta özlərini də müdafiə edə bilmirlər.”**

***(AYƏ: 193)***

﴿ وَإِن تَدْعُوهُمْ إِلَى الْهُدَى لاَ يَتَّبِعُوكُمْ سَوَاء عَلَيْكُمْ أَدَعَوْتُمُوهُمْ أَمْ أَنتُمْ صَامِتُونَ ﴾

**“Əgər onları hidayətə çağırsanız, sizə tabe olmazlar. Onları dəvət etmək və ya sakit qalmaq sizin üçün birdir!”**

### *NÖQTƏLƏR*

◘“Onları hidayətə çağırsanız” təbirində məqsəd bu ola bilər ki, saxta məbudlar hidayət istəklərinə cavab vermirlər. Müşriklər öz bütlərini ağıllı bilib onlara sitayiş edir, yardım diləyirdilər. Ayə öz təbirləri ilə onların bu batil düşüncəsinin üzərindən xətt çəkir.

◘Quran müxtəlif təbirlərlə[1] əşya və ya fərdin gücsüzlüyünü və qeyri müstəqilliyini önə çəkərək, belə inanclara qadağa qoyur.

### *BİLDİRİŞLƏR*

1. Yardım göstərmək gücü olmayan və özünü müdafiə edə bilməyən varlıqlara pərəstiş rəva deyil.

2. İnsan pərəstişə layiq olmadığı halda, insandan əskik və özünü hidayət edə bilməyən mövcudlara necə pərəstiş etmək olar?!

### *(AYƏ: 194)*

﴿ إِنَّ الَّذِينَ تَدْعُونَ مِن دُونِ اللّهِ عِبَادٌ أَمْثَالُكُمْ فَادْعُوهُمْ فَلْيَسْتَجِيبُواْ لَكُمْ إِن كُنتُمْ صَادِقِينَ ﴾

**“Həqiqətən, Allah əvəzinə çağırdığınız kəslər sizin özünüz kimi bəndələrdir. Əgər doğru deyirsinizsə, onları çağırın, sizə cavab versinlər.”**

### *NÖQTƏLƏR*

◘Ayədəki “ibad” sözü Allah kimi tanıtdırılan insanlara işarə ola bilər. Həzrət İsa, mələklər bu qəbildəndirlər. Eləcə də, “ibad” bütpərəstlərin “ilah” adlandırdığı bütlər ola bilər. “İbad” sözü “məxluqlar” mənasında qəbul edilsə, onu Allah yerinə pərəstiş edilən istənilən bir şeyə aid etmək mümkündür.

### *BİLDİRİŞLƏR*

1. İnsan dəlil əsasında pərəstiş etməlidir. Məbud (ibadət edilən şey) abiddən (ibadət edəndən) üstün olmalıdır. Məxluqlara, eləcə də özümüz kimi insanlara pərəstiş etməyə heç bir dəlil yoxdur. İqbal Lahuri bu barədə deyir:

***Bəsirətin verən–bəndəyə bəndə,***
***Daş ardınca gəzir gövhər əlində.***
***Öz xasiyyətində itdən də əskik,***
***İt də baş əymədi itin önündə.***

2. Yalnız öz qulunun harayına gələn məbud pərəstişə layiqdir. Məbud öz bəndəsinin ehtiyaclarını aradan qaldırmalı, onu təkamülə sövq etməlidir. Məbudla bəndə arasında qarşılıqlı rabitə olmalıdır. (Bütpərəstlər isə bütləri çağırdıqları halda bütlər onlara cavab vermir.)

3. Bəndənin çağırışına məbudun cavab verməməsi onun acizliyi və yalançı məbud olmasının nişanəsidir.

---

[1] Bax: “Rəd”, 16.

## *(AYƏ: 195)*

﴿أَلَهُمْ أَرْجُلٌ يَمْشُونَ بِهَا أَمْ لَهُمْ أَيْدٍ يَبْطِشُونَ بِهَا أَمْ لَهُمْ أَعْيُنٌ يُبْصِرُونَ بِهَا أَمْ لَهُمْ
آذَانٌ يَسْمَعُونَ بِهَا قُلِ ادْعُواْ شُرَكَاءكُمْ ثُمَّ كِيدُونِ فَلاَ تُنظِرُونِ﴾

**“Məgər onların (məbudların) ayaqları varmı ki, yol gedələr? Yoxsa qüdrətlərini göstərmək üçün əlləri var? Ya görmək üçün gözləri, eşitmək üçün qulaqları var? (Ey Peyğəmbər,) de ki, öz (uydurma) şəriklərinizi çağırın, mənə qarşı plan cızın və heç bir möhlət verməyin! (Bu yolla biləsiniz ki, onların əlindən heç bir iş gəlmir.)”**

### *NÖQTƏLƏR*

◘“Bətş” sözündən olan “yəbtişun” sözü qüdrət göstərmək (yolu ilə əldə etmək) mənasını bildirir.

◘Bu ayə özündən də aciz varlıqları Allaha şərik qərar verənləri məzəmmət edir. Onlar özləri yol gedib, görüb-eşitdikləri halda, bunları da bacarmayan ruhsuz heykəllərə sitayiş edirlər. Əgər bu məbudlar heç bir istəyə cavab vermirsə, nə üçün onlara pərəstiş edilməlidir?

### *BİLDİRİŞLƏR*

1. İlahi rəhbərdə düşmənlə üzbəüz gəlmək, mübahilə (yalançıya lənət istəyi) qüdrəti olmalıdır. O, batil qüvvəni öz qüdrətini işə salmağa dəvət etməlidir ki, batilin acizliyi sübuta yetsin.

2. Əgər müşriklərə əli-ayağı olan dostları yardım edə bilmirsə, əlsiz-ayaqsız şəriklər necə yardım edəcək?

3. «Müşriklər adi bəşərdir» deyə, peyğəmbərə itaət etmədikləri halda özlərindən də əskik bütlərə pərəstiş edirlər.

4. Dəlillər gətirilməsi, tənqidlə yanaşı suallar ünvanlanması, məzəmmət, hədələmə, mübarizəyə çağırış təbliğ və tərbiyənin ən üstün metodlarındandır.

## *(AYƏ: 196)*

﴿ إِنَّ وَلِيِّـيَ اللّهُ الَّذِي نَزَّلَ الْكِتَابَ وَهُوَ يَتَوَلَّى الصَّالِحِينَ ﴾

**“Həqiqətən, mənim mövlam, himayəçim bu səmavi kitabı nazil etmiş və bütün salehlərə himayə göstərən Allahdır.”**

### *NÖQTƏLƏR*

◘Ötən ayələrdə batil məbudların acizliyi bəyan olundu. Bu ayədə isə qadir Allah tanıtdırılır.

◘Salehlərin Allah hüzurunda uca məqamları var. Bütün peyğəmbərlər saleh olmuşlar.[1] Onlar daim Allaha qovuşmaq arzusunda olmuşlar.[2] Biz də hər namazımızın sonunda onlara salam göndəririk.

---

[1] “Ənam”, 85.

[2] Bax: “Yusuf”, 101.

### *BİLDİRİŞLƏR*

1. Allah Quran vasitəsi ilə peyğəmbərlərə yardım göstərib onları sığortaladı.

2. Salehlər Allahın himayədarlığına diqqətləri sayəsində müqavimət göstərmiş, kimsədən çəkinməmişlər.

3. Allahın mömin insanla çox yaxın rabitəsi var.

4. Səmavi kitabın göndərilməsi ilahi vilayətdən bir nümunədir.

5. Həqiqi məbud həm konkret proqram təqdim edir, həm də bu proqramın icrasında ardıcıllara himayə göstərir.

6. Tənhalıqdan çəkinməyin, Allah salehlərin himayəçisidir. O, salehlərə yardım vəd etmişdir.

7. İnsanı çətinliyə salan ya proqramın, ya da himayəçinin olmamasıdır. Mömin insan üçün belə çətinliklər yoxdur.

8. Allahın Öz saleh övliyaları üzərində daimi və ümumi hakimiyyəti var. Kafir şəxs ilahi yardımlar dairəsindən kənardadır.[1]

9. Saleh və xeyirxah möminlər çıxılmaz vəziyyətdə qalmırlar. Digər bir ayədə buyurulur: "Allah möminlərin hamisidir, onları qaranlıqlardan nura çıxarır."[2]

### *(AYƏ: 197)*

﴿ وَالَّذِينَ تَدْعُونَ مِن دُونِهِ لاَ يَسْتَطِيعُونَ نَصْرَكُمْ وَلآ أَنفُسَهُمْ يَنْصُرُونَ ﴾

**"Allahın yerinə çağırdığınız kəslər (bütlər) nə sizə, nə də özlərinə yardım göstərə bilər."**

### *(AYƏ: 198)*

﴿ وَإِن تَدْعُوهُمْ إِلَى الْهُدَى لاَ يَسْمَعُواْ وَتَرَاهُمْ يَنظُرُونَ إِلَيْكَ وَهُمْ لاَ يُبْصِرُونَ ﴾

**"Əgər onları hidayətə çağırsan, eşitməzlər və görərsən ki, sənə baxırlar. Halbuki onlar görmürlər (onların baxışında heç bir şüur və diqqət yoxdur)."**

### *NÖQTƏLƏR*

◘Ötən ayələrdən məlum oldu ki, həqiqi məbud və Rəbb xaliq və malik, yardımçı, istək və duaları yerinə yetirən, imkanlı və qüdrətli, eşidən və görən, düşmənin hiyləsini puç edə bilən, kitab və qanun göndərən və salehlərin himayəçisi olmalıdır.

### *BİLDİRİŞLƏR*

1.Bütpərəstlərin məqsədi Quranın rədd etdiyi bütlərdən yardım diləməkdir.

---

[1] "Muhəmməd", 11.

[2] "Bəqərə", 257.

2. Bütlər və qeyri-ilahi məbudlar özlərini də qorumaq imkanında deyildirlər.

3. Şüuru, iradəsi və qüdrəti olmayan məbudlar pərəstişə layiq deyildirlər.

***(AYƏ: 199)***

﴿ خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ ﴾

**“Sən əfv, miyanəçilik yolunu tut (xalqın üzrünü qəbul et, onları çətinliyə salma), ağıl bəyənən yaxşı işləri əmr et və cahillərdən üz döndər.”**

***NÖQTƏLƏR***

◘“Əfv” sözü orta hədd, miyanə, xatakarın üzrünün qəbulu, onların bağışlanması, çətinlik yaratmamaq kimi bir çox mənalara malik olsa da, birinci məna daha münasib görünür.

◘“Xuzil-əfv” dedikdə, bağışlama hissinin nəzarət altına alınması və yerində istifadəsi nəzərdə tutulur. Çünki bəzən sərt rəftar etmək lazımdır.[1] “Əriz ənil-cahilin” deyərkən, cahillərin başlı-başına buraxılması yox, onlara meyl göstərilməməsi anlaşılır. Bununla belə, bəzən onlara moizə-nəsihət vermək lazım gəlir.[2]

◘Bu ayə bütün əxlaqi göstərişləri sadə və yığcam şəkildə bəyan edir. “Əfv” fərdi, “əmr” dostla, “əriz” düşmənlə rəftarı açıqlayır. Burada “əmr” sözü ilə dildə, “əriz” sözü ilə əməldə istiqamət müəyyənləşdirilir. “Xuz” müsbət, “əriz” mənfi fəaliyyətə işarədir. Ayədə həm rəhbər, həm də ümmət, həm ötən dövr, həm də indiki zaman üçün vəzifələr bəyan olunur. İmam Sadiq (ə) buyurmuşdur: “Quranda əxlaqla bağlı bundan yığcam ayə yoxdur.”[3] Şübhəsiz ki, əfv göstərişi ictimai yox, şəxsi haqlara aiddir.

◘Bu ayə nazil olduğu vaxt həzrət Peyğəmbər (s) Cəbraildən həmin göstərişə əməl qaydası haqqında soruşdu. Cəbrail belə bir göstəriş gətirdi: «Sənə zülm edəndən keç, səni məhrum qoyana əta et. Səninlə rabitəni kəsənlə əlaqə qur.»[4]

◘Bu surə başdan-başa miyanəçiliyə (orta həddi gözləməyə) dəvət edir.[5] Həzrət Musa və Həzrət Məhəmməd (s) ümməti arasında haqq-ədalətin icra forması 157 və 181-ci ayələrdə bəyan olunur.

***BİLDİRİŞLƏR***

1. Daim orta həddi gözləmək lazımdır.
2. İnsana gücü həddində vəzifə təyin olunmalıdır.

---

[1] “Nur”, 2.
[2] “Nisa”, 63.
[3] “Təfsire-Fürqan”.
[4] “Təfsire-Məcməül-bəyan”. “Bihar”, c. 17, s. 114.
[5] Bax: ayə 29, 31,32, 56, 74,85.

3. Yaxşı olmaq azdır, cəmiyyətdə yaxşılığı yaymaq, başqalarına tövsiyə etmək zəruridir.

4. Ayə təkcə peyğəmbərə ünvanlanmamışdır. Hər bir müsəlman, təbliğçi və islahçı şəxs inadkarlardan, pis danışan cahillərdən üz döndərməli və onların böhtanlarına səbirlə yanaşmalıdır. Tələsik dava-dalaş salmağa dəyməz.

5. İnsanları yaxşılığa çağırmaq, həm də gözəl şəkildə çağırmaq lazımdır.

6. «Çəkinmək» dedikdə, savadsızlardan yox, cahillərdən çəkinmək nəzərdə tutulur. Quran və rəvayət dilində cəhalət əqlin antonimi kimi işlədilir.

7. Uzaqlaşma, bağışlama qaydalarında möhkəm olmaq, cahillərin istək və sözlərinə məhəl qoymamaq lazımdır.

***(AYƏ: 200)***

﴿ وَإِمَّا يَنزَغَنَّكَ مِنَ الشَّيْطَانِ نَزْغٌ فَاسْتَعِذْ بِاللّهِ إِنَّهُ سَمِيعٌ عَلِيمٌ ﴾

**“Əgər şeytan tərəfindən zərrəcə vəsvəsə, təhrik və pis niyyətə məruz qalsan, Allaha pənah apar. Şübhəsiz, O, eşidən və biləndir.”**

***NÖQTƏLƏR***

◘“Nəzğ” dedikdə fəsad və təhrik məqsədi ilə bir işə başlamaq nəzərdə tutulur.

◘Bu surənin 16-27-ci ayələrində şeytanın həzrət Adəmə yönəlmiş vəsvəsələri bəyan olunur. Surənin sonunda da şeytanın vəsvəsələrindən söz açılır.

◘Ötən ayədə cahillərdən uzaqlıq tövsiyə olunurdu. Həzrət Peyğəmbər (s) bununla bağlı Cəbraildən soruşdu: “Qəzəb olan yerdə necə dözmək olar?” Bu ayə nazil oldu.[1] Şübhəsiz ki, «pənah aparmaq» dedikdə, təkcə dildə “əuzu billah” demək nəzərdə tutulmur. «Allaha pənah aparmaq» deyərkən, Onunla ruhən əlaqə yaratmaq, təvəkkül edib özünü Allaha tapşırmaq başa düşülür.

◘Bütün peyğəmbərlər məsum olsalar da, şeytanın vəsvəsələrinə məruz qalmışlar.[2] Müxtəlif ayələrdən belə məlum olur ki, peyğəmbərlərin həm cin, həm də insanlardan müxalifləri olmuşdur. Peyğəmbərliyin üstünlüyü ondadır ki, onlar bir insan kimi nəfs istəklərinə malik olduqları və şeytanın vəsvəsələrinə tuş gəldikləri halda, saleh, təqvalı, günahdan uzaq insanlar olmuşlar.

Əslində şeytan öz vəsvəsələri ilə bütün bəşəriyyəti azdırmaq fikrindədir. Amma o, xalis bəndələri məğlub edə bilmir.[3]

***BİLDİRİŞLƏR***

1. Günah və vəsvəsə ehtimalı bu işlərin hökmən olacağını göstərmir. Bu sadəcə bir xəbərdarlıqdır. Bir ayədə buyurulur: “Əgər şirkə yol versən, əməlin

---

[1] “Təfsire-nümunə”. “Təfsire-əl-mənar”.
[2] Bax: “Ənam” 112.
[3] Bax: “Sad”, 82, 83.

puç olar."[1] Uyğun ayədə şirk ehtimalı onun hökmən baş verəcəyinə dəlil deyil.

2. Şeytanın vəsvəsələri qaçılmazdır.

3. Şeytanın vəsvəsələri daimidir.

4. Şeytanın ən kiçik vəsvəsələrinə də diqqətli olmalıyıq. Bu vəsvəsələrdən Allaha pənah aparmaq və onun himayəsinə sığınmaq lazımdır.

5. Peyğəmbərlər məsumdurlar və onların günahsızlığının bir səbəbi Allahdan yardım diləmələri və ona pənah aparmalarıdır.

6. Şeytanın vəsvəsələrinin ən yaxşı çarəsi Allaha sığınmaqdır.

7. Peyğəmbərlərin də Allahın pənahına sığınmağa ehtiyacları vardır.

8. Təhlükə məqamında xüsusi diqqət və ayıqlıq lazımdır.

9. Şeytanın vəsvəsələri çeşidli olduğundan pənah apararkən bütün sifətləri özündə əks etdirən Allah adına pənah aparmaq lazımdır. (Ayədə "bil-qəniyy" və ya "bil-əlim" yox, "billah" buyurulmuşdur.)

10 Bütlərə, hər hansı xurafata yox, eşidən və bilən, bütün sirlərdən agah olan Allaha pənah aparmaq lazımdır.

***(AYƏ: 201)***

﴿ إِنَّ الَّذِينَ اتَّقَواْ إِذَا مَسَّهُمْ طَائِفٌ مِّنَ الشَّيْطَانِ تَذَكَّرُواْ فَإِذَا هُم مُّبْصِرُونَ ﴾

**"Həqiqətən, təqva yolunu seçən kəslərə şeytan yaxınlaşdıqda, onlar diqqət yetirirlər (Allahı yad edirlər). Beləcə, görən olurlar."**

***(AYƏ: 202)***

﴿ وَإِخْوَانُهُمْ يَمُدُّونَهُمْ فِي الْغَيِّ ثُمَّ لاَ يُقْصِرُونَ ﴾

**"(Şeytansifət, azğın) qardaşları onları azğınlığa çəkir, tutub saxlayır və (bu işdə) heç bir səhlənkarlıq göstərmirlər."**

***NÖQTƏLƏR***

◘"Məss" dedikdə toxunmaqla yaxınlıq mənası başa düşülür. Təvaf edən şəxsə "taif" deyilir. Şeytani vəsvəsələr insanın düşüncə və ruhu ətrafında sanki təvaf edirlər. Onlar insana nüfuz yolu axtarırlar.[2]

◘Ayədə diqqətdən danışılarkən, ola bilsin ki, Allahın eşidən və bilən olmasına diqqət nəzərdə tutulur. Yəni bu insanlar anlayırlar ki, Allah onların işlərini görür, sözlərini eşidir. Allahın hüzuruna bu sayaq diqqət onları günahdan çəkinməyə vadar edir. İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: "Günah vəsvəsələri insana yaxınlaşdığı vaxt, o, Allahı yada salıb həmin işdən çəkinir.[3] Bəzi rəvayətlərdə şeytanın vəsvəsələrini dəf etmək üçün "la ilahə illəllah" zikrini oxumaq tövsiyə olunur.[4]

---

[1] "Zumər", 65.
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-Nurus-səqəleyn".
[4] "Təfsire-isna-əşəri".

◘Bəzən şeytan uzaqdan-uzağa insana vəsvəsə edir.[1] Bəzən isə vəsvəsə insanın ruhuna, canına nüfuz etməklə,[2] bəzən insanla yoldaşlıqla[3], bəzən isə rabitə və təmasla həyata keçir.

***BİLDİRİŞLƏR***

1. Şeytan təqvalı və mömin insanların da sorağına gedir.

2. Şeytanlar insanları azdırmaq üçün daim axtarışda, təvafdadırlar. (Nəfsani və şeytani vəsvəsələr mikrob tək hər yeri bürüyüb, zəif imanlı insanlara nüfuz əzmindədir.)

3. Bəzən alimlər, tərbiyəçilər və islahatçılar azğın xəttin təlqinində şübhəli təmaslara məruz qala bilərlər. (Özləri də bilmədiyi halda azğın yolu təlqin edərlər.) Onlar ayıq olmalı, düşmənin planlarına rəvac verməməli və Allaha pənah aparmalıdırlar.

4. Allah zikri insanın bəsirətini gücləndirir və onu vəsvəsələrdən qoruyur.

5. Təqvalı insan Allaha diqqətlidir, şeytanı tanıyır və agahdır.

6. Günahkarlar, şeytana tabe olanlar kor, şeytanın qurğularından nicat tapanlar isə görəndirlər.

7. Əgər cəmiyyət əxlaqi, siyasi, iqtisadi və hərbi baxımdan pak və təqvalı olarsa, şeytansifətlərlə təmas və get-gəl onlara təsir etməz.

8. Təqva və zikr olmayan yerdə şeytanlar insanla qardaşlaşır, onların təmasları asan və təsirli olur. Belə bir məqamda onlar insanı azğınlığın dərinliyinə çəkirlər.

9. Azğınlıq yolunun sonu və həddi yoxdur.

10. Allah təqvalı salehləri Öz himayəsinə alır. Təqvasızlar isə şeytanla qardaşlığa düçar olurlar.

11. Şeytanlar onlarla qardaşlaşan insanları azdırdıqdan sonra da əl çəkmir, onları azğınlıq uçurumuna yuvarladırlar.

12. Şeytansifətlər azğınlıq yolunda kimsəyə rəhm etmir, kimsədən əl çəkmirlər.

***(AYƏ: 203)***

﴿ وَإِذَا لَمْ تَأْتِهِم بِآيَةٍ قَالُواْ لَوْلاَ اجْتَبَيْتَهَا قُلْ إِنَّمَا أَتَّبِعُ مَا يِوحَى إِلَيَّ مِن رَّبِّي هَذَا
بَصَآئِرُ مِن رَّبِّكُمْ وَهُدًى وَرَحْمَةٌ لِّقَوْمٍ يُؤْمِنُونَ ﴾

**“Əgər onlara bir ayə gətirməsən deyərlər: “Nə üçün bir ayə çıxarmırsan?” De ki, mən yalnız mənə Rəbbim tərəfindən vəhy olunana itaət edirəm. Bu (Quran) Rəbbiniz tərəfindən bir bəsirətdir və iman gətirənlər üçün hidayət və rəhmət qaynağıdır.”**

---

[1] Bax: “Taha”, 120.
[2] Bax: “Nas”, 5.
[3] Bax: “Zuxruf”, 36.

## *NÖQTƏLƏR*

◘"Cəbayət" sözündən olan "ictəba" sözü hovuzda su toplamaq mənasını bildirir. Hovuz isə "cabih" adlandırılmışdır. Vergi toplanmasına da "cəbayət" deyirlər. Seçilmiş şeylərin toplanması isə "ictəba" sözü ilə ifadə olunur.

Ayə belə anlaşıla bilər ki, nə üçün səndən istənilən möcüzəni yox, başqa bir möcüzə gətirdin və bizim istəyimizə uyğun hərəkət etmədin?

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Əgər xoşbəxt bir həyat, şəhadətsayaq bir ölüm, Qiyamətin isti və yandırıcı günündə qurtuluş istəyirsinizsə, Quran öyrənin. Çünki Allahın kəlamı rəhmətdir və Qiyamətdə şeytandan və mizan ağırlığından qurtuluş səbəbidir."[1] Digər bir rəvayətdə buyurulur: "Quran dinimizin kamalıdır. Qurandan üz çevirən kəsin yeri oddur."[2]

## *BİLDİRİŞLƏR*

1. Quran ayələri möcüzədir və həzrət Peyğəmbərin (s) risalətinin gerçəklik nişanəsidir.

2. Quran ayələri bəzən uzun fasilədən sonra nazil olmuşdur.

3. Təbliğatçı hər gün yeni sözlər danışmağa borclu deyil. Bəzən də susmaq lazımdır.

4. Kafirlər elə hesab edirdilər ki, Quran həzrət Peyğəmbərin (s) seçdiyi mövzulardan ibarətdir. Onların nəzərincə, peyğəmbərə vəhy nazil olmur, o, oxuduğu ayələri oradan-buradan seçir.

5. Bəhanəçi kafirlər ayələr arasında fasilə yarandıqda Peyğəmbərə (s) irad tuturdular.

6. Səmavi rəhbər bəhanəçi və gündə bir bəhanə gətirən insanların təsiri altına düşməməlidir. Bəhanələrə aydın və qəti şəkildə cavab verilməməlidir.

7. Peyğəmbər yalnız vəhy çeşməsindən göstəriş alırdı. O özündən heç bir söz demirdi.

8. Vəhy peyğəmbər və ümmətin tərbiyə vasitəsi, Allahın rübubiyyət şənidir.

9. Quranın haqq yola çağırışları xalisdir və onlarda zərrəcə qatqı yoxdur. "Had" "Huda" əvəzində sözünün işlədilməsi Quranın başdan-başa hidayət olmasını göstərir.)

10. Çağırış və hidayət bəsirətə əsaslanmalıdır.

11. Quran həm düşüncə ilə bağlı mərifət və bəsirət kitabı, həm də haqq yola və əməli hərəkətə yönəldən kitabdır. Qurana itaət hər iki dünyada rəhmət və bərəkətlə nəticələnir.

12. Quran hamı üçün hidayət kitabı olsa da, yalnız iman sahibləri ondan bəhrələnir. İlahi bəsirət və hidayətdən uzaq olan qəlbi korlar özlərini bu rəhmətdən məhrum edirlər.

---

[1] "Bihar", c. 89, s. 17.

[2] "Kafi", c. 2, s. 600.

*(AYƏ: 204)*

﴿ وَإِذَا قُرِىءَ الْقُرْآنُ فَاسْتَمِعُواْ لَهُ وَأَنصِتُواْ لَعَلَّكُمْ تُرْحَمُونَ ﴾

**“Quran oxunduğu vaxt onu dinləyin və sakit olun. Ola bilsin ki, sizə rəhm edilə.”**

***NÖQTƏLƏR***

◘“İnsat” dedikdə dinləmək üçün sakit dayanmaq nəzərdə tutulur.

◘Ayədə deyilir: Quran tilavət olunan vaxt ədəb göstərərək sakit olub ayələrə qulaq asın. Əlbəttə ki, yalnız cəmiyyət namazında imam «Həmd» və «surə» oxuyarkən sakit dayanmaq vacibdir. Qalan hallarda Quran tilavəti zamanı sakit dayanmaq müstəhəbdir və ədəb nişanələrindəndir. Göstəriş olmasa da, ilahi kəlam qarşısında sakit dayanmaq düşüncə və ədəbin tələbidir.

◘Həzrət Əli (ə) namaz qıldığı vaxt bir münafiq təkrar-təkrar ucadan Quran oxudu. Həzrət hər dəfə ayələri eşitdikdə dayanıb yenidən namazını davam etdirirdi.[1]

◘İmam Baqir (ə) buyurmuşdur: “Quran qariləri üç dəstədir: Bir dəstə insan Quranı qazanc yolu bilir; digər bir dəstə dildə Quran oxuyub əməldə onun göstərişlərinə məhəl qoymur; başqa bir qrup isə Quran oxuyur və onu öz dərdlərinin çarəsi bilir. Beləəri daim Quranla ünsiyyətdədirlər. Allah üçüncü zümrə vasitəsi ilə əzabı kənarlaşdırır və onlara xatir yağış nazil edir. Beləəri nadir insanlardırlar.»[2]

***BİLDİRİŞLƏR***

1. Kimin Quran oxumasından asılı olmayaraq Quran oxunarkən sakit dayanıb dinləmək lazımdır.
2. Sakit dayanmaq və Qurana qulaq asmaq ilahi rəhmət əldə edilməsi üçün zəmindir.

*(AYƏ: 205)*

﴿ وَاذْكُر رَّبَّكَ فِي نَفْسِكَ تَضَرُّعاً وَخِيفَةً وَدُونَ الْجَهْرِ مِنَ الْقَوْلِ بِالْغُدُوِّ وَالآصَالِ وَلاَ تَكُن مِّنَ الْغَافِلِينَ ﴾

**“Rəbbini qorxu və yalvarışla, qəlbində ahəstə və aram, hər sübh və şam yad et və qafillərdən olma.”**

***NÖQTƏLƏR***

◘Ötən ayədə Quran tilavətinin qaydaları bəyan olundu. Bu ayədə isə zikr və dua qaydalarından danışılır və onların yalvarış, xüşu, qorxu və ümidlə müşayiət olunmasının zəruriliyi qeyd olunur.

---

[1] “Təfsire-nümunə”.
[2] “Kafi”, c. 2, s. 627.

◘“Asal” sözü “əsil” sözünün cəm forması olub, qürub vaxtının yaxınlaşmasını bildirir. “Ğuduvv” sözü isə fəcr tülusundan günəş tülusunadək olan fasiləyə işarədir.

◘Bəzilərinin fikrincə, bu ayədə zikr deyərkən gündəlik vacib namazlar nəzərdə tutulmuşdur. İbn-Abbasdan nəql olunur ki, bu ayəyə əsasən, camaat namazının imamı sübh və axşam namazlarında çox yox, məmumların eşidəcəyi həddə qiraətini uca səslə deməlidir.

### *BİLDİRİŞLƏR*

1. Nəinki başqaları, hətta peyğəmbərlər də Allahı daim xatırlamalıdırlar.

2. Quran dillə zikrdən əlavə, qəlb zikrini mədh edir.

3. Allah zikri özününümayiş və səs-küysüz olduqda qəfləti aradan qaldırır. Əks-təqdirdə o özü də bir növ qəflətdir.

4. Allahın rübubiyyəti daimidir. Deməli, daim Onu xatırlamaq yerinə düşər.

5. Aşiqanə, ardıcıl, hər sübh və şam təkrarlanan zikr insanı sığortalaya bilər.

6. Hər günün əvvəlində, hər bir işə başladıqda və qərar çıxardıqda, eləcə də, günün sonunda işə yekun vurduqda Allahı yada salmaq lazımdır.

7. Allahı sübh və axşam yada salmayanlar qafillərdəndir.

### *(AYƏ: 206)*

﴿ إِنَّ الَّذِينَ عِندَ رَبِّكَ لاَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِهِ وَيُسَبِّحُونَهُ وَلَهُ يَسْجُدُونَ ﴾

**“Həqiqətən, Rəblərinin dərgahına yaxın olanlar Onun pərəstişindən boyun qaçırmırlar. Ona təsbih deyir, Ona səcdə edirlər.”**

### *NÖQTƏLƏR*

◘«Rəbbinin dərgahına yaxın olanlar» dedikdə, həm mələklər, həm də özünü Allah hüzurunda görən layiqli bəndələr nəzərdə tutulur.

◘Yuxarıdakı ayəni tilavət edərkən və eşidərkən səcdə qılmaq müstəhəbdir.[1] Quranın 15 ayəsində səcdə etmək tapşırılmışdır. Bunlardan dördü vacib səcdədir.[2] On beş ayədən on birində səcdə etmək müstəhəbdir.[3]

### *BİLDİRİŞLƏR*

1. İbadətimizlə özümüzü mələklərlə həmrəng və həmahəng edək.

2. Təkəbbürlü şəxs Allaha yaxın məqama çatmaz. Allaha yaxın insanlar təvazökar, sadə, təkəbbürdən uzaqdırlar.

3. Allah zikri ibadətin aşkar nümunəsidir.

---

[1] “Təfsire-nümunə”.

[2] “Səcdə”, 15; “Fussilət”, 37; “Nəcm”, 62; “Ələq”, 19.

[3] “Əraf”, 206; “Rəd”, 15; “Nəhl”, 48; “Isra”, 107; “Məryəm”, 58; “Həcc”, 18, 77; “Furqan”, 60; “Nəml”, 25; “Sad”, 24; “Inşiqaq”, 21.

4. Allahdan xəbərsizlik insanın özünü böyük bilməsi və təkəbbür səbəbindəndir.

5. Sadəlik, ibadət və xalisanə səcdə Allaha yaxınlıq yoludur.

6. Səcdə Allaha məxsusdur və Ona yaxın olanlar buna əmindirlər. (“Ləhu” hissəsinin “yəscudun” sözündən əvvəl gəlməsi xüsusilik nişanəsidir.)

7. Öz ibadətimizlə qürrələnməyək. Çünki Allahın daim ibadətdə olan mələkləri vardır.

8. Əvvəlcə təkəbbür ruhiyyəsini bir kənara qoymaq, sonra təsbih demək, daha sonra isə səcdəyə düşmək lazımdır.

# “ƏNFAL” SURƏSİ

## (8-ci surə, 75 ayə)

### Doqquz, onuncu cüzlər

***“ƏNFAL” SURƏSİNİN SİMASI***

Bu surənin Mədinədə nazil olmuş 75 ayəsi var. Surə “ənfal” sözü ilə başladığından və onun ayələrində ənfal–ümumi sərvətin hökmləri bəyan olunduğundan “ənfal” adlandırılmışdır.

Bu surənin digər bir adı “Bədrdir”. Çünki onun ayələrinin əksəri Bədr savaşı ilə bağlıdır. Bədr savaşı müsəlmanların müşriklərlə ilk savaşı olmuşdur. Bu savaşda müsəlmanlar Allahın yardımlarından və nəsib etdiyi qələbədən faydalanmışlar.

Surədə Bədr savaşı haqqında danışılmaqla yanaşı, zərif bir şəkildə haqq ordusu ilə batil ordusunun xüsusiyyətləri bəyan olunmuşdur. Eləcə də, surədə Peyğəmbər (s) tarixindən dərslərə, o həzrətin müsəlmanlarla rəftarına, «ənfal», beytülmal məsələlərinə, cihad, qənimət, əsirlər, xüms və onun bölünməsi hökmlərinə, «hicrət» macərası və «Leylətul-Məbit» əhvalatına, həqiqi möminlərin sifətinin bəyanına, ixtilaf və təfriqədən çəkinməyin zəruriliyinə yer ayrılmışdır.

بسم الله الرحمن الرحيم

*(AYƏ: 1)*

﴿ يَسْأَلُونَكَ عَنِ الأَنفَالِ قُلِ الأَنفَالُ لِلّهِ وَالرَّسُولِ فَاتَّقُواْ اللّهَ وَأَصْلِحُواْ ذَاتَ بِيْنِكُمْ وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ إِن كُنتُم مُّؤْمِنِينَ ﴾

**“(Ey peyğəmbər,) səndən «ənfal» (savaş qəniməti, ümumi mülk) haqqında soruşurlar. De ki, «ənfal» Allahın və peyğəmbərindir. Allahdan çəkinin, öz aranızda islah aparın. Əgər imanınız varsa, Allaha və Onun rəsuluna itaət edin.”**

***NÖQTƏLƏR***

◘Quranda 130 dəfəyə yaxın sual sözü müxtəlif formalarda işlədilmişdir. O cümlədən, “yəsəlunəkə” (səndən soruşarlar) ifadəsi 15 yerdə zikr olunmuşdur.

◘“Ənfal” artım, tərəqqi mənasını bildirən “nəfl” sözünün cəm formasıdır. Elə bu baxımdan da vacib namazlardan əlavə digər namazlar nafilə adlandırılmışdır. Həzrət İbrahimə əta olunan övlad da nafilə hesab edilir.[1]

◘Rəvayətlərdə, fiqh kitablarında təbii-ümumi sərvətlər, savaş qənimətləri, sahibsiz torpaqlar, varissiz ölülərin mülkləri, meşələr, dərələr, qamışlıqlar, ölü torpaqlar, mədənlər «ənfal» kimi qeyd olunmuşdur.[2]

◘İslamdan öncə əldə olunmuş qənimətlər ayrıseçkiliklər əsasında bölünürdü. İlk və böyük qənimətlər gətirmiş Bədr savaşından sonra qənimətlərin bölünməsi ilə bağlı müxtəlif suallar yarandı. Nəhayət, xalqın istəyi ilə həzrət Peyğəmbər (s) özü qənimətləri bölməyə başladı. Qənimətlər hamı arasında bərabər bölünür, heç bir ayrıseçkiliyə yol verilmirdi. Bu yolla cahiliyyət dövründəki ayrıseçkiliklər aradan qaldırıldı. Zəiflərə himayə göstərildi. Əlbəttə ki, belə bir bərabər bölgü bəzilərinə ağır gəldi.[3]

◘Bu surənin ayələri Bədr savaşı haqqında olsa və hazırkı ayə savaş qənimətlərinə həsr edilsə də, surə təkcə bu mövzulara aid deyil.[4]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Ənfaldan Allah yolunda ayrılan pay həzrət Peyğəmbərin (s) nəzarəti altında sərf olunurdu.”[5]

◘Rəvayətlərdə insanlar arasında islah və barışığın mükafatının bir ilin müstəhəb namaz və orucunun mükafatından çox olduğu

---

[1] Bax: “Ənbiya”, 72.

[2] “Təfsire-Nurus-səqəleyn”. “Bihar”, c. 93. s. 2054 “Kafi”, c. 1. s. 539.

[3] “Təfsire-nümunə”. “Füruğe-əbədiyyət, c. 1, s. 423.

[4] “Təfsire-Əl-mizan”; “Təfsire-nümunə”.

[5] “Təfsire-nümunə”.

bildirilir.[1] İmam Sadiq (ə) öz şagirdi Müfəzzələ buyurmuşdur: “Əgər tərəfdarlarımızdan iki nəfər arasında mübahisə düşsə, mənim malımdan sərf etməklə onları barışdır.”[2]

◘İslamda rabitələrin qorunması və təfriqələrin aradan qaldırılmasına o qədər əhəmiyyət verilir ki, bəzi mərhələlərdə nəinki barışdırmaq vacib olur, hətta bu işdə beytül-maldan istifadəyə də icazə verilir.[3]

## *BİLDİRİŞLƏR*

1. Xalqın ənfalla bağlı sualları və peyğəmbərin onlara cavabı göstərir ki, İslam cəmiyyətin iqtisadi məsələlərini də əhatə edir.

2. Hökmlərin və iqtisadi məsələlərin bəyan yeri–mərcə, ilahi rəhbərdir.

3. İslamın cihadda məqsədi haqqın batilə qələbə çalmasıdır. Qənimətsə ikinci dərəcəli məsələdir.

4. Ümumi mülkün sahibi Allahdır. Demək, bu mülk ən müqəddəs və ən sevimli şəxsin əlində cəmlənməlidir.

5. İslam hökumətinin iqtisadi dayaqlara ehtiyacı var. Ənfal İslam quruluşunun dayaqlarındandır.

6. İslamda təbii sərvətlər və ümumi mülkiyyətlərlə bağlı qanunlar da var.

7. Allah rəsulunun bütün xərcləri ilahi məqsədlərə yönəlmişdir.

8. Ümumi mülkün hifzində paklıq və təqvaya ehtiyac var. (Çünki beytül-mal və ümumi mülkiyyət pis məqsədlərlə istifadə oluna bilər.)

9. Cəmiyyəti islah etmək istəyən kəs təqva əhli olmalıdır.

10. Vəhdətin qorunması və rabitələrin hifzi hamı üçün vacibdir.

11. Mömin insan əxlaqi, ictimai, siyasi sferalarda ilahi göstərişlərə əməl etməlidir ki, qanuni yolla müvəffəq olsun.

12. İman təkcə qəlbə aid deyil. Xarici cilvə və əməli itaət də iman şərtidir.

13. Bəlkə də bəziləri sınaq vaxtı canfəşanlıq göstərib cəbhəyə yollandıqları halda, mal-mülk, qənimət, ənfalla bağlı sınaqlarda tərəddüd edələr.

14. Təkcə cəbhəyə getmək kamil iman nişanəsi deyil. Qətimətə göz dikməmək, qardaşlığı qorumaq və rəhbərə itaət də şərtdir.

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

[2] “Kafi”, c. 2, s. 209.

[3] “Təfsire-nümunə”.

***(AYƏ: 2)***

﴿ إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ ﴾

**“Yalnız o kəslər mömindirlər ki, Allahın adı çəkildiyi vaxt qəlbləri lərzəyə gəlsin. Onlara Allahın ayələri tilavət edildikdə imanları artar və yalnız öz Rəbblərinə təvəkkül edərlər.”**

***(AYƏ: 3)***

﴿ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ ﴾

**“(Möminlər) o kəslərdirlər ki, namazı bərpa edər, onlara ruzi verdiyimizdən (məhrumlara) paylayarlar.”**

## *NÖQTƏLƏR*

◘İkinci ayədə Allah-təala buyurdu ki, Allahın zikri möminlərin qəlbini lərzəyə gətirər. Başqa bir yerdə isə belə buyurulur: “Allahı zikr etməklə qəlblər aramlıq tapar.”[1]Bu iki ayə arasında heç bir ziddiyyət yoxdur. Çünki ayələrdən birində ilahi əzəmət qorxusu, digərində Allaha əminlik əsas götürülür. Başqa bir ayədə isə belə buyurulur: “Allahdan qorxanların Quran ayələrini oxumaq və eşitməklə bədənlərinin dərisi titrəyər, bir müddət sonra aram olub qəlbləri yumşalar.”[2]

Bəli, Allahın qəhr-qəzəbini yada salmaq mömini lərzəyə gətirir, Onun lütf və mərhəmətini yada saldıqda isə qəlbi aramlıq tapır. Necə ki, körpə uşaq valideynindən həm qorxur, həm də onların yanında aramlıq tapır.

◘“Vəcil” dedikdə iztirablı hal, qorxu nəzərdə tutulur. Bəzən bu qorxu məsuliyyətin dərk olunmasından yarana bilər. Bəzən isə Allahın əzəmət və heybətini hiss etməklə qəlb titrəyir. Bu səbəbdən də Quranda buyurulur: “Yalnız alim və agah bəndələr Allahdan qorxurlar.”[3]

## *BİLDİRİŞLƏR*

1. Azan nidasının və ilahi ayələrin təsir etmədiyi insan öz imanının kamilliyinə şəkk etməlidir.
2. Allah adını kim çəkirsə çəksin, bu zikr mömină təsir edir.
3. İman eşq və batini bir qorxu ilə müşayiət olunur.
4. İmanın mərtəbələri və dərəcələri var və o artıb-azala bilər.

---

[1] Bax: “Rəd”, 28.
[2] “Zumər”, 23.
[3] “Fatir”, 28; “Təfsire-nümunə”.

5. Cəhalətdən qaynaqlanan qorxu pisdir. Amma mərifətdən doğan qorxu bəyənilmişdir.

6. Quranın hər bir ayəsi imanı yüksəldə bilən bir dəlil, bir nurdur.

7. Mömin ümid və qorxu arasındadır.

8. Yalnız Allahı Rəbb bilən şəxs Ondan başqasına təvəkkül etmir.

9. İman nişanəsi odur ki, öncə möminin qəlbi Allahı zikr etməklə lərzəyə gəlsin. Daha sonra iman Quran ayələrinin tilavəti və xatırlanması ilə güclənməlidir. Belə bir insan Allaha təvəkkül edib namazı dirçəldir və başqalarına da yardım göstərir.

10. İnsanın rəftarı onun baxışlarına və əqidələrinə uyğundur.

11. İslam insanın bütün var-dövlətini yox, bu var-dövlətin bir hissəsini infaq etməsini zəruri sayır. ("Min" şəkilçisinin bir mənası ayırmaqdır.)

12. Möminin namaz və infaqı müvəqqəti yox, daimidir.

13. İnsan halal mal, ilahi ruzidən infaq etməlidir.

14. Mömin öz var-dövlətini zəhmətinin bəhrəsi yox, Allahın bəxşişi sayır. Belə bir əqidədə olan şəxs asanlıqla bağışlayır və infaq edir.

### *(AYƏ: 4)*

﴿ أُوْلَئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا لَّهُمْ دَرَجَاتٌ عِندَ رَبِّهِمْ وَمَغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ ﴾

**"Onlar həmin həqiqi möminlərdir. Onlar üçün Rəblərinin yanında dərəcələr, bağışlanma, səxavətlə verilmiş və yaxşı ruzi var."**

### *NÖQTƏLƏR*

◘"Rizqun kərim" dedikdə daimi, minnətsiz, geniş və xalis ruzi nəzərdə tutulur.

### *BİLDİRİŞLƏR*

1. İman o zaman kamildir ki, ilahi qorxu, təvəkkül, namaz və infaqla müşayiət olunsun. Bəli, iman şüar yox, əməllə ölçülür.

2. İlahi vərəqələrin əldə olunma rəmzi namaz və infaqdır. (Bir ömür dünyəvi məqam üçün çalışırıq, ilahi məqamlardan isə qəflətdəyik!)

3. Allahın əta etdiyi dərəcələr bəşər əhli üçün həm mühüm, həm də naməlumdur. (Dərəcat" sözü qeyri-müəyyən formada işlənmişdir.)

4. Xalqın imanı artıb əskilə bildiyindən ilahi dərəcələr də artıb əskilir.

5. İlahi dərəcələr behiştə məxsus deyil. Elə bu dünyada və bərzəxdə də ilahi dərəcələr var.

6. Həqiqi möminlər üçün də büdrəmə qorxusu var. Onlar da ilahi rəhmətə ehtiyaclıdırlar.

7. Yalnız həqiqi iman insanın xüsusi bir məqama çatması üçün zəmin ola bilər. Başqa yolla bağışlanma və xüsusi ilahi nemətlər əldə etmək olmaz.

***(AYƏ: 5)***

﴿كَمَا أَخْرَجَكَ رَبُّكَ مِن بَيْتِكَ بِالْحَقِّ وَإِنَّ فَرِيقاً مِّنَ الْمُؤْمِنِينَ لَكَارِهُونَ﴾

**“(Qənimətin bölünməsində bəzi müsəlmanların narazılığı) Rəbbin səni (Bədr savaşı üçün) haqq olaraq evindən çıxardığı vaxt bir dəstə mömünin narazılığı kimidir.”**

***NÖQTƏLƏR***

◘Say və imkan azlığı baxımından Bədr savaşında düşmənlə cihada getmək çətin gəldiyi kimi, həmin savaşın qənimətlərinin bölünməsi də bəzilərinə çətin gəlir. Bu narazılıq yeni bir şey deyil və ötüb keçər. Allahın rəsulu gerçək məsləhət və Allah göstərişlərinin icrası fikrində olmalıdır. Bəziləri isə həmişə narazı olmuşlar.

***BİLDİRİŞLƏR***

1. Peyğəmbər (s) Allahın göstərişi və tədbiri ilə Bədr savaşı üçün Mədinədən xaric oldu.

2. Savaş və cihad yolunda hərəkət inkişaf və tərbiyə amilidir.

3. Cəbhələrdə əsas məsuliyyət rəhbər və komandanın üzərinə düşür. (Cihad üçün bir çoxları şəhərdən çıxsa da, ayədə həzrət Peyğəmbərin (s) hüzuru bəyan olunur.)

4. Mədinə İslam peyğəmbərinin evi idi. (Hər bir insanın evi onun yalnız doğulduğu yer yox, həm də məskunlaşıb mövqe əldə etdiyi yerdir.)

5. Rəhbər vəzifəsini yerinə yetirmək və haqqı bərpa etmək barədə düşünməlidir.

6. Səmavi göstərişlər haqq üzərində qurulmuşdur və haqqa yetişmək üçündür.

7. Cihaddan narazılıq itaətsizliklə müşayiət olunmazsa, imana zərbə vurmaz.

8. İnsan bəzən eşqlə cihada gedir, amma sonunda qənimət bölgüsü ilə bağlı narazı qalır.

9. İctimai və iqtisadi məsələlərdə cəmiyyətin imanlı və həzrət Peyğəmbərin (s) məsul olmasına baxmayaraq, müxalifət və narazılıq təbiidir.

***(AYƏ: 6)***

﴿ يُجَادِلُونَكَ فِي الْحَقِّ بَعْدَ مَا تَبَيَّنَ كَأَنَّمَا يُسَاقُونَ إِلَى الْمَوْتِ وَهُمْ يَنظُرُونَ ﴾

**“Onlar haqq aşkar olduqdan sonra da bu barədə səninlə höcətləşirlər. (Elə qorxurlar ki,) sanki ölümə doğru sürüklənir və (öz məhvlərinə) baxırlar.”**

***NÖQTƏLƏR***

◘Bədr savaşından öncə bir dəstə müsəlman həzrət Peyğəmbərlə (s) ona görə mübahisə edirdi ki, guya yetərincə imkan və say yoxdur. Məqsəd yalnız Qüreyşin ticarət malına sahib olmaqdır. Hansı ki, onlar bu göstərişin Allah tərəfindən verildiyini bilirdilər. Bununla belə, öz müxalifətlərindən əl çəkmirdilər. Əlbəttə, Miqdad kimi bəziləri deyirdilər: “Biz Musanın əshabı kimi yerimizdə oturub deməyəcəyik ki, siz gedin savaşın. Biz savaş əhliyik və verdiyin göstərişi qəbul edirik.” Amma bəziləri qorxudan və savaşa hazır olmadıqlarından Peyğəmbərlə (s) mübahisəyə qalxır. Bədr savaşına doğru yürüşü ölümə doğru yürüş sayırdılar. Amma sonrakı hadisələr və savaşda qazanılmış qələbə sübut etdi ki, onlar yanılırlar.

◘Haqqın inkarı məqsədi ilə aparılan söhbətlər və mübahisələr rədd olunur. Haqq ətrafında mübahisə bir neçə qisimdir: bəzən haqq bəyan olduqdan sonra; bəzən elm və agahlıq olmadığından[1], bəzən haqqın aradan qaldırılması məqsədi ilə.[2]

Əlbəttə, bəzən mübahisədə məqsəd haqqın təsdiqi olur. Bu iş ən gözəl şəkildə yerinə yetirilməlidir.[3]

***BİLDİRİŞLƏR***

1. Peyğəmbərin bəzi tərəfdarları ona tabe olmurdular.

2. Qarınqulu, qorxaq fərdlər haqqın göstərişi və cihaddan qaçmaq üçün həmişə bəhanə gəzir, höcətləşirdilər.

3. Sağlam ruhiyyə olmayan yerdə haqqı bilmək faydasızdır.

4. Bəzən insan o qədər alçalır ki, haqqı tanıdığı halda ona qarşı çıxır.

5. Zəif imanlı, ruhiyyəsiz döyüşçülərin hərəkəti olduqca çətindir və daim qorxu ilə müşayiət olunur.

---

[1] “Ali-Imran”, 66.
[2] “Kəhf”, 56.
[3] “Nəhl”, 125.

*(AYƏ: 7)*

﴿وَإِذْ يَعِدُكُمُ اللّهُ إِحْدَى الطَّائِفَتِيْنِ أَنَّهَا لَكُمْ وَتَوَدُّونَ أَنَّ غَيْرَ ذَاتِ الشَّوْكَةِ تَكُونُ لَكُمْ وَيُرِيدُ اللّهُ أَن يُحِقَّ الحَقَّ بِكَلِمَاتِهِ وَيَقْطَعَ دَابِرَ الْكَافِرِينَ﴾

**«(Xatırlayın,) o zaman ki, Allah sizə o iki dəstədən (ya ticarət karvanı, ya da düşmənin qoşunu) birinin sizin olacağını vəd edirdi. Siz isə silahsız bir dəstənin (ticarət karvanının) ixtiyarınıza keçməsini istəyirdiniz. Halbuki Allah haqqı Öz kəlmələri (sünnələri) ilə möhkəmlədib kafirlərin kökünü kəsmək istəyir. (Bu səbəbdən də sizi az sayla və döyüş hazırlığı olmadan Bədrdə Qüreyşə qalib etdi.)»**

***NÖQTƏLƏR***

◘“Şövkət” tikan və nizə başlığı mənasını bildirən “şəvk” sözündəndir və silahlı dəstənin simvoludur. Ayədəki “ğəyrə zatiş-şövkət” deyərkən silahsız ticarət karvanı nəzərdə tutulmuşdur.

◘Haqq kəlmələr deyərkən, Allahın və Onun övliyalarının göstərişləri nəzərdə tutulmuşdur. “Dabir” bir şeyin arxasını, “yəqtəə dabir” bir şeyin kökünün kəsilməsini bildirir.

◘Hicri ikinci ilin Ramazan ayında Peyğəmbərə (s) xəbər verildi ki, Əbu-Süfyan bir ticarət karvanı ilə Məkkəyə doğru hərəkətdədir. Həzrət Peyğəmbər (s) mühacir müsəlmanlardan Məkkədə qəsb olunmuş var-dövləti geri qaytarmaq məqsədi ilə karvana hücum etmək göstərişi verdi. Həzrət Peyğəmbərin (s) bu qərarından xəbər tutan Əbu-Süfyan Məkkə kafirlərinə xəbər göndərib, karvanın yolunu dəyişdi.

Məkkə müşriklərinin əksərinin həmin karvanda payı olduğundan, 1000 nəfərlik bir dəstə karvana yardıma tələsdi. Məkkə böyükləri Əbu-Cəhlin komandanlığı altında 40 nəfərlik tacir dəstəsinin müdafiəsi üçün hərəkətə başladı. Ramazan ayının 17-ci günü Məkkə və Mədinə arasındakı bir çöldə 3 dəstə dayanmışdı: müsəlmanlar, küfr qoşunu və kafirlərin ticarət karvanı.

Düşmən qoşununun hərəkətindən xəbər tutan Peyğəmbər (s) karvana hücum edib-etməmək barədə öz əshabı ilə məsləhətləşdi. Müxtəlif rəylər bildirilsə də, nəhayətdə kafir qoşunla döyüşmək qərarı çıxarıldı. Müsəlmanlar hərbi təchizat baxımından çox-çox zəif, düşmən onlardan üç qat artıq olsa da, Allahın qeybi yardımları ilə müsəlmanlar qalib gəldilər. Bu savaşda Əbu-Cəhl və digər 70 kafir öldürüldü. Öldürülənlərin əksəri Həzrət Əlinin (ə) qılıncına tuş gəldi.

70 nəfər əsir götürüldü. İslam qoşunundan isə cəmi 14 nəfər şəhadətə yetişdi.[1]

### *BİLDİRİŞLƏR*

1. İlahi yardımların xatırladılması imanın güclənməsində zəruri amildir.

2. Qələbə təkcə say və hərbi təchizatdan asılı deyil. Düşmənin məğlub edilməsində ən əsas amil Allahın iradəsidir. Bəli, təbii amillər Allahın iradəsinə təslimdir.

3. Bəzən Allahın iradəsi möminlərin əli ilə gerçəkləşir.

4. İnsan təbiət baxımından rahatlığa meyillidir. (Mövcud çətinliklərə görə köklü proqramları ötəri məsələlərə fəda etməyək.)

5. Həqiqət ilahi kəlmələr vasitəsi ilə gerçəkləşir. («İlahi kəlmələr» dedikdə övliyalar, sünnələr, qanunlar, əmrlər, fədakarlıqlar, cihad və ilahi göstərişlərə əməl nəzərdə tutulur.)

6. Haqqın batilə qələbə çalması iqtisadi mənafelərdən üstündür.

7. Son qələbə haqqın izzəti və batilin zilləti ilə gerçəkləşəsidir.

8. İslam dünyasının məqsədi haqqın qələbəsi və batilin məhvidir. Cihadda başqalarının torpaqlarını zəbt etmək, fatehlik məqsədi yoxdur.

### *(AYƏ: 8)*

﴿ لِيُحِقَّ الْحَقَّ وَيُبْطِلَ الْبَاطِلَ وَلَوْ كَرِهَ الْمُجْرِمُونَ ﴾

**“Günahkarların xoşuna gəlməsə də (Allah) haqqı möhkəmlədib, batili puç edər.”**

### *NÖQTƏLƏR*

◘Bu ayədə İslam Peyğəmbəri (s) və müsəlmanlara təsəlli verilir. Bildirilir ki, nəhayətdə haqq qalib, batil isə məğlubdur.

◘Bəzi rəvayətlərdə bu ayənin aşkar ünvanı kimi imam Mehdinin (ə) zühur dövrü göstərilir.[2] Həzrətin qiyamı ilə batil hakimiyyət aradan götürülər, haqq və ədalət hökuməti dünyaya hakim olar.

---

[1] “Təfsire-Əl-mizan”.

[2] “Təfsire-Nurus-səqəleyn”.

### *BİLDİRİŞLƏR*

1. İlahi vədlər insanların fərdi və maddi faydaları üçün yox, haqqın gerçəkləşməsi və batilin puç olması üçündür.

2. Həqiqət qalarlı və davamlıdır. Batil isə fani və ötəridir.

3. Kafir və günahkar düşmənlərin qəzəbindən və narazılığından qorxmayaq. Allah Öz istəyini gerçəkləşdirəcək.

### *(AYƏ: 9)*

﴿ إِذْ تَسْتَغِيثُونَ رَبَّكُمْ فَاسْتَجَابَ لَكُمْ أَنِّي مُمِدُّكُم بِأَلْفٍ مِّنَ الْمَلآئِكَةِ مُرْدِفِينَ ﴾

**“(Xatırlayın,) o zaman ki, (Bədr savaşında) Rəbbinizdən yardım diləyirdiniz. O sizin dua və istəklərinizi eşitdi. (Buyurdu:) Mən ardıcıl min mələk göndərməklə sizə yardım edənəm.”**

### *NÖQTƏLƏR*

◘“İrdaf” sözündən olan “murdif” sözü ardıcıl düzülmək mənasını bildirir. Yəni mələklərin göndərilməsi ardıcıl və davamlıdır. “Ali-İmran” surəsinin 124-cü ayəsində üç min yardımçı mələk xatırlanılır, sonrakı ayədə isə beş min mələkdən danışılır. Bu ziddiyyətin səbəbi müqavimət ölçüsü ilə bağlı ola bilər. Yəni müsəlmanların müqaviməti artdıqca dini yardımlar da artır. Beləcə, “murdifin” sözü 1000 mələyin ardınca başqa mələklərin də gəlişini bildirir.

◘Növbəti ayəyə əsasən mələklər düşmənlə savaşa daxil olmurlar. Yalnız möminlərin ruhiyyəsini gücləndirirlər. Əks-təqdirdə, Bədr mücahidləri üçün elə bir fəzilət qalmazdı. Tarixdə həm də kafirlərdən öldürülənlərin və onların qatillərinin adı çəkilir.[1]

◘Bədr savaşında kafirlər müsəlmanlardan üçqat artıq idilər Onların hərbi təchizatları müsəlmanların hərbi təchizatlarını əhəmiyyətli dərəcədə üstələyirdi. Həzrət Əlinin (ə) buyurduğuna görə, müsəlmanların yeganə süvarisi Miqdad idi.[2]

Müsəlmanların savaş üçün ruhiyyələri də zəif idi. Onlar kafirlərin çoxluğunu və hərbi təchizatını gördükdə qorxuya düşdülər və Allaha pənah apardılar. Həzrət Peyğəmbər (s) də dua üçün əlini açıb dedi: “Pərvərdigara, verdiyin vədi gerçəkləşdir! Pərvərdigara! Əgər müsəlmanların bu dəstəsi öldürülsə, Sənə pərəstiş yer üzündən götürülər.”[3]

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-Fürqan”.
[3] “Təfsire-Kənzul-Dəqaiq.”

Həzrət Peyğəmbərin (s) göstərişi ilə küfr cəbhəsindən öldürülənlərin hamısı bir quyuya töküldü. Sonra həzrət quyunun başına gəlib onları bir-bir adları ilə çağırdı və buyurdu: “Öz Rəbbinizin vədini haqq gördünüzmü?! Siz pis qövm idiniz. Çünki peyğəmbərinizi təkzib etdiniz. Bizi öz evlərimizdən, yurdumuzdan çıxardınız. Mənimlə savaşa qalxdınız. Amma başqaları məni təsdiq edib öz aralarında yer verdilər. Mənə yardım göstərdilər.” Səhabələr dedilər: “Məgər onlar eşidirmi?” Həzrət buyurdu: “Siz onlardan yaxşı eşitmirsiniz. Sadəcə onlar cavab verə bilmirlər.” Sonra həzrət (s) Əbu-Cəhlin cəsədinə üz tutub buyurdu: “Bu, Firondan da inadkar idi. Çünki Firon əzabı gördüyü vaxt tək Allahı qəbul etdi. Bu isə son anadək bütpərəstlikdən əl çəkmədi.”[1]

### *BİLDİRİŞLƏR*

1. Çətin günlərdə Allahın nemətlərini və yardımlarını unutmayaq. Çünki ilahi nemətlərin xatırlanması insanda şükür və şücaət ruhiyyəsini yüksəldir.

2. Allah dua olmadan da əta edə bilər. Amma dua tərbiyə yoludur.

3. Cəbhədə iştirak zamanı edilən dua təsirlidir. Mücahidlərin duası qəbul olur.

4. Dua istəklərin qəbulunun açarıdır.

5. Mələklər insanın həyatında təsirlidirlər.

6. Qeybi yardımlar o zaman gerçəkləşir ki, Allahın zahirdə bizə əta etdiklərini işlətmiş olaq.

7. Hərbi fəaliyyətlərdə nizam-intizam lazımdır. Bu, qələbə amillərindəndir.

### *(AYƏ: 10)*

﴿ وَمَا جَعَلَهُ اللّهُ إِلاَّ بُشْرَى وَلِتَطْمَئِنَّ بِهِ قُلُوبُكُمْ وَمَا النَّصْرُ إِلاَّ مِنْ عِندِ
اللّهِ إِنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ ﴾

**“Allah onu (qələbəni və mələklərin nazil olmasını) yalnız müjdə və qəlblərin aramlığı üçün qərar verdi. Qələbə yalnız Allah tərəfindəndir. (Öz gücünüzə və mələklərin yardımına güvənməyin.) Həqiqətən, Allah məğlubedilməz və hikmət sahibidir.”**

### *NÖQTƏLƏR*

◘Quranda yardımçı mələklərin möminlərə köməyi dəfələrlə qeyd olunmuşdur. (Hətta ölüm zamanı da Allah-təala mələklər vasitəsi

[1] “Təfsire-Əl-mizan”; “Təfsire-nümunə”. “Təfsire-Fürqan”.

ilə möminə haqqı təlqin edir, təsəlli verir və onu şeytanın vəsvəsələrindən qoruyur)[1] Bədr savaşında da mələklər savaş üçün yox, möminlərə ruhiyyə vermək üçün nazil oldular. Tarixdən aydın görünür ki, kimlər kimlər vasitəsi ilə öldürülmüşlər. Bədr savaşında kafirlərin çoxu Həzrət Əlinin (ə) qılıncına tuş gəldi.

◘Varlıq aləmində iki növ təlqin var: bunlardan biri Allahın mələklərinin aramlıq təlqinidir.[2] Allah mələklərə vəhy etdi ki, Mən sizinləyəm, möminləri sabitqədəm edin. Mən kafirlərin qəlbinə qorxu salacağam.

Digər bir təlqin şeytanın qorxu təlqinidir.[3] Şeytanın sözləri onun ardıcıllarına təsir edir, onları qorxuya salır.

### *BİLDİRİŞLƏR*

1. Döyüşçünün güclü ruhiyyəsi olmalıdır. Bu ruhiyyə mühüm qələbə amillərindəndir.
2. Peyğəmbər xətti ilə düzgün hərəkət edildikdə, Allahın yardımı və qorxu hisslərinin aradan qalxması labüddür.
3. Möminlərin qələbəsi təkcə texnika, hərbi plan, say çoxluğu və ya mələklərdən asılı deyil. Allahın istək və iradəsi olmadan qələbə mümkünsüzdür. Necə ki, bəzən kiçik bir dəstə Allahın yardımı ilə böyük bir dəstəyə qalib gəlir.[4]
4. Allahın yardımları və möminlərə kömək izzət və hikmət əsasındadır.

### *(AYƏ: 11)*

﴿إِذْ يُغَشِّيكُمُ النُّعَاسَ أَمَنَةً مِّنْهُ وَيُنَزِّلُ عَلَيْكُم مِّن السَّمَاء مَاء لِّيُطَهِّرَكُم بِهِ
وَيُذْهِبَ عَنكُمْ رِجْزَ الشَّيْطَانِ وَلِيَرْبِطَ عَلَى قُلُوبِكُمْ وَيُثَبِّتَ بِهِ الأَقْدَامَ﴾

**“(Xatırla,) o zaman ki, (Allah) Öz tərəfindən aramlığınız üçün sizə yüngül bir yuxunu hakim etdi. Səmadan bir yağış endirdi ki, sizi pak etsin, şeytanın çirkinliyini sizdən təmizləsin, qəlblərinizi gücləndirsin, addımlarınızı onunla möhkəmlətsin.”**

### *NÖQTƏLƏR*

◘«Nuas» dedikdə, başlanğıc, yüngül bir yuxu nəzərdə tutulur. Bu yuxu insanı aramlaşdırır. Yəni ayədə nəzərdə tutulan məqamda söhbət düşmənin istifadə edib hücuma keçəcəyi ağır yuxudan getmir.[5]

---

[1] Bax: “Fussilət”, 30.
[2] “Ənfal”, 12.
[3] “Ali-Imran”, 175.
[4] Bax: “Bəqərə”, 249.
[5] “Təfsire-nümunə”.

◘Qüreyş ordusu böyük hərbi təchizat, yetərincə azuqə, hətta öz ruhiyyəsini gücləndirmək üçün xanəndə qadınlarla Bədr məntəqəsinə daxil oldu. Onlar öncə su quyularını nəzarət altına aldılar. Müsəlmanlar isə tərəddüddə idilər. Ətrafındakıların gecəni rahat keçirməyəcəyini görən Peyğəmbər (s) onları müjdələdi ki, Allahın mələkləri onlara yardıma gələcək. Peyğəmbərin (s) təsəllisi ilə onlar gecəni rahatlıqla başa vurdular. Paklanma və susuzluğu yatırmaq üçün suyun azlığından əlavə, başqa bir əsas problem yerin xırda daşlıqdan ibarət olması idi. Belə ki, ayaqlar yumşaq daşlar arasında batırdı. Həmin gecə yağış yağdı və müsəlmanların ayaqlarının altı möhkəmləndi. Bu hadisə onları xeyli sevindirdi. Bəlkə də «qədəmlərin möhkəmlənməsi» dedikdə, yerin möhkəmlənməsi yox, döyüş əzmkarlığı nəzərdə tutulmuşdur. Amma bu ehtimalların biri o birini mümkünsüz etmir.

◘«Çirkinlikdən təmizlənmə» dedikdə şeytani vəsvəsələrdən paklanmaq və ya cənabət çirkinliyindən təmizlənmək nəzərdə tutula bilər. Hər halda, yağış müsəlmanların bu problemlərini aradan qaldırdı.[1]

İmam Sadiq (ə) buyurmuşdur: "Yağış suyu için, xəstəlikləriniz aradan götürülsün." Sonra həzrət uyğun ayəni oxumuşdur.[2]

## *BİLDİRİŞLƏR*

1. Allahın istək və yardımları ilə ikrahlı və güclü düşmən qarşısında aram dayanmaq mümkündür. Amma Allah istəməsə, ən səfalı bağlarda və ən münasib şəraitdə belə insan üçün yuxu və rahatlıq yoxdur.

2. Bəzən savaş zamanı kiçik bir istirahət və yuxu böyük ilahi nemət olur. Belə bir fasilə yorğunluğu aradan qaldırır, həm də insan ayıq vəziyyətdə gecə hücumlarının qarşısını alır.

3. İman və səbir olan yerdə Allah-təala insanı təbii amillərlə təchiz edir və onu bu vasitələrdən faydalandırır.

4. Savaş gedişində külək, yağış, yuxu kimi təbii amilləri təsadüfi saymaq olmaz.

5. Zahiri və batini paklığın hər biri ayrı-ayrılıqda bir dəyərdir. Amma hər ikisinin bir yerdə olması daha dəyərlidir.

6. Allah-təala mücahid müsəlmandan paklıq, yüksək ruhiyyə, müqavimət və sabitqədəmlik istəyir.

---

[1] "Təfsire-nümunə".

[2] "Kafi", c. 6, s. 387.

*(AYƏ: 12)*

﴿إِذْ يُوحِي رَبُّكَ إِلَى الْمَلآئِكَةِ أَنِّي مَعَكُمْ فَثَبِّتُواْ الَّذِينَ آمَنُواْ سَأُلْقِي فِي
قُلُوبِ الَّذِينَ كَفَرُواْ الرَّعْبَ فَاضْرِبُواْ فَوْقَ الأَعْنَاقِ وَاضْرِبُواْ مِنْهُمْ كُلَّ بَنَانٍ﴾

**«(Xatırla,) o zaman ki, Rəbbin mələklərə vəhy etdi:Mən sizinləyəm, imanlı fərdləri gücləndirin. Mən də tezliklə kafirlərin qəlbinə qorxu salacağam. Onların boyunlarını burun, barmaqlarını qələm edin. (Silah götürə bilməsinlər.)»**

## *NÖQTƏLƏR*

◘“Bənan” sözü “bənanə” sözünün cəm forması olub, əl və ayaq barmaqlarının ucunu və ya əl və ayaq barmaqlarını bildirir.

◘Kafirlərin başına zərbə endirilməsi və ya onların barmaqlarının başının kəsilməsi onların silah tutmasının qarşısını alır. Ehtimal olunur ki, ayə piyada düşmənin başının, süvari düşmənin əl-ayağının hədəfə alınmasını göstəriş verir.[1]

◘“Fəvqəl-ənaq” deyərkən, küfrün tanınmış şəxsləri və rəhbərləri nəzərdə tutula bilər. Yəni zərbə düşmənin başçılarına və rəhbərlərinə endirilməlidir.[2]

Bədr savaşında ilahi yardımlardan biri düşmən qoşununu qorxu hissinin bürüməsi oldu. Belə ki, İslam ordusunun məxfi qüvvələri düşmən qoşununun - bütün imkan və təchizatlara baxmayaraq - üşütməyə düşdüyünü bildirdi. Azsaylı İslam dəstəsində isə yüksək bir əhval-ruhiyyə vardı. Bu səbəbdən də həzrət Peyğəmbər (s) öncə düşmənə sülh təklif etdi. Peyğəmbərin (s) göndərdiyi nümayəndə sülh təklifi ilə düşmən düşərgəsinə yollandı. Düşmənlər arasında əksəriyyət bu təkliflə razılaşsa da, Əbu-Cəhl inadkarlıq göstərib savaş alovunu qızışdırdı.

## *BİLDİRİŞLƏR*

1. Allah-təala bəzən möminləri mələklər vasitəsi ilə irəli aparıb himayə edir.
2. Mələklərin müstəqil şəkildə heç bir qüdrətləri yoxdur. Onlar öz güclərini Allahın lütf və himayəsindən alırlar.
3. Allah insanları mələklər vasitəsi ilə möhkəmliyə həvəsləndirir. Kafirlərin qorxudulmasını isə Allah-təala yalnız Özünə aid edir.

---

[1] “Təfsire-nümunə”.
[2] “Təfsire-Fürqan”.

4. Allah iman əhlinə aramlıq və qəlb rahatlığı nazil edir. Kafirlərə isə qorxu və dəhşət hakim olur.

5. Qəlblər Allahın əlindədir. Aramlıq və iztirab da Onun tərəfindəndir.

6. Bədr savaşında kafirlərin məğlubiyyət amillərindən biri onları bürümüş qorxu oldu.

7. İnsanın meyllərinin onun taleyində, ilahi rəhmət və ya əzaba çatmasında əhəmiyyətli rolu vardır.

8. Güc və imkan təklikdə aramlıq yaratmır. (Bədr savaşında müsəlmanlar azsaylı olduqları halda rahatlıq tapdılar. Çoxsaylı və silahlı düşmənlər isə qorxuya düşdülər.)

9. Savaşda öz döyüş gücünüzdən tam istifadə edin, zərbəni düşmən cəbhəsinin həssas nöqtələrinə endirin.

***(AYƏ: 13)***

﴿ ذَلِكَ بِأَنَّهُمْ شَآقُّواْ اللّهَ وَرَسُولَهُ وَمَن يُشَاقِقِ اللّهَ وَرَسُولَهُ فَإِنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ ﴾

**“O, (möminlərin ilahi himayəsi, düşmənin baş və barmaqlarının ucuna zərbə göstərişi) bu səbəbdən idi ki, onlar Allah və Onun Rəsulu (s) qarşısında itaətsizlik etdilər. Hər kəs Allaha və Onun Rəsuluna (s) qarşı çıxsa, Allah da ağır cəza sahibidir.”**

***(AYƏ: 14)***

﴿ ذَلِكُمْ فَذُوقُوهُ وَأَنَّ لِلْكَافِرِينَ عَذَابَ النَّارِ ﴾

**“Odur (dünyadakı cəzanız), onu dadın. (Bilin ki,) kafirlər üçün cəhənnəm əzabı var.”**

***BİLDİRİŞLƏR***

1. Allahın qəhr-qəzəbinin səbəbi itaətsizlik və tüğyandır. Bunu dəlilsiz və hesabsız saymayın.

2. Allahın Rəsuluna qarşı müxalifətçilik Allahla müxalifətçilikdir.

3. Allahın sünnəsi və qaydası budur ki, haqqa qarşı çıxan puç olur.

4. Kafirlər həm dünyada həlak olur, həm də axirətdə əzaba gəlirlər.

5. Dünya əzabı nə qədər ağır olsa da, axirət əzabını dadmaq həddindədir.

*(AYƏ: 15)*

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا لَقِيتُمُ الَّذِينَ كَفَرُواْ زَحْفاً فَلاَ تُوَلُّوهُمُ الأَدْبَارَ ﴾

**"Ey iman gətirənlər! Əgər kafir dəstəsi ilə rastlaşsanız, onlara arxa çevirməyin, qaçmayın."**

***NÖQTƏLƏR***

◘"Zəhf" bulaşmaq, yer üzünə sərilmək mənasını bildirir. Qoşunun hərəkəti uzaqdan belə bir görüntü yaratdığı üçün bu da "zəhf" adlandırılmışdır.

◘İmam Riza (ə) buyurmuşdur: "Cihaddan qaçmaq din və haqq rəhbərin süstləşməsi, dinin məhvi və düşmənin cürət tapması səbəbidir.[1]

◘Həzrət Əlinin (ə) fəzilətləri sadalanarkən qeyd olunur ki, o, bütün ömrü boyu bir dəfə də olsun cəhbədən yayınmamışdır.[2] Həzrət buyurur: "Ən bəyənilmiş ölüm şəhadətdir. And olsun Əbu-Talib övladının canı əlində olan kəsə, mənim üçün min qılınc zərbəsi ilə ölmək yataqda ölməkdən daha asandır."[3]

***BİLDİRİŞLƏR***

1. Allahın möminlərdən xüsusi intizarı var.
2. Düşmənin çoxluğu qaçmaq üçün səbəb ola bilməz.
3. Savaş gedişində qaçmağa icazə verilmir. (Əlbəttə ki, hər iki dəstə hazırlıqlı olduqda qaçmaq qadağandır. Əgər düşmən təpədən dırnağadək silahlanıb müsəlmanları qırırsa və onların hazırlığı yoxdursa, silahsız insanların geri çəkilməsi mümkündür).[4]
4. İslam savaşı bir məktəbdir. Bu savaşda qəsbkarlıq, fatehlik məqsədləri yoxdur.

*(AYƏ: 16)*

﴿ وَمَن يُوَلِّهِمْ يَوْمَئِذٍ دُبُرَهُ إِلاَّ مُتَحَرِّفاً لِّقِتَالٍ أَوْ مُتَحَيِّزاً إِلَى فِئَةٍ فَقَدْ بَاء بِغَضَبٍ مِّنَ اللّهِ وَمَأْوَاهُ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ ﴾

**"Geri çəkilməsində məqsəd yeni döyüşə hazırlıq olan və ya digər müsəlman dəstəyə qoşulmaq istəyənlər (qaçmaq məsələsində) istisnadırlar. Hər kəs savaş günü düşmənə arxa çevirsə, şübhəsiz, Allahın qəzəbinə gələr və onun yeri cəhənnəmdir. Necə də pis aqibətdir."**

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-nümunə". "Təfsire-Nurus-səqəleyn".
[3] "Nəhcül-bəlağə", x. 121.
[4] "Təfsire-Fürqan".

## *NÖQTƏLƏR*

◘"Mutəhərrifən" dedikdə, taktiki gedişi dəyişmək, düşməni azdırıb ona qəfil zərbə vurmaq məqsədi ilə kənara çəkilmək mənası anlaşılır. "Mutəhəyyizən" dedikdə isə, döyüşçünün özünü tənha və zəif hiss etdiyi vaxt digər bir dəstəyə qoşulub döyüş mövqeyi tutması başa düşülür.

◘"Baə biğəzəbin" qəzəbə düçar olmaq mənasını bildirir.

◘Bu ayədə cəbhədən qaçmağın haramlığı məsələsində iki hal istisna olunmuşdur: taktiki yerdəyişmə məqsədi olduqda və ümumi həmlə üçün digər bir müsəlman dəstəsinə qoşulduqda.

Bəzi təfsirlərdə başqa hallar da istisna sayılmışdır. Məsələn, müsəlmanlara mühüm bir xəbəri çatdırmaq üçün cəbhədən kənarlaşmaq və ya daha mühüm strateji bir mövqe əldə etmək üçün meydanı tərk etmək.[1] Əslində bu hallar da əvvəlki halların bir nümunəsidir.

◘Cəbhədən qaçanlar Allahın qəhr-qəzəbinə tuş gəlir. Belə ki, hər dəfə namaz qılarkən onlara nifrətimizi bildiririk.

## *BİLDİRİŞLƏR*

1.Cəbhədən qaçmaq kəbirə günahdır. Allah bu günah müqabilində əzab vəd etmişdir.

2. Taktiki baxımdan geri çəkilməyin eybi yoxdur.

3. Savaşda düşmənə qarşı hiylə işlətməyə icazə verilir.

4. Cəbhəyə getmək mühüm olduğu kimi, cəbhədən qaçmamaq da mühümdür. Bəziləri cəbhəyə getsə də, meydandan qaçdığı üçün cəhənnəmə yuvarlanır.

5. Bir şeyi dəyərləndirərkən tələsik mühakimə yürütməyək. Hər hansı plan və ya taktika əsasında fərqli hərəkət edilə bilər.

6. Qələbə Allahdandır. Amma döyüş texnikasından, hərbi taktika və müharibə siyasətindən də faydalanmalıyıq.

7. Cihaddan qaçanların və Allahın qəzəbinə gələnlərin yeri cəhənnəmdir. (Əslində cihaddan qaçan şəxs sığınacaq axtarır. Halbuki onun yeganə sığınacağı cəhənnəm odudur.)

8. Cəbhədən qaçmağın həm dünyəvi, həm də axirət əzabı var. Cəbhədən qaçanları qarşıda pis aqibət gözləyir.

## *(AYƏ: 17)*

﴿ فَلَمْ تَقْتُلُوهُمْ وَلَكِنَّ اللّهَ قَتَلَهُمْ وَمَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَلَكِنَّ اللّهَ رَمَى
وَلِيُبْلِيَ الْمُؤْمِنِينَ مِنْهُ بَلاء حَسَناً إِنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ ﴾

[1] "Təfsire-Fi Zülalul Quran".

**“Siz onları (öz gücünüzlə) öldürmədiniz. Əslində Allah (Öz qeybi yardımları ilə) onları qətlə yetirdi. (Ey peyğəmbər!) O vaxt ki, ox atdın, (əslində) sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqla imtahana çəksin. Çünki Allah çox eşidən və biləndir.”**

### *NÖQTƏLƏR*

◘Bədr savaşı günü Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Yerdən bir ovuc torpaq, çınqıl götür və mənə ver.” Həzrət Peyğəmbər (s) bir dua oxuyub onları düşmənə tərəf səpdi. Bu iş bir möcüzə ilə sonuclandı. Bir tufan yarandı ki, düşmənin qəlbini qorxuya saldı.[1] Bəli, Bədr savaşında qələbənin əsas amili Allahın istək və iradəsi idi. Əgər maddi səbəbləri, hər bir texnika və taktikanı əsas götürsək, müsəlmanlar azsaylı və silahsız idilər. Cəmi bir neçə atlısı olan bir dəstə, təpədən dırnağadək silahlanmış orduya necə qalib gələ bilər?!

◘“Bəla” dedikdə sınaq nəzərdə tutulur. Bu bəla həm nemətlər vasitəsi ilə, həm də müsibətlər vasitəsi ilə baş verə bilər. Nemətlərlə sınaq “bəlaən həsənə”, müsibətlə sınaq “bəlaən səyyiə” adlanır.[2]

◘İnsan düzgün bir əqidə ilə haqq yolda hərəkət edərsə, Allahın göstərişləri istiqamətində çalışarsa qeybi yardımlardan faydalanar. Belə bir halda insanın vücudu ilahilik tapar. Necə ki, bir rəvayətdə Allah-təala buyurmuşdur: “Bəndə nafilələr və müstəhəb əməllər vasitəsi ilə Mənə yaxın məqama çatar. Onun əli Mənim əlim, onun qulağı Mənim qulağım olar - onun bütün əzaları ilahiləşər. Nə istəyərsə, dərhal yerinə yetər.”[3] Belə bir insanın istənilən hərəkəti ilahi hərəkətdir. Əksinə, qeyri-ilahi yolda, qeyri-ilahi göstərişlər əsasında hərəkət edən insan şeytani vücud əldə edir. Necə ki, Aişə «Cəməl» savaşında Həzrət Əlinin (ə) qoşunu ilə üzləşdikdə peyğəmbərsayaq bir ovuc torpaq götürüb, qoşuna tərəf səpdi və nifrin etdi. Həzrət onun bu hərəkəti ilə bağlı buyurdu: “Bu işi görən şeytan idi.[4]

### *BİLDİRİŞLƏR*

1. Savaşda qalib gəlməyiniz sizi qürrələndirib, təkəbbürə aparmasın. Allah və Onun yardımlarını unutmayın.

2. İnsan öz hərəkətlərində nə məcburdur, nə də Allahın iradəsindən tam azaddır. Bütün işlər insanın iradə və istəyi ilə görüldüyündən ona aid edilir. Amma güc Allah tərəfindən verildiyindən bu əməllər həm də Allaha aid edilmişdir.

---

[1] “Təfsire-Əl-mizan”; “Təfsire-nümunə”.
[2] “Əraf”, 168; “Təfsire-nümunə”.
[3] “Kafi”, c. 2, s. 352.
[4] “Şərhe-Nəhcül-bəlağə”, Ibn Əbil-Hədid”, c. 1, s. 257.

3. Allahın qeybi yardımlarının nazil olmasında peyğəmbər və rəhbərin xüsusi rolu var.

4. Savaş və cihad Allahın sınaq vasitələrindəndir. Bu yolla həqiqi möminlər, zəif imanlılar və imansızlar müəyyənləşir.

5. Allahın yardımları, möminlərin qələbəsi və kafirlərin məğlubiyyəti təsadüfi deyil. Bu həqiqətlər Allahın elm və agahlığına əsaslanır.

*(AYƏ: 18)*

﴿ ذَلِكُمْ وَأَنَّ اللّهَ مُوهِنُ كَيْدِ الْكَافِرِينَ ﴾

**“Odur (düşmənin məğlubiyyəti, sizin qələbəniz və Allahın lütfü). (Bilin ki,) Allah kafirlərin hiyləsini zəiflədəndir.”**

***NÖQTƏLƏR***

◘“Zalikum” təbiri ilə «Bədr» savaşında müsəlmanların və kafirlərin vəziyyətinə işarə olunur. Bu sözlə göydən və yerdən nazil olan ilahi yardımlar, düşmənin məğlubiyyəti xatırladılır. Sanki deyilir: “Budur sizə Allahın lütfü.”

◘Düşmənlərin hiylələri onların qəlbində qorxu yaradılması, aralarına təfriqə düşməsi, sirlərinin ifşası, tufan və ildırımla puça çıxdı.

***BİLDİRİŞLƏR***

1. Allah-təala düşmənlərin möminlərə qarşı planlarını alt-üst edir. (Əgər iman ruhiyyəsi qorunsa, Allah düşmənlərin hətta məxfi və hiss olunmayan fəaliyyətlərini də puça çıxarar. “Təbəs” hadisəsini misal göstərmək olar. İslam inqilabını boğmaq tapşırığı almış Amerika eskadriliyası möcüzəli bir şəkildə Təbəs çölündə tar-mar oldu. Həmin vaxt bizlər yuxuda idik, belə bir hadisəni təsəvvürümüzə də gətirmirdik.)

2. İlahi himayə əldə etməyin şərti iman, süqutun şərti isə küfrdür.

3. Bütün hallarda Allaha təvəkkül edək və düşmənin hiylələrindən qorxmayaq.

*(AYƏ: 19)*

﴿إِن تَسْتَفْتِحُواْ فَقَدْ جَاءكُمُ الْفَتْحُ وَإِن تَنتَهُواْ فَهُوَ خَيْرٌ لَّكُمْ وَإِن تَعُودُواْ
نَعُدْ وَلَن تُغْنِيَ عَنكُمْ فِئَتُكُمْ شَيْئًا وَلَوْ كَثُرَتْ وَأَنَّ اللّهَ مَعَ الْمُؤْمِنِينَ﴾

**«Əgər (siz kafirlər İslamdan) fəth və qələbə intizarında idinizsə, həmin fəth gəldi. (İslam həqiqəti aşkar oldu.) Əgər (öz azğınlığınızdan) əl çəksəniz, sizin üçün daha yaxşıdır. Əgər (öz küfrünüzə) qayıtsanız, (Biz də öz qəhr-qəzəbimizə) qayıdarıq.**

**Dəstəniz nə qədər çox olsa da, karınıza gəlməyəcək. Çünki Allah möminlərlədir.»**

### *NÖQTƏLƏR*

◘Ayədə kimə müraciət olunur? İki ehtimal mövcuddur: Bədr savaşında məğlub olmuş kafirlər və ya qənimət bölgüsündə ixtilafa uğramış müsəlmanlar.

Bu ayənin öncəki ayələrlə uzlaşması birinci ehtimalı gücləndirir. Çünki keçmişdə küfr və qəzəbə düçar edilmiş zümrə həmin bu çoxluq idi. Əbu-Cəhl də Məkkədən çıxarkən Kəbənin pərdəsindən yapışaraq dedi: “Pərvərdigara! Bu iki dəstədən doğru yolu tutanını qalib et.”[1] O öz qələbəsinə əmin idisə də, nəhayətdə məğlub oldu.

İndi məsələyə ikinci ehtimalla nəzər salaq. Ayədə müsəlmanlara xəbərdarlıq olunur ki, fəthdən sonrakı höcətləşmə və etirazlardan əl çəksinlər. Əgər ötən mübahisələrə yenidən qayıtsalar, Allahın lütfündən məhrum ediləcək, düşmən qarşısında tənha buraxılıb məğlubiyyətə düçar olacaqlar. (Bir daha qeyd edirik ki, birinci ehtimal daha münasibdir.)

### *BİLDİRİŞLƏR*

1. İnsanın xeyri azğınlıqlardan, Allah və Onun rəsuluna qarşı çıxmaqdan çəkinməkdədir.
2. Allahın lütfü və ya qəhr-qəzəbi öz seçiminizdən və əməllərinizdən asılıdır.
3. Allah höccəti tamamlamış, bəhanələri kəsmiş və üzrə heç bir yer qoymamışdır.
4. Təşviq və xəbərdarlıq yanaşı şəkildə zəruridir.
5. Xilaf işlərin qarşısı qəti və aşkar şəkildə alınmalıdır. Bəzən bağışlanmağa yer qalmır.
6. Allahın qəhr-qəzəbi qarşısında cəmiyyətin çoxluğunun heç bir rolu yoxdur.
7. İman ilahi yardımların əldə olunmasında şərtdir.

***(AYƏ: 20)***

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَرَسُولَهُ وَلاَ تَوَلَّوْا عَنْهُ وَأَنتُمْ تَسْمَعُونَ ﴾

**“Ey iman gətirənlər! Allaha və Onun rəsuluna itaət edin. (Onun sözlərini) eşitdiyiniz halda üz döndərməyin.”**

***(AYƏ: 21)***

﴿ وَلاَ تَكُونُواْ كَالَّذِينَ قَالُوا سَمِعْنَا وَهُمْ لاَ يَسْمَعُونَ ﴾

---

[1] “Təfsire-Məcməül-bəyan”.

**“Eşitdik” deyənlər kimi olmayın. Amma (həqiqətdə) onlar eşitmirlər.”**

### *NÖQTƏLƏR*

◘Quranda başdan-başa Allaha itaətin ardınca Onun Rəsuluna (s) itaətdən danışılır. On bir yerdə “ətiullahə” (itaət edin Allaha) təbirinin ardınca “ətiunə” təbiri işlədilmişdir. Yəni Allahın rəsuluna itaət təqva şərtidir.

◘Həm Allaha, həm də Onun rəsuluna itaət zəruri olsa da, bu ayədə yalnız peyğəmbərə itaətsizlik qadağan olunmuşdur. Ayədən məlum olur ki, nəzərdə tutulan şəxslərin problemi xüsusi ilə Bədr savaşında Peyğəmbərə (s) itaətsizlik, onun hərbi göstərişlərindən çıxmaq olmuşdur.

◘Peyğəmbərin sözlərini eşitmək dedikdə, növbəti ayəyə əsasən, onun sözlərinin dərk olunması nəzərdə tutulur.

### *BİLDİRİŞLƏR*

1. Möminlər üçün Allah və Onun rəsulunun göstərişlərinə itaətsizlik qorxusu var və onlar xəbərdarlığa ehtiyaclıdırlar.
2. Peyğəmbərə itaətsizlik Allaha itaətsizlikdir. (Bəli, Allah və Onun rəsulunun göstərişləri bir tamdır və peyğəmbərə itaət Allaha itaətin şərtidir.)
3. Eşitmək və dərk etmək məsuliyyət yaradır.
4. Tarixdən və keçmişdəki müxaliflərin başına gələnlərdən xəbərdarlıq ibrətdir.
5. Rəhbərə itaətdə sədaqətli olaq, əhdlərimizə vəfa qılaq, əməl etməmiş iman iddiasına düşməyək.

### *(AYƏ: 22)*

﴿ إِنَّ شَرَّ الدَّوَابِّ عِندَ اللّهِ الصُّمُّ الْبُكْمُ الَّذِينَ لاَ يَعْقِلُونَ ﴾

**“Həqiqətən, Allah üçün canlıların ən pisi (haqqı eşitməyən) korlar, (haqqı deməyən) lallar və dərk etməyənlərdir.”**

### *NÖQTƏLƏR*

◘“Summun” kar, bukmun lal deməkdir. Burada kar və lal təbirləri haqqı eşitməmək və dilə gətirməmək mənasında işlədilmişdir.

◘Quran təbirlərində peyğəmbərlərin ilahi tərbiyəsini qəbul etməyən və haqqa könül verməyənlər bəzən ölüyə[1], bəzən dördayaqlıya[2], bəzən dördayaqlıdan da alçaq birinə,[3] bəzən isə ən alçaq canlıya oxşadılır.

---

[1] Bax: “Rum”, 52.
[2] Bax: “Əraf”, 179; “Muhəmməd”, 12.
[3] Bax: “Əraf”, 179.

◘Həzrət Əli (ə) buyurmuşdur: “Haqqı anlayıb inadkarlıq göstərən və küfr edən kəslər canlıların ən pisidirlər.”[1]

◘Bir dəstə insan qiyamətdə haqqı dinləmədiyini və ya düşünmədiyini etiraf edər. Beləcə, onlar cəhənnəmə yollanar.[2] Əgər eşidən qulağımız olsa və ya anlasaq, cəhənnəm əhli olmarıq.

### *BİLDİRİŞLƏR*

1. İman iddiasında olub, Allah və Onun rəsuluna itaət etməyənlər ən pis canlılardır.
2. İnsanın dəyəri onun düşüncəsindədir. Düşünməyən insan ən pis canlıdır. (Bəli, qulaq, dil və düşüncə bir dəyərdir. Amma onlardan düzgün istifadə olunmalıdır. Məsələn, dil ilə insanlara yaxşılığı əmr edib, onları pislikdən çəkindirməyən kəs lal kimidir.)
3. Dini təlimlərdən üz döndərənlər düşüncəsizdirlər.

### *(AYƏ: 23)*

﴿ وَلَوْ عَلِمَ اللّهُ فِيهِمْ خَيْرًا لَّأسْمَعَهُمْ وَلَوْ أَسْمَعَهُمْ لَتَوَلَّواْ وَّهُم مُّعْرِضُونَ ﴾

**“Əgər Allah onlarda bir xeyir görsəydi, onları eşidən edərdi. (Haqq sözü qəlb qulaqlarına çatdırardı.) Amma əgər onlar eşidən edilsəydilər də boyun qaçırıb üz döndərərdilər. (Bəzən əmin olsalar da, bunu etiraf etməzdilər.)”**

### *NÖQTƏLƏR*

◘İnadkar fərdlər bir neçə dəstədir: bəziləri hətta haqqı eşitmək də istəmir[3]; bəziləri eşitsələr də, eşitdiklərini məsxərə edir;[4] bəziləri eşidib anlasalar da, eşitdiklərini təhrif edirlər[5]; bəziləri ifrat bağlılıqlara, həsədçiliyə, qəlblərinin bərkliyinə görə haqqı batildən seçə bilmirlər.[6]

### *BİLDİRİŞLƏR*

1. Layiq olanları öz feyzindən bəhrələndirmək, hər kəsə haqqın qəbulu ilə bağlı, ləyaqət və istedadı ölçüsündə əta etmək ilahi sünnələrdəndir.
2. İlahi lütfdən bəhrələnmək üçün şəraiti özümüz yaratmalıyıq.
3. Ayələri təkcə eşitmək bəs deyil, haqqı qəbul edib təslim olmaq zəruridir.
4. Allah-təala öz hidayətini kimsəyə əsirgəmir. Sadəcə, inadkarlar haqq sözdən üz döndərirlər.

---

[1] “Təfsire-Dürrül-Mənsur”, c. 4, s. 43.
[2] Bax: “Mulk”, 10.
[3] Bax: “Fussilət”, 26.
[4] Bax: “Ənfal”, 31.
[5] Bax: “Nisa”, 46.
[6] Bax: “Maidə”, 13.

5. İnsan öz-özlüyündə ixtiyar sahibidir və haqqa qarşı etiraz edə bilir. (Bəli, təkamül istedadını özündə boğan şəxs ilahi feyzi də qəbul etmir.)

***(AYƏ: 24)***

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ وَاعْلَمُواْ أَنَّ اللّهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَقَلْبِهِ وَأَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ ﴾

**"Ey iman gətirənlər! Allah və Onun rəsulu sizi həyatverici bir şeyə dəvət etdikdə qəbul edin. Bilin ki, Allah insan və onun qəlbi arasında hail (pərdə) olur. Ona doğru məhşur olarsınız."**

***NÖQTƏLƏR***

◘Həyatın müxtəlif qisimləri var: bitki həyatı–[1] "Allah torpağı dirildir."; heyvani həyat–[2] "Allah ölüləri dirildir"; əbədi həyat–[3] "Kaş ki, həyatım üçün öncədən bir şey göndərmiş olaydım."

◘Peyğəmbərlərin dəvəti ilə qurulan həyat heyvani həyat deyil. Çünki heyvani həyat peyğəmbərdən öncə də vardı. Peyğəmbərin gəlişi ilə başlayan həyat düşüncə ilə, əqllə, mənəviyyatla, əxlaqla bağlı olan bir həyat idi. Ola bilsin ki, ayədə "həyata dəvət" deyilərkən cihada dəvət nəzərdə tutulmuşdur. Belə bir ehtimalı öncəki və sonrakı ayələrin Bədr savaşı haqqında olması ilə izah etmək olar.

◘İnsani həyatın əsasını iman və saleh əməl təşkil edir. Allah-təala və Onun peyğəmbərləri də insanları belə bir həyata dəvət etmişdilər. İlahi göstərişlərə itaət pak-pakizə həyata çatmaq rəmzidir.[4] Şiə və sünni rəvayətlərinə əsasən, pak-pakizə həyatın nümunələrindən biri həzrət Peyğəmbərin (s), Əlinin (ə) vilayəti və Əhli-beytlə (ə) bağlı çağırışının qəbul olunmasındadır.[5]

◘Allahın insanla onun qəlbi arasında hail olması onun hər şeyi görməsinə işarədir. O bütün mövcudları əhatə edir, qüdrət və tövfiq Ondandır. Allah-təala bizə boyun damarımızdan da yaxındır. Ağıl və ruhun fəaliyyəti də Onun əlindədir. Əgər Onun lütfü olmasaydı, insan heç vaxt haqq və batili ayırd edə bilməzdi.

◘İmam Sadiqdən (ə) rəvayət olunmuşdur ki, Allahın hail olması nümunələrindən biri küfrün məhvi və imanın sədası məsələsidir. Qəflət və şəkkin məhvi, xatırlatma və yəqinin təsbiti hail nümunələrindəndir.[6] Digər bir yerdə buyurulur: "Allah imkan verməz

---

[1] "Hədid", 17.
[2] "Fussilət", 39.
[3] Bax: "Fəcr", 24.
[4] Bax: "Nəhl", 97.
[5] "Təfsire-Fürqan".
[6] "Təfsire-Fürqan".

ki, insan batili haqq görə.”[1] Başqa bir yerdə buyurulur: “Bəzən insan qulağı, gözü, dili və əli ilə bir şeyə meyl edir. Həmin işi gördükdə isə qəlbi razılaşmır və bilir ki, meyl etdiyi şey haqq deyil.[2] Ola bilsin ki, hail olmaq ölümə bir işarədir.

### *BİLDİRİŞLƏR*

1. Gerçək imanın şərti Allah və Onun rəsulunun dəvətinin qəbuludur.

2. Allah və Onun rəsulunun dəvəti eyni bir mahiyyətə malikdir.

3. Allah və Onun rəsulunun yolu ilə hərəkət gerçək həyatdır. Bu yoldan çəkinmək isə insanlığın məhvidir.

4. Bütün dini göstərişlər, Peyğəmbər (s) buyruqları, hətta savaş və cihada çağırış fərd və cəmiyyət üçün həyat səbəbidir.

5. Allahın hüzuruna və əhatəsinə inanan kəs peyğəmbərlərin dəvətindən boyun qaçırmır.

6. Nə qədər ki, dünyadan getməmişik, fürsət var ki, haqqı qəbul edək. (Bu baxımdan Allahın insan və onun qəlbi arasında hail olması ölümə işarədir.)

7. Nə möminlər qürrələnsin, nə də kafirlərdən ümidimizi üzək. Çünki qəlblər Allahın əlindədir. O “müqəllibəl-qülubdur”.

8. Allahın birliyini qəbul etməmək üçün heç bir əsas yoxdur. Tövhid fitri bir həqiqətdir.[3]

9. Allah insanın qəlbindən ötüşən hər bir düşüncədən xəbərdardır.

10. Allah insana hər şeydən, hətta onun qəlbindən də yaxındır.

11. Hər birimiz istər-istəməz Qiyamətdə məhşur olacağıq. Belədirsə, Allahın rəsullarına müsbət cavab verək.

### *(AYƏ: 25)*

﴿ وَاتَّقُواْ فِتْنَةً لاَّ تُصِيبَنَّ الَّذِينَ ظَلَمُواْ مِنكُمْ خَآصَّةً وَاعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ ﴾

**“Qorxun (özünüzü hifz edin) o fitnədən ki, təkcə sitəmkarlarınızın ətəyindən tutmaz. (Əksinə hamıya çatar. Çünki başqaları da sitəmkarların əməlləri qarşısında süsdular.) Bilin ki, Allah ağır cəza verəndir.”**

---

[1] “Bihar”, c. 5. s. 205.

[2] “Təfsire-Nurus-səqəleyn”.

[3] “Təfsire-Əl-mizan”.

## *NÖQTƏLƏR*

◘"Fitnə" dedikdə şirk, küfr, bəla, sınaq, işkəncə və əzab başa düşülür. Bu ayədə uyğun söz ictimai bəla və müsibətlər mənasında işlədilmişdir.[1]

◘Ötən ayədə peyğəmbərə itaət göstərişi verilmişdisə, bu ayədə fitnədən çəkinmək tapşırılır. Məlum olur ki, fitnə nümunələrindən biri peyğəmbərə itaətsizlikdir. Bu ayə "Ali-İmran" surəsinin 103-cü ayəsi ilə eyni məzmundadır.[2] Fitnənin digər bir nümunəsi bütöv bir quruluşu dağıdan fəsad və günahdır. Belə bir fitnənin zərbələri ümumi və əhatəlidir. Məsələn, həqiqi başçıların vilayətini bir kənara qoyan Bəni-Üməyyə hakimlərinin fəsadı müsəlmanları əsrlər boyunca zillətə sürüklədi.

◘Zülm qarşısında sükut, «əmr be məruf» və «nəhy əz münkərin» tərk olunması fitnə və əhatəli əzabla nəticələnir. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Allah heç vaxt xalqı onlardan bəzilərinin günahına görə cəzalandırmaz. Belə bir cəzalandırma yalnız o zaman baş verər ki, həmin xalq arasında pis iş aşkarlansın və ətrafdakılar buna qarşı çıxa biləcəkləri halda sussunlar. Bu halda Allah onların hamısına əzab verər."[3] Necə ki, Həzrət Əli (ə) buyurmuşdur: "Bəzilərinin gizlində baş vermiş günahına görə Allah bütün xalqı cəzalandırmaz. Amma bir dəstə insan pis işi aşkarlasalar və xalq onları məzəmmət etməsə, hər iki dəstə əzaba düçar olar."[4]

◘«Fitnə törədən işlərdən çəkinmək» dedikdə, bir qırağa çəkilib guşənişin olmaq nəzərdə tutulmur. Əslində diqqət insanın ayıq olmasına yönəldilir. Həzrət Əli (ə) buyurmuşdur: "Fitnələr zamanı özünüzü iki yaşlı dəvə kimi aparın–sizi nə yükləsinlər, nə də sağsınlar."[5]

◘Bu ayə nazil olan vaxt həzrət Peyğəmbər (s) buyurdu: "Hər kəs məndən sonra Əlinin canişinlik məsələsində zülmə yol versə, elə bil mənim risalətimi və öncəki peyğəmbərlərin nübuvvətini inkar etmişdir."[6]

## *BİLDİRİŞLƏR*

1. Din və ilahi göstərişlərdən çıxmaq fitnələrin yaranması və ilahi əzabın nazil olması səbəbidir.

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-Əl-mizan".
[3] "Təfsire-nümunə".
[4] "Təfsire-isna-əşəri".
[5] "Nəhcül-bəlağə", h. 1.
[6] "Təfsire-Fürqan".

2. Nə fitnə törədin, nə fitnəkarlarla səs-səsə verin, nə də fitnə qarşısında susun.

3. İnsan və cəmiyyətin taleyi onların öz əməllərindən asılıdır.

4. Fərdlər öz əməllərindən əlavə, başqalarının da əməlləri üçün məsuliyyət daşıyır. Çünki bir dəstənin xilaf işi başqaları üçün də təhlükə törədə bilər. Gəmidə öz kayutunu deşən kəs əslində bütün gəmini batırmaq istəyir.

5. İlahi əzabın şiddət və çətinliyinə diqqət insanı zülm və günahdan çəkindirir.

***(AYƏ: 26)***

﴿ وَاذْكُرُواْ إِذْ أَنتُمْ قَلِيلٌ مُّسْتَضْعَفُونَ فِي الأَرْضِ تَخَافُونَ أَن يَتَخَطَّفَكُمُ النَّاسُ فَآوَاكُمْ وَأَيَّدَكُم بِنَصْرِهِ وَرَزَقَكُم مِّنَ الطَّيِّبَاتِ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴾

**“O zamanı yada salın ki, siz az idiniz və yerdə (Məkkədə) zəif düşmüşdünüz. Qorxurdunuz ki, camaat sizi çalıb-çapa. (Allah Mədinədə) sizə sığınacaq verdi. Öz yardımı ilə sizi gücləndirdi, pak şeylərdən sizə ruzi yetirdi ki, bəlkə şükür edəsiniz.”**

***NÖQTƏLƏR***

◘“Təxəttəf” dedikdə “çalıb-çapmaq”nəzərdə tutulur.

◘Məkkə müsəlmanları İslam peyğəmbərinin Mədinəyə hicrətindən qabaq ardıcıl şəkildə müşriklər tərəfindən incidilirdilər. Bu səbəbdən də onlar peyğəmbərin göstərişi ilə fərdi və ya toplum şəklində digər məntəqələrə hicrət edirdilər. Kimi Həbəşəyə, kimi Yəmənə, kimi Taifə, kimi də Şeybe-Əbu-Talibə (Əbu-Talib dərəsi adı ilə tanınan yerə) üz tuturdu. Müsəlmanlar daim qorxu və iztirab içində idilər. Mədinəyə hicrət edən zaman kimsənin ev-eşiyi yox idi. Onların böyük bir qismi peyğəmbər məscidində yerləşmişdilər. Peyğəmbər (s) Mədinəyə hicrət edən dönəmlərdə ənsar (mədinəli müsəlmanlar) da yoxsulluq içində yaşayırdılar. Onlar adətən, bir xurma ilə kifayətlənəsi olurdular. Bundan əlavə, mədinəli müsəlmanlar yəhudilər tərəfindən də işkəncəyə məruz qalırdılar. Besətin axırlarında isə Allah-təala müsəlmanlara qüdrət verdi və zimmə əhli (başqa dindən olanlar) müsəlmanlara cizyə (himayə haqqı) verməli oldular. Həmin dövrdə müşriklər qorxu içində yaşayır, hər an əsir düşmək təhlükəsi ilə üzləşirdilər. Bəziləri öz istəyi ilə var-dövlətini müsəlmanlara təqdim edirdi.[1] Hazırkı ayədə Allah-təala müsəlmanlara bir vaxtkı zəifliklərini xatırladaraq bu günkü qüdrət və əmniyyət üçün şükür etməklərini istəyir.

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

### *BİLDİRİŞLƏR*

1. Zəiflik günləri və həmin vaxtkı ilahi yardımların xatırladılması fitnələrdən uzaqlaşmaq üçün bir səbəbdir.

2. Öncə müsəlmanların sayı çox az idi. (“Qəlilun” təbiri əvəzində “qəlil” təbirinin işlədilməsi azlığa təkiddir.)

3. Müsəlmanlar Mədinəyə hicrətdən qabaq Məkkədə daim qorxu içində yaşayırdılar.

4. Haqq yolda sayınızın azlığından, zəiflikdən və çarəsizlikdən qorxmayın. Allahın yardımı labüddür.

5. Əmin-amanlıq, savaş qüdrəti və iqtisadi imkanların genişliyi xüsusi ilahi nemətlərdəndir.

6. Zəiflik dövrünün xatırladılması və həmin günlərin qələbə günləri ilə müqayisəsi şükür, eşq və təvəkkül üçün bir səbəbdir.

7. Allah azsaylı, zəif, qorxan bir dəstəyə imanı sayəsində izzət, qüdrət və qələbə bəxş edər.

### *(AYƏ: 27)*

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَخُونُواْ اللّهَ وَالرَّسُولَ وَتَخُونُواْ أَمَانَاتِكُمْ وَأَنتُمْ تَعْلَمُونَ ﴾

**“Ey iman gətirənlər! Allaha və peyğəmbərə xəyanət etməyin. Bilərəkdən öz əmanətlərinizə xəyanətkar olmayın.”**

### *NÖQTƏLƏR*

◘Bu ayənin nazil olma şəni haqqında deyilir: “Müsəlmanlar peyğəmbərin göstərişi ilə Bəni-Qürəyzə yəhudilərini mühasirəyə aldıqları vaxt yəhudilər sülh təklif edib Şama köçmək üçün icazə istədilər. Həzrət Peyğəmbər (s) onların təklifini qəbul etmədi. Səd ibn Məaz hakimlik üçün seçildi. Yəhudilərin keçmiş dostu Əbu-Ləbabə barmağı ilə boğazına işarə etməklə yəhudilərə anlatdı ki, Səd ibn Məazın hakimliyini qəbul etsələr, öldürüləcəklər. Vəhy mələyi Cəbrail Əbu-Ləbabənin bu işarəsini həzrət Peyğəmbərə (s) xəbər verdi. Xəyanətindən peşman olan Əbu-Ləbabə özünü Peyğəmbər məscidində sütuna bağlayıb yeddi gün heç nə yemədi. Nəhayət, onun tövbəsi qəbul olundu.[1]

Ayənin nazil olma şəni haqqında başqa bir mülahizə də mövcuddur. Bədr savaşında müsəlmanlardan bəziləri Əbu-Süfyana məktub yazıb onu Peyğəmbərin (s) planlarından xəbərdar etdilər. Əbu-Süfyan da Məkkə müşriklərindən kömək istədi və Bədr savaşına min nəfər göndərildi.[2]

---

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Safi”. “Təfsire-nümunə”.

[2] “Təfsire-Məcməül-bəyan”, “Təfsire-Əl-mizan”.

◘Quran dilində «əmanət» sözünün geniş məhfumu vardır. Bu söz siyasi, ictimai, əxlaqi - həyatın bütün dəyərlərinə şamil edilə bilər. Məsələn:

a) Məktəb, Quran, rəhbər, övlad, su və çörək kimi bütün maddi nemətlər;

b) Həzrət Peyğəmbərin (s) Əhli-beyti;[1]

v) Həm özümüz özümüz üçün, həm də cəmiyyət bizim üçün əmanətdir;[2]

q) Ənfal, qənimətlər, xums, zəkat, xalqın malı;

d) İmam Baqir (ə) buyurmuşdur: "Dinin hökmləri, ilahi vaciblər əmanətdir."[3]

e) Hökumət və məsuliyyət.

Beləcə, itaətsizlik və vəzifələrin yerinə yetirilməməsi bu əmanətlərə xəyanətdir. İbn-Abbas deyir: "İslam proqramından hər hansı göstərişi tərk edən kəs bir növ Allaha və Onun rəsuluna xəyanət etmişdir."[4] İctimai məsuliyyətlərdə qeyri-saleh insanların saleh insanlardan önə keçməsi də Allaha, Peyğəmbərə (s) və müsəlmanlara xəyanətdir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Əmanətə xəyanət edən kəs oruc da tutsa, namaz da qılsa, özünü müsəlman da saysa münafiqdir." İmam Sadiq (ə) buyurmuşdur: "Xalqın oruc-namazı sizi aldatmasın. Çünki bəzən bütün bu işlər adət üzündən olur. Xalqı doğru danışığı və əmanətə vəfası ilə sınağa çəkib tanıyın."[5]

◘Əmanətə xəyanət etməmək insanlıq vəzifəsi və haqlarındandır. Demək, qeyri-müsəlmanların da əmanətinə xəyanət olmaz.

## *BİLDİRİŞLƏR*

1. Xəyanət imanla bir araya sığmır. Əmanətdarlıq iman şərtidir.
2. Bəzən düşmənə məxfi bir işarə də xəyanət olur.
3. Hərbi sirlərin ifşası çox çirkin bir xəyanətdir.
4. Peyğəmbərə xəyanət Allaha xəyanətdir. "La təxunu" (xəyanət etməyin) həm Allahla Peyğəmbərə (s) birlikdə, həm də digərlərinə vəfalı olmağı əmr edir.
5. Allah və Onun rəsuluna xəyanət insanın özünə xəyanətidir. Bu xəyanətin zərəri birbaş insana qayıdır.
6. Xalqın əmanəti insanın öz əmanəti kimidir və bu əmanətə xəyanət insanın özünə xəyanətidir.

---

[1] "Mulhəqate-ihqaqil-həqq", c. 14, s. 564.
[2] "Bəqərə", 187.
[3] "Təfsire-Nurus-səqəleyn".
[4] "Kafi", c. 2, s. 104.
[5] "Kafi", c. 2. s. 104.

7. Xəyanət fitrətən çirkindir və məhkum olunur.

8. Bilərəkdən xəyanət təhlükəlidir. (Həm xəyanətin çirkinliyindən xəbərdarsınız, həm də onun pis aqibətini bilirsiniz.)

***(AYƏ: 28)***

﴿ وَاعْلَمُواْ أَنَّمَا أَمْوَالُكُمْ وَأَوْلاَدُكُمْ فِتْنَةٌ وَأَنَّ اللّهَ عِندَهُ أَجْرٌ عَظِيمٌ ﴾

**"Bilin ki, var-dövlətiniz və övladlarınız bir imtahandır. Əlbəttə ki, Allahın yanında (sınaqdan çıxanlar üçün) böyük mükafat var."**

***NÖQTƏLƏR***

◘İnsanın bir çox büdrəmələrinin mehvəri, haram müamilə, möhtəkirlik, yalan, əskik satmaq, infaqı tərk etmək, xüms-zəkat ödəməmək, hərislik və pozuculuq, yalan and, xalqın haqqını tapdamaq, savaş meydanından qaçmaq, hicrət və cihadı tərk etmək kimi günahların kökü var-dövlət və övlada bağlılıqdır. Demək, mal və övlad həm sınaq, həm də büdrəmə vasitəsidir. Necə ki, bu iki şey Əbu-Ləbabəni büdrətdi, o öz malını və övladlarını qorumaq üçün düşmənlə həmkarlığa meyl etdi.

◘Quran müxtəlif təbirlərlə var-dövlətin və övladların, bu iki şeyə ifrat bağlılığın fitnə olması barədə xəbərdarlıq edir: var-dövlət və övladda şeytanın iştirakının mümkünlüyü[1], var-dövlət və övladı çox istəmək və onun mənfi təsirləri[2], övlad və malın insana Allahı unutdurması[3], qiyamətdə var-dövlət və övladın əl tuta bilməməsi[4].

◘Ayədə diqqəti çəkən bəzi nöqtələrdən aydın olur ki, var-dövlət və övlad sınağı ağır sınaqdır və bu sınaqdan qalib çıxmaq çox çətindir. Əvvəla, cümlənin «ələmu» (bilin ki,) təbiri ilə başlaması bir xəbərdarlıqdır. İkincisi, «innəma» (həqiqətən, şübhəsiz) sözü bu sınaqda «nə üçün-niyə»yə yer olmamasını bildirir. Üçüncüsü, var-dövlət və övlad sınaq və fitnə vasitəsi yox, fitnə sayılmışdır.[5]

◘Həzrət Əli (ə) buyurmuşdur: "Kimsə fitnə və sınaqdan uzaqlıq istəməsin. Çünki istisnasız olaraq hamı sınağa çəkilir. Allahdan sınaqdan yox, sınaqda büdrəmədən uzaqlıq diləyin." Sonra Həzrət (ə) ilahi imtahanın səbəb və fəlsəfəsi haqqında buyurur: "İnsan sınağa çəkilir ki, razılar narazılardan seçilsin, hər bir kəsin əməllərindəki səadət və bədbəxtlik amilləri üzə çıxsın.[6]

---

[1] Bax: "Isra", 64.
[2] Bax: "Hədid", 20.
[3] "Münafiqun", 9.
[4] "Ali-Imran", 10.
[5] "Təfsire-rahnüma".
[6] "Nəhcül-bəlağə", h. 93.

## *BİLDİRİŞLƏR*

1. Var-dövlət və övlada ifrat bağlılıq insanı xəyanətə sürükləyir. Hətta bəzən insan insanlıq və din üsullarından əl götürür.

2. Var-dövlət və övlad iki təhlükəli və aldadıcı tələ ola bilər.

3. Allahın böyük mükafatına diqqət dünya bağlılığından uzaqlıq və xəyanətin tərki səbəbidir.

4. Var-dövlət və övlad nə qədər cazibəli olsa da, Allahın lütf və mükafatları müqabilində heç nədir. ("Var-dövlət" və "övlad" təbirləri qarşısında "böyük mükafat" təbiri işlədilmişdir.) (Bu sətirlər Aşura gecəsi yazıldı. O gecə ki, Hüseyn (ə) bütün olanlarını bir gündə Allahla müamilə etdi və onun sinəsinə çəkilən dağların hər biri bir insanı çökürmək üçün bəs edərdi. İmamın qədəmlərini möhkəmlədən isə bütün itirdiklərini Allah müqabilində heç nə bilməsi idi. Hətta onun altı aylıq körpəsi şəhid edildikdə imam buyurdu: «Allahın bu səhnələri görməsi mənə yetər.» Həzrət Zeynəb (s) Aşura günü qardaşı imam Hüseynin (ə) tikə-tikə doğranmış cismini görüb buyurdu: «Pərvərdigara! Bu az şeyi bizdən qəbul et.» Yezidin məclisində isə xanım belə buyurdu: «Kərbəlada ilahi gözəllikdən başqa bir şey görmədim.» Bəli, dünyanı kiçik, Allahın mükafatını böyük bilməklə çətin hadisələrə qalib gəlmək olar.)

### *(AYƏ: 29)*

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِن تَتَّقُواْ اللّهَ يَجْعَل لَّكُمْ فُرْقَاناً وَ يُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللّهُ ذُوالْفَضْلِ الْعَظِيمِ ﴾

**"Ey iman gətirənlər! Əgər ilahi təqva yolunu tutsanız, Allah sizin üçün bir fürqan (haqqı batildən seçmə qüvvəsi) qərar verər, pisliklərinizi örtər, sizi bağışlayar. Allah böyük fəzl və bəxşiş sahibidir."**

## *NÖQTƏLƏR*

◘Haqqı batildən seçmə vasitələri və meyarları müxtəlifdir. Məsələn: Peyğəmbərlər və Allahın övliyaları - necə ki, həzrət Əli (ə) "faruq" adlandırılmışdır. Bir hədisdə oxuyuruq: "Əlidən üz döndərən Allahdan üz döndərmişdir."[1]; Səmavi kitab - kitaba müraciətlə haqqı batildən seçmək olar; təqva - nəfs istəklərinin tüğyanı, təqvasızlıqla müşayiət olunan bağlılıq və düşmənçilik haqqın dərkinə mane olur; əql və düşüncə-əql və düşüncə olmayan yerdə vəhy ardınca getmək mümkünsüzdür.

[1] "Mülhaqate-ihqaqül-həqq", c 4, s. 26.

◘Fürqan və haqqı batildən seçmək gücü Allahın verdiyi hikmət və bəsirətdir. Bu xüsusiyyətlər təqva əhlinə verilər və elmdən, savaddan, məlumatdan asılı deyildir.

◘Fəxr Razinin "Təfsire-Kəbir" kitabında qeyd olunur ki, pisliklərin örtülməsi dedikdə, dünyadakı pisliklər, bağışlanma dedikdə, axirətdə Allahın qəzəbindən qurtuluş nəzərdə tutulur. "Təfsire-nümunə"yə əsasən, pisliklərin məhvi dedikdə günahın ictimai və psixoloji əsərlərinin məhvi, bağışlanma dedikdə, cəhənnəm əzabından qurtuluş nəzərdə tutulur.

◘Təqva yolunu tutub, nəfs istəklərindən üz döndərən insan haqqı batildən seçmə qüvvəsi əldə edir. Necə ki, digər bir ayədə oxuyuruq: "Allahdan çəkinin, Allah sizi agah edər, yadınıza salar."[1] İnsan ruhu yalnız təqvanın təmizləyə biləcəyi güzgü kimidir. Bu güzgü təmizləndikdə haqqın nuru onda əks olunur. Necə ki, Həzrət Əli (ə) təqvanı qəlblərin dərmanı, bəsirətsizlik üçün nur, qəlbin islah vasitəsi, ruhun paka çıxması, iç qorxulardan azadlıq, qaranlıqlarda işıqlıq kimi tanıtdırır.[2] Əksinə, hərislik və tamahkarlıq düşüncə çaşqınlığına səbəb olur. Həzrət Əli (ə) buyurmuşdur: "Düşüncə ən çox tamahın bər-bəzəyində büdrəyir."[3]

***Həqiqət saraydır bərli-bəzəkli,***
***Nəfs istəklərisə qatı toz-duman.***
***Harda tamah tüğyan edib kükrəsə,***
***İnan görməyəcək itigöz insan.***

***BİLDİRİŞLƏR***

1. Əgər təqvalı olsaq, var-dövlət və övlad sınaqlarında Allah bizə yol göstərər.
2. İnsanın əməlləri onun baxışına təsir göstərir. Bəsirəti olana elm, fitrət, əql və təcrübədən əlavə, xüsusi bir bəsirət də verilir.
3. Təqva həm düzgün baxış, həm də ictimai heysiyyət amilidir. Təqvası olan insan axirətdə də bağışlanır.
4. Pəhrizkarlara (təqvalılara, müttəqilərə) xüsusi bəsirət əta olunması və onların günahlarının bağışlanması ilahi bir fəzldir.

***(AYƏ: 30)***

﴿ وَإِذْ يَمْكُرُ بِكَ الَّذِينَ كَفَرُوا لِيُثْبِتُوكَ أَوْ يَقْتُلُوكَ أَوْ يُخْرِجُوكَ وَيَمْكُرُونَ
وَيَمْكُرُ اللَّهُ وَاللَّهُ خَيْرُ الْمَاكِرِينَ ﴾

---

[1] "Bəqərə", 282.
[2] "Nəhcül-bəlağə", x. 189.
[3] "Nəhcül-bəlağə", h. 219.

**“(Xatırla,) o zaman ki, kafirlər səni həbs etmək, öldürmək və ya sürgün etmək üçün plan çızdılar. Onlar plan cızdılar, Allah da Öz tədbirini tökdü. Allah  tədbir tökənlərin ən üstünüdür.”**

## *NÖQTƏLƏR*

◘“Məkr” dedikdə, tədbir, çarə, plan nəzərdə tutulur.

◘Bu ayə kafirlərin Peyğəmbəri (s) qətlə yetirmək qurğuları haqqındadır. Həmin qurğu haqqında Cəbrail həzrət Peyğəmbəri (s) xəbərdar etdi. Həzrət Əli (ə) Peyğəmbərin (s) yerində yatdığı vaxt o Həzrət evdən xaric olub əvvəlcə Tur dağına getdi. Sonra Mədinəyə üz tutdu. (Bəli, həmin gecə Həzrət Əli (ə) Peyğəmbər (s) yolunda canını fəda etməyə hazır oldu. “Bəqərə” surəsinin 207-ci ayəsi də Həzrət Əlinin (ə) haqqında nazil olmuşdur.[1]

◘Ayədə kafirlərin peyğəmbərə qarşı çıxmaları ilə bağlı açıqlanan üç planları müşriklərin “Darun-Nudvə” məclisinin məhsulu idi. Nəhayət, onlar həzrəti qətlə yetirmək qərarına gəldilər. Hər qəbilədən bir nəfər seçildi ki, qətldən sonra Peyğəmbərin (s) yaxınları kimsəni ittiham edə bilməsinlər.

◘Bu ayə haqqında danışdığımız surənin 27-ci ayəsinə rəğmən bəyan oluna bilər. Həmin ayədə oxuyuruq: “Allaha və Onun rəsuluna xəyanət etməyin. Əgər xəyanət etsəniz, Allahın tədbiri ilə rüsvay olarsınız.”

◘Allah böyük bir işi zəif bir mövcud vasitəsi ilə görə bilər. Allah bəni-adəmi bir qarğa vasitəsi ilə öyrətdi, Süleymanın ölümü bir qarışqa vasitəsi ilə kəşf olundu, Bilqeys şanapipik quşu vasitəsi ilə dəvət edildi, Əbrəhənin filə süvar olmuş döyüşçüləri Əbabil adlı kiçik quşların dimdiyindəki daşlarla süquta uğradıldı, Nəmrud bir milçək vasitəsi ilə bədbəxt oldu, Məkkə kafirlərinin hiyləsi bir hörümçək vasitəsi ilə zərərsizləşdirildi. Bütün bunlar bəşəriyyətin ilahi qüdrət qarşısında acizliyini göstərir.

## *BİLDİRİŞLƏR*

1. İlahi yardımların və bizdən uzaqlaşdırılmış təhlükələrin xatırladılması aramlıq, qəlbin təpər vasitəsidir.

2. Tarixdəki zalım hakimlər haqqa qarşı zindan, terror və sürgün vasitəsi ilə mübarizə aparmışlar.

3. Küfr insanı peyğəmbərin qətlinə apara bilər.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

4. Haqq söz qarşısında heç bir dəlil və məntiq yoxdur. Kafirlər məsələnin həlli və haqqın qəbulu əvəzinə haqqı və haqq insanları aradan götürmək istəyirlər.

5. Kafirlərin müsəlmanlara qarşı fitnələri və Allahın müsəlmanları himayə etməsi daimidir.

6. Haqq insanlara qurğu quranlar cavabını Allahdan alasıdırlar.

7. Allah Öz kitabının və övliyalarının hamisidir. Zəif bir hörümçək toru yaranmışların əşrəfini hifz edir, düşmənin ən böyük qurğusunu puça çıxarır. Tarixin yolunu dəyişir.

8. Nə vaxt lazım olsa, Allah Öz övliyalarını düşmən qurğusundan xəbərdar edir. Düşmənin gizli planları bütün dünyaya aşkarlanır.

***(AYƏ: 31)***

﴿ وَإِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُنَا قَالُواْ قَدْ سَمِعْنَا لَوْ نَشَاء لَقُلْنَا مِثْلَ هَـذَا إِنْ هَـذَا إِلاَّ أَسَاطِيرُ الأوَّلِينَ ﴾

**«Onlara ayələrimiz oxunan vaxt deyirlər: "Yaxşıca eşitdik, (elə bir mühüm şey deyil,) əgər istəsək, şübhəsiz, Quran kimi bir şey bəyan edərik. Bu, keçmişdəki əfsanələrdən başqa bir şey deyil."»**

## *NÖQTƏLƏR*

◘Ötən ayədə kafirlərin ardıcıl məkrlərindən, qurğularından, Peyğəmbəri (s) öldürmək istəklərindən danışıldı. Bu ayədə isə onların İslam əqidə məktəbi və Quranın təhrifi üçün cızdıqları ideoloji planlardan danışılır.

◘"Əsatir" dedikdə xurafat olan və ya uydurma əfsanələr, eləcə də, qədim insanlar və onların əl işləri nəzərdə tutulur.

◘Nəzr ibn Haris İrana səfəri zamanı Rüstəm və İsfəndiyarın dastanını öyrənmişdi. O, Hicaza qayıtdıqdan sonra bu dastanı xalqa danışırdı və iddia edirdi ki, mən də Məhəmməd kimi hekayə söyləyə bilərəm.[1]

## *BİLDİRİŞLƏR*

1. Avam xalqı aldatmaq, haqqı yüngül tutub məsxərəyə qoymaq düşmənlərin gedişlərindəndir. Əslində isə düşmənlər Quran kimi bir möcüzə yaratmaqda acizdirlər. Onların təbilləri boşdur və iddiaları əsassızdır.

2. Düşmənlər də Quranın üstünlüyünü və təsəvvürə sığmadığını etiraf etdilər.

---

[1] "Təfsire-Məcməül-bəyan"; "Təfsire-ruhul-məani"; "Təfsire-Fi Zilalil Quran".

3. Elə qədimdən möminlərin ünvanına sərtlik, konservativlik kimi böhtanlar yağdırılmışdır.

*(AYƏ: 32)*

﴿ وَإِذْ قَالُواْ اللَّهُمَّ إِن كَانَ هَـذَا هُوَ الْحَقَّ مِنْ عِندِكَ فَأَمْطِرْ عَلَيْنَا حِجَارَةً مِّنَ السَّمَاء أَوِ ائْتِنَا بِعَذَابٍ أَلِيمٍ ﴾

**“(Xatırla,) o zaman ki, müxaliflər dedilər: Pərvərdigara, əgər bu, Sənin tərəfindən həmin haqdırsa, bizə göydən daş yağdır və ya ağrılı bir əzab göndər.”**

## *NÖQTƏLƏR*

◘Bu sayaq qarğışların kökündə ya təəssüb və inadkarlıq, ya da xalqı aldatmaq istəyi dayanır. Onlar özlərinə lənət yağdırırlar ki, sadə xalq onların haqq, İslamın batil olduğunu düşünsün.

◘Allahın göstərişi ilə Qədire-Xumda həzrət Peyğəmbər (s) Əlini (ə) imamət məqamına təyin edib buyurdu: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır.” Münafiqlərdən olan Neman ibn Haris Peyğəmbərə (s) yaxınlaşıb dedi: “Bizə tövhid, nübuvvət, cihad, həcc, oruc, namaz, zəkat göstərişləri verdin, biz də qəbul etdik. İndi də bu gənci bizə imam təyin edirsən?!” Həzrət (s) buyurdu: “Yalnız Allahın əmri ilə.”

Həmin vaxt Neman qəzəbdən özünə lənət yağdırdı. Öz nifrinində isə haqqında danışılan ayədən iqtibas etdi.[1] Amma Neman həmin yerdən bir neçə addım uzaqlaşmamış, səmadan enən daş onun başına düşüb həyatına son qoydu. Sonra “Məaric” surəsinin ilk ayələri nazil oldu.[2]

## *BİLDİRİŞLƏR*

1. Bəzən düşmən, xalqı aldatmaq üçün özünü müqəddəs təqdim edib and içir.

2. İnadkarlıq insanda elə bir həddə çata bilər ki, o öz yoxluğu ilə razılaşar.

3. Peyğəmbərin (s) bəzi müxalifləri Allaha, Onun tədbirinə və duanın səmərəsinə inanırdılar.

*(AYƏ: 33)*

﴿ وَمَا كَانَ اللّهُ لِيُعَذِّبَهُمْ وَأَنتَ فِيهِمْ وَمَا كَانَ اللّهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ ﴾

---

[1] “Əl-Ğədir”, c. 1. s. 239-266; bu rəvayət otuz sünni alimi tərəfindən nəql olunmuşdur.

[2] “Təfsire-Məcməül-bəyan”.

**“Nə qədər ki, sən xalqın arasındasan, Allah onlara əzab göndərmək fikrində deyil. Nə qədər ki, onlar bağışlanmaq diləyirlər, Allah onlara əzab verməz.”**

## *NÖQTƏLƏR*

◘Növbəti ayədə Məkkə kafirlərinin əzabla hədələnməsi göstərir ki, bu ayədə əzab verilməməsi barədə bildirişin səbəbi Peyğəmbərin (s) xalq arasında olmasıdır. Peyğəmbərin (s) varlığının bərəkətindən müsəlmanlar ümumi şəkildə əzaba düçar edilməsələr də, Neman ibn Haris kimi ayrı-ayrı fərdlər xüsusi hallarda əzaba məruz qalmışlar.

◘Hədislərdə bildirilir ki, Allah-təala bəzi ilahi insanların vücuduna xatir başqalarına da əzab verməmişdir. Lut qövmünün məhvi zamanı həzrət İbrahim mələklərdən soruşur: “Onların arasında ilahi bir insan olduğu halda oranı məhv edirsinizmi?!” Mələklər deyir: “Biz bilirik ki, Lut oradadır. Ona göstəriş verilib ki, oradan xaric olsun.”[1] Həzrət Peyğəmbərin (s) vəfatından sonra Əli (ə) buyurdu: “Aranızdakı iki əmin-amanlıqdan biri getdi. Əmin-amanlığın o birini - istiğfarı hifz edin.”[2] Rəvayətdə oxuyuruq ki, İmam Riza (ə) Zəkəriyya ibn Adəmə buyurdu: “Qum şəhərində qal. Allah imam Kazimin (ə) vücuduna xatir Bağdad əhlini əzabdan azad etdiyi kimi, sənin vücudunun xatirinə bu şəhərdən də əzabı uzaq edər.”[3]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Mənim ölümüm və həyatım sizin üçün xeyirdir. Həyatım dövründə Allah sizdən əzabı uzaqlaşdırır, ölümümdən sonra isə əməlləriniz mənə təqdim olunur və mən (Allahdan sizin üçün) bağışlanma diləyirəm.”[4]

◘Bəzi itaətsizliklər və günahlar bəla və ilahi əzab səbəbidir. Çıxış yolu tövbə və istiğfardır. Necə ki, “Kumeyl” duasında oxuyuruq: “Pərvərdigara! Bəla nazil edən günahlarımızı bağışla.” Digər bir ayədə isə Allah-təala belə buyurur: “Nə qədər ki, xalq islah əhlidir, Allah onları həlak etməz.”

## *BİLDİRİŞLƏR*

1. Peyğəmbər və ilahi insanların mövcudluğu yer əhli üçün əmin-amanlıq səbəbidir.

2. İstiğfar, tövbə bəlaya mane olur. (Küfr və ilhaddan üz döndərmək də bir növ istiğfardır.)

3. Tövbə və istiğfarın Allah yanında xüsusi əhəmiyyəti var. Tövbə bir ümmətin taleyini dəyişmək gücündədir.

---

[1] “Ənkəbut”, 31-32.
[2] “Nəhcül-bəlağə”, h. 88.
[3] “Bihar”, c. 57, s. 217.
[4] “Təfsire-Nurus-səqəleyn”.

*(AYƏ: 34)*

﴿ وَمَا لَهُمْ أَلاَّ يُعَذِّبَهُمُ اللّهُ وَهُمْ يَصُدُّونَ عَنِ الْمَسْجِدِ الْحَرَامِ وَمَا كَانُواْ
أَوْلِيَاءهُ إِنْ أَوْلِيَآؤُهُ إِلاَّ الْمُتَّقُونَ وَلَكِنَّ أَكْثَرَهُمْ لاَ يَعْلَمُونَ ﴾

**“Nə üçün Allah onlara əzab verməsin? Belə ki, onlar Məscidül-həramda qəyyum olmadıqları halda (xalqı) oradan uzaqlaşdırırlar. Təqvalılardan savay kimsənin ona hamilik haqqı yoxdur. Amma çoxları bilmirlər.”**

***NÖQTƏLƏR***

◘Əvvəlki ayədə Allah-təala Peyğəmbərin (s) vücudu və günahkarların tövbəsinə xatir Ad və Səmud kimi qövmlərin üzərindən əzabını götürdüyünü bildirdi. Amma bu ayədə onlara əzabdan danışılır və deyilir: “Onlar əzaba layiqdirlər. Amma Allah-təala Peyğəmbərin (s) vücudu xatirinə onlara əzab vermir.” Əlbəttə, ayədə əzab deyilərkən, savaş və əsirliyin çətinlikləri də nəzərdə tutula bilər.

◘Həzrət Əli (ə) buyurmuşdur: “Rəbbinizin evi ilə bağlı Ondan çəkinin. Əgər onu boşlasanız, ilahi əzab dərhal sizi yaxalayar.”[1]

***BİLDİRİŞLƏR***

1. Möminlərin Məscidül-hərama daxil olmasına maneçilik törədənlər təqvasız insanlardır və ilahi əzab intizarında olmalıdırlar.
2. Kafirlər özlərini haqsız yerə Məscidül-həramın hamisi sayırlar.
3. Həzrət İbrahimin əli ilə, təqva əsasında tikilmiş bu ev təqvasız insanlara tapşırılmamalıdır.
4. Məscidül-həramın işlərini aparmaq üçün qəyyum təyin olunması zəruridir. (Ayə bu iş üçün təyin olunası qəyyumun şərtlərini bəyan edir və məlum olur ki, qəyyumluq zəruridir.)

*(AYƏ: 35)*

﴿ وَمَا كَانَ صَلاَتُهُمْ عِندَ الْبَيْتِ إِلاَّ مُكَاء وَتَصْدِيَةً فَذُوقُواْ الْعَذَابَ بِمَا
كُنتُمْ تَكْفُرُونَ ﴾

**“Onların Allah evi yanında namazları (və duaları) fit və əl çalmaqdan başqa bir şey deyildir. Küfr etdikləri üçün gərək (ilahi) əzabı dadsınlar.”**

***NÖQTƏLƏR***

◘“Muka deyərkən fit çalmaq, “təsdiyə” deyərkən əl çalmaq başa düşülür.

---

[1] “Nəhcül-bəlağə”, n. 47.

◘Ola bilər ki, onlar fit çalmaqla Kəbədə yerləşmiş bütlərə münasibətdə öz hüzurlarını elan edirmişlər.

◘Təfsirçilər "əzabı dadın" təbirindəki əzab nümunəsi kimi müşriklərin Bədr savaşındakı məğlubiyyətlərini göstərirlər.[1]

### *BİLDİRİŞLƏR*

1. Müqəddəs məkana hörmətsizlik, orada fit və əl çalmaq kimi mənasız işlər görülməsi bu işi görənlərin hamilik ləqayətinə malik olmadıqlarını göstərir.
2. Tarix boyu dini mərasimlər təhrif olunmuş, onlara mənasız işlər qatılmışdır.
3. Bəzən ən müqəddəs bir mərkəz ən qatı xurafat səhnəsinə çevrilir.
4. Müqəddəsliklərə qarşı küfr və hörmətsizlik ilahi əzabla nəticələnir.
5. İnadkarlıq, küfr və azınlığın təkrarı əzab gətirən amildir.

### *(AYƏ: 36)*

﴿إِنَّ الَّذِينَ كَفَرُواْ يُنفِقُونَ أَمْوَالَهُمْ لِيَصُدُّواْ عَن سَبِيلِ اللّهِ فَسَيُنفِقُونَهَا ثُمَّ تَكُونُ عَلَيْهِمْ حَسْرَةً ثُمَّ يُغْلَبُونَ وَالَّذِينَ كَفَرُواْ إِلَى جَهَنَّمَ يُحْشَرُونَ﴾

**"Həqiqətən, kafir olanlar öz mallarını sərf edərlər ki, Allah yolunun qarşısını alsınlar. Gələcəkdə də bu sayaq xərcləri olacaq. Sonra (xərclədikləri mal) onlar üçün həsrət mayasına çevrilər və həmin vaxt məğlub olarlar. Kafir olan kəslər cəhənnəmə doğru məhşur olacaqlar."**

### *NÖQTƏLƏR*

◘Bəziləri bu ayənin nazil olmasını Məkkə kafirlərinin Bədr savaşına qoyduqları ağır xərclə əlaqələndirmişlər. Ümumilikdə isə ayə İslamla mübarizəyə sərf olunmuş bütün büdcələri nəzərdə tutur.

◘"Əl-ləzinə kəfəru" (o kəslər ki, kafir oldular) təbirinin təkrarı bəzi kafirlərin sonradan müsəlman olması ilə izah edilə bilər. Bəziləri xərclədiyi pula heyfslənir, bəziləri isə öz küfrlərində qalıb cəhənnəm əhli olurdular. Bəli, cəhənnəm, küfründə möhkəm dayananlar üçündür. Möminlərin Allah yolunda xərclədiyi pullar nəticə verməsə

---

[1] "Təfsire-Məcməül-bəyan", "Təfsire-Əl-mizan", "Təfsire-Fi Zilalil Quran".

belə, onlar təəssüf etmirlər. Çünki Allahdan mükafat alacaqlarına əmindirlər.

### *BİLDİRİŞLƏR*

1. Kafirlər İslamın genişlənməsinə mane olmaq üçün daim pul xərcləyirlər. Nəhayətdə isə həsrət və məğlubiyyətdən başqa qazancları olmur.

2. Həzrət Peyğəmbər (s) qeybdən belə bir xəbər verir ki, gələcəkdə də İslamın ziddinə sərmayələr qoyulacaq. Amma qələbə İslamındır.

3. Kafirlərin səyi təkcə dünyəvi məğlubiyyət yox, həm də axirət əzabı ilə nəticələnir.

4. İmansızlıq və küfr insanın süqutuna və cəhənnəmə sürüklənməsinə səbəb olur.

### *(AYƏ: 37)*

﴿ لِيَمِيزَ اللَّهُ الْخَبِيثَ مِنَ الطَّيِّبِ وَيَجْعَلَ الْخَبِيثَ بَعْضَهُ عَلَى بَعْضٍ فَيَرْكُمَهُ جَمِيعاً فَيَجْعَلَهُ فِي جَهَنَّمَ أُوْلَئِكَ هُمُ الْخَاسِرُونَ ﴾

**“(Bu heyfsilənmə, məğlubiyyət və əzab) onun üçündür ki, Allah çirkini pakdan ayırsın, pislikləri aradan qaldırsın və hamısını toplayıb cəhənnəmdə yerləşdirsin. Onlar həmin ziyankarlardır.”**

### *NÖQTƏLƏR*

◘“Yərkuməhu” deyərkən üst-üstə toplamaq nəzərdə tutulur.

◘Cəhənnəm çox böyük olsa da, cəhənnəm əhlinin hər biri sıxıntıdadır.[1] Necə ki, bir divarda xeyli mıxa yer olsa da, hər bir mıx divara çətinliklə çalınır və sıxıntıda qalır.

### *BİLDİRİŞLƏR*

1. Haqq və batilin savaşı nəticəsində ruhiyyələr, məqsədlər, əməllər, məsuliyyətlər və qurğular aydınlaşır və insanın cövhəri kəşf olur.

2. Haqq tərəfdarlarının batil tərəfdarlarından seçilməsi ilahi sünnələrdəndir.[2]

---

[1] Bax: “Qaf”, 30.

[2] Bax: “Yasin”, 59.

3. Üst-üstə toplanma, sıxıntı və yerin darlığı cəhənnəmin xüsusiyyətlərindəndir.

4. İnsan üçün ən gerçək ziyan onun cəhənnəmə düşməsidir.

***(AYƏ: 38)***

﴿ قُل لِّلَّذِينَ كَفَرُوٓاْ إِن يَنتَهُواْ يُغۡفَرۡ لَهُم مَّا قَدۡ سَلَفَ وَإِنۡ يَعُودُواْ فَقَدۡ مَضَتۡ سُنَّتُ ٱلۡأَوَّلِينَ ﴾

**"(Ey Peyğəmbər,) kafirlərə de ki, əgər (öz azğınlıqlarından) əl çəksələr, keçmişləri bağışlanar. Əgər (əvvəlki hərəkətlərindən) dönsələr, şübhəsiz, Allahın keçmişdəkilərlə bağlı sünnəsi (onlara münasibətdə də) yerinə yetər."**

***NÖQTƏLƏR***

◘"İntəha" qadağanın qəbulu, qadağa səbəbindən bir işdən əl çəkilməsini bildirir.

***BİLDİRİŞLƏR***

1. Peyğəmbərə əmr olunub ki, Allahın sünnəsini (tövbə edənlərin bağışlanmasını və inadkarlıq göstərənlərin məhvini) xalqa bəyan etsin.
2. Kafir və dinsizin də tövbəsi qəbul olunur.
3. İslamda tövbə və islah yolu insanların üzünə daim açıqdır, kimsə üçün çıxılmaz vəziyyət yoxdur.
4. Mühakimədə insanların keçmişi yox, cari halı əsas götürülür.
5. Xalqa düşünmək, tövbə etmək üçün fürsət verək.
6. İslam savaş yox, islah istəyindədir.
7. Müsəlman olmaqla insanın keçmiş günahları və xilafları məhv olur.
8. Təşviq hədələməklə yanaşıdır.
9. Günahkarlara elə bir şəkildə ümid bacası açılmalıdır ki, onlar zəif olduğumuzu güman etməsinlər.
10. Əvvəlcə təşviq və höccətin tamamlanması, sonra hədələmə və sərtlik. (Müsəlman özünü ictimai problemlərin həllində məsul sayır.)
11. Allahın ədalətli və hikmətli qanunları tarix boyu eyni və dəyişməz olmuşdur.
12. Peyğəmbərlərin qələbəsi və küfrdə qabağa düşənlərin cəzaya çatması ötən ümmətlərdə ilahi sünnə olmuşdur. [1]
13. Başqalarının tarix və taleyindən ibrət götürək.

---

[1] Bax: "Bəqərə", 217.

*(AYƏ: 39)*

﴿ وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ كُلُّهُ لِلّه فَإِنِ انتَهَوْاْ فَإِنَّ اللّهَ بِمَا يَعْمَلُونَ بَصِيرٌ ﴾

**«Fitnənin (küfr və şirkin) axırına çıxana, dininizi Allah üçün xalis edənədək onlarla (düşmənlərlə) vuruşun. Əgər öz küfrlərindən əl çəksələr, həqiqətən, Allah onların etdiklərini görəndir.»**

***NÖQTƏLƏR***

◘İslamda savaş və cihad fatehlik üçün yox, fitnəni aradan qaldırmaq üçündür. Quranda fitnə qətldən də pis sayılmışdır.[1]

◘"Fitnə" sözünün geniş mənası var. Sıxıntı yaradan bütün əməllər fitnə sayılmışdır. Quranda şirk də fitnə kimi tanıtdırılır. Bunun səbəbi müşriklər tərəfindən haqsevərlər və onların cəmiyyəti üçün sıxıntı yaradılması və ya şirkin əbədi əzabla nəticələnməsi ola bilər. Möminləri və pak fitrətli insanları da küfrə vadar etmək fitnədir.[2]

◘İmam Sadiqin (ə) buyurduğuna görə, bu ayə həzrət Mehdinin (ə) zamanında qəti gerçəkləşəsidir.[3] İmam Baqir (ə) buyurmuşdur: «Hələ ki bu ayə gerçəkləşməmişdir. O, fitnəkarlar öldürüldüyü və şirkin aradan qalxdığı vaxt həyata keçəsidir.»[4]

◘Bu ayənin dinin qəbul olunmasında azadlıq prinsipi ilə ziddiyyəti yoxdur.[5] Fitnə və zalım hakimiyyət aradan qalxmalıdır ki, seçim üçün azad fəza yaransın.

***BİLDİRİŞLƏR***

1. İslamda cihadın məqsədi fitnənin, küfr hakimiyyətin aradan qaldırılması və haqqa dəvət üçün sağlam fəzanın yaradılmasıdır.

2. Nə qədər ki, kafirlər fitnəkarlıqla məşğuldurlar, mübarizə göstərişi öz gücündə qalır.

3. Nə vaxt düşmənlər savaşdan əl çəksə, onlarla həmin zamana münasib rəftar olunar.

*(AYƏ: 40)*

﴿ وَإِن تَوَلَّوْاْ فَاعْلَمُواْ أَنَّ اللّهَ مَوْلاَكُمْ نِعْمَ الْمَوْلَى وَنِعْمَ النَّصِيرُ ﴾

---

[1] "Bəqərə", 217-191.
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-Nurus-səqəleyn".
[4] "Kafi", c. 8. s. 201.
[5] Bax: "Bəqərə", 256.

**“Əgər yenə boyun qaçırıb üz döndərsələr, bilin ki, Allah sizin mövlanız və haminizdir. Necə də yaxşı mövla və yardımçıdır!”**

***BİLDİRİŞLƏR***

1. Hərbi məsələlərə rəhbərlik vaxtı və siyasi proqramlar cızılan zaman bütün yönümlər və şərtlər nəzərə alınmalıdır.

2. Siz vəzifənizə əməl edin. Əgər başqaları əməl etməyib üz döndərsələr, bilin ki, Allah sizin yardımçınızdır.

3. İlahi hakimiyyət və yardımdan qəflətdə qalmayın. (İlahi vilayət və yardıma iman mübarizə ruhiyyəsini gücləndirir. İlahi lütflərin xatırlanması düşmənin qurğuları və inadkarlıqları qarşısında möminlərin qəlbinə aramlıq verir.)

4. Allah ən üstün mövladır. O, bizi nə başqasına tapşırır, nə də Özü yaddan çıxarır. O, bizləri ehtiyacını aradan qaldırmaq üçün istəmir və kimsənin haqqını zaya çıxarmır.

5. Allahın yardımı bütün yardımlardan üstündür.

# ONUNCU CÜZ

### *(AYƏ: 41)*

﴿وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِن كُنتُمْ آمَنتُمْ بِاللّهِ وَمَا أَنزَلْنَا عَلَى عَبْدِنَا يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**"Əgər Allaha və (haqqın batildən) ayrıldığı, iki dəstənin savaşa qalxdığı gün bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, qənimət götürdüklərinizin, həqiqətən, beşdən biri Allah, Onun rəsulu, onun (Peyğəmbər) yaxınları (Əhli-beyt), yetimlər, imkansızlar və yolda qalanlar üçündür. Allah hər şeyə qadirdir."**

### *NÖQTƏLƏR*

◘Ayə nazil olan zaman Peyğəmbərlə (s) birlikdə Bədr savaşında iştirak etmiş, canından keçib qalib gəlmiş kəslərə ünvanlanmışdı. Onlar namaz, oruc, hicrət, cihad, şəhadət əhli idilər və Peyğəmbər (s) onlara ümid gözü ilə baxırdı. Bununla belə, Allah-təala hazırkı ayədə buyurur: «Ey Bədr cəbhəsinin mücahidləri, əgər Allaha, Peyğəmbərə və Qurana imanınız varsa, qənimətin beşdə birini verin.» Yəni namaz, oruc, cihaddan əlavə, xüms vermək də Allaha imanın şərtidir.

◘Quranda həm "qənimət", həm də "ğəramət" sözləri altı dəfə işlədilmişdir. "Ğəramət" dedikdə, təkcə savaş zərəri yox, bütün iqtisadi zərərlər nəzərdə tutulur. "Ğənimət" isə təkcə savaşdan yox, bütün sahələrdən əldə olunan mənfəəti bildirir. "Lisanul-ərəb", "Tacul-ərus", "Qamus" kimi lüğət kitabları, eləcə də, Qurtubi, Fəxr Razi, Alusi kimi sünni təfsirçiləri uyğun sözlərin geniş məna daşıdığını qəbul etmişlər. "Mufrədate-Rağib"də deyilir: "İnsanın əldə etdiyi istənilən bir şey qənimətdir." Quranda da «qənimət» sözü təkcə savaş mənfəətlərinə aid edilmir.[1] Həzrət Əli (ə) buyurmuşdur: "Allahın ayinlərinə əməl edən kəs məqsədə çatıb bəhrələnir."[2] (Həzrət "bəhrələnir" ifadəsini öz buyruğunda "ğənimət" sözü ilə ifadə etmişdir.)

◘Rəvayətlərə və şiə əqidəsinə əsasən, ayədəki "ğənimət" sözü bütün mənfəətlərə aiddir. Ayənin Bədr savaşında nazil olması o demək deyil ki, xüms yalnız savaş qənimətinə aiddir. Hətta bu ayədə

---

[1] Bax: "Nisa", 94.
[2] "Nəhcül-bəlağə", x. 120.

yalnız savaş qəniməti nəzərdə tutulmuş olsa da, rəvayətlər əsasında xums hökmü bütün mənfəətlərə aid edilə bilər.

◘Xüms mövzusu rəvayətlərdə də əhəmiyyətli yer tutmuşdur. Belə ki, xüms verməyən insanın malı halal sayılmamış, ona həmin maldan istifadə etməyə icazə verilməmişdir. Xümslü libasla qılınan namazın nöqsanı var. (Daha geniş məlumat almaq üçün müəllifin "xüms" kitabına müraciət edin.)

◘Bu ayə ənfalı yalnız Allah və Onun rəsuluna aid bilən əvvəlki ayə ilə zidd deyil. Xüms ayəsinə əsasən, Peyğəmbər (s) və onun canişinləri əldə etdiklərinin beşdə birini (xümsünü) saxlayırlar. Qalan hissə isə (beşdə dördü) mücahidlərə xərclənir.

◘Fəqihlər yeddi şeyin xümsünün verilməsini vacib sayırlar: illik qazanc, mənfəət; xəzinə; mədən; üzgüçülüklə əldə olunan gövhərlər; harama qarışmış halal mal; zimmi kafirin müsəlmandan aldığı torpaq; savaş qəniməti. (Daha ətraflı məlumat almaq üçün məsələlərin izahlı risaləsinə müraciət edin.)

◘Aydın məsələdir ki, Allahın xümsə ehtiyacı yoxdur. Allaha ayrılmış pay isə ilahi qanunların, Peyğəmbər (s) vilayətinin həyata keçməsi, İslam nidasının dünya əhalisinə çatdırılması, müstəzəflərə nicat verilməsi və fəsadın qarşısının alınması istiqamətlərində xərclənir.

Rəvayətlərə əsasən, Allahın payı Peyğəmbərin (s) ixtiyarına verilir, Peyğəmbərin (s) payı ondan sonra imamların ixtiyarına keçir.[1] Bu üç pay imamın qeybi dövründə onun həqiqi naiblərinin, yəni bütün şərtlərə cavab verən, təqlid mərcəyi olan müctehidə tapşırılır.[2]

◘Əksər şiə və bəzi sünni rəvayətlərinə əsasən, "zil-qurba" təbiri Peyğəmbərin (s) bütün yaxınlarına aid deyil. Bu söz Əhli-beytdən olan imamlara işarədir. Xüms Peyğəmbərin (s) qohum-əqrəbasını yox, rəhbərlik məsuliyyəti olan imamların ixtiyarındadır.

Rəvayətlərdən əlavə, "zil-qurba" təbirinin "Allah və rəsul" təbirləri ilə yanaşı işlənməsi həmin zümrənin Allah və peyğəmbər xəttində olan xüsusi fərdlərə aid olduğunu göstərir.

Rəvayətlərdə xümsun digər bir ünvanı kimi Bəni-Haşim seyidlərindən olan miskinlər və yolda qalmışlar göstərilir. Çünki seyid fəqirlərə zəkatdan pay götürmək haramdır. Beləliklə, adi insanların ehtiyacı zəkatdan, seyidlərin ehtiyacı isə xümsdən ödənilir.[3]

Əslində, cəmiyyəti məhrumiyyətlərdən qurtarmaq üçün İslam iki şeyi vacib etmişdir: cəmiyyətin bütün fəqirlərini əhatə edən zəkat və

---

[1] "Təfsire-Safi".
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-Məcməül-bəyan", "Vəsail", c. 6. xüms kitabı.

bir hissəsi fəqir seyidlərə məxsus olan xüms. Xüms və zəkat fəqirin bir illik ehtiyacını ödəyəcək həddə verilə bilər.

◘İmam Riza (ə) buyurmuşdur: "Ayədə nəzərdə tutulmuş beş hal üçün hansı miqdarda pay ayrılması imamın ixtiyarındadır."[1]

### *BİLDİRİŞLƏR*

1. İllik qazanc və qənimət az olsa da xüms ödəmək vacibdir.
2. Bir halda ki Bədr savaşında Allahın yardımı ilə qələbə əldə olundu, Allahın, Onun rəsulunun və rəsulunun Əhli-beytinin haqqını və qənimətlərin xümsünü ödəmək vacibdir.
3. İslam hüquqi şəxslərin mülkiyyət hüququnu qəbul edir.
4. Məhrumiyyəti aradan qaldırmaq İslam proqramlarının tərkib hissəsidir. Cihadın səmərəsi və qənimətlərdən fəqirlərin ehtiyacı ödənməlidir.
5. Məhrum təbəqəyə diqqət yetirilməsi üçün onların adı Allahın, Onun rəsulunun və rəsulunun Əhli-beytinin adı ilə yanaşı çəkilir.
6. İman vəzifə və isara (insanın ehtiyac duyduğu bir şeyi başqasına bağışlamasına) əməl amilidir.
7. Maldan keçmək o qədər çətindir ki, bəzən mücahidlər də qıymamazlıq göstərirlər.
8. Xüms kamil iman nişanəsidir. İman, ibadət, fitrət və cihad haqqında danışıldıqdan sonra xüms vermək əmr olunur. Xüms iman şərti olduğundan müvəqqəti yox, daimi bir əmrdir.
9. Bəndəlik ilahi maarifin əldə olunma rəmzidir. İslam Peyğəmbəri (s) xalis Allah bəndəsi olmuşdur.
10. Müsəlmanlar arasında peyğəmbərlərin varlığı Allahın yardımı və qələbə amilidir.
11. Savaş günü doğru danışanların yalançılardan seçildiyi gündür.
12. Bədr savaşındakı ilahi yardım İslamın haqq olmasını aşkarladı.

### *(AYƏ: 42)*

﴿إِذْ أَنتُم بِالْعُدْوَةِ الدُّنْيَا وَهُم بِالْعُدْوَةِ الْقُصْوَى وَالرَّكْبُ أَسْفَلَ مِنكُمْ وَلَوْ تَوَاعَدتَّمْ لاَخْتَلَفْتُمْ فِي الْمِيعَادِ وَلَكِن لِّيَقْضِيَ اللّهُ أَمْراً كَانَ مَفْعُولاً لِّيَهْلِكَ مَنْ هَلَكَ عَن بَيِّنَةٍ وَيَحْيَى مَنْ حَيَّ عَن بَيِّنَةٍ وَإِنَّ اللّهَ لَسَمِيعٌ عَلِيمٌ﴾

**"(Xatırlayın,) o zaman ki, siz aşağı, düşmənlər isə yuxarı tərəfdə idi. Karvan sizdən də aşağıda durmuşdu. Əgər öncəki qərarınızda qalsaydınız, razılığa gəlməzdiniz. (Çünki həm sizdən**

---
[1] "Təfsire-Safi".

**aşağı, həm də sizdən yuxarı düşmənlər vardı.) Amma (sizi görülmüş iş müqabilində qərar verdi ki,) Allahın istədiyi iş gerçəkləşsin. Həlak olan şəxs agahlıqla həlak olsun, həyat tapan şəxs də dəlillərlə həyat tapsın. Həqiqətən, Allah eşidən və biləndir.”**

### *NÖQTƏLƏR*

◘“Udvə” sözü “təvacüz” mənasını bildirir. Bir şeyin orta həddi aşmış ətrafı da “udvə” adlandırılmışdır. Bu ayədə “udvə” deyərkən, ətraf nəzərdə tutulur. “Dunuvv” sözündən olan “dünya” sözü aşağı, yaxın mənasını bildirir. “Qusva” isə daha uzaq deməkdir.

◘Bədr savaşında kafirlər hərbi təchizat, say, ruhi və cismi hazırlıq kimi üstünlüklərlə yanaşı, əlverişli strateji mövqeyə də malik idilər. Onlar çətin məqamda Qırmızı dəniz sahili ilə qaça da bilərdilər. Allah-təala yalnız karvanı müsadirə etmək məqsədində olan müsəlmanları onlarla üzləşdirdi və savaş qaçılmaz oldu. Bu döyüşdə müsəlmanları qələbəyə çatdıran isə yalnız Allahın lütfü idi.

### *BƏDR SAVAŞININ SİMASI*

Surənin əvvəlki ayələrindən hazırkı ayəyədək Bədr savaşında Allahın yardımları təsvir olundu:

1. «Bədr savaşında siz malları müsadirə etmək fikrində idiniz və savaş hazırlığınız yox idi.»[1]
2. «Qarşıya savaş çıxanda bəziləri narahat idilər.»[2]
3. «Bəziləri ölümdən qorxurdular.»[3]
4. «Onlar pərişan idilər və Allahdan yardım diləyirdilər.»[4]
5. «Çirkinlikdən təmizlənmək və qumsal yerin möhkəmlənməsi üçün yağış göndərdik.»[5]
6. «Komandanlığa yetərincə itaət olunmurdu.»[6]
7. «Bəziləriniz öncə xəyanət etmişdiniz.»[7]
8. «Rəhbəriniz hədələnirdi və hiylələrlə qarşılaşmışdı.»[8]
9. «Əgər iş sizin ixtiyarınızda olsaydı, bir belə müşküllə, razılığa gəlməzdiniz.»

---

[1] Ayə 7.
[2] Ayə 5.
[3] Ayə 6.
[4] Ayə 9.
[5] Ayə 11.
[6] Ayə 21.
[7] Ayə 27.
[8] Ayə 30.

Bütün digər nümunələr göstərir ki, Bədr savaşı müsəlmanların qüdrətinin nümayişi, kafir və müşriklərin ruhiyyəsinə zərbə vurmaq üçün nəzərdə tutulmuş ilahi plan idi.

Bu səbəbdən də digər bir Quran ayəsində Bədr savaşı günü “fürqan” günü adlandırılmışdır. Çünki həmin gün nazil olan misilsiz qeybi yardımlar hamı üçün həqiqəti aydınlaşdırdı. Həmin hadisəni yalnız inadkarlıq göstərənlər lazımınca dəyərləndirmədilər.

### ***BİLDİRİŞLƏR***

1. Keçmişdə baş verən hadisələri və ilahi yardımları xatırlamaq, eləcə də bu hadisələri təhlil etmək zəruridir.

2. Allah istədiyi an bütün zəiflik amillərini aradan qaldırır.

3. Bədr savaşında müsəlmanların qələbəsi şirkin batilliyinə və İslamın haqq olmasına aşkar dəlil idi.

4. Agahcasına azğınlıq çox çirkin olduğu kimi, agahcasına iman da çox dəyərlidir.

5. İslam aşkar dəlillər üzərində bərqərardır. Belə bir məktəb həyat qaynağıdır.

6. Allah-təala müsəlmanların qələbəsini öncədən müəyyənləşdirmişdi. Ona görə də səhnələr və qərarlar dəyişdi. Belə bir məqamda bilmək olur ki, Allah hər şeyi eşidən və biləndir.

### ***(AYƏ: 43)***

﴿ إِذْ يُرِيكَهُمُ اللّهُ فِي مَنَامِكَ قَلِيلاً وَلَوْ أَرَاكَهُمْ كَثِيرًا لَّفَشِلْتُمْ وَلَتَنَازَعْتُمْ فِي الأَمْرِ وَلَكِنَّ اللّهَ سَلَّمَ إِنَّهُ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ ﴾

**“(Ey peyğəmbər! Yada sal,) o zaman ki, Allah onların sayını yuxuda sənə az göstərdi. Əgər Allah onları çox göstərsəydi, şübhəsiz, süstləşib savaş haqqında çəkinərdiniz. Amma o (sizi bu süstlük və çəkişmədən) salamat saxladı. Həqiqətən, Allah sinələrdə olandan xəbərdardır.”**

### ***NÖQTƏLƏR***

◘Bu ayə ilahi lütf və yardımları bəyan etdikdən sonra müsəlmanlara kafirləri az göstərməsindən danışır. Bu iş bir neçə mərhələdə gerçəkləşdi: Həzrət Peyğəmbər (s) yuxuda düşməni azsaylı görüb öz yuxusunu müsəlmanlara danışmaqla onların ruhiyyəsini qaldırdı. Digər bir tərəfdən müsəlmanlar kafirlərə azsaylı göstərildi. Bunun nəticəsində düşmən Məkkədən yeni bir qüvvə istəmədi. (Bu barədə növbəti ayədə danışılır.)

Peyğəmbərin bibisi Atikə Bədr savaşından üç gün əvvəl Məkkədə yuxuda gördü ki, bir şəxs belə fəryad çəkir: «Ey Məkkə xalqı! Öz qətlgahınıza tələsin!» Sonra Əbu-Qubəys dağının

yüksəkliyindən ucalan nida bir daş parçasını yerindən oynatdı və bu daşın hər tikəsi evlərdən birinə sıçrayıb Məkkədə qan axıtdı. Bu yuxu dildən-dilə gəzirdi. Eşitdikləri hadisə kafirləri dəhşətə salırdı. Bütün bunlar Bədr savaşında müsəlmanların qələbəsi üçün Allahın bir planı idi.[1]

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Yuxu üç qismdir: Ya Allah tərəfindən bir müjdədir, ya şeytan tərəfindən qəm-qüssədir, ya da yuxu tək görülən gündəlik çətinliklərdir."[2] Peyğəmbərlərin və Allah övliyalarının yuxusu birinci qisim yuxudan olduğu üçün dəlildir. Digər bir hədisdə həzrət Peyğəmbər (s) buyurur: «Saleh insanların röyası Allah tərəfindən bir müjdədir və peyğəmbərlikdən bir cüzdür.»[3]

Əlbəttə ki, Allah övliyalarının yuxusu bəzən təbir olunmalıdır. Məsələn, həzrət Yusifin günəş, ay və ulduzların ona səcdə etməsindən ibarət olan yuxusu təbir olundu. Bəzən isə yuxuda bir hökm bəyan olunur və bu hökmün təbirə ehtiyacı qalmır. Necə ki, həzrət İbrahim yuxuda oğlu İsmaili zibh etmək göstərişi aldı.

◘Peyğəmbərin yuxusu vəhydən bir işartı olsa da, Quranda həzrət İbrahim (ə), həzrət Məhəmmədin (s) yuxularının sadiqliyi bildirilsə də, İslam peyğəmbərinin böyük bir cəmiyyəti yuxuda az şəkildə görməsi kafirlərin əslində zəifliyinə işarə idi. Qurani-kərimdə oxuyuruq: "Sən onların əlbir olduğunu güman edirsən, amma onlar qəlbən bir-birlərindən aralı və dağınıqdırlar."[4]

### ***BİLDİRİŞLƏR***

1. Yuxu rabitə, yardım, ruhiyyə əldə etmə və ilahi kömək yollarından biridir.
2. Əsrarəngiz yuxu dünyasının öz xüsusi dili və rəmzi var. Yuxu təbiri dilində düşmənin zəifliyi və məğlubiyyəti onların sayının azlığı ilə göstərilir.
3. Düşmənin güclü tərəflərini açıqlayan və müsəlmanların ruhiyyəsini zəiflədən məlumatlar yaymaq (xüsusi ilə savaş zamanı) qadağandır. Döyüşün taleyinin həll olunmasında döyüşçülərin ruhiyyəsi mühüm rol oynayır.
4. Allah-təala ən böhranlı şəraitlərdə belə möminləri hifz edir.

***Qoruyanım həmin kəsdirsə əgər,***
***Daş qoynunda şüşə saxlaya bilər.***

---

[1] "Təfsire-nümunə".
[2] "Bihar", c. 14, s. 441.
[3] "Bihar", c. 61, s. 177.
[4] "Həşr", 14.

### *(AYƏ: 44)*

﴿ وَإِذْ يُرِيكُمُوهُمْ إِذِ الْتَقَيْتُمْ فِي أَعْيُنِكُمْ قَلِيلاً وَيُقَلِّلُكُمْ فِي أَعْيُنِهِمْ لِيَقْضِيَ اللّهُ أَمْرًا كَانَ مَفْعُولاً وَإِلَى اللّهِ تُرْجَعُ الأمُورُ ﴾

**“(Xatırlayın,) o zaman ki, düşmənlə qarşılaşdığınız vaxt Allah onları sizin nəzərinizdə az göstərdi (cürətlə həmlə edəsiniz deyə), sizi də onların nəzərində az göstərdi (ki, onlar Məkkə kafirlərindən kömək istəməyələr). Bu işin səbəbi Allahın yerinə yetəsi işi gerçəkləşdirməsi oldu. (Bilsinlər ki,) bütün işlər Allaha dönəsidir (hər şey Onun iradəsinə tabedir!)”**

### *NÖQTƏLƏR*

◘Müsəlmanlar kafirlərin gözünə o qədər az göründülər ki, onlar dedilər: “Biz müsəlmanları məhv etmək üçün qullarımızı göndərərik.”[1] Amma savaş başlayanda müsəlmanlar onların gözünə ikiqat artıq göründülər və onlar qorxuya düşdülər.[2]

### *BİLDİRİŞLƏR*

1. İlahi müqəddərat insanın iradəsini əlindən alır. Bədrdə iki qoşunun savaşa rəğbətləndirilməsi göstərir ki, bu qarşılaşmada onların da iradəsi rol oynamışdır.
2. Müsəlmanlar həm savaşdan öncə, həm də savaş gedişində ilahi yardımlardan faydalandılar.
3. Allah-təala bəzən müsəlmanlara yardım üçün təkvini vilayətini işə salmaqla gözlərdə görüntülər yaradır.
4. Zahiri hiss üzvləri də Allahın əlindədir.
5. Bir iş Allahın iradəsincə olduqda bütün maneələr aradan qalxır.
6. Qələbə təkcə çoxluqdan asılı deyil. Döyüşçülərin iman və ruhiyyəsi, Allahın lütf və təqdiri qələbə əldə olunmasında təyinedici rol oynayır.

### *(AYƏ: 45)*

﴿ يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا لَقِيتُمْ فِئَةً فَاثْبُتُواْ وَاذْكُرُواْ اللّهَ كَثِيرًا لَّعَلَّكُمْ تُفْلَحُونَ ﴾

**“Ey iman gətirənlər! Əgər bir dəstə ilə üz-üzə gəlsəniz, sabitqədəm olun və Allahı çox zikr edin ki, qurtuluş əldə edəsiniz.”**

---

[1] “Təfsire-Safi”.
[2] “Təfsire-nümunə”. “Təfsire-Əl-mizan”. “Ali-Imran”, 13.

### *NÖQTƏLƏR*

◘Ayədə «Allah zikri» deyilərkən, təkcə dil zikri nəzərdə tutulmur. Allahın lütflərini xatırlamaq, daxilən ilahi yardımlara diqqət yetirmək, Onun izzət və əzəmətini yada salmaq zikrin mahiyyətini təşkil edir. İmam Sadiq (ə) buyurmuşdur: «Allahın Öz bəndələri üçün zəruri saydığı işlərdən biri Onun çox zikr edilməsidir. Halal–haramlarla rastlaşdıqda Allah zikri insan üçün yardımçıdır. Allaha itaət edən kəs göstərişlərə əməl edir, günaha batan isə boyun qaçırır.»[1]

### *BİLDİRİŞLƏR*

1. Sabitqədəmlik, ardıcıllıq iman şərtidir.

2. Bizə cəbhədə sabitqədəm olmaq əmr edilib. Amma bu sabitqədəmlik özü də Allahdan istənilməlidir[2].

3. Müsəlmanların cəbhə fəzasında Allah zikri dalğalanmalıdır. Çətinliklər artdıqca Allah zikrinə ehtiyac da artır.

4. Allahı bir dəfə zikr etmək kifayət deyil və bu zikr davamlı olmalıdır. Çünki savaş böhranında və cəbhə hadisələrində Allah çox zikr olunmadıqda məqsəddən yayınma ehtimalı artır.

5. Cəbhədə Allah zikri ailə-uşaq və var-dövlət zikrinin yerini tutmalıdır. İmam Səccad (ə) dualardan birində deyir: "Pərvərdigara, mücahidlərin qəlbindən var-dövlət və ailə-uşaq fikrini çıxart və onların gözü qarşısında behişti cilvələndir."[3]

6. Sabitqədəmlik və Allah zikri savaşda qələbə və əbədi qurtuluş rəmzidir.

7. Savaş meydanı qurtuluş mərkəzlərindən biridir.

### *(AYƏ: 46)*

﴿ وَأَطِيعُواْ اللّهَ وَرَسُولَهُ وَلاَ تَنَازَعُواْ فَتَفْشَلُواْ وَتَذْهَبَ رِيحُكُمْ وَاصْبِرُواْ إِنَّ اللّهَ مَعَ الصَّابِرِينَ ﴾

**"Allaha və Onun rəsuluna itaət edin. Bir birinizlə çəkişməyin ki, süstləşərsiniz, şövkət və qüvvəniz aradan götürülər. Səbir edin. Həqiqətən, Allah səbir edənlərlədir."**

### *NÖQTƏLƏR*

◘Ötən ayədə iki qələbə amilinə, yəni sabitqədəmlik və Allah zikrinə işarə olundu. Bu ayədə isə itaət və vəhdət amilləri önə çəkilir. Əgər sabitqədəmlik cismə və zahirə aiddirsə, səbir psixoloji və ruhani bir alətdir.

---

[1] "Bihar", c. 93. s. 163.
[2] "Bəqərə", 250.
[3] "Səhifeyi-Səccadiyyə2. d. 27.

◘“Rih” külək, qüdrət və şövkətə işarədir. Necə ki, külək bayrağı dalğalandırır və bu, bərqərarlıq, əzəmət nişanəsidir. Əgər ixtilaf və çəkişmə nəticəsində bu əzəmət aradan götürülsə, müsəlmanlar xar olarlar. Necə ki, avtomobil təkərinin havası boşaldıqda, o, hərəkətdən düşür.

◘İttifaq, birlik, ixtilaf və təfriqədən uzaqlıq Allahın təkidli göstərişlərindəndir. Mömin insan həyatın bütün sahələrində bu göstərişə əməl etməlidir. Birliyi qorumaq və təfriqəyə yol verməmək savaş meydanlarında xüsusi əhəmiyyət kəsb edir. Allah-təala bir çox Quran ayələrində mücahidlərin birliyini, nizam-intizamını mədh etmişdir.[1]

## *BİLDİRİŞLƏR*

1.Cihad müsəlmanların rəhbərlərinin komandanlığı altında, eləcə də, Allah və Onun rəsulunun (həqiqi canişinlərin) göstərişləri əsasında həyata keçməlidir.

2. İlahi qanun və ilahi rəhbər vəhdət mehvəridir. (“Ətiu” ilahi qanunlara, “rəsuləhu” səmavi rəhbərə işarədir.)

3. Çəkişmə sizi daxildən puça çıxarır, xaricdən abır-həyanızı aparır. (Tarix boyu müsəlmanların zəiflik və məğlubiyyətlərinin səbəbi bu ayəyə əməl etməmələri olmuşdur.)

4. İtaət və vəhdətdə möhkəm olaq, istəyimizə zidd hərəkət edildikdə səbirli olaq, bir-birimizə dözümlü yanaşaq.

5. Allahın səbirlilərlə olmasına inam insanı səbir və dözümə sövq edir.

6. İlahi yardımlar səbir əhli üçündür.

### *(AYƏ: 47)*

﴿ وَلاَ تَكُونُواْ كَالَّذِينَ خَرَجُواْ مِن دِيَارِهِم بَطَرًا وَرِئَاء النَّاسِ وَيَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَاللّهُ بِمَا يَعْمَلُونَ مُحِيطٌ ﴾

**“O kəslər kimi olmayın ki, məstlik, özününümayiş, qürur və ya riya səbəbindən xalqın qarşısında (cəbhəyə doğru) evlərindən çıxdılar və xalqı Allah yolundan saxladılar. Halbuki Allah onların işindən tam xəbərdardır.”**

---

[1] Bax: “Səf”, 6.

### *NÖQTƏLƏR*

◘Əbu-Süfyanın ticarət karvanı sağ-salamat Məkkəyə çatdıqdan sonra Əbu-Süfyan Əbu-Cəhlə bu barədə xəbər göndərdi. Bildirdi ki, onlara yardıma gedənlər geri dönsünlər. Əbu-Cəhl qürrələnib dedi: “Nə qədər ki, müsəlmanları məğlub etməmişik, qələbəyə görə şərab içməmişik, gücümüzü göstərməmişik, geri dönmərik.” Amma onlar qürur və inadkarlıqlarına baxmayaraq, məğlub oldular və Əbu-Cəhl ölüm şərabını içməli oldu.

◘Bu və bundan öncəki iki ayədə cəbhədə müvəffəqiyyətin səbəbləri belə bəyan olunur: Sabitqədəmlik, Allahın zikri, rəhbərə itaət, ixtilafdan çəkinmək, səbir, qürrələnməmək, riya və dünyapərəstlikdən uzaqlıq.

### *BİLDİRİŞLƏR*

1. Qürur və riya savaş cəbhəsində möhkəmliyin, gücün bəlalarındandır.

2. İslami və qeyri-islami savaş arasındakı fərq onların məqsədindədir. Savaşda müsəlmanların məqsədi fitnəni aradan qaldırmaq[1], başqalarının məqsədi isə fatehlik və güc nümayişidir.

3. Cəbhəyə yola düşərkən niyyətinizi xalis edin, özünüzü göstərmək fikrində olmayın. (Ayələr Bədr savaşına aid olsa da, riyakarlıqla, özünü göstərmək üçün şayiə yaymaq məqsədi ilə döyüş əhval-ruhiyyəsini aşağı salmaq üçün cəbhəyə gedən münafiqlərə də şamil oluna bilər.)

4. Batil cəbhəsi haqq yolu bağlamaq, mənəvi və ilahi hərəkətlərin qarşısını almaq üçün çalışır.

5. Dünmənlər bilsinlər ki, nə qədər çalışsalar da, heç vaxt Allahın qüdrət dairəsindən kənara çıxa bilməzlər.

### *(AYƏ: 48)*

﴾وَإِذْ زَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ وَقَالَ لاَ غَالِبَ لَكُمُ الْيَوْمَ مِنَ النَّاسِ
وَإِنِّي جَارٌ لَّكُمْ فَلَمَّا تَرَاءتِ الْفِئَتَانِ نَكَصَ عَلَى عَقِبَيْهِ وَقَالَ إِنِّي بَرِيءٌ مِّنكُمْ إِنِّي
أَرَى مَا لاَ تَرَوْنَ إِنِّيَ أَخَافُ اللّهَ وَاللّهُ شَدِيدُ الْعِقَابِ﴿

**“(Xatırla,) o zaman ki, şeytan onların (müşriklərin işlərini nəzərlərində gözəl) cilvələndirdi və dedi: “Bu gün xalqdan kimsə sizə qalib gəlməyəcək, mən də sizin yanınızdayam, sizin pənahınızam.” Amma elə ki, iki qoşun bir-birinə sarıldı (mələklər İslam qoşununa yardıma gəldi), şeytan geri qayıtdı və dedi: “Həqiqətən sizdən zara gəldim. Mən sizin görmədiyiniz bir şey**

[1] Bax: “Ənfal”, 39.

**görürəm. Həqiqətən, mən Allahdan qorxuram. Allah ağır cəza verəndir.”**

### *NÖQTƏLƏR*

◘“Car” dedikdə yardımçı, şərik, qonşu nəzərdə tutulur. Burada birinci məna daha münasib görülür. “Nəkəs” çəkinmək, qayıtmaq mənasındadır. “Əqib” ayaq dabanı deməkdir. “Nəkəsə əla əqibəyhi”, yəni ayaq dabanları üstə fırlanıb geri döndü.

◘Ayədə şeytanın öz tərəfdarları ilə danışığı deyərkən, onun vəsvəsələri nəzərdə tutula bilər. Ehtimal olunan mənalardan biri də budur ki, şeytan insan qiyafəsində öz məqsədini izləyir, vəsvəsələr edir. Bu barədə rəvayətlər də nəql olunmuşdur.[1]

Bədr savaşında şeytan Bəni-Kənanə qəbiləsinin başçılarından olan Səraqə ibn Malikin simasında müşriklərə yaxınlaşıb onları təşviq edirdi. Onlara qələbə vədi verən şeytan mələklərin hüzurunu görüb qaçmağa üz tutdu. Məğlubiyyətdən sonra kafirlər Məkkədə ona deyirdilər: “Məğlubiyyətimizin səbəbkarı sən oldun.” O and içirdi ki, Məkkədən bayıra çıxmayıb. Beləcə, məlum oldu ki, şeytan (Əraqənin qiyafəsində) onlara qələbə vədi vermiş, sonra isə baş götürüb qaçmışdır.

Şeytan batil cəbhəsində təbliğat aparır, lakin bir mərhələdə onlara ruh verir. Amma ilahi yardımların nazil olduğu mərhələdə ardıcıllarını tənha qoyub geri çəkilir.

### *BİLDİRİŞLƏR*

1. Şeytanın aldatma üsullarından biri pislikləri gözəl göstərməkdir. Bəli, pis işlərin yaxşı iş kimi qəbul edilməsi şeytanın insan düşüncəsinə nüfuz nişanəsidir.
2. Şeytan və şeytansifətlər başqalarını fəsada təhrik edirlər.
3. İman mələklərin, küfr isə şeytanın himayədarlığına səbəb olur.
4. Şeytan münafiq, yalançı, hiyləgər və vəfasızdır.
5. Şeytanlar fitnə alovunu qızışdırır, mərəkə qopan zaman isə aradan çıxırlar.
6. Allahdan qeyrisinə təvəkkül çətinliklər zamanı insanın tənha qalmasına səbəb olur.
7. Qeyri-ilahi rabitələr davamsız və etibarsızdır.
8. Şeytan mələklərin gücündən xəbərdardır. O, mələklərin qüdrətini görüb geri çəkildi.
9. Şeytan bəzi gizli işləri müşahidə edə bilir.

---

[1] “Təfsire-Məcməül-bəyan”, “Təfsire-Nurus-səqəleyn”.

10. Şeytan Allaha inanır və Onun cəzasının ağırlığından xəbərdardır. Amma İbn-Abbas bildirir ki, şeytanın Allah qorxusu ilə bağlı iddiası yalandır, yoxsa onun işi bu yerə gəlib çatmazdı.[1]

***(AYƏ: 49)***

﴿ إِذْ يَقُولُ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ غَرَّ هَؤُلاء دِينُهُمْ وَمَن يَتَوَكَّلْ عَلَى اللّهِ فَإِنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ ﴾

**"(Xatırla,) o zaman ki, münafiqlər və qəlbi xəstələr deyirdilər: "Onları (müsəlmanları) dinləri məğrur etmişdir. (Onlar müsəlmanların Allaha təvəkkülündən xəbərsiz idilər.) Hər kəs Allaha təvəkkül etsə, (bilsin ki) şübhəsiz, Allah məğlubedilməz və hikmət sahibidir."**

***NÖQTƏLƏR***

◘Münafiqlər, zəif imanlı və ilahi yardıma inanmayan fərdlər təsəvvür etmirdilər ki, müsəlmanlar kiçik bir cəmiyyət və cüzi silahla qalib gələ bilərlər. Onlar müsəlmanları aldanmış sayırdılar.

◘"Münafiqlər" dedikdə bəzi Mədinə müsəlmanları nəzərdə tutula bilər. "Qəlbi xəstələr" təbiri isə Məkkənin zəif imanlı müsəlmanlarına aiddir.[2] Ola bilsin ki, "münafiq" deyərkən yalandan müsəlmanlıq iddiası edən mədinəlilər nəzərdə tutulur. Məkkədə müsəlman olub, sonra Peyğəmbərə (s) tabeçilikdən və müsəlmanlarla hicrətdən boyun qaçıranlar da münafiq sayıla bilər.

***BİLDİRİŞLƏR***

1. Qeyri-sağlam ruhiyyəyə malik olanlar münafiqlərlə səs-səsə verirlər.

2. Münafiqlər müsəlmanları aldanmış və məğrur sayır. Onlar deyirlər: "Məgər "Əllahu əkbər" deyib boş əllə savaşa getmək olarmı?!

3. Beyinlərin və baxışların insanın dərkinə təsiri var. Eyni bir əməl bir neçə cür qiymətləndirilə bilər, kimi onu təvəkkül, kimi də aldanış və məğrurluq saya bilər.

4. Allaha təvəkkül məğrurluqdan fərqli bir şeydir. (Bədr savaşında müsəlmanların Allaha təvəkkülü onların qələbəsi ilə nəticələndi.)

5. Elə bir qüdrətə təvəkkül edib etimad göstərmək olar ki, həmin qüdrət məğlubedilməzdir və onun bütün işləri hikmətə əsaslanır. (Allahın qüdrəti izzət və hikmətlə müşayiət olunur.)

---

[1] "Təfsire-isna-əşəri".
[2] "Təfsire-Kəbire-Fəxr Razi".

***(AYƏ: 50)***

﴿ وَلَوْ تَرَى إِذْ يَتَوَفَّى الَّذِينَ كَفَرُواْ الْمَلآئِكَةُ يَضْرِبُونَ وُجُوهَهُمْ وَأَدْبَارَهُمْ وَذُوقُواْ عَذَابَ الْحَرِيقِ ﴾

**“(Ey peyğəmbər,) əgər görsən ki, mələklər kafirlərin canını alırlar, onların çöhrəsinə və arxasına vururlar, (deyirlər) dadın yandırıcı əzabı...”**

***(AYƏ: 51)***

﴿ ذَلِكَ بِمَا قَدَّمَتْ أَيْدِيكُمْ وَأَنَّ اللّهَ لَيْسَ بِظَلاَّمٍ لِّلْعَبِيدِ ﴾

**“Bu (cəza) sizin keçmişdəkilərinizin işlərinin qazancıdır. Şübhə yox ki, Allah Öz bəndələrinə sitəm qılmaz.”**

***NÖQTƏLƏR***

◘Quranda kafirlərin çətin can verməsi dəfələrlə zikr olunur. “Muhəmməd” surəsinin 27-ci, “Ənam” surəsinin 93 ayələrində isə möminlərin asan can verməsi qeyd olunur. Başqa ayələrdə də bu sayaq BİLDİRİŞLƏR var.[1]

◘“Yətəvəffa” sözü götürmək, almaq mənasını bildirir. Quranda kafirlərin alınması, götürülməsi təbiri işlədilir. İnsanın cisminin dünyada qalmasından məlum olur ki, onun ruhu çıxarılır. Deməк, insanın mahiyyətini onun ruhu təşkil edir. Nə qədər ki, insan diridir, ruh da onun cismi ilədir. Ölümdən sonra ruh cisimdən ayrılır.

***BİLDİRİŞLƏR***

1. Allah-təala Öz qəhr-qəzəbini kafirlərə aid etməklə peyğəmbərə, möminlərə təsəlli verir.
2. Allahın mələkləri möminləri və kafirləri tanıyırlar.
3. Kafirlər ölən andan başlayaraq Allahın qəhr-qəzəbinə düçar olurlar.
4. Bərzəx aləmində də əzab var.
5. İlahi cəzalar intiqam yox, insanın öz əməllərinin əvəzidir.
6. Bir nəfərə zülm hamıya zülm kimidir.
7. İlahi cəzalar ədalətə əsaslanır.

***(AYƏ: 52)***

﴿كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِن قَبْلِهِمْ كَفَرُواْ بِآيَاتِ اللّهِ فَأَخَذَهُمُ اللّهُ بِذُنُوبِهِمْ إِنَّ اللّهَ قَوِيٌّ شَدِيدُ الْعِقَابِ ﴾

---

[1] Bax: “Nəhl”, 32.

**“(Sənin dövrünün kafirlərinin yolu) fironçuların və onlardan qabaqkı kafirlərin yolu kimidir. (Onlar inadkarlıqla) Allahın ayələrini inkar edirlər. Allah da onları öz günahlarının cəzasına düçar edir. Şübhəsiz, Allah qüvvəli və ağır cəza verəndir.”**

***BİLDİRİŞLƏR***

1. Küfr və inadkarlıq bəzilərində xasiyyətə çevrilir. Belə bir anda ilahi əzab nazil olur.

2. Bütün qövmlər Allah qarşısında eynidir. Kim yolunu azıb küfr edirsə cəzalanır. Bəli, kafirlərin cəzalandırılmasında Allahın qanunu sabitdir. Bədr savaşında müşriklərin əzaba düçar olması xüsusi bir hökm deyildi.

3. Günah ilahi qəhr-qəzəb səbəbidir.

4. Allah kafirləri cəzalandırmaqda aciz deyil. Bütün qövmlər ilahi qəhr-qəzəb qarşısında çarəsizdirlər.

***(AYƏ: 53)***

﴿ ذَلِكَ بِأَنَّ اللّهَ لَمْ يَكُ مُغَيِّرًا نِّعْمَةً أَنْعَمَهَا عَلَى قَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا
بِأَنفُسِهِمْ وَأَنَّ اللّهَ سَمِيعٌ عَلِيمٌ ﴾

**“O (cəza) bu səbəbdəndir ki, Allah bir qövmə əta etdiyini onlar özləri dəyişməyincə dəyişməz. Həqiqətən, Allah çox eşidən və biləndir.”**

***NÖQTƏLƏR***

◘Çoxsaylı hədislərdə zülm və günah kimi amillər ilahi nemətlərin əvəz olması səbəbi kimi göstərilmişdir. Necə ki, günah və azğınlıqdan dönüş və haqq yolda hərəkət ilahi nemətlərin nazil olması ilə nəticələnir.[1]

◘Günah və sitəmkarlıq insanı ilahi lütfdən bəhrələnmə ləyaqətindən uzaqlaşdırır. Həzrət Əli (ə) öz xütbələrində, eləcə də, “Kumeyl” duasında bu məsələyə toxunur.

◘Həzrət Əli (ə) Malik Əştərə yazdığı məktubunda buyurur: “Zülm və sitəm kimi heç bir şey ilahi nemətləri dəyişmir. Çünki Allah məzlumun naləsini eşidir və zalımların sorağındadır.”[2]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Günahlarınızın cəzası olan, gecə-gündüz üzləşdiyiniz çətinliklərdən Allaha pənah aparın.”[3]

---

[1] “Təfsire-Nurus-səqəleyn”, “Təfsire-Fürqan”.
[2] “Nəhcül-bəlağə”, n. 53.
[3] “Təfsire-isna-əşəri”. “Kafi”, c. 2. s. 269

### *BİLDİRİŞLƏR*

1. İnsan zatən ilahi nemətlərə layiqdir.

2. Nemətlərdən məhrum olmağımıza səbəbkar özümüzük. Allahın sünnəsi isə davamlı şəkildə nemətlər nazil etməkdir.

3. Allah tərəfindən verilənlər və alınanlar qanuna uyğundur və hikmətə əsaslanır.

4. Öncə ilahi rəhmət, sonra ilahi qəzəb gəlir.

5. İslamda fərdi cəzalardan əlavə, ictimai cəza qanunları da var.

6. İnsan fitrəti iman və paklıq üzərində bərqərardır. Fitrətə qarşı çıxan isə insan özüdür.

7. Tarixi yaradan insandır. İqtisad, tarixi zərurət, mühit insanı məcbur edə bilməz.

(Əlbəttə, mühit və iqtisadın təsiri var. Amma əsas rol oynayan insanın iradəsidir.)

8. Cəmiyyəti quran insanlardır. Cəmiyyətdə baş verən müsbət və ya mənfi dəyişiklik fərdlərin düşüncə və mədəniyyətindəki dəyişikliklərə əsaslanır.

9. Millətlərin xoşbəxtlik və ya bədbəxtliyi onların malik olduğu qüdrət və sərvətdən yox, daxili durumlarından asılıdır.

10. Cəmiyyətin taleyinin təhlilində bəxt, xurafat, hakim quruluş, tarixi zərurət yox, xalqın ruhiyyəsi mehvərdir.

11. Biz hamımız Allahın nəzəri altındayıq. Kafirlər Allahın geniş elmi əsasında cəzalandırılırlar.

### *(AYƏ: 54)*

﴿كَدَأْبِ آلِ فِرْعَوْنَ وَالَّذِينَ مِن قَبْلِهِمْ كَذَّبُواْ بآيَاتِ رَبِّهِمْ فَأَهْلَكْنَاهُم بِذُنُوبِهِمْ وَأَغْرَقْنَا آلَ فِرْعَونَ وَكُلٌّ كَانُواْ ظَالِمِينَ﴾

**"(Ey peyğəmbər!) Sənin dövründə xalqın ruhiyyəsi fironçular və onlardan əvvəlkilərin xasiyyəti və yolu kimidir. (Onlar) Rəblərinin ayələrini təkzib etdilər. Biz də günahlarının cəzası olaraq onları həlak etdik. Fironçuları batırdıq. (Fironçular və qüreyş kafirləri) hamısı sitəmkar idilər."**

### *NÖQTƏLƏR*

◘"Kədəbi ali-firəvnə" təbiri öncə də iki ayədə işlədilmişdir. Amma bu təkrarın bəlağətlə heç bir ziddiyyəti yoxdur. Çünki uyğun ifadələr müxtəlif məqamlarda istifadə olunmuşdur. Əgər öncəki ayədə ilahi cəzadan danışılırdısa, bu ayədə xalqın halının dəyişməsi ilə bağlı nemətlərin dəyişməsindən söz açırlar. Əlbəttə ki, əvvəlki ayədə axirət əzabı, bu ayədə isə dünya əzabı nəzərdə tutula bilər.

## *BİLDİRİŞLƏR*

1. Keçmişdən və keçmişdəkilərin taleyindən dərs alaq.

2. İlahi ayələrin təkzibi insanın məhvi üçün zəmindir.

3. İnsan ixtiyar sahibidir. Onun taleyi öz əməllərindən asılıdır.

4. İstər özünə, istər xalqa, istər peyğəmbərə, istərsə də əqidə məktəbinə qarşı zülm və günah ilahi qəhr-qəzəb amilidir.

5. Çətinliklər, dünya hadisələri, nemətlərdən məhrumluq insanın günahlarının nəticəsidir.

6. İlahi ayələrin təkzibi və günah zülmdür.

## *(AYƏ: 55)*

﴿ إِنَّ شَرَّ الدَّوَابِّ عِندَ اللّهِ الَّذِينَ كَفَرُواْ فَهُمْ لاَ يُؤْمِنُونَ ﴾

**"Şübhəsiz, Allah yanında ən pis canlı küfr edənlərdir. Onlar iman gətirməzlər."**

## *NÖQTƏLƏR*

◘Hazırkı surənin 22-ci ayəsində "şərrəd-dəvab" deyilərkən düşünməyən kəslər nəzərdə tutulur. Ayə onları iman gətirməyən, küfrə uğrayan kəslərdən sayır. Deməк, küfrün kökü qeyri-sağlam düşüncədir. Quran insanın dəyərini onun ağıl və imanından asılı sayır. İnsan düşünmürsə və ya küfr edirsə, insanlıq çərçivəsindən çıxır. Əsl insan ağıllı və mömin insandır.

Bəli, anlayıb iman gətirməyən kafirin xalq yanında məqamı olsa da, bu şəxs Allah yanında ən alçaq canlıdır.

## *BİLDİRİŞLƏR*

1. Peyğəmbərlərin nidasını eşidib biganəlik göstərənlər ən pis canlılar.

2. Küfr insanı heyvandan da alçaq mərhələyə endirir.

3. Bəzən küfr insanda xasiyyətə çevrilir və onun gələcəyini puça çıxarır.

## *(AYƏ: 56)*

﴿ الَّذِينَ عَاهَدتَّ مِنْهُمْ ثُمَّ يَنقُضُونَ عَهْدَهُمْ فِي كُلِّ مَرَّةٍ وَهُمْ لاَ يَتَّقُونَ ﴾

**"(Allah yanında ən pis canlılar) O kəslərdirlər ki, onlardan əhd aldın, sonra öz əhdlərini hər dəfə pozdular. (Onlar vəfadarlıq və əhdin qorunmasında) təqva əhli və qorxan deyillər."**

### *NÖQTƏLƏR*

◘İslam peyğəmbəri yəhudilərlə belə bir müqavilə bağlamışdı ki, müşriklərə kömək etməsinlər, müsəlmanları incitməsinlər. Amma yəhudilər öz əhdlərini pozdular, Xəndək savaşında müşriklərə silah satıb onlara yardım göstərdilər.

◘Rəvayətdə deyilir: “Vəfalı olmayan, əhdini pozan insan - namaz qılıb oruc tutsa da - münafiqdir.”[1]

### *BİLDİRİŞLƏR*

1. Müsəlmanların rəhbəri kafirlərlə peyman bağlaya bilər. İslam peyğəmbəri də kafirlərlə müxtəlif peymanlar bağlamışdı. Amma onlar öz əhdlərinə vəfa qılmırdılar.
2. Peymanın pozulması yeni bir peyman bağlanmaması üçün dəlil deyildir.
3. Əhdi pozmaq insanlıqla bir araya sığmır.
4. Küfr əhdə vəfasızlıq zəminəsidir.
5. Əhdi pozmaq təqvasızlıqdır.
6. O insanlar daha təhlükəlidirlər ki, vəfasızlıq onlarda xasiyyətə çevrilib və bundan çəkinmirlər.

### *(AYƏ: 57)*

﴿ فَإِمَّا تَثْقَفَنَّهُمْ فِي الْحَرْبِ فَشَرِّدْ بِهِم مَّنْ خَلْفَهُمْ لَعَلَّهُمْ يَذَّكَّرُونَ ﴾

**“(Ey peyğəmbər,) nə vaxt savaşda onlara əlin çatdı, onların arxa cəbhədə olanlarını qorxudub pərakəndə sal. Bəlkə ibrət götürələr (və fitnədən əl çəkələr).”**

### *NÖQTƏLƏR*

◘“Təsqəfənnəhum” dedikdə, bir şeyin diqqətlə, sürətlə dərk olunması başa düşülür. Nəzərə çatdırılır ki, kafirlərlə rəftarda tam ayıq olun, diqqətsizlik göstərməyin.

◘“Təşrid” sözü qatışıqlıq, iztirab, parçalanma yaratmaq mənasını bildirir. Yəni elə bir plan cızıb, elə bir həmlə edin ki, pərdə

[1] “Kafi”, c. 2, s. 290.

arxasındakı, arxa cəbhədəki himayədarlar qorxuya düşüb hücum fikrindən daşınsınlar.

### *BİLDİRİŞLƏR*

1. Düşmənlə rəftarınız qəfil olmalı, sürətlə və dəqiq yerinə yetirilməlidir. Bu, hərbi qaydalardandır.

2. Müsəlmanların rəhbəri o qədər ayıq olmalıdır ki, fitnəkarları dəqiq qiymətləndirə bilsin və onlara qarşı qəti tədbir görsün.

3. Gündəlik müdafiə tədbirləri ilə kifayətlənməyək, düşmənin arxa cəbhəsindən, plan cızanlarından qəflətdə qalmayaq. Sürücü təkcə avtomobilin önünə yox, uzağa və ətrafa da nəzər salmalıdır.

4. Cəmiyyətin əmin-amanlığını pozan əhdə vəfasızların cəzası qorxutma və iztirabdır.

5. İslam mərhəmət dini olsa da, xəyanətə, dönüklüyə, əmin-amanlığın pozulmasına dözmür.

6. İslam cəmiyyətinin heybət və şövkəti olmalıdır.

7. Kafirlərin gözünün odunu alaq ki, növbəti həmlə fikrinə düşməsinlər.

8. İslam təbliğ və moizə ilə yanaşı, həm də qüdrət və islah dinidir. Düşmənin öz xətti ilə elə rəftar olunmalıdır ki, o biri cərgələr ibrət götürsünlər.

*(AYƏ: 58)*

﴿ وَإِمَّا تَخَافَنَّ مِن قَوْمٍ خِيَانَةً فَانبِذْ إِلَيْهِمْ عَلَى سَوَاء إِنَّ اللّهَ لاَ يُحِبُّ الخَائِنِينَ ﴾

**“Bir dəstənin xəyanət edəcəyindən qorxduqda sən də əhdlərini onların üstünə at (onu ləğv et. Ya da bildir ki, onlar kimi əməl edəcəksən). Həqiqətən, Allah xainləri sevmir.”**

*(AYƏ: 59)*

﴿ وَلاَ يَحْسَبَنَّ الَّذِينَ كَفَرُواْ سَبَقُواْ إِنَّهُمْ لاَ يُعْجِزُونَ ﴾

**“Küfr edənlər düşünməsinlər ki, qabağa düşüblər (əlimizdən çıxıblar). Çünki onlar (Bizi) aciz qoya bilməzlər.”**

### *NÖQTƏLƏR*

◘“Nəbz” kökündən olan “fənbiz iləyhim” təbiri atmaq mənasını bildirir. Müqavilənin düşmənin üstünə atılması dedikdə, öncə onlara elan olunması, sonra müqavilənin ləğv edilməsi nəzərdə tutulur. İslam öz ardıcıllarını müqaviləni qəfil pozmaqdan çəkindirir.

◘“Əla səva” təbiri ya qarşı tərəf kimi cavab verməkdə, ya da ədalət ilə rəftar etmək mənasını bildirir. Bildirilir ki, düşmən müqaviləni

pozmaq fikrinə düşdükdə, siz həmin müqaviləni ləğv edin. Ədalətsiz qərar çıxarmayın.[1]

◘Ayə müqavilənin ləğv edilməsini o halda məsləhət görür ki, qarşı tərəfin xəyanəti sübuta yetmiş olsun.

## *BİLDİRİŞLƏR*

1. Mühüm hərbi və ictimai məsələlərdə xəyanətin həyata keçməsini gözləməyin. Əgər xəyanət ehtimalı varsa, addım atın.
2. İslam nə qədər ki, xəyanət təhlükəsi yoxdur, öz müqavilə və öhdəçiliklərini pozmur.
3. Xəyanət dəlillərini müəyyənləşdirmək, müqaviləni pozmaq qərarı çıxarmaq İslam cəmiyyətində rəhbərin ixtiyarındadır. (Ayədə ümmətə yox, peyğəmbərə müraciət olunur.)
4. Öhdəliklər xəyanət ehtimalı yarananadək toxunulmazdır. Xəyanət olduqda əhdin ləğvi zəruridir.
5. Xəyanət qorxusu olduqda belə xəbərsiz hərəkət etməyin. Müqavilənin ləğvini elan edin.
6. Düşmənlə də ədalətli, insaflı davranın. [2]
7. Qarşı tərəfin rəftarına cavab olaraq müqavilənin ləğvi ədalətli qərardır.
8. Xəyanət edənin kimliyindən, kafir və ya müsəlman olmasından asılı olmayaraq, bu iş çirkindir.
9. Müqavilə bağlanılmış tərəflə qəfil savaş xəyanətdir.
10. İlahi sünnələrdən qabağa keçmək olmaz.
11. Əməldə elə bir tərəqqiyə nail olun ki, düşmən sizdən güclü olduğunu düşünməsin.
12. Kafirlər öz xəyanətləri ilə bir şey əldə etməzlər.

---

[1] "Təfsire-nümunə". "Təfsire-Əl-mizan".
[2] "Təfsire-Əl-mizan".

### (AYƏ: 60)

﴿وَأَعِدُّواْ لَهُم مَّا اسْتَطَعْتُم مِّن قُوَّةٍ وَمِن رِّبَاطِ الْخَيْلِ تُرْهِبُونَ بِهِ عَدْوَّ اللّهِ
وَعَدُوَّكُمْ وَآخَرِينَ مِن دُونِهِمْ لاَ تَعْلَمُونَهُمُ اللّهُ يَعْلَمُهُمْ وَمَا تُنفِقُواْ مِن شَيْءٍ فِي
سَبِيلِ اللّهِ يُوَفَّ إِلَيْكُمْ وَأَنتُمْ لاَ تُظْلَمُونَ﴾

**“Düşmənə qarşı bacardığınız qüvvə və döyüş atları tədarük edin. Belə ki, Allahın düşmənlərini, öz düşmənlərinizi, bunlardan başqa tanımadıqlarınızı, amma Allahın tanıdıqlarını bu vasitə ilə qorxudasınız. Allah yolunda nə infaq etsəniz, onun kamil mükafatını alarsınız və sizə sitəm edilməz.”**

### *NÖQTƏLƏR*

◘Bu ayə müsəlmanlara düşmən qarşısında hərtərəfli hazır olmaq göstərişi verir. Onlar çeşidli silahlar hazırlamalı, geniş imkanlar əldə etməli, təbliğ vasitələri, marşlar və şüarlar nəzərdə tutmalıdırlar. Ayənin nəzərə çatdırdığı bütün bu göstərişlər kafirləri qorxuya salan səbəblərdir.

◘Həzrət Peyğəmbər (s) Yəməndə yeni bir silah ixtira olunduğunu eşidib məlumat üçün oraya adam göndərdi. Həzrət (s) buyurmuşdur: “(Küfrə atılmış) bir oxla üç nəfər behiştə gedir: Oxu düşünən, onu hazırlayan və atan.”[1]

◘İslamda hətta udub-uduzmuq şərti ilə ox atmaq və at çapmaq müsabiqələrinə icazə verilir. Bu müsabiqələr müsəlmanların hərbi hazırlığı üçün faydalıdır.

◘«Ləhum» əvəzliyi ilə kafirlərə və xəyanətkarlığı ehtimal olunan fərdlərə işarə olunur. Yəni müqavilə bağlanmasına baxmayaraq, xəyanəti ehtimal olunan düşmənə qarşı hazır olmaq lazımdır.

### *BİLDİRİŞLƏR*

1. Müsəlmanlar təchizat, say və digər baxımlardan kamil hərbi hazırlığa malik olmalıdırlar. Düşmənin xəyanət və hücum ehtimalları müqabilində öncədən tədbir görülməlidir.

2. Hərbi hazırlıqda məqsəd fatehlik və istismar yox, əqidə məktəbi və vətəni qorumaqdır.

3. Dövlət quruluşunun müdafiəsi üçün büdcənin təminində, Allah düşmənlərinin qorxudulmasında maksimum səy göstərməlidir.

4. Bütün müsəlmanlar özlərini düşmən fitnələri ilə mübarizə üçün hazırlamalı və hərbi təlim keçməlidirlər. (İmam Xomeyni (r) inqilabın qələbəsinin ilk günlərində, İran cəmiyyəti 30 milyondan

---

[1] “Təfsire-Fürqan”.

ibarət olduğu bir vaxt buyurdu: “Bizim 20 milyonluq ordumuz olmalıdır.”)

5. Bəzən danışıq və müzakirələr səmərəli olmur və güc göstərmək lazım gəlir.

6. Hər an ən son hərbi texnikalara yiyələnməklə müdafiyəyə hazır olun. Heç bir sahəyə diqqətsizlik göstərməyin. Siyasi, hərbi, təbliği hazırlıq sferalarında var gücünüzlə çalışın.

7. Hətta görüntü yaratmaqla düşməni qorxuya salın. Bir hədisdə buyurulur: “Saqqalınıza həna yaxmaqla özünüzdən qoca görüntüsünü aparın ki, düşmən qorxsun.”[1]

8. Düşməni qorxutmaq məqsədi ilə qadınların da hərbi təlim keçməsi səmərəlidir.

9. Bu günüki vəziyyətlə kifayətlənməyin. Hərbi və müdafiə təchizatını düşməni hədələyəcək səviyyəyə çatdırın.

10. Vəhdət və birlik də qüdrətin bir növüdür. Təfriqə və parçalanma varsa, düşməni qorxutmaq müşküldür.

11. İslamda bütün müsəlmanlar döyüşçüdürlər və dözümlü ordunun varlığı zəruridir.

12. Keçmişin savaş atları olan bu günkü hərbi texnika daim hazır vəziyyətdə saxlanılmalı və ona qulluq edilməlidir.

13. Həm hərbi qüvvələrin, həm də təchizatın hazırlığı zəruridir.

14. İslam hakimiyyətdə olmasa, düşmənlər müsəlmanlardan qorxmaz.

15. Mədəniyyət, iqtisad, siyasət, hərb, əqidə sahələrində müsəlmanların müdafiə əsasları o qədər güclü olmalıdır ki, düşmən qorxub geri çəkilsin.(“Turhibunə bihi” təbiri mütləq şəkildə bəyan olunmuşdur.)

16. Həm ilahi dəyərlər, həm də insanların haqları qorunmalıdır.

17. İslamda şəxsi, milli, irqi mənafelər yox, ümumbəşəri məktəb və dəyərlər əsas götürülmüşdür.

18. Bəzi düşmənləri tanımaq olmur. Ola bilsin ki, ayədə münafiqlər nəzərdə tutulmuşdur. Çünki uyğun təbir onlar haqqında da işlədilir.[2]

19. Yalnız müəyyənləşmiş düşmənlər üçün yox, müəyyənləşməmiş, tanınmayan düşmənlər üçün də proqram hazırlayın.

20. Müdafiə qüdrətinin təmini üçün büdcəyə ehtiyac var. Bu işdə moizə və şüar bəs etmir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] Bax: “Tövbə”, 101.

21. Savaş və cəbhə xərclərinin ödənməsində xalq da iştirak etməlidir. Bu qayda təkcə müharibə vəziyyətinə aid deyil. (Ayədə mütləq şəkildə bəyan olunur ki, müsəlmanlar hərbi hazırlıq üçün daim pul xərcləməlidirlər.)

22. Təkcə silah və say bəs etmir. İqtisadi dayaqlara da ehtiyac var.

23. Cəbhəyə yardım dedikdə, yalnız maddi yardım nəzərdə tutulmur. İnsan öz malı, canı, şəxsiyyəti, məlumatı, qələmi ilə cəbhəyə yardım edə bilər.

24. İslam quruluşunun əsaslarını gücləndirmək üçün göstərilən səylər, edilən infaqlar Allah yolunda infaq nümunələrindəndir.

25. İnfaqın xeyir və bərəkəti o zaman sizə yetişər ki, bu infaq riya, özünü göstərmək, dünyəvi məqsədlə yox, ilahi məqsədlə həyata keçmiş olsun.

26. Maddi yardımlar ümmətin güclənməsinə səbəb olur və həmin köməklər xalqın, cəmiyyətin iqtisadi durumu və müsəlmanların izzəti üçün səmərəli olur.

27. Başqalarının haqqını tapdamaq, haqqını ödəməmək zülmdür.

### *(AYƏ: 61)*

﴿ وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ ﴾

**“Əgər (düşmənlər) sülhə meyl göstərsələr, (sən də) meyl göstər və Allaha təvəkkül et. Həqiqətən, O, eşidən və biləndir.”**

### *NÖQTƏLƏR*

◘Həzrət Əli (ə) Malik Əştərə yazırdı: “Düşmənin sülh təklifini rədd etmə. Amma sülhdən sonra ayıq ol, düşmənin hiyləsindən həzər qıl. Çünki bəzən düşmən yuxuya vermək üçün yaxınlaşır.”[1]

### *BİLDİRİŞLƏR*

1. Müsəlmanlar elə bir qüdrətə çatmalıdırlar ki, sülh təklifini düşmən versin.

2. İslam müharibə istəmir.

3. Savaş göstərişi və ya sülhün qəbulu Allahın peyğəmbəri və İslam cəmiyyətinin rəhbərinin ixtiyarındadır.

4. Qüdrətə çatdıqda bu qüdrətdən sui-istifadə etməyin.

5. Sülh təklifinin qəbulunda Allaha təvəkkül edin.

6. Sülhü qəbul edərkən həm təhlükə, həm də dostların tənəsinə hazır olmaq lazımdır. Amma Allaha təvəkkül edilməlidir.

---

[1] “Nəhcül-bəlağə”, n. 53.

7. Allahın hər şeyi eşitməsinə və əhatəli elmə malik olmasına iman təvəkkül üçün zəmin yaradır.

*(AYƏ: 62)*

﴿ وَإِن يُرِيدُواْ أَن يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللّهُ هُوَ الَّذِيَ أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ ﴾

**“Əgər (düşmənlər) istəsələr ki, sənə kələk gəlsinlər, şübhəsiz, Allah sənin üçün yetər. Öz yardımları və möminlərin himayəsi ilə sənə yardım göstərən Odur.”**

***NÖQTƏLƏR***

◘Bu ayəni 58-ci ayə ilə yanaşı nəzərdən keçirmək lazımdır. Əgər müsəlmanların rəhbəri düşmənin sülh istəyini dəlillər əsasında hiylə kimi qiymətləndirərsə, münasibət başqa cür olar. Amma düşmənin gizli niyyəti olmadıqda onun sülh təklifini ayıqlıqla qəbul etmək lazımdır.

◘Bəzi rəvayətlərdə ilahi yardım Həzrət Əlinin (ə) köməyi kimi təfsir olunmuşdur. İbn-Əsakirin kitabında Əbu-Hüreyrədən nəql olunur ki, İslam Peyğəmbəri (s) buyurmuşdur: “İlahi ərşə yazılmışdır: “Məndən başqa məbud yoxdur, şəriksizəm, Məhəmməd Mənim bəndəm və rəsulumdur. Ona Əlinin vasitəsi ilə yardım etmişəm.” Haqqında danışdığımız ayə də belə bir təfsiri təsdiqləyir.[1]

***BİLDİRİŞLƏR***

1. İslam cəmiyyətinin rəhbəri düşmənin sülh təklifini qəbul etməlidir ki, müsəlmanlar davakar kimi tanınmasınlar. Amma aldanmamaq üçün ayıq olmaq lazımdır. (Yəni düşmənin sülh təklifində hiylə ola bilər)

2. Xalq hazırlaşsa və Allahın lütfü nazil olsa, düşmənin bütün hiylələri puça çıxar.

3. Vəzifəmizə əməl etdiyimiz halda çətinliklərdən qorxmamalıyıq. Çünki Allah çətinliklərdən nicat verəndir.

4. İlahi yardımlar və xalqın himayəsi Allah istəyi ilə sizə kömək üçündür.

5. Xalqın himayəsi Allahın istəyi ilə səmərə verir.

6. Allahı yaddan çıxarmadan Onun yardımı ünvanı ilə xalqdan kömək istəmək şirk deyil.

7. Xalq rəhbərin arxasıdır.

---

[1] “Təfsire-Dürrül-Mənsur”, c. 3, s. 199; “Mülhəqate-ihqaqil-həqq”, c. 3. s. 194; “Bihar”, c. 27, s. 2.

### *(AYƏ: 63)*

﴿ وَأَلَّفَ بَيْنَ قُلُوبِهِمْ لَوْ أَنفَقْتَ مَا فِي الأَرْضِ جَمِيعاً مَّا أَلَّفَتْ بَيْنَ قُلُوبِهِمْ وَلَكِنَّ اللّهَ أَلَّفَ بَيْنَهُمْ إِنَّهُ عَزِيزٌ حَكِيمٌ ﴾

**"(Allah) onların (möminlərin) qəlbləri arasında ülfət qərar verdi. Əgər sən bütün yer üzündə olanları sərf etsəydin belə, yenə də onların qəlbi arasında məhəbbət yarada bilməzdin. Amma Allah onlar arasında bağlılıq qərar verdi. Çünki O, məğlubedilməz və hikmət sahibidir."**

### *NÖQTƏLƏR*

◘*Sual:* Ayədə buyurulur ki, əgər sən yer üzündə olanların hamısını xərcləsən də belə, yenə onların arasında ülfət yarada bilməzsən. Bəs nə üçün "Tövbə" surəsinin 60-cı ayəsində buyurulur ki, zəkatın bir hissəsi qəlblərin sahmanı üçün sərf edilsin?

*Cavab:* İnsanların qəlbində kinin miqdarı və dərinliyi fərqlidir. Bəzən bir təbəssüm və hədiyyə ilə kini aradan qaldırmaq olur. Bəzən isə kin o qədər dərin olur ki, heç bir vasitə ilə onu aradan götürmək olmur. Bundan əlavə, qəlblərin sahmanı üç növdür: möminlərin möminlərlə ülfəti, möminlərin kafirlərlə ülfəti, kafirlərin kafirlərlə ülfəti. Yalnız kafirlə kafir arasında ülfət mümkünsüzdür. Möminlərin bir-birləri ilə, o cümlədən kafirlərlə ülfəti isə mümkün olan işdir. Bundan əlavə, adı çəkilən ayədə də ülfətin yaranışı Allaha və Onun göstərişlərinə aid edilmişdir. Əslində həmin ayə qəlblərdə ülfətin tövhid mahiyyətini açıqlayır.[1]

### *BİLDİRİŞLƏR*

1. Qəlblər və onlar arasındakı bağlılıq Allahın əlindədir.
2. Vəhdət, ülfət və məhəbbət ilahi nemətlərdəndir. Allah bu dəyərlərə işarə ilə xalqa, peyğəmbərə minnət qoymuşdur.
3. Zahiri birlikdən də mühümü qəlbən bağlılıqdır. Kafirlər də zahirdə birdirlər. Amma onların qəlbləri bir-birlərindən uzaqdır. [2]
4. Yalnız əl-ələ vermiş xalq rəhbər üçün köməkdir. Pərakəndə xalq rəhbərin qəddini qırır.
5. Ərəb qəbilələri İslamdan öncə bir-birləri ilə qatı düşmən idilər.
6. Sərvət və məqam məhəbbət yaratmaya da bilər.
7. Möminlər arasında məhəbbət və bağlılıq Allahın izzət və hikmət cilvələrindəndir.

---

[1] "Ənfal", 17.
[2] "Həşr", 14.

### *(AYƏ: 64)*

﴿ يَا أَيُّهَا النَّبِيُّ حَسْبُكَ اللّهُ وَمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ ﴾

**“Ey peyğəmbər! Sənin üçün Allah və imanlı ardıcılların bəs edər. (Başqalarının himayəsinə ehtiyacın yoxdur.)**

### *NÖQTƏLƏR*

◘Ayəni belə də mənalandırmaq olar: Ey peyğəmbər! Sən və sənin imanlı ardıcılların üçün Allahın himayəsi yetər. Yəni Allah həm sənə, həm də ardıcıllarına yardım edər.

Birinci mənaya əsasən möminlər Allahın sayəsində peyğəmbərə hami olurlar; ikinci mənaya əsasən isə möminlər də Peyğəmbərlə (s) yanaşı ilahi himayədədir.

Bəni-Qürəyzə və Bəni-Nəzir yəhudilərindən bir dəstəsi riyakarcasına Peyğəmbərə (s) yardım təklif etdilər. Ayə nazil oldu ki, möminlərin yardımı sənə yetər. Bu ayənin davamı olaraq növbəti ayədə cihad göstərişi verilir.

◘Sünni alimlərindən olan Hafiz Əbu-Nəifin “Səhabələrin fəzilətləri” kitabında deyilir: “Bu ayədəki “möminlər” təbiri Əli İbn Əbu-Talibə işarədir.”[1]

◘Xalqdan yardım istəyərkən Allahın iradəsi nəzərə alınarsa, bu istək tövhid inancı ilə zidd olmaz. Şirk odur ki, Allahın qüdrət və iradəsi nəzərdən qaçırılıb başqalarına güvənilsin. Amma başqalarının himayəsini Allahın iradəsindən bir işartı bilməklə həmin himayələrdən faydalanmaq tövhid çərçivəsindən kənar deyildir.

### *BİLDİRİŞLƏR*

1. Yalnız imanla müşayiət olunan, imana əsaslanan ardıcıllıq dəyərdir.
2. Möminlər Allahın himayəsindən faydalanmaq üçün Peyğəmbərə (s) tabe olmalıdır.
3. Bəzi müsəlmanlar Peyğəmbərə (s) müti olmamışlar.

### *(AYƏ: 65)*

﴿يَا أَيُّهَا النَّبِيُّ حَرِّضِ الْمُؤْمِنِينَ عَلَى الْقِتَالِ إِن يَكُن مِّنكُمْ عِشْرُونَ صَابِرُونَ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُم مِّئَةٌ يَغْلِبُواْ أَلْفًا مِّنَ الَّذِينَ كَفَرُواْ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَفْقَهُونَ﴾

**“Ey peyğəmbər! Möminləri savaşa təşviq et. Əgər sizdən iyirmi nəfər dözümlü olsa, iki yüz nəfərə qalib gələr. Əgər sizdən**

[1] “Əl-Ğədir”, c. 2, s. 51.

**yüz nəfər (möhkəm) olsa, kafirlərin min nəfərinə qələbə çalar. Çünki onlar (iman əsərlərini) anlamayan qövmdür.”**

### *NÖQTƏLƏR*

◘Bu ayə say çoxluğunun qüvvəsini inkar edir və ruhiyyəni, imanı, səbri önə çəkir. İyirmi nəfərin iki yüz nəfərə qələbəsinin mübaliğə olmadığını göstərmək üçün təkrar olaraq bildirilir ki, mömin və səbirli olmaq şərti ilə 100 nəfər 1000 nəfərə qalib gələr.

◘İlkin İslam dövrünün savaşlarında möminlərlə kafirlər arasında say baxımından heç bir tarazlıq yox idi. Bədr savaşında 313 nəfər müsəlman 1000 müşrikə qarşı, Ühüd savaşında 700 müsəlman 6000 kafirə qarşı, Xəndək savaşında 3000 nəfər müsəlman 10000 nəfər düşmənə qarşı, Movtə savaşında 10000 müsəlman 100000 kafirə qarşı meydana çıxmışdı.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Əvvəllər bir mömin on müşrikə qarşı cihad aparmalı olmuşdur və qaçmağa, geri dönməyə haqqı yox idi.”[1]

### *BİLDİRİŞLƏR*

1. Xalqı cihad və düşmənlə mübarizəyə təşviq etmək rəhbərin vəzifələrindəndir. (Əməliyyatdan öncə komandanın çıxışının böyük rolu var.)

2. Çətin işlərdə təşviqə, rəğbətləndirmə və təlqinə ehtiyac var.

3. Savaş və cihadda təbliğat zəruridir.

4. Savaş meydanında iman və dözüm təyinedici rol oynayır. Say çoxluğu və say tarazlığı bir o qədər də əhəmiyyətli deyil.

5. İlkin İslam dövrlərində on qat artıq düşmənlə cihad hökmü çıxarılırdı. Həmin dövr müsəlmanları o qədər imanlı, mərifətli və əmin idilər ki, onların on qat artıq düşmənə qələbəsi qəti idi. («Yəğlibu») qələbənin qətiliyini göstərir.)

6. İslam döyüşçüsündə üç xüsusiyyət olmalıdır: iman, səbir və agahlıq.

7. Allah insanın düşüncə və gücü həddində ona vəzifə təyin edir. (Bəzi məqamlarda bir nəfər on nəfərlə, bəzi məqamlarda isə bir nəfər iki nəfərlə meydana çıxmalı olur.)

### *(AYƏ: 66)*

﴿الآنَ خَفَّفَ اللّهُ عَنكُمْ وَعَلِمَ أَنَّ فِيكُمْ ضَعْفًا فَإِن يَكُن مِّنكُم مِّئَةٌ صَابِرَةٌ يَغْلِبُواْ مِئَتَيْنِ وَإِن يَكُن مِّنكُمْ أَلْفٌ يَغْلِبُواْ أَلْفَيْنِ بِإِذْنِ اللّهِ وَاللّهُ مَعَ الصَّابِرِينَ﴾

[1] “Kafi”, c. 5. s. 69.

**“İndi Allah (cihad hökmünü) sizin üçün yüngülləşdirdi. Məlum oldu ki, sizə zəiflik yol tapmışdır. Əgər yüz nəfəriniz dözümlü olsa, iki yüz nəfərə qalib gələr. Əgər min nəfər olsanız, Allahın iradəsi ilə iki min nəfərə qalib gələrsiniz. Allah səbir edənlərlədir.”**

## *NÖQTƏLƏR*

◘Ayədə iman və ruhiyyə zəifliyinə işarə olunmuşdur. Çünki İslam qoşunu say baxımından az deyildi.

◘Bu və bundan öncəki ayədə üç qələbə amilinə işarə olundu: səbir, iman və agahlıq. Bu üç xüsusiyyətin olmaması məğlubiyyət zəminəsidir. Əlbəttə ki, qələbədə əsas rol oynayan Allahın istək və iradəsidir. Məsələn, Hüneyn döyüşündə müsəlmanlar çoxsaylı olmaqlarına baxmayaraq məğlub olub qaçdılar.[1]

◘Bu və əvvəlki ayənin fərqli hökmləri iki müxtəlif dəstəni və fərqli şəraiti nəzərdə tutur. Birinci hökm nəsx (ləğv) olunmamışdır.[2]

## *BİLDİRİŞLƏR*

1. Rəhbərlik bəzən şəraitin dəyişməsini nəzərə alaraq qaydaları dəyişə bilər və bu dəyişiklik qətiyyətlə zidd deyil.
2. Vəzifə və qanundakı dəyişiklik yalnız Allahın əlindədir.
3. İman artıb-azala bilər.
4. Say çoxluğu güc göstəricisi olmaya da bilər. Bəzən ruhiyyəsiz bir çoxluq süqut edir.
5. Qanunçuluqda fərdlərin ruhiyyə və gücü də nəzərə alınmalıdır.
6. Məğlubiyyətin əsl səbəbi batinlə bağlıdır.
7. Komandanlar İslam ordusunun ruhiyyəsinə, imanına diqqətli olmalıdırlar.
8. Bəzən iradə zəifliyi döyüş ruhunu qat-qat azaldır.
9. Müsəlmanlar hətta zəif bir ruhiyyə ilə iki qat artıq kafirə məğlub olmamalıdırlar.
10. Qələbəyə görə qürrələnməyək. Qələbə Allahın iradəsindən asılıdır.
11. Səbirli insan Allahın sevimlisidir, Onun pənahındadır və ilahi yardımlardan bəhrələnir.
12. “Vəllahu məəs-sabirin” (Allah səbirlilərlədir) şüarı savaş meydanında və müqavimətə ehtiyaclı hər bir sahədə təlqin olunmalıdır.

---

[1] “Tövbə”, 25.
[2] “Təfsire-nümunə”.

### *(AYƏ: 67)*

﴿ مَا كَانَ لِنَبِيٍّ أَن يَكُونَ لَهُ أَسْرَى حَتَّى يُثْخِنَ فِي الأَرْضِ تُرِيدُونَ عَرَضَ الدُّنْيَا وَاللّهُ يُرِيدُ الآخِرَةَ وَاللّهُ عَزِيزٌ حَكِيمٌ ﴾

**“Heç bir peyğəmbərin əsir götürmək haqqı yoxdur. Yalnız həmin yerdə tam qələbədən sonra olar. Siz (əsir götürüb sonra fidyə müqabilində azad etmək istəyindəsiniz,) dünyanın ötəri matahı haqqında düşünürsünüz, amma Allah (sizin üçün) axirəti istəyir. Allah məğlubedilməz və hikmət sahibidir.”**

### *NÖQTƏLƏR*

◘“Səxən” yorğunluq, xəstəlik və ya yuxusuzluq səbəbindən yaranmış ağırlıq halını bildirir. Savaşda bu söz möhkəmlik, aşkar qələbə və qüdrətə işarədir.

Ayə xəbərdarlıq edir ki, əsir götürüb onları azad etməklə fidyə almaq, savaş qənimətləri əldə etmək müsəlmanları əsl məqsəddən yayındırmamalıdır, onlar qəfil zərbəyə məruz qalmamalıdırlar.

### *BİLDİRİŞLƏR*

1. Savaş və əsir götürmək üsulu Peyğəmbər (s) tərəfindən təyin olunur.
2. İlahi peyğəmbərlərin sünnəsinə əsasən, mövqelər möhkəmlənməmiş əsir götürülməməlidir.
3. Ən çətin hərbi vəziyyətdə belə dünyapərəstlik təhlükəsini yaddan çıxarmaq olmaz.
4. Savaş meydanında məntəqə tam nəzarət altına alınanadək əsir götürmək qadağandır.
5. Döyüşçünün vəzifəsi öncə öz mövqeyini möhkəmləndirməkdir.
6. Diqqəti əsil məqsədə yönəltmək və parçalanmadan uzaqlıq zəruridir.
7. Dünya davamsız və ötəridir.
8. Din müxaliflərini əzmək və tövhid mövqeyini möhkəmləndirmək axirətə doğru atılmış addımdır.
9. Savaş və İslam cihadının əsas məqsədi qənimət, əsir, fidyə yox, axirət mənafeləri, Allahın razılığını əldə etməkdir.
10. Savaş məsələləri ilə bağlı ilahi göstərişlər hikmətə əsaslanır və onlara əməl qələbə rəmzidir.
11. İslam nəinki ictimai və dünyəvi məsələlərə biganə deyil, hətta savaş taktikasının incəliklərinə varıb öz nəzərini bildirir.

***(AYƏ: 68)***

﴾ لَّوْلاَ كِتَابٌ مِّنَ اللّهِ سَبَقَ لَمَسَّكُمْ فِيمَا أَخَذْتُمْ عَذَابٌ عَظِيمٌ ﴿

**“Əgər Allahın əzəli (xəbərdarlıqsız cəzalandırmamaq) hökmü olmasaydı, (əsirlərdən) götürdüklərinizə görə böyük bir əzaba düçar olardınız.”**

***(AYƏ: 69)***

﴾ فَكُلُواْ مِمَّا غَنِمْتُمْ حَلاَلاً طَيِّبًا وَاتَّقُواْ اللّهَ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ ﴿

**“Qənimət götürdüyünüz halal və pak şeylərdən sərf edin. Allahdan çəkinin. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *NÖQTƏLƏR*

◘“Kitabun minəllahi səbəqə” cümləsi haqqında müxtəlif fikirlər söylənilmişdir:

a) Bu cümlə bildirişsiz cəzalandırmamaqla bağlı ilahi sünnəyə işarədir.[1]

b) Bədr savaş zamanı müsəlmanların qələbəsində Allahın iradəsinin önə çəkilməsi; əgər Allah qələbəni müqəddər etməsəydi, mövqelərinizi möhkəmləndirməmiş əsir götürməyiniz sizə ağır zərbə olardı.[2]

v) Belə bir nöqtə də nəzərdə tutula bilər ki, nə qədər ki, Peyğəmbər (s) aranızdadır, Allah sizi cəzalandırmaz. Bu məsələyə hazırkı surənin 33-cü ayəsində də işarə olunmuşdur. Bu halda ayə belə mənalandırıla bilər: Əgər sənin mübarək hüzurun nəzərə alınmasaydı, Bədr savaşında müsəlmanlar vaxtsız əsir götürdükləri üçün böyük günaha və əzaba düçar olardılar.

◘Rəvayətlərə əsasən, bu ayədə “qənimət” deyərkən əsirlərin azad olunması müqabilində alınan fidyə məbləği nəzərdə tutulmuşdur. Bu məbləğ mindən, dörd min dirhəmə qədər idi.

## *BİLDİRİŞLƏR*

1. Döyüş əsnasında əsir götürmək məğlubiyyət və ağır əzabla nəticələnir.
2. Düşmənin tam məğlubiyyətindən qabaq qənimət axtarmaq qadağandır.
3. Halallıq, paklıq və xoşagəlimlik məsrəf üçün şərtdir.
4. Qənimət bütövlükdə sizin deyil, onun xümsü ödənməlidir. [3]

---

[1] “Isra”, 15.
[2] “Təfsire-Ətyəbul-bəyan”.
[3] “Ənfal”, 41.

5. Ayıq olun ki, qənimət və fidyə sizi uca məqsədlərdən yayındırmasın və daim Allahı zikr edin. (Bəli, qənimət əldə olunmasında büdrəmə qorxusu var.)

6. Bədr savaşında yersiz əsir götürülməsinə görə cəzanın əfvi və əsirlərin azad olunmasında əldə olunan qazancın halal edilməsi Allahın rəhmət və bağışlama cilvələrindəndir.

7. İlahi bağışlanma Allahın rəhmət cilvəsidir.

***(AYƏ: 70)***

﴿ يَا أَيُّهَا النَّبِيُّ قُل لِّمَن فِي أَيْدِيكُم مِّنَ الأَسْرَى إِن يَعْلَمِ اللّهُ فِي قُلُوبِكُمْ خَيْرًا يُؤْتِكُمْ خَيْرًا مِّمَّا أُخِذَ مِنكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ ﴾

**“Ey Peyğəmbər! Əlinizdəki əsirlərə de ki, əgər Allah sizin qəlblərinizdə bir xeyir görsə, sizdən alınandan da üstününü sizə verəcək (və müsəlman olacaqsınız), günahlarınızı bağışlayacaq. Allah bağışlayan və mehribandır.**

***NÖQTƏLƏR***

◘Ayənin nazil olma şəni haqında deyilir: Bədr savaşında Abbas, Əqil və Nofəl müsəlmanlara əsir düşdü. Peyğəmbər (s) fidyə müqabilində onları azad etdi və onlar müsəlman oldular. Sonradan onların müqabilində alınmış fidyələr özlərinə qaytarıldı.[1]

◘Təfsirlərdə qeyd olunur ki, Bədr savaşından sonra bəziləri dedilər: “Peyğəmbərə (s) hörmət olaraq onun əmisi Abbasa görə fidyə alınmasın.” Həzrət buyurdu: “And olsun Allaha, bir dirhəmdən də keçməyin!” Sonra həzrət öz əmisinə buyurdu: “Sən varlısan, özün və qardaşın oğlu Əqil üçün fidyə ver.” Abbas dedi: “Əgər fidyə versəm, pulum qalmaz!” Həzrət buyurdu: “Məkkədə arvadın Ümmül-Fəzlin yanında qoyduğun puldan xərclə.” Abbas dedi: “Axı bundan kimsənin xəbəri yox idi. İndi anladım ki, sən doğrudan da Allahın rəsulusan.” Abbas İslamı qəbul etdi.

◘İslam quruluşunda müharibə əsirləri üçün qayda mövcuddur:

1. Fidyəsiz azad etmək–belə bir hadisə Məkkənin fəthi zamanı baş verdi. Müsəlmanlar əsir götürüb fidyə ala biləcəkləri halda Peyğəmbər (s) hamını azad etdi.

2. Fidyə almaq və ya əsirlə dəyişmək müqabilində əsirlərin azad olunması.

3. Əsirlər saxlanılır ki, həm düşmənin güclənməsinin qarşısı alınsın. Həm də əsirlər tədricən dini təlimlərə yiyələnib müsəlman olsunlar.

Bu üç yoldan birini seçmək İslam hakimiyyətinin ixtiyarındadır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

### *BİLDİRİŞLƏR*

1. Peyğəmbər və dini rəhbər vəzifəlidir ki, əsirlərlə söhbətləşib onları doğru yola yönəltsin.

2. Əsirlərlə elə rəftar edin ki, onların haqq yola gəlişi üçün zəmin yaransın.

3. Müharibə əsirlərinə təbliğ və onların haqqa çağırışı zəruridir. İnsanların hidayəti üçün bütün fürsətlərdən istifadə olunmalıdır.

4. Həqiqi xeyir İslam və iman gətirməkdir.

5. Xalqa ümid verin ki, qəlblərindəki cüzi xeyirlə xoşbəxt ola bilərlər.

6. Savaşda məqsəd xalqın hidayəti, zalım hakimlərin məğlubiyyətidir. Məqsəd qətl-qarət, əsir götürüb fidyə almaq deyil.

7. Hətta peyğəmbərə qarşı döyüşənlər üçün də tövbə və qayıdış yolu bağlı deyil.

8. İslamın qəbulu xataların bağışlanması, ilahi lütf əldə olunması səbəbidir.

### *(AYƏ: 71)*

﴿ وَإِن يُرِيدُواْ خِيَانَتَكَ فَقَدْ خَانُواْ اللّهَ مِن قَبْلُ فَأَمْكَنَ مِنْهُمْ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ ﴾

**“Əgər (əsirlər) sənə xəyanət etmək istəsələr, öncə Allaha xəyanət etmişlər. Allah (səni) onlara qalib etdi. Allah bilən və hikmət sahibidir.”**

### *NÖQTƏLƏR*

◘Bu və bundan öncəki ayələrdən məlum olur ki, mənfi ehtimallara əsaslanaraq islah, hidayət məsələsini arxa plana keçirmək olmaz. Məkkə müşrikləri uzun illər Peyğəmbərə (s) və müsəlmanlara xəyanət etsələr də, əsirləri azad etmək məsləhət olduqda onların xəyanət ehtimalı maneçilik törətməməlidir.

Bəli, düşmən əsirlərinə münasibətdə nə bədgümanlığa, nə də xoşgümanlığa, nə sərtliyə, nə də məhəbbətə yer verilməlidir. Məsələyə ayıqlıq, təvəkkül, qətilik və məhəbbətlə yanaşmaq lazımdır.

### *BİLDİRİŞLƏR*

1. Əsirlərin yenidən xəyanət edəcəyi ehtimalı ilə onları azad etməmək olmaz.

2. Düşmənlərin xəyanətkar keçmişi vardır.

3. Allah haqqa və haqq tərəfdarlarına qələbə nəsib edir.

4. Xəyanət əsarətlə nəticələnir.

5. Allah düşmənin niyyətindən agahdır, hikmət və məsləhət əsasında fərman verir.

### *(AYƏ: 72)*

﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ
وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ أُوْلَئِكَ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ وَالَّذِينَ آمَنُواْ وَلَمْ يُهَاجِرُواْ مَا
لَكُم مِّن وَلاَيَتِهِم مِّن شَيْءٍ حَتَّى يُهَاجِرُواْ وَإِنِ اسْتَنصَرُوكُمْ فِي الدِّينِ فَعَلَيْكُمُ
النَّصْرُ إِلاَّ عَلَى قَوْمٍ بَيْنَكُمْ وَبَيْنَهُم مِّيثَاقٌ وَاللّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**“Həqiqətən, iman gətirib hicrət edənlər, malları və canları ilə Allah yolunda savaşanlar, (mücahidlərə və mühacirlərə) sığınacaq verib yardım göstərənlər bir-birlərinin dostu, hamisi və həmpeymanıdır. Amma iman gətirdiyi halda hicrət etməyənlərin hicrət edənədək heç bir dostluq və himayə haqqı yoxdur. Əgər (sıxıntıya düşmüş möminlər dinlərini qorumaq üçün) sizdən kömək istəsələr, onlara yardım etməlisiniz. Yalnız o qövm istisnadır ki, sizinlə onlar arasında peyman olsun. Allah etdiklərinizi görəndir.”**

### *NÖQTƏLƏR*

Besətin 13-cü ili, İslam Peyğəmbərinin (s) aşkar dəvətindən on ili ötmüş hələ də Məkkə müşrikləri Peyğəmbər (s) və müsəlmanları incitməkdə idilər. Onlar öz əzab-əziyyətlərini günbəgün artırırdılar. Nəhayət, qərara gəldilər ki, əl-ələ verib Peyğəmbəri (s) qətlə yetirsinlər və dinin kökünü qazsınlar.

Peyğəmbər (s) məsələdən xəbər tutduqdan sonra hicrət məsələsi ortaya çıxdı. Bu işdə Həzrət Əlinin (ə) fədakarlığı xüsusi qeyd olunmalıdır. Həzrət Peyğəmbər (s) rəbiül-əvvəl ayının əvvəllərindən öncə «Səur» mağarasında möcüzəli bir şəkildə üç gün gizləndi. Bu müddət ərzində yalnız Həzrət Əli (ə) onun üçün qida tədarük edir və çöldəki xəbərləri o həzrətə çatdırırdı. Nəhayət, Peyğəmbər (s) müsəlmanlara hicrət göstərişini Əli (ə) vasitəsi ilə elan edərək özü Yəsribə üz tutdu. Təqribən 400 km. məsafə qət olunduqdan sonra rəbiül-əvvəl ayının 12-də həzrət Qoba adlı məhəllə yetişdi və digər mühacirlər də bu məhəldə ona qoşuldular.

Yəsrib əhli mühacirləri gülər üzlə qarşılayıb onlara öz ağuşunu açdı. Yəsribin adı dəyişdirilib «Mədinətun-Nəbiyy», «Mədinətur-rəsul» (peyğəmbər, rəsul şəhəri) qoyuldu. Həzrət Peyğəmbər (s) mümkün təfriqənin qarşısını almaq üçün sayı 300-ə çatmış mühacirlərlə ənsarları (məkkəli və mədinəli müsəlmanları) əqd oxuyub iki-iki qardaşlaşdırdı. Qobada məscid bünövrəsi qoyuldu.[1]

[1] “Təfsire-nümunə”. Sireyi ibn Hişam, “Füruğe-Əbədiyyət”, c. 1, s. 317-350.

◘Peyğəmbərə (s) Məkkədə iman gətirənlər «mühacir» adlandırılmışdı. Onlar Məkkədə sıxıntıya məruz qaldıqlarından ev-eşiklərini qoyub Peyğəmbərlə (s) birlikdə Mədinəyə hicrət etmişdilər. Ənsar isə Mədinə müsəlmanları idi. Onlar İslam peyğəmbəri və mühacirləri sevinclə qarşılayıb öz aralarında yer vermiş, yardım göstərmişdilər.

◘Bu ayədə mühacirlərlə ənsarın qardaşlaşması, hicrət zərurəti, hicrətdən boyun qaçıranlara etinasızlıq, mühacirlərlə ənsar arasındakı qarşılıqlı öhdəçiliklər, sıxıntıya düşmüş müsəlmanlara yardım kimi ümdə məsələlər bəyan olunmuşdur.

◘Millətlər adətən, onların ictimai, elmi və dini həyatlarında baş vermiş və milli salnamələrində dönüş nöqtəsi saydıqları ən mühüm və ən böyük hadisəni öz tarixləri üçün başlanğıc götürürlər. Məsələn, həzrət İsanın doğum gününü məsihilər və ya Əbrəhə qoşununun Məkkəyə hücum çəkdiyi fil ilini ərəblər tarixi başlanğıc götürmüşlər.

İslam dini ən kamil səmavi şəriət, eyni zamanda müstəqil bir din olduğundan, müsəlmanlar həzrət İsanın miladını tarixi başlanğıc götürməmişlər. Peyğəmbərin Mədinəyə hicrəti ilə müstəqil bir hökumət təşkil olunduğundan və həmin vaxt müsəlmanlar azad fəaliyyətə başladıqlarından, Peyğəmbər (s) şəxsən hicri tarixin bünövrəsini qoymuşdur.[1] Həzrət Peyğəmbər (s) hicrətdə Qoba məscidinin tikilməsi ilə fəaliyyətə başladığından həmin tarix hicri tarixin başlanğıcı götürülə bilər.[2] Bəli, əgər hicrət olmasaydı, İslam ilkin nöqtədə məhdudlaşa bilərdi.

◘Bizim bir çox bəlalarımız rifaha uyub zəruri hicrətləri tərk etməyimizdən qaynaqlanır. Əgər bu gün qərbdə fəaliyyət göstərən müsəlman mütəxəssisləri öz ölkələrinə hicrət etsələr, həm düşmənə zərbə vurmuş olarlar, həm də İslam güclənər.

◘Hicrət təkcə İslam peyğəmbərinə aid deyil. Din və imanı qorumaq üçün şirk və günah mühitindən hicrət hamı üçün zəruridir. Bu səbəbdən də öz günahlarını qeyri-sağlam mühitlə əlaqələndirənlərə deyilir: "Allahın yeri geniş idi, nə üçün başqa yerə hicrət etmədiniz?[3] "Müztəzəf" sözündən anlaşılır ki, «əmr be məruf» və «nəhy əz münkərə» imkan olduqda bu vəzifəni yerinə yetirib cəmiyyəti islah etmək lazımdır.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Yaşadığın yerdə Allaha qarşı itaətsizlik və günah varsa, başqa bir yerə hicrət et."[4]

[1] "Füruğe-Əbədiyət", c. 1, s. 435.
[2] Əllamə Cəfər Mürtəza, "Əssəhih min sirətin-Nəbiyy", c. 3. s. 40.
[3] "Nisa", 43.
[4] "Bihar", c. 19, s. 35.

Elm və bilik əldə etmək üçün hicrət zəruri olduğu kimi, bildiklərini başqalarına öyrətmək üçün də hicrət zəruridir.[1]

◘İlkin İslam dövründə iki hicrət baş vermişdir: Besətin 5-ci ilində bir qrup müsəlmanın Həbəşəyə hicrəti; besətin 13-cü ilində Məkkədən Mədinəyə hicrət.

***BİLDİRİŞLƏR***

1.Səysiz, mücahidəsiz din, iman və əqidə yetərsizdir. İlkin İslam dövrünün müsəlmanları ya mühacirlər idi, ya da mühacirlərə sığınacaq verənlər, ya mücahidlər idi, ya da mücahidləri himayə edənlər. “Fərqli şərait fərqli vəzifələr doğurur. Kimi üçün hicrət, kimi üçün mühacirə sığınacaq vermək vəzifədir.)

2. Uca ilahi bağlılıq hicrət, cihad və infaq əhlinə məxsus sifətdir.

3. Allah mühacirlər və ənsar üçün vilayət haqqı müəyyənləşdirmişdir.

4. İslam cəmiyyətinə hicrət vilayət şərtidir. Zəruri halda hicrət etməyənin vilayəti yoxdur.

5. İslam cəmiyyətində mücahidlər və mühacirlərlə rifaha uyub hicrətdən qaçanlar arasında fərq qoyulmalıdır.

6. Hicrət etməyənə yardım göstərməyin. Ondan yardım istəməyin.

7. Bəzən hicrət cihaddan da mühüm olur.

8. Müsəlmanlara qoşulmaq arzusunda olan bir vaxtkı müxaliflərə ağuşunuzu açın. (Bəli, hicrəti tərk edənlər hicrət etdikdə onlara himayə göstərin.)

9. Əgər digər məntəqənin müsəlmanları sıxıntıya məruz qalsalar, onlara biganə qalmayın.

10. Başqaları ilə rabitələrdə “əhəm (ən mühüm) və mühüm” prinsipinə riayət edir. Əgər kafirlər müsəlmanlarla bağladıqları peymana əməl edirsə, onların himayəsindəki müsəlmanlara görə addım atmayın.

***(AYƏ: 73)***

﴿ وَالَّذينَ كَفَرُواْ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ إِلاَّ تَفْعَلُوهُ تَكُن فِتْنَةٌ فِي الأَرْضِ وَفَسَادٌ كَبِيرٌ ﴾

**“Küfrə uğrayanlar bir-birlərinin yardımçısıdırlar. (Onlarla həmpeyman olmayın.) Əgər (öz aranızda birliyiniz) olmasa, yer üzündə böyük fitnə-fəsad baş verəcək.”**

[1] “Tövbə”, 122.

## *NÖQTƏLƏR*

◘"İlla təfəluhu" təbiri 3 cür mənalandırılmışdır: möminlər arasında vilayətlə bağlı ilahi göstərişə əməl etməyib kafirlərə bağlansanız, böyük fəsad baş verəcək, sıxıntıya düşmüş müsəlmanlara qarşı etinasız olsanız, onlar qətlə yetirilə, İslamdan üz döndərə bilərlər; əgər kafirlərlə bağlanmış beynəlmiləl müqavilələrə əməl etməyib bir qrup müsəlmanı himayə etsəniz, bütün kafirlər sizə qarşı birləşəcəklər və böyük bir fəsad yaranacaq.

## *BİLDİRİŞLƏR*

1. Kafirlər bir olduğu halda müsəlmanlar parçalansalar, fitnə-fəsad yaranar.
2. Kafirlərin hakimiyyətini qəbul etmək yer üzərində böyük fitnə-fəsad səbəbidir.
3. Biz müsəlmanlar arasında möhkəm vilayət bağlılığı olmasa, kafirlər birləşib bizi məhv edər.

## *(AYƏ: 74)*

﴿ وَالَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ وَالَّذِينَ آوَواْ وَّنَصَرُواْ
أُولَئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا لَّهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ ﴾

**"İman gətirib hicrət edənlər, Allah yolunda savaşa qalxanlar, sığınacaq verib yardım göstərənlər həmin həqiqi möminlərdir. Onlar üçün bağışlanma, layiqincə ruzi var."**

## *BİLDİRİŞLƏR*

1. İman əməldən öndə gəlir.
2. İşləri dəyərli edən onların ilahi rəngdə və ilahi məqsədli olmasıdır.
3. Gerçək iman özünü hicrətdə, cihadda, sığınacaq verməkdə, mücahidlərə yardım göstərməkdə büruzə verir.
4. Həqiqi möminlərin də xatası ola bilər və onlar ilahi mərhəmətə ehtiyaclıdır.
5. Hicrət və cihad mükafat və xüsusi ilahi ruzinin nazil olma amilidirlər.
6. Əgər hicrət və cihada xatir azca ruzidən keçsəniz, layiqli bir ilahi ruzi əldə edərsiniz.
7. İnsan həmişə məsuldur. Onun vəzifəsi bəzən cihad, bəzən hicrət, bəzən mühacirlərə sığınacaq vermək, bəzən də döyüşçüləri himayə etməkdir.

*(AYƏ: 75)*

﴿ وَالَّذِينَ آمَنُواْ مِن بَعْدُ وَهَاجَرُواْ وَجَاهَدُواْ مَعَكُمْ فَأُوْلَئِكَ مِنكُمْ وَأُوْلُواْ الأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى بِبَعْضٍ فِي كِتَابِ اللّهِ إِنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ ﴾

**“Sonradan iman gətirib sizinlə birlikdə hicrət və cihad edənlər sizdəndirlər. İlahi qanunda qohumlar bir-birlərinə daha yaxındırlar. Həqiqətən, Allah hər şeydən daha yaxşı xəbərdardır.”**

***NÖQTƏLƏR***

◘Ayənin bir ünvanı irsdir. İslamdan öncə oğulluq və əhd-peyman əsasında da irs düşürdü. İslam isə irsi qohumluq və dindarlıq üzərində qərar verdi.

◘İmamət və xilafət məsələsində imamlar və alimlər dəfələrlə bu ayəyə istinad etmişlər. Həzrət Əlinin (ə) imamlığının sübutunda onun elm, cihad və təqvasından əlavə, Peyğəmbərlə (s) qohumluğu da nəzərə alınmışdır.[1]

***BİLDİRİŞLƏR***

1. Öncədən iman gətirənlər sonradan iman gətirib hicrət edənləri özləri kimi həqiqi mömin saymalıdırlar. Bəli, İslam cəmiyyətinin ağuşu hamıya açıqdır. Müsəlmanlıqda inhisarçılıq yoxdur. Əlbətə, öncədən iman gətirənin mənəvi imtiyazları ola bilər.

2. Qohum möminlərin qohumluq haqlarından savay iman, hicrət, cihad sahəsində də qarşılıqlı haqları vardır.

3. İlahi qanunlarda qohumluq dərəcələri də nəzərə alınır.

4. Hicrət həqiqi möminlərə qatılmaq şərtidir. Hicrət təmərküz və müstəqil qüvvənin təşkil açarıdır.

Əlhəmdulillahi Rəbbil-aləmin.

[1] “Təfsire-nümunə”. “Təfsire-Ətyəbul-bəyan”.

Mündəricat

ÖN SÖZ ... 4
HƏMKARLAR ... 4
İMTİYAZLAR ... 5
AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ ... 6
MÜƏLLİFDƏN ... 8
"ƏRAF" SURƏSİ ... 9
(7-Cİ SURƏ, 206 AYƏ) ... 9
SƏKKİZ, DOQQUZUNCU CÜZLƏR ... 9
"ƏRAF" SURƏSİNİN SİMASI ... 9
(AYƏ: 1) ... 10
(AYƏ: 2) ... 10
(AYƏ: 3) ... 10
(AYƏ: 4) ... 11
(AYƏ: 5) ... 11
(AYƏ: 6) ... 12
(AYƏ: 7) ... 12
(AYƏ: 8) ... 14
(AYƏ: 9) ... 15
(AYƏ: 10) ... 15
(AYƏ: 11) ... 16
(AYƏ: 12) ... 17
(AYƏ: 13) ... 18
(AYƏ: 14) ... 18
(AYƏ: 15) ... 19
(AYƏ: 16) ... 19
(AYƏ: 17) ... 19
(AYƏ: 18) ... 21
(AYƏ: 19) ... 22
(AYƏ: 20) ... 23
(AYƏ: 21) ... 24
(AYƏ: 22) ... 25
(AYƏ: 23) ... 26
(AYƏ: 24) ... 27
(AYƏ: 25) ... 27
(AYƏ: 26) ... 28
(AYƏ: 27) ... 29
(AYƏ: 28) ... 30
(AYƏ: 29) ... 31
(AYƏ: 30) ... 32
(AYƏ: 31) ... 33
(AYƏ: 32) ... 34
(AYƏ: 33) ... 36

(AYƏ: 34)......37
(AYƏ: 35)......38
(AYƏ: 36)......38
(AYƏ: 37)......39
(AYƏ: 38)......40
(AYƏ: 39)......41
(AYƏ: 40)......41
(AYƏ: 41)......42
(AYƏ: 42)......43
(AYƏ: 43)......43
(AYƏ: 44)......44
(AYƏ: 45)......45
(AYƏ: 46)......46
(AYƏ: 47)......47
(AYƏ: 48)......47
(AYƏ: 49)......48
(AYƏ: 50)......49
(AYƏ: 51)......49
(AYƏ: 52)......50
(AYƏ: 53)......51
(AYƏ: 54)......52
(AYƏ: 55)......53
(AYƏ: 56)......54
(AYƏ: 57)......55
(AYƏ: 58)......56
(AYƏ: 59)......57
(AYƏ: 60)......57
(AYƏ: 61)......58
(AYƏ: 62)......58
(AYƏ: 63)......59
(AYƏ: 64)......60
(AYƏ: 65)......60
(AYƏ: 66)......61
(AYƏ: 67)......61
(AYƏ: 68)......62
(AYƏ: 69)......62
(AYƏ: 70)......63
(AYƏ: 71)......63
(AYƏ: 72)......64
(AYƏ: 73)......65
(AYƏ: 74)......66
(AYƏ: 75)......67
(AYƏ: 76)......67
(AYƏ: 77)......68
(AYƏ: 78)......69
(AYƏ: 79)......69

(AYƏ: 81)....................................................................................70
(AYƏ: 82)....................................................................................71
(AYƏ: 83)....................................................................................72
(AYƏ: 84)....................................................................................73
(AYƏ: 85)....................................................................................73
(AYƏ: 86)....................................................................................74
(AYƏ: 87)....................................................................................75
DOQQUZUNCU CÜZ .......................................................................76
(AYƏ: 88)....................................................................................76
(AYƏ: 89)....................................................................................77
(AYƏ: 90)....................................................................................78
(AYƏ: 91)....................................................................................78
(AYƏ: 92)....................................................................................79
(AYƏ: 93)....................................................................................79
(AYƏ: 94)....................................................................................80
(AYƏ: 95)....................................................................................80
(AYƏ: 96)....................................................................................81
(AYƏ: 97)....................................................................................82
(AYƏ: 98)....................................................................................83
(AYƏ: 99)....................................................................................83
(AYƏ: 100)..................................................................................84
(AYƏ: 101)..................................................................................84
(AYƏ: 102)..................................................................................85
(AYƏ: 103)..................................................................................86
(AYƏ: 104)..................................................................................87
(AYƏ: 105)..................................................................................87
(AYƏ: 106)..................................................................................88
(AYƏ: 107)..................................................................................88
(AYƏ: 108)..................................................................................89
(AYƏ: 109)..................................................................................89
(AYƏ: 110)..................................................................................89
(AYƏ: 111)..................................................................................90
(AYƏ: 112)..................................................................................90
(AYƏ: 113)..................................................................................90
(AYƏ: 114)..................................................................................91
(AYƏ: 115)..................................................................................91
(AYƏ: 116)..................................................................................91
(AYƏ: 117)..................................................................................92
(AYƏ: 118)..................................................................................92
(AYƏ: 119)..................................................................................92
(AYƏ: 120)..................................................................................92
(AYƏ: 121-122)...........................................................................93
(AYƏ: 123)..................................................................................94
(AYƏ: 124)..................................................................................95
(AYƏ: 125)..................................................................................95
(AYƏ: 126)..................................................................................96

(AYƏ: 127)....97
(AYƏ: 128)....98
(AYƏ: 129)....98
(AYƏ: 130)....99
(AYƏ: 131)....100
(AYƏ: 132)....101
(AYƏ: 133)....101
(AYƏ: 134)....102
(AYƏ: 135)....103
(AYƏ: 136)....103
(AYƏ: 137)....104
(AYƏ: 138)....105
(AYƏ: 139)....106
(AYƏ: 140)....106
(AYƏ: 141)....107
(AYƏ: 142)....108
(AYƏ: 143)....111
(AYƏ: 144)....113
(AYƏ: 145)....114
(AYƏ: 146)....115
(AYƏ: 147)....116
(AYƏ: 148)....116
(AYƏ: 149)....118
(AYƏ: 150)....118
(AYƏ: 151)....120
(AYƏ: 152)....120
(AYƏ: 153)....121
(AYƏ: 154)....122
(AYƏ: 155)....122
(AYƏ: 156)....123
(AYƏ: 157)....125
(AYƏ: 158)....127
(AYƏ: 159)....128
(AYƏ: 160)....129
(AYƏ: 161)....131
(AYƏ: 162)....132
(AYƏ: 163)....133
(AYƏ: 164)....134
(AYƏ: 165)....136
(AYƏ: 166)....136
(AYƏ: 167)....138
(AYƏ: 168)....138
(AYƏ: 169)....139
(AYƏ: 170)....140
(AYƏ: 171)....142
(AYƏ: 172)....143

(AYƏ: 173)....................................................................................144
(AYƏ: 174)....................................................................................144
(AYƏ: 175)....................................................................................145
(AYƏ: 176)....................................................................................147
(AYƏ: 177)....................................................................................148
(AYƏ: 178)....................................................................................148
(AYƏ: 179)....................................................................................149
(AYƏ: 180)....................................................................................150
(AYƏ: 181)....................................................................................153
(AYƏ: 182)....................................................................................154
(AYƏ: 183)....................................................................................154
(AYƏ: 184)....................................................................................155
(AYƏ: 185)....................................................................................156
(AYƏ: 186)....................................................................................157
(AYƏ: 187)....................................................................................157
(AYƏ: 188)....................................................................................158
(AYƏ: 189)....................................................................................160
(AYƏ: 190)....................................................................................161
(AYƏ: 191)....................................................................................161
(AYƏ: 192)....................................................................................161
(AYƏ: 193)....................................................................................161
(AYƏ: 194)....................................................................................162
(AYƏ: 195)....................................................................................163
(AYƏ: 196)....................................................................................163
(AYƏ: 197)....................................................................................164
(AYƏ: 198)....................................................................................164
(AYƏ: 199)....................................................................................165
(AYƏ: 200)....................................................................................166
(AYƏ: 201)....................................................................................167
(AYƏ: 202)....................................................................................167
(AYƏ: 203)....................................................................................168
(AYƏ: 204)....................................................................................170
(AYƏ: 205)....................................................................................170
(AYƏ: 206)....................................................................................171
“ƏNFAL” SURƏSİ ........................................................................ 173
(8-Cİ SURƏ, 75 AYƏ) .................................................................. 173
DOQQUZ, ONUNCU CÜZLƏR................................................... 173
“ƏNFAL” SURƏSİNİN SİMASI....................................................173
(AYƏ: 1)........................................................................................174
(AYƏ: 2)........................................................................................176
(AYƏ: 3)........................................................................................176
(AYƏ: 4)........................................................................................177
(AYƏ: 5)........................................................................................178
(AYƏ: 6)........................................................................................179
(AYƏ: 7)........................................................................................180
(AYƏ: 8)........................................................................................181

(AYƏ: 9)....182
(AYƏ: 10)....183
(AYƏ: 11)....184
(AYƏ: 12)....186
(AYƏ: 13)....187
(AYƏ: 14)....187
(AYƏ: 15)....188
(AYƏ: 16)....188
(AYƏ: 17)....189
(AYƏ: 18)....191
(AYƏ: 19)....191
(AYƏ: 20)....192
(AYƏ: 21)....192
(AYƏ: 22)....193
(AYƏ: 23)....194
(AYƏ: 24)....195
(AYƏ: 25)....196
(AYƏ: 26)....198
(AYƏ: 27)....199
(AYƏ: 28)....201
(AYƏ: 29)....202
(AYƏ: 30)....203
(AYƏ: 31)....205
(AYƏ: 32)....206
(AYƏ: 33)....206
(AYƏ: 34)....208
(AYƏ: 35)....208
(AYƏ: 36)....209
(AYƏ: 37)....210
(AYƏ: 38)....211
(AYƏ: 39)....212
(AYƏ: 40)....212
ONUNCU CÜZ .... 214
(AYƏ: 41)....214
(AYƏ: 42)....216
BƏDR SAVAŞININ SİMASI ....217
(AYƏ: 43)....218
(AYƏ: 44)....220
(AYƏ: 45)....220
(AYƏ: 46)....221
(AYƏ: 48)....223
(AYƏ: 49)....225
(AYƏ: 50)....226
(AYƏ: 51)....226
(AYƏ: 52)....226
(AYƏ: 53)....227

(AYƏ: 54)........................................................................................228
(AYƏ: 55)........................................................................................229
(AYƏ: 56)........................................................................................229
(AYƏ: 57)........................................................................................230
(AYƏ: 58)........................................................................................231
(AYƏ: 59)........................................................................................231
(AYƏ: 60)........................................................................................233
(AYƏ: 61)........................................................................................235
(AYƏ: 62)........................................................................................236
(AYƏ: 63)........................................................................................237
(AYƏ: 64)........................................................................................238
(AYƏ: 65)........................................................................................238
(AYƏ: 66)........................................................................................239
(AYƏ: 67)........................................................................................241
(AYƏ: 68)........................................................................................242
(AYƏ: 69)........................................................................................242
(AYƏ: 70)........................................................................................243
(AYƏ: 71)........................................................................................244
(AYƏ: 72)........................................................................................245
(AYƏ: 73)........................................................................................247
(AYƏ: 74)........................................................................................248
(AYƏ: 75)........................................................................................249